AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NƏSİMİ adına DİLÇİLİK İNSTİTUTU

QƏZƏNFƏR KAZIMOV

# AZƏRBAYCAN DİLİNDƏ TABELİ MÜRƏKKƏB CÜMLƏNİN İNKİŞAF TARİXİ

Bakı - * - 2010

*Nəsimi adına Dilçilik İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur*

*Elmi redaktoru:*
**S.H.Mehdiyeva**
*filologiya elmləri doktoru, professor*

*Rəyçilər:*
**R.Ə.Rüstəmov**
*filologiya elmləri doktoru, professor*
**V.Z.Adilov**
*filologiya elmləri namizədi*

**Q.Ş.KAZIMOV. Azərbaycan dilində tabeli mürəkkəb cümlənin inkişaf tarixi. Bakı, «Nurlan», 2010, 176 səh.**

Kitabda mübtəda, xəbər, tamamlıq, təyin və zərflik budaq cümləli tabeli mürəkkəb cümlələrin «Kitabi-Dədə Qorqud»dan başlayaraq, XVIII əsrin sonlarına qədərki inkişaf yolu öyrənilmişdir. «Kitabi-Dədə Qorqud», «Şəhriyar» (Məhəmməd), «Dastani-Əhməd Hərami», «Yusif və Züleyxa» (Suli Fəqih), «Qisseyi-Yusif» (Qul Əli), «Mehri və Vəfa» (Ümmi İsa) kimi dastan və məsnəvilərlə yanaşı, Qazi Bürhanəddin, Nəsimi, Şah İsmayıl Xətai, Füzuli, Qurbani, Məsihi, Ruhi Bağdadi, M.P.Vaqif və b.klassik şairlərimizin əsərlərindən toplanmış zəngin material əsasında budaq cümləni baş cümləyə bağlayan vasitələr (bağlayıcılar, bağlayıcı sözlər, ədatlar, şəkilçilər), budaq cümlələrin tipləri («baş cümlə + budaq cümlə», «budaq cümlə + baş cümlə» quruluş tipləri) və onların yaranma yolları tədqiq edilmişdir.

Kitabdan dilimizin tarixi ilə maraqlananlar, müvafiq ali məktəblərin tələbə və müəllimləri istifadə edə bilərlər.

## BİR NEÇƏ SÖZ

Cümlə aid olduğu mərhələdə həm xalqın təfəkkürünü, həm də dilin inkişaf səviyyəsini əks etdirən ən mühüm vasitədir. Ümumən insan təfəkkürünün inkişaf səviyyəsini başqa vasitələrlə, məsələn, radionun, televiziyanın, kompyuterin, atom silahının kəşfi ilə də təsəvvür etmək mümkündür. Lakin cümlənin inkişaf səviyyəsi ilə bunların kəşfi arasında böyük fərq vardır: bunlar tək-tək fərdlərin, fövqəladə istedad sahibi olan insanların təfəkkür səviyyəsini göstərir, cümlə isə yazıya alındığı dövrdə bütöv bir xalqın adi və orta inkişaf səviyyəsini əks etdirir. Çünki bu və ya digər strukturda təzahür edən cümlənin aid olduğu dilin elə o dövrdə həmin cümlənin strukturundan daha zəngin potensial imkanları olur.

Dil inkişaf edir, səlisləşir, zənginləşir və nəticədə tədricən dəyişir. Lüğət tərkibində dəyişmə üzdə olanlar əsasında daha tez nəzərə çarpır. Bu cəhət daha çox dövrün ictimai-siyasi və təsərrüfat-texniki leksikasına aiddir, inkişaf lüğət tərkibinin əsas hissəsini – əsas lüğət fondunu zədələyə bilmir. Qrammatik quruluş isə minilliklər yola salır və bu müddətdə kiçik qabarmalar, çəkilmələr olur: bir sıra vasitələrin qrammatik mənası daha çox ümumiləşir, mücərrədləşir, zəruri ehtiyac olmayan bir sıra vasitələr öləziyir, kənarda qalır, xırda ağac budaqları kimi quruyur, ovulub tökülür.

Türk dillərinin inkişaf yolu aydındır. Bu dillərdə söz kökləri fonetik cəhətdən uçurulub dağıdılmır, əsasən sabit qalır və bütün qrammatik əlamətlər pillə-pillə söz kökünün üzərinə artırılır – çox ciddi qanunauyğunluqla. Bu qanun türk dillərinin ruhudur və türk dilləri başdan-binadan belə bir inkişaf yolundadır. Odur ki uzun inkişaf yolu keçməsinə baxmyaraq, çox qədim dövrlərdən Yer üzünün böyük bir ərazisinə yayılmış türk xalqlarının dilləri arasında yaxınlıq daha çox qalmaqdadır. Lakin bununla bərabər, hər bir türk dili xidmət etdiyi xalqın psixologiyasına, adət-ənənə, etnik xüsusiyyət və vərdişlərinə görə yeni keyfiyyətlər qazanmışdır və bu cür fərqli keyfiyyətlər bütün türk dillərində vardır. Bu cəhəti əsas götürdükdə ən yaxın dillər hesab olunan türk və Azərbaycan dilləri də ən fərqli dillərdir. Bu dillərin bir neçə yüz il bundan əvvəl təcrid olunduğunu güman və iddia edənlər xalqların tarixini, etnik ənənələrini, dillərin quruluşunu, lüğət tərkibini nəzərə almırlar.

Azərbaycan dili türk dilindən türk dilinin bir dil kimi doğulduğu gündən fərqlənir və türk dili doğulana qədər o dilin daşıyıcılarına da xidmət etmişdir. Çünki Azərbaycan dili kökü eradan əvvəlki minilliklərə gedən türk tayfalarının dili əsasında hələ birinci minilliyin əvvəllərində xalq dili kimi təşəkkül tapmış yerli bir dildir. Odur ki onu 11-ci yüzillikdə Orta Asiya çöllərindən gələn Səlcuq oğuzlarının dili ilə eyniləşdirmək olmaz. Azərbaycanın e.ə.III-II minilliklərdən məlum olan tayfalarının (kutilər, sular, turukkilər, kassitlər, mağlar, utilər, albanlar və s.), Aratta, Manna qurucularının türklərdən ibarət olduğu[1], «Kitabi-Dədə Qorqud»un Homerlə yaşıdlığı və Ön Asiyada yaranması[2], Orta əsr Göy türk xaqanlığını yaradan Aşina tayfasının Azərbaycandan Orta Asiyaya miqrasiyası[3], mixi yazılarda toplanmış saysız toponim, etnonim və antroponimlərin türk mənşəli açılışı, bizim birinci minillikdə Orta və Mərkəzi Asiyada müşahidə edilən türk tayfa adlarının eradan əvvəlki minilliklərdə Ön Asiya – Azərbaycan tayfa adlarında təmsil olunması[4] və s.-dən məlumdur ki, Azərbaycan çox qədimdən türk yurdudur, heç bir mənafe meyillərinə uymadan, dilin və xalqın tarixini faktlardan aldıqları təəssürat əsasında izah edən dilçi və tarixçilərimizin qeyd etdiyi kimi, Azərbaycan xalqı və ümumxalq Azərbaycan dili hələ V-VI yüzilliklərdə tam təşəkkül tapmışdı. Ə.Dəmirçizadə yerli və gəlmə türk tayfalarının konsolidasiyasını nəzərə alaraq yazırdı: «…Qafqaza və İrana oğuz, qıpçaq tayfalarının kütləvi surətdə gəlmələri və bu ərazidə əsrlər boyu yaşayan türk dilli tayfalarla qaynayıb-qarışmaları türk dillərinə mənsub vahid ümumxalq dili halında Azərbaycan dilinin hələ V-VI əsrlərdən formalaşması prosesini, demək olar ki, daha da sürətləndirdi və tamamlamış oldu»[5]. Y.Yusifov da təşəkkül tarixini bir qədər uzun müddətə görsə də, əslində, xalqın və dilin təşəkkülünü həmin dövrlə əlaqəli

---

[1] *Бах:* Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, I cild, 1994, c.61-82; 114-119; 145-150 və s.
[2] *Бах:* Q.Kazımov. Seçilmiş əsərləri, I, Bakı, «Nurlan», 2008, s.321-362.
[3] Yenə orada, c.295-312.
[4] *Бах:* Г.А.Гейбуллаев. К этногенезу азербайджанцев, т.I, Баку, Элм, 1991; *yenə onun*:Azərbaycan türklərinin təşəkkülü tarixindən, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994; *yenə onun*: Azərbaycanın etnik tarixinə dair, Bakı, Elm, 1994 və s.
[5] Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dili tarixi. Birinci hissə, Bakı, «Maarif» nəşriyyatı, 1979, s.49-50.

izah etmişdir: «Azərbaycan dilinin və xalqının təşəkkülü III-VII əsrlərdə baş vermişdir»[1]. «Kitabi-Dədə Qorqud» VI-VIII əsrlər şifahi ədəbi dilimizin nümunəsi, həm də çox kamil ədəbi dil nümunəsidir. «Dədə Qorqud» boyları quruluş etibarilə çox zəngin və mürəkkəb bir dil mühafizə edib saxlamışdır. Təkcə bunu qeyd etmək kifayətdir ki, bugünkü tabeli mürəkkəb cümlə strukturu tam və bütöv şəkildə «Dədə Qorqud» sintaksisində mövcuddur və bir fakt kimi günümüzə qədər saxlanmışdır[2].

Bizim hələlik əlimizdə olan ən qədim ədəbi materiallar XIII yüzilliyə aiddir: Həsənoğlunun qəzəlləri də, «Dastani-Əhməd Hərami», Suli Fəqihin «Yusif və Züleyxa», Əlinin «Qisseyi-Yusif» məsnəviləri də. Bu əsərlər o qədər yüksək sənət və dil nümunələridir ki, bunların heç birini yazılı ədəbi dilin ilk nümunəsi hesab etmək olmaz. Bunların hər biri uzun inkişaf yolunda olan bir poeziya dilinin, bir ədəbi dilin müəyyən bir yüksəliş dövrünün nümunəsidir. «Kitabi-Dədə Qorqud»un ilk dəfə VII əsrdə yazıya alındığı, hələ VI yüzillikdə İran şahı Ənuşirəvanın saray kitabxanasında Təpəgöz boyunun fars dilinə tərcüməsi olduğu[3] məlumdur. «Dədə Qorqud»un XVI əsr əlyazmasının XI əsr əlyazmasından köçürüldüyü də məlumdur. M.Kaşğari «Divan»ının, «Qutadğu bilig»in və başqa XI əsr abidələrinin bizə gəlib çatması göstərir ki, bu cür kamil əsərlərin hələlik bizə çatmayan kamil sələfləri də olmuşdur. «Dədə Qorqud»dan sonrakı dövrü mərhələlərə ayırsaq, IX-XI əsrləri yazılı ədəbi dilin təşəkkülü dövrü saya bilərik. Lakin bu cür bölgü iki istiqamətdə mübahisə doğura bilər: əlimizdə konkret material olmadığı üçün bu dövr bir mərhələ kimi qəbul olunmaya bilər. Cəmiyyətin inkişafını, ictimai-siyasi hadisələri, M.Kaşğari «Divan»ı, Balasağunlu Yusifin «Qutadğu bilig» əsərləri kimi böyük abidələri, hələ V əsrdə təkmilləşdirilən Alban yazısını nəzərə aldıqda yazılı ədəbi dilin daha əvvəlki dövrlərə aid olduğuna şübhə etməmək olar. Lənətə gəlsin ərəb-islam işğalçılarını və xain qon-

---

[1] Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, I cild, 1994, c.235.

[2] Г.Казымов. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər), Bakı, «Təhsil» nəşriyyatı, 2003, s.460-540.

[3] Ə.C.Şükürlü. «Dədə Qorqud» dastanlarının meydana çıxma tarixi və itmiş boyları haqqında mülahizələrim. «Kitabi-Dədə Qorqud» - 1300, Elmi-praktik konfransın materialları, «Ünsiyyət», 2000, s.56.

şuları. Eyni dərəcədə indi də yaşamaqda olan xain daxili yaramazları. Heç indi də bu dilin tarixinə can yanğısı ilə fikir verən yoxdur.

Qəribə burasıdır ki, zəngin ədəbi nümunələri olan XIII-XIV əsrlərin, hətta bir qədər sonrakı – Füzuli, Xətai, Qurbani kimi nəhənglər yetirmiş XV-XVI əsrlərin Azərbaycan dilinin də milli orijinallığını yuxu sayıqlamaları şəklində şübhə altına almağa çalışanlar var.

Mövcud olan faktlar istər-istəməz daha əvvəllərə çəkir. Lakin daxilimizdəki şübhələr, «filankəslər nə deyər» qorxusu irəli getməyə imkan vermir. Suli Fəqihin «Yusif və Züleyxa» məsnəvisini diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, şairin Anadolu türkcəsi ilə heç bir əlaqəsi olmayıb. Onun bədii dili təmiz və xalis Azərbaycan dilidir və sanki türk (Osmanlı) tələffüzünün əksinə olaraq, bu əsərin dilində «ə» səsi bir qədər də artıq işlədilmişdir. Əsərin sonundakı maddeyi-tarixə əsasən poemanın 1218-ci ildə yazıldığı müəyyən edilmişdir. Bununla yanaşı, transliterasiyanın, ön sözün, lüğətin tərtibçiləri – Sənan və Səbuhi İbrahimovlar, bir sıra qüsurlarına baxmayaraq, bu əsərin çapı ilə çox faydalı bir iş görərək yazmışlar: «…faktlar göstərir ki, Suli Fəqih XIII əsrdə yox, çox əvvəllər, hələ dilimizə ərəb-fars sözlərinin az nüfuz etdiyi bir vaxtda, təqribən XI-XII əsrlərdə yaşamışdır»[1]. Bu güman doğrudur, çünki 1218-ci ildə yazılıb bitirildiyi doğrudursa, bu əsərin müəllifi həm də XII əsrin adamıdır, Nizaminin müasiridir və deməli, XI-XII əsrlərin dil qanunları üzərində köklənib. Bir neçə əsrlik inkişaf yolunda ümumxalq dilində ciddi dəyişikliklər az ola bilir. Zaman XVIII əsrin şairi M.P.Vaqifdən bizi artıq 4-cü yüzilliklə ayırmağa başlamışdır. Amma Vaqifin bir sıra qoşmaları sanki bu günün məhsuludur:

Ey Vidadi, sənin bu puç dünyada,
Nə dərdin var ki, zar-zar ağlarsan?
Ağlamalı günün axirətdədir,
Hələ indi səndə nə var, ağlarsan?

Nə dəyişib? Xalq dilində yazan belə yazar. Biz bu şəkildə Ümmi İsanın sonralar XIV əsrə aid olduğu dəqiqləşdirilən «Mehri

---

[1] Suli Fəqih. Yusif və Züleyxa (Transliterasiya, ön söz və lüğətin müəllifləri Sənan İbrahimov, Səbuhi İbrahimov), Bakı, «MBM» nəşriyyatı, 2008, s.3.

və Vəfa» məsnəvisinin dilini «Dastani-Əhməd Hərami»nin dili ilə müqayisə edərək XI əsrə aid olduğunu söyləmişdik və əslində, bu əsərlər daha əvvəlki əsrlərin dil xüsusiyyətlərini daşıyır.

Adlarını qeyd etdiyimiz müəlliflərin «Yusif və Züleyxa»nın dili haqqında fikirləri doğrudur, lakin onların fikirlərində daha qədim dövrlərə getmək qorxusu ilə bağlı tərəddüdlər də var: «…qədim və orta əsrlər abidələrini milli sirmələrə bölmək düzgün deyil. Onların hamısı hər hansı bir türkdilli xalq tərəfindən yaransa da, eyni zamanda vahid türk ədəbi nümunəsidir»[1]. Doğru deyil. Bu cür fikirlər keçmiş tarixi tədqiqat ənənəsinin nəticəsidir. Həmin dövrdə də hər bir əsər həmin əsəri yaradan xalqın öz dilindədir. Bu əsəri o dövrdə də çuvaşlar və ya başqırdlar və yaxud da qazaxlar eyni dərəcədə mənimsəyə bilməzdilər. O dövr üçün vahid türk dilindən danışmaq özü zərərli tendensiyanın davamıdır. Yuxarıda dediyimiz kimi, ümumxalq Azərbaycan dili artıq V-VI əsrlərdən mövcud idi və bu dildə yazılmış hər bir əsər bu dilin öz məhsuludur və onu başqa dillərdən fərqləndirmişdir. Alimlərimiz imkan daxilində, tarixi tədqiqat prosesində bu fərqləri araşdırmalıdır. Bu cəhətdən, məsələn, Əlinin «Qisseyi-Yusif» əsərində, az da olsa, qeyri-azəri elementləri müşahidə edilir:

Ol quyunun qırağında bir taş vardı,
Cəbrail ol ***taşnı*** ora tez apardı.
Suvun üzrə həm ol ***taşnı*** möhkəm tardı,
Yusif gəlib ol taş üzrə olur imdi[2]–

bəndində ***taşnı s***özündəki təsilik hal şəkilçisi ***–nı*** lap qədim dövrlərdən Azərbaycan dili üçün səciyyəvi olmayıb. Nəsimi və Füzuli kimi sənətkarların dilində müşahidə edilməyən bu element, təbii ki, başqa türk dillərinin poeziya dilinə təsiri ilə izah olunur[3]. Bu xüsusiyyətə Xətainin və Kişvərinin dilində də rast gəlmək olur.

---

[1] Suli Fəqih. Yusif və Züleyxa,s.5.
[2] Qul Əli. Qisseyi-Yusif (Çapa hazırlayanlar, lüğət və şərhlərin müəllifləri Elməddin Əlibəyzadə, Əbülfəz Hüseyni), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1995, s.29
[3] *Бax:* H.Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası, Azərbaycan Universiteti Nəşriyyatı, Bakı,1990, s.45.

Lakin bunun dilin sintaktik quruluşuna təsiri yoxdur, çünki adların idarə edilməsində heç bir fərq törədə bilmir.

Prototürk (ən qədim dövrlərdən e.ə.V əsrədək) və protoazərbaycan dili (e.ə.V əsr – eramızın V əsri) dövrlərindən fərqli olaraq, ümumxalq dili əsasında ədəbi dilin təşəkkül və inkişafı dövrünün (V-XV əsrlər) və dilimizin milli dil şəklində yenidən qurulması və inkişafı dövrünün (XVI–XXI əsrlər) zəngin və özünəməxsus orijinal mənbələri vardır. Bu mənbələr içərisində «Kitabi-Dədə Qorqud» kimi nəhəng abidə var, Qazi Bürhanəddin, Nəsimi, Füzuli divanları, Xətai, Məsihi, Vaqif var. Bu monoqrafiya şərti mərhələlər üzrə qruplaşdırılmış həmin mənbələr əsasında yazılmışdır. Etiraf edirik ki, tabeli mürəkkəb cümlənin inkişaf tarixinə həsr olunmuş ilk monoqrafiya kimi, bu əsər zəngin dil faktlarını tam təfərrüatı ilə əhatə edə bilməmişdir. Daha çox müşahidə olunan, aparıcı xət kimi nəzərə çarpan əlamətlər tədqiqata cəlb edilmişdir. Lakin «Azərbaycan dilinin tarixi» kitabımızın «Dədə Qorqud»un sintaksisinə həsr olunmuş bölməsi ilə (s.439-540), XIX əsr ədəbi dilinin sintaksisinə aid yazımızla və «Müasir Azərbaycan dili. Sintaksis» dərsliyi[1] ilə tabeli mürəkkəb cümlənin inkişaf yolu və müasir vəziyyəti barədə kifayət qədər təəssürat qazanmaq mümkündür. Bu dil «Kitabi-Dədə Qorqud»un poetik dili ilə başlanğıcdan poeziya dili kimi fəaliyyətə başlamış, xalq dilindən uzaq bir sıra nəsr nümunələrini nəzərə almasaq, XVIII əsrə qədə daha çox poeziya dili kimi inkişaf etmişdir. XVI əsrdə Füzulinin qələmi ilə nəsr sahəsində də yeniliklər yaranmışdır: «Füzuli divan və poemalarına yazdığı dibaçələrdə, məktublarında, «Şikayətnamə», «Rind və Zahid», «Hədiqətüs-süəda» əsərlərində bir nasir kimi öz parlaq istedadını üzə çıxarmışdır. Ədəbiyyat tariximizdə Füzuli nəsri yeni bir mərhələdir»[2]. Lakin bu nəsr də öz leksik tərkibi və söz birləşməsi modelləri ilə dilin quruluşunun tarixi aspektdə tədqiqi üçün Füzulinin poeziya dilindən fərqli olaraq, çox az material verir. XVII-XVIII əsrlərdə nəsr əsərləri yeni bir mərhələyə qədəm qoyur, nəsr qafiyəlilikdən xilas olur və təbii axara düşür, bir sıra şifahi xalq ədə-

---

[1] *Бах:* Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis, 2000, 2004, 2007, 2008-ci il nəşrləri və «Seçilmiş əsərləri», V cild, Bakı, 2008.

[2] Məhəmməd. Şəhriyar (Tərtib, ön söz və lüğət Əlyar Səfərlinindir), Bakı, «Yazıçı», 1987 - kitabına Ə.Səfərlinin ön sözü, s.3-4. .

biyyatı nümunələri yazıya alınır. Bu dövrün qiymətli nəsr əsərlərindən «Şəhriyar» dastanı daha çox diqqəti cəlb edir. «Klassik səcili nəsr ilə yeni nəsr arasında bir körpü olan «Şəhriyar» əsəri ideyasına, poetik gözəlliklərinə görə seçilir və yeni təsir bağışlayır. Burada əski dastan-epos ənənələri ilə müasir nəsr ənənələri birləşir»[1]

Poeziya dili aparıcı olmuş və dilimizin sintaktik quruluşunu lazımi şəkildə ehtiva edə bilmişdir. Şeir dili sintaktik quruluşuna görə yalnız cümlə üzvlərinin və mürəkkəb cümlə komponentlərinin inversiyası baxımından bədii nəsr dilindən fərqlənə bilir ki, bu da fikrin aktuallaşdırılması ilə bağlı olduqda daha təbii təsir bağışlayır və sintaktik modellərin ifadəsi baxımından heç bir struktur pozğunluğa səbəb olmur.

Elmi ədəbiyyatda bağlayıcılarla bağlayıcı sözlər qarışdırılır[2]. Biz tədqiqat prosesində bunları nizama salmağa çalışdıq. Bir sıra bağlayıcı sözlər (məsələn, ***çün, çü, gər, əgər*** və s.) müxtəlif budaq cümlələrə xidmət edir. Onların işləndiyi cümlənin mənası budaq cümlənin növünü müəyyənləşdirməyə daha çox kömək edir. Odur ki əsərdə oxucu üçün mübahisəli görünən nümunələrin olması da mümkündür.

---

[1] Məhəmməd. Şəhriyar,s.3-4.

[2] H.Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası, Azərbaycan Universiteti Nəşriyyatı, Bakı,1990,s.360-361; Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, «Maarif», 1974, s. 255 və s.

# MƏRHƏLƏLƏR VƏ ŞƏRTİ İXTİSARLAR

Tabeli mürəkkəb cümlənin inkişafı aşağıdakı mərhələlər və mənbələr üzrə öyrənilmişdir:

## 1.V -XI əsrlər:

***DQ*** – «Kitabi-Dədə Qorqud» (Tərtib və ön sözün müəllifləri F.Zeynalov, S.Əlizadə). Bakı, «Yazıçı»,1988.

***Oğuz. – «***Oğuznamə» (Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi S.Əlizadə). Bakı, «Yazıçı», 1987.

## 2.XII -XIV əsrlər:

***DƏH*** - «Dastani-Əhməd Hərami» (Tərtib edəni və ön sözün müəllifi: Əlyar Səfərli), Bakı, Gənclik, 1978.

***Həs.*** – İzzəddin Həsənoğlü. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.24-25.

***QB*** - Qazi Bürhanəddin. «Divan» (Ön söz, tərtib və lüğətin müəllifi professor Əlyar Səfərli), Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1988.

***QY*** – Qul Əli. «Qisseyi-Yusif» (Tərtib, ön söz, şərhlər E.Əlibəyzadənindir). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1995.

***Nəs.*** - İmadəddin Nəsimi. «Seçilmiş əsərləri», Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1973.

***MV*** - «Mehri və Vəfa» (Tərtib edəni və ön sözün müəllifi Aysel Şərifova), Bakı, «Nurlan», 2005.

***Suli*** – Suli Fəqih. «Yusif və Züleyxa» (Transliterasiya, ön söz və lüğətin müəllifi Sənan İbrahimov və Səbuhi İbrahimovdur). Bakı Universiteti, 2008.

***YM*** – Yusif Məddah. «Vərqa və Gülşah», Azərbaycan klasssik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.148-207.

## 3.XV- XVI əsrlər:

***Bəs.***– Bəsiri. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.353-355.

***C.şah*** – Mirzə Cahanşah Həqiqi, Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s..243-259.

***Fəz.*** – Fəzli. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.511-514.

***Füz.*** - Füzuli, «Əsərləri», 2-ci cild, Bakı, Azərbaycan SSR EA-nın Nəşriyyatı, 1958.

***Ham.*** – Hamidi. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.262-265.

***Həb.*** – Həbibi. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.356-377.

***Həq***. – Həqiri. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.495-510.

***Hid.*** – Əfsəhəddin Hidayət. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.266- 286.

***Xəl.*** – Xəlili. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.260-261.

***Xət.*** - Şah İsmayıl Xətai. «Əsərləri», 2-ci cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1976.

***Kiş.*** – Nemətulla Kişvəri. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.301-352.

***Qurbani -*** Qurbani (Toplayanı,tərtib edəni, ön söz, qeydlər və izahların müəllifi prof.Q.Ş.Kazımov). Bakı Universiteti Nəşriyyatı, 1990.

***Rəh.*** – Rəhməti. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.515-524.

***Ruhi*** – Azadə Musəvi. «Ruhi Bağdadi». Mühiti, həyatı, poetikası və divanı, Bakı, «Elm», 2005.

***Sür.*** – Süruri. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.490-492.

## 4.XVII -XVIII əsrlər:

***Əmani*** – Məhəmməd Əmani. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı, altıncı cild, Bakı, 1988, s.20-52.

***Qövsi*** – Qövsi Təbrizi. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı, altıncı cild, Bakı, 1988, s.216-267.

***Məs.*** - Məsihi. «Vərqa və Gülşa» (Tərtib, ön söz və şərhlər Əlyar Səfərlinindir). Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1977.

***Nişat*** – Nişat Şirvani. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı, altıncı cild, Bakı, 1988, s.268-280.

***Saib*** – Saib Təbrizi. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı, altıncı cild, Bakı, 1988, s.119-215.

***Vaqif*** - Molla Pənah Vaqif. «Əsərləri», Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1960.

***Vid.*** – Mola Vəli Vidadi. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı, altıncı cild, Bakı, 1988, s.367-399.

***«Şəhriyar»*** - Məhəmməd. «Şəhriyar» (Tərtib, ön söz və lüğət Əlyar Səfərlinindir). Bakı, «Yazıçı», 1987.

## BUDAQ CÜMLƏNİ BAŞ CÜMLƏYƏ BAĞLAYAN VASİTƏLƏR VƏ TİPLƏRİN MƏNŞƏYİ

Dildə mürəkkəb cümlənin struktur modelləri onun inkişaf səviyyəsini göstərən ən mühüm amillərdəndir. Mürəkkəb cümlə nitq mədəniyyətinin yüksək inkişaf dövrünün məhsulu sayılar. Azərbaycan dili mürəkkəb cümlə strukturunun təşəkkül tarixi çox qədimdir. Azərbaycan şifahi ədəbi dilinin böyük abidəsi olan «Kitabi-Dədə Qorqud» sintaksisinin müasir ədəbi dilimizin sintaktik quruluşu ilə müqayisəsi göstərir ki, bugünkü ədəbi dilimizin tabeli mürəkkəb cümlə modellərinin, demək olar ki, hamısı «Dədə Qorqud»un dilində vardır. Keçən 500 ilin müddətində mürəkkəb cümlə modelləri səlisləşmə və zənginləşmə istiqamətində böyük inkişaf yolu keçmişdir. Bu inkişaf prosesinin nəticələri «Dastani-Əhməd Hərami», «Mehri və Vəfa» məsnəvilərinin, Həsənoğlunun, Qazi Bürhanəddinin, Yusif Məddahın, Nəsiminin, Hamidinin, Hidayətin, Kişvərinin, Həbibinin, Füzulinin, Şah İsmayıl Xətainin, Qurbaninin, Sahib və Qövsi Təbrizilərin, Məsihinin, M.P.Vaqifin və b.-nın əsərlərində əks olunmuş, «Şühədanamə» kimi tərcümə əsərlərinin, «Şəhriyar» dastanı kim dastanların dilində öz təcəssümünü tapmışdır.

Budaq cümlələri və onları baş cümləyə bağlayan vasitələri ətraflı nəzərdən keçirməklə biz dilimizin sintaktik quruluşunun “Dədə Qorqud”un yarandığı dövr mənzərəsi barədə daha aydın təsəvvür qazana bilirik. Bu cəhətdən “Dədə Qorqud” bütün qədim dövrün yekunu, hazırkı ədəbi dilimizin başlanğıcıdır. Dastanların dil materialı sübut edir ki, bu dil qədim olmaqla yanaşı, sonrakı dövrlərdə özünü göstərən bütün sintaktik normaların ilkin qəlibinə malik olmuşdur. Bunu ayrı-ayrı budaq cümlələri nəzərdən keçirməklə də görmək olar.

Təbii ki, yazılı ədəbi dilin təşəkkülünə qədər tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirmək üçün intonasiya, az bir qrup bağlayıcı söz və *–sa.-sə* şəkilçisi daha fəal olmuş, sonrakı dövrlərdə bağlayıcı sözlər və bir sıra milli və alınma bağlayıcılar fəaliyyətini genişləndirmişdir. Odur ki bağlayıcı vasitələri budaq cümlələrlə birlikdə öyrənmək lazım gəlir.

H.Mirzəzadə tabeli mürəkkəb cümlənin inkişaf yolunu nəzərdən keçirərək bu qənaətə gəlmişdir ki, tarixən budaq cümlələr

üç münasibətlə baş cümləyə bağlanmışdır. O bunları aşağıdakı kimi qruplaşdırmışdır:

1.Bir qrup budaq cümlə baş cümlədə iştirak etməyən hər hansı bir cümlə üzvünün yerində işlənərək, onu əvəz edir. Müəllif bu qrupa: *Xoşdur ki, bulam vüsalə fürsət* (Füz.) tipli misallar vermişdir. Baş cümlədə mübtəda yoxdur, budaq cümlə onun əvəzində işlənmişdir;

2.Baş cümlənin tərkibində budaq cümlənin əvəzedicisi – işarə əvəzliyi iştirak edir, cümlə formal cəhətdən bitmiş kimi görünsə də, fikir qapalı qalır və ona görə də budaq cümlə gəlməli olur: *Biz ol quşuz ki, dam danəmizdir.* (Xət.) Baş cümlədə təyin vəzifəsində ***ol*** sözü işlənmiş, lakin konkret məna ifadə etmədiyindən budaq cümlə gəlməli olmuşdur.

3.Baş və budaq cümlə yanaşma əsasında əlaqəyə girir. Baş cümlədə buraxılmış və ya əvəzliklərlə ifadə olunmuş üzv olmur. Şərt, nəticə, güzəşt, müqayisə kimi cümlələr bura daxil edilir. Sintaktik əlaqə bağlayıcı və bağlayıcı sözlərlə yaranır.[1]

Beləliklə, müəllif cümlə üzvləri arasında olan yanaşma əlaqəsini tabeli mürəkkəb cümlənin tərkib hissələrinə də aid etmiş, həm də bunun üçüncü qrup cümlələrdə (şərt, nəticə, güzəşt, müqayisə budaq cümlələrində) olduğunu qeyd etmişdir. Göstərdiyi budaq cümlələr fərqli səciyyəyə malik cümlələrdir. Nəticə, müqayisə budaq cümləli tabeli mürəkkəb cümlələrdə baş cümlə əvvəl, budaq cümlə sonra işlənir. Baş cümlənin budaq cümləyə yanaşmasından danışmaq olmaz. Şərt və güzəşt (qarşılaşdırma) budaq cümlələri baş cümlədən əvvəl işlənsə də, baş cümləyə bağlayıcı sözlər, ədatlar və şəkilçilərlə bağlanır. Burada da budaq cümlənin baş cümləyə yanaşmasından (bilavasitə yanaşma əlaqəsi ilə bağlanmasından) danışmaq olmaz.

Ümumən tabeli mürəkkəb cümləni bu cür üç qrupa ayırmaq özünü doğrultmur. Birinci və ikinci qruplar, demək olar ki, eyni quruluş tipindən ibarətdir. Fərq budur ki, birində qəlib söz işlənir, o birində işlənmir. Lakin işlənmədikdə də onu asanlıqla təsəvvür və bərpa etmək olur. Tabeli mürəkkəb cümləni tərkib hissələrin yerinə və bağlayıcı vasitələrə görə qruplaşdırmaq onların müasir vəziyyətini və inkişaf yolunu öyrənmək üçün daha faydalıdır.

---

[1] H.Mirzəzadə.Azərbaycan dilinin tarixi qrammatikası,Azərbaycan Universiteti Nəşriyyatı, Bakı, 1990, s.352-353.

Bu cəhətdən Azərbaycan dilində işlənən tabeli mürəkkəb cümlələri baş və budaq cümlələrin yerinə və tərkib hissələri əlaqələndirən bağlayıcı vasitələrə görə iki tipə ayırmaq olar.

1.Budaq cümlə əvvəl, baş cümlə sonra işlənir. Budaq cümlə baş cümləyə bağlayıcı söz, ***da, də, belə***, ***kim*** və ***ki*** ədatları, ***-sa,-sə*** şəkilçisi, ***isə*** şərt ədatı və onun ixtisar şəkli ***(-sa,-sə)*** ilə bağlanır. Bağlayıcı söz əksərən sabit qalmaqla, digər vasitələr (ədatlar, şəkilçilər) müxtəlif şəkildə növbələşir. Baş cümlədə qarşılıq bildirən söz ola da bilir, olmaya da bilir (bir qisminin – şərt və qarşılaşdırma budaq cümlələrinin baş cümləsində ümumən olmur). Məsələn:

***Kim*** *munu oxur, yazarü dinlər,*
Həq lütfilə yarlığasun ***ani***! (Xətai)

Bu misalda birinci tərkib hissə ***kim*** bağlayıcı sözü ilə baş cümləyə bağlanmışdır. ***Kim*** sözündən sonra ***ki*** ədatını və ya budaq cümlənin xəbərində ***–sa, -sə*** şəkilçisini və ya ***isə*** şərğ ədatını işlətmək olar. Baş cümlədə qarşılıq bildirən ***ani*** sözü var, işlənməyə də bilərdi. Bu cür cümlələrdə normal sıra «budaq cümlə+baş cümlə» şəklindədir, lakin bədii əsərlərdə və canlı danışıq dilində aktuallaşdırma prosesi və ya poeziya tələbləri ilə əlaqədar tərəflərin yeri asanlıqla dəyişə bilir.

Belə cümlələrin «sonrakı dövrlərdə, xüsusən yeni dövrün ədəbi dilində normalaşması» barədə fikir doğru deyildir[1]. Bu tip cümlələr çox qədimdir. Hətta Şumer mixi yazılarında bu cür cümlələrin ilkin variantına rast gəlmək olur[2].

2.Budaq cümlə baş cümlədən sonra işlənir və baş cümləyə bağlayıcı (*ki, kim, çünki, ona görə də, ona görə ki, odur ki* və s.) ilə bağlanır. Baş cümlədə budaq cümlənin qəlibi ola da bilir, olmaya da. Məs.: *Billah,* ***bu*** *yamanmıdır* ***ki,*** *hala Əmvatə söz ilə verdim əhya?* (Füz.) Qeyd etdiyimiz bu tabeli mürəkkəb cümlənin baş cümləsində qəlib söz (*bu*) işlənmişdir. Qəlib söz işlənməyə də bilərdi

---

[1] H.Mirzəzadə.Azərbaycan dilinin tarixi qrammatikası,Azərbaycan Universiteti nəşriyyatı, Bakı, 1990, s.355.

[2] *Bax:* Q.Kazımov. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər), Bakı, «Təhsil» nəşriyyatı, 2003, s.130-131.

(bir qismində ümumən işlənmir). Budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır.

Bu tip tabeli mürəkkəb cümlələrdə budaq cümlə baş cümləyə yalnız intonasiya ilə də bağlana bilir: Aşiq ***oldur,*** canını qıldı fəda dildarına. (Nəs.)

İntonasiya ilə qurulan bu cür cümlələr qədim və ilkin tabeli mürəkkəb cümlə tiplərindəndir. Belə cümlələr müasir ədəbi dilimizdə də işlənməkdədir; məs.: *Necə getdilər,* ***bilmirəm****. İndi niyə belə eləyir****, başa düşmürəm****.* Qədim abidələrin dilində belə cümlələr daha çoxdur.

İntonasiya ilə qurulduğu, hələ bütün hallarda bağlayıcı özünə möhkəm yer edə bilmədiyi üçün bu cür cümlələrdə budaq cümlənin baş cümlədən asılılığı zəifdir, ona görə də aktuallaşdırma, "yeni"ni daha aydın nəzərə çarpdırma prosesində analitik tipdə baş cümlə kimi təşəkkül tapan hissə «Kitabi-Dədə Qorqud»un dilində bəzən budaq cümlədən sonra işlənmişdir*: (Ala gözlü oğlun qardaşını andı, gedər). Ağca yüzlü gəlinün döndərəməz,* ***Sizə məlum olsun!*** (112) Bu cür sərbəstlik intonasiya ilə qurulan cümlələrdə hətta budaq cümlənin baş cümlə arasında işlənməsinə də yol açmışdır: ***Səndənmidir, bəndənmidir****, tənri-təala bizə bir yetman oğıl verməz,* ***nədəndir?*** (35) Burada '*Səndənmidir, bəndənmidir, nədəndir*' hissəsi zəif təşəkkül tapmış baş cümlədir.

*Kim* və *ki* bağlayıcıları baş və budaq cümlə arasında möhkəmlənmədiyi və komponentlərin yeri sabitləşmədiyi üçün tərəflərin yeri sərbəstdir, aktuallaşdırma əsasında eyni tipli baş cümlə əvvəl də işlənə bilmiş, sonra da işlənmişdir. Məsələn: *Qandadur könülümü* ***bən bilürəm,*** *İlla* ***bilməzəm ki****, könül qandadur* (QB) – beytinin ikinci misrasında baş və budaq cümlə müasir dil baxımından düz sıralanmış, birinci misrada tərəflərin yeri sanki dəyişmişdir. Birinci misra: *Bən bilürəm, qandadır könlümü* – şəklində düşünülür. Əslində isə, diqqət yetirilsə, həmin misrada tərəflər həm də düz sıralanmışdır, cümləni: *Qandadur könülümü,* ***ani bən bilürəm*** – şəklində də düşünmək olar.

Tərkib hissələri intonasiya ilə əlaqələnən belə cümlələrdə tərəflərin inversiyası həm dilin daxili imkanlarından, həm də aktuallaşdırma və poetik nitqin tələblərindən irəli gəlmişdir. Bağlayıcısızlıq baş cümlənin budaq cümlədən əvvəl və ya sonra işlənməsinə imkan yaratmışdır. Bu cəhəti Suli Fəqihin, Qazi Bürhanəd-

dinin, Nəsiminin dilində də görürük, sonrakı dövrlərin ədəbiyyatında da. Lakin əvvəlki mərhələdə daha çox müşahidə olunur.

Aşağıdakı cümlələrdə baş cümlə kursivlə fərqləndirilmişdir:

Eşq *nədür*, aşiq *nədür*, ***bilmədünüz.*** (Suli) Sən anadan *neylə* toğdun, ***bir ayt.*** (Suli) *Nə* suç qıldı, *nəşə* qaçdı, ***anı söylən!*** (Suli) Məqsudunuz *nədurur*, ***bir aydunuz***. (Suli) *Qəndə* ögrəndin bu dili, ***ayt bənə.*** (Suli) *Neçə* dürli eybi vardur, ***qılın bəyan!*** (QY) *Necə* haldır, *nə* başlardır, ***görəlim.***(DƏH) Padşah *qanqınız* olur ***biləlüm.*** (MV) *Necə* oldu, ***biliniz*** *əhvalını*. (MV) Bunda dəxi töhfə *nə* var, ***biləyim.***(MV) Könlək iyəsi *kimdür*, ***biz biləvüz,*** *Qanda* isə, ***istəyəvüz, bulavuz***.(MV)

Bu cümlələrin budaq cümləsində ***neylə, nə, nəşə, nədurur, qəndə/qanda, neçə, necə, qanqınız, kimdür*** nisbi əvəzlikləri işlənmişdir. Bu cür cümlələr iki istiqamətdə inkişaf etmişdir.

1.Sual əvəzlikləri olan belə cümlələr prepozitiv, bağlayıcı sözlü cümlələrin inkişafına səbəb olmuşdur. Bu cümlələrin hamısının baş cümləsinə qarşılıq bildirən ***anı*** sözünü artırmaq olar (üçüncü misalda var): Eşq ***nədür***, aşiq ***nədür***, (***anı) bilmədünüz.*** Sən anadan ***neylə*** toğdun, ***(anı) bir ayt.*** və s. Sual əvəzliyi olan tərkib hissələrin xəbərinə şərt şəkilçisini və ya ***isə*** şərt ədatını artırmaq olar: Eşq ***nədürsə***, aşiq ***nədürsə***, (***anı) bilmədünüz.*** Sən anadan ***neylə toğdunsa***, ***(anı) bir ayt..*** Sual əvəzliyinə mümkün halda ***ki, kim*** ədatlarını artırmaq olar: Sən anadan ***neylə kim*** toğdun, ***(anı) bir ayt. Qanqınız ki*** padşah olur***, (anı) biləlüm.*** Güləndamı ***nə*** yerdədir, biləydi. (DƏH) Bunlar «budaq cümlə + baş cümlə» quruluş tipinin əsas əlamətləridir.

2.Bu cür cümlələr bağlayıcılı (postpozitiv) budaq cümlələrin inkişafına da səbəb olmuşdur. İfadə etdiyi fikrin aktuallaşdırılması ilə əlaqədar budaq cümlə postpozitiv mövqedə işlənərək baş cümləyə bağlayıcı ilə bağlanmışdır:

***Bilmədünüz ki,*** eşq nədür, aşiq nədür. ***Bir ayt kim,*** sən anadan neylə toğdun. Və yaxud: 1.Rəncü nədürür Züleyxanın, ***biləmiyədi.*** (Suli) - Rəncü ***nədürürsə*** Züleyxanın, ***anı biləmiyədi.*** (Suli) – ***Züleyxanın rəncinin nə olduğunu*** biləmiyədi. 2.Rəncü nədürür Züleyxanın, ***biləmiyədi – Biləmiyədi,*** rəncü nədürür Züleyxanın – ***Biləmiyədi ki***, rəncü nədürür Züleyxanın.

Klassik ədəbiyyatın dilində intonasiya ilə qurulan, lakin budaq cümləsində sual əvəzliyi (nisbi əvəzlik) olmayan cümlələr də

çox işlənmişdir. Belə cümlələrdə baş cümlənin xəbəri əksərən nitq, görmə, eşitmə və təfəkkür felləri ilə ifadə olunmuşdur:

***Zəmanlardur*** geçər eşqüm sənün hüsnünlə sərtayı… (QB) ***Bəllüdür,*** nolısaruz bu qamu aşub ilə biz.(QB) Dərviş olub şalvar geyəyim ***dersən.***(Xət.) Hər qula yeysən, ***dedilər***.(Xət.) Heç kimə könül verim ***deməzdim***.(Xət.) Həddin tanıgil, mana ***der idi***.(Xət.) Bir elçi dəxi bulam, ***der idim***.(Xət.) Bəxtim***, bilirəm***, mənim yamandır. (Füz.) Vaqif, çoxdur dərdin, ***mən də bilirəm***. (Vaqif)

Bu cümlələrin çoxunda lazımi fikrin aktuallaşdırılması, daha aydın nəzərə çarpdırılması üçün baş cümlə budaq cümlədən sonra işlənmişdir. Belə cümlələr dilimizdə indi də işlənməkdədir. Bu cür cümlələr analitik – bağlayıcılı cümlələrin inkişafının özülünü təşkil etmişdir. Tədricən budaq cümlə baş cümlədən sonra intensivləşmiş, tərkib hissələr arasına ***kim, ki*** bağlayıcıları daxil olmaqla tərəflərin yeri sabitləşmişdir:

Dərviş olub şalvar geyəyim ***dersən – Dersən*** dərviş olub şalvar geyəyim ***- Dersən ki,*** dərviş olub şalvar geyəyim.

Beləliklə: *Nə qılır ol arada Xızır* ***eşit.***(34) – tipli cümlələr çox qədim inkişaf prosesində həm bağlayıcı sözlü cümlələrin (*Xızr ol arada* ***hər nə*** *qılır,* ***onu eşit*)**, həm də bağlayıcılı cümlələrin (***Eşit ki,*** *Xızr ol arada nə qılır*) inkişafı üçün əsas olmuşdur. *Bigünaham axır*, ***məlumdur sana*** (MV)– tipli (sual əvəzliksiz) cümlələr isə bağlayıcılı tipin nüvəsi olmuşdur: *Bigünaham axır*, ***məlumdur sana – Sana məlumdur ki,*** *bigünaham.*

Qeyd etdiklərimizdən aydın olur ki, budaq cümlənin hər iki tipi qədim və orijinaldır, heç bir dilin təsiri ilə yaranmamışdır və kök dildən gəlir. Bu cəhətdən N.Z.Hacıyeva çox düzgün müşahidə etmişdir ki, «Azərbaycan dili sintaktik qurumlarının tarixi aspektdə öyrənilməsi göstərir ki, onlar əksəriyyət etibarilə ümumtürk xarakteri daşıyır. Onlar özlərini, demək olar ki, bütün türk dillərində yayılmış sabit modellərdə göstərir»[1] .

Türk dillərinin tədqiqi sübut edir ki, bu dillərdə tədricən bağlayıcılı cümlələr çoxalmışdır. Lakin elə türk dilləri də var ki, onlarda bağlayıcısız tip üstünlük təşkil edir. N.Z.Hacıyeva bunu bağlayıcısız cümlələrin bağlayıcılı cümlələr üçün «çox güclü konkurent

---

[1] Н.З.Гаджиева.Синтаксис сложноподчиненного предложения в азербайджанском языке.Изд.-во АН СССР,Москва, 1963,с.11.

olması ilə» əlaqələndirmişdir[1]. Əslində, bağlayıcılı cümlələr tarixən bağlayıcısız cümlələr üçün «konkurentə» çevrilmişdir.

Hiss olunur ki, türk dillərinin daha qədim dövrlərində mürəkkəb konstruksiyalar daha çox feli bağlama tərkibləri ilə yaranmış, hazırkı budaq cümlə tipləri sonralar təşəkkül tapmışdır. Bunu N.Z.Hacıyeva da duymuş və yazmışdır: «Həm qədim abidələrin, həm də müasir türk dillərinin analizi feli bağlama konstruksiyalarının bağlayıcılı mürəkkəb cümlələrlə müqayisədə daha qədim tarixə malik olduğu barədə nəticə çıxarmağa imkan verir»[2].

Tarixən tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirmək üçün aşağıdıkı vasitələrdən istifadə edilmişdir.

***İntonasiya.*** Tabeli mürəkkəb cümlələrin tərkib hissələrini əlaqələndirən ilk və ən qədim vasitə intonasiyadır. İntonasiya hər cür cümlənin təşkiledici vasitələrindəndir. Lakin intonasiya ilə qurulan cümlələrdən danışarkən başqa bağlayıcı vasitələrin – bağlayıcıların, bağlayıcı sözlərin, şəkilçilərin, ədatların iştirakı olmadan qurulan cümlələr nəzərdə tutulur və belə cümlələr adətən çox dəqiq olmasa da, «bağlayıcısız tabeli mürəkkəb cümlələr» adlandırılır. Tarix boyu, «Dədə Qorqud»dan əvvəlki dövrlərdə belə cümlələrdən ünsiyyətdə geniş istifadə olunmuşdur və indi də canlı danışıq dilində «Dədə Qorqud»un dilində rast gəldiyimiz *...on altı yıldır, tutsaqdır* - tipli cümlələr çox işlənir.

***Bağlayıcı.*** Daha qədim dövrlərdə bağlayıcılar az olmuş, tədricən artıb çoxalmışdır. Tədqiqatlar göstərir ki, başqa türk dillərinə nisbətən, Azərbaycan dilində bağlayıcılar, az da olsa, onun inkişafının erkən dövrlərindən işlənməyə başlamışdır. Tədricən artıb çoxalmış və yavaş-yavaş bəzi alınmaların arxaikləşmə mərhələsi başlamışdır. Fonetik cəhətdən arxaikləşmə də müşahidə olunur.

Tarixən budaq cümləni baş cümləyə bağlayan əsas bağlayıcılar aşağıdakılardır.

---

[1] Н.З.Гаджиева. Основные пути развития синтаксической структуры тюркских языков, Издательство «Наука», Москва, 1973, с.335.
[2] Н.З.Гаджиева. Синтаксис сложноподчиненного предложения в азербайджанском языке,с.11.

***Kim*** bağlayıcısı. Bu bağlayıcı qədim uyğur abidələrinin dilində[1] də işlənmişdir, lakin «Kitabi-Dədə Qorqud»un dilində və bizim klassik ədəbiyyatda fəal işlənmə imkanları ilə seçilir, tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən əsas vasitə kimi çıxış edir; məs.: *Beyrək baqdı gördi **kim**, kiçi qız qarındaşı binardan su almağa gəlür...*(DQ) *Dedilər **kim**, dəhanı yoxdur anın* (Nəs.) və s.

Bu bağlayıcı tədricən *ki* bağlayıcısının üstün mövqeyi ilə öz işləkliyini itirmişdir. Buna baxmayaraq, XX əsrin əvvəllərinə qədər işlənməkdə davam etmişdir. *Kın, kün, kun, kin* şəkillərində şivələrimizdə indi də işlənməkdədir: *Vaxt gəlir kin, munun atası can üstə olur*[2].

***Ki*** bağlayıcısı. Bu bağlayıcı ***kim*** bağlayıcısından son səsin düşməsi ilə yaranmışdır. Keçən min il ərzində tədricən həmin bağlayıcını üstələmiş və müasir dilimizdə sabitləşərək, ***kim*** bağlayıcısını tam sıxışdırmışdır; məsələn: *Böylə digəc qız tanıdı-bildi **ki**, Beyrəkdir.*(65) *Nə rəvadır **ki**, geyə cahilü nadan kəpənək.* (Nəs.)

***Kim*** və ***ki*** bağlayıcıları polisemantik bağlayıcılar olub, tarixən mübtəda, xəbər, tamamlıq, təyin, tərz, dərəcə, zaman, səbəb, məqsəd, nəticə və analitik şərt budaq cümlələrini baş cümləyə bağlamışdır. Bu bağlayıcılar ədatlaşaraq bağlayıcı sözlərlə birlikdə də çox fəal rol oynamışlar.

N.Z.Hacıyevanın müşahidəsinə görə, *ki* bağlayıcısı müasir Azərbaycan və türk dillərində fəal olduğu halda, türkmən, tatar, Krım-tatar, özbək, uyğur dillərində zəif işlənir, kumık dilində isə *qe* şəklində sabitləşmişdir[3].

***Ki*** bağlayıcısının mənşəyi haqqında üç müxtəlif fikir vardır. Tədqiqatçıların böyük bir qismi (V.A.Qordlevski, N.K.Dmitriyev, A.N.Kononov və b.) onu fars mənşəli hesab etmişlər. Bir qismi (fransız türkoloqu Jan Deni) ***ki*** bağlayıcısının eyni dərəcədə həm fars, həm də türk dillərinə məxsus olduğunu göstərmişdir. Üçüncü qrup dilçilər (M.Hüseynzadə, H.Mirzəzadə, N..Hacıyeva, Ə.Z.Ab-

---

[1] Ə.Rəcəbli. Qədim türkcə-azərbaycanca lüğət,Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, Bakı, 2001, s.107.

[2] М.Ш.Ширалиев..Диалекты и говоры азербайджанского языка, Издатеьство «Элм», Баку, 1983, с.160.

[3] Н.З.Гаджиева. Основные пути развития синтаксической структуры тюркских языков, Издательство «Наука», Москва, 1973, s.357.

dullayev və b.) onun türk dillərinin özünə məxsus olduğunu qeyd etmişdir[1].

Bizim fikrimizcə, Jan Deni daha düzgün fikir söyləmişdir. Məsələnin tarixinə uzun-uzadı varmadan qeyd etmək olar ki, *ki* bağlayıcısı *kim* sözündən yaranmışdır. *Kim* sözü tarixən sual əvəzliyi və nisbi əvəzlik kimi işlənmiş və bağlayıcılaşmışdır. *Kim nə deyir, mən bildim - Mən bildim kim nə deyir. Kim* bağlayıcısının *ki* şəklinə və ya *m~n* keçidi ilə *kin* şəklinə düşməsi çətin anlaşılan məsələ deyil. Məsələ ondadır ki, *kim* sual əvəzliyi nostratik sözlərdəndir – *kis, kisi, kişi* «adam» sözləri ilə bağlıdır. Rus dilindəki *kto*, ingilis dilindəki *who*, orta fars dilindəki *ke*, fransız dilindəki *que* sual əvəzliyi də mənşəcə birdir və bunların tarixi inkişaf prosesində həmin dillərdə bağlayıcıya çevrilməsi də eyni istiqamətdə olan inkişafın nəticəsidir. Jan Deni[2] bu cəhəti görməsə də, məsələni düzgün qoymuşdur. N.Z.Hacıyeva ***ki*** və ***kim*** bağlayıcılarının mənşəcə müxtəlif olduqlarını qeyd etmişdir ki, bu da ağlabatan deyil.

İkinci bir mühüm məsələ də *kim (ki)* ədətı ilə *kim (ki)* bağlayıcısını fərqləndirməkdir. Fikrimizcə, ədat bağlayıcıdan yaranmışdır və bağlayıcı sözlərlə birgə işlənən *ki* və *kim* bağlayıcı deyil, ədatdır. Bu sözlərin tarixən bağlayıcı kimi işlənməsi daha qədimdir. Bağlayıcı söz təşəkkül tapdığı dövrdən onların ədatlaşması da başlamışdır. Ə.Abdullayev də, N.Hacıyeva da bəzən *kim/ki* bağlayıcısı ilə *kim/ki* ədatını qarışdırmışdır[3].

***Anın üçün*** bağlayıcısı. Bu bağlayıcı nəticə budaq cümləsini baş cümləyə bağlamışdır: *Beş aqçaluq əlüfəcilər yoldaş etdin, **anunçun** ol qəl'əyi sən alımadun.* (DQ) Xalis Azərbaycan sözlərindən ibarət olan bu bağlayıcı müasir dilimizdə ***onun üçün, onun üçün də*** şəkillərində işlənməkdədir.

***Zira*** bağlayıcısı. Bu bağlayıcı səbəb budaq cümləsini baş cümləyə bağlamışdır: *Bildim bu qəziyyə imtəhandır, **Zira ki** bu bir bəlayi-candır.* (Füz.)

---

[1] *Bax*: Ə.Z.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, «Maarif», 1974, s.350-367.

[2] Н.З.Гаджиева. Основные пути развития синтаксической структуры тюркских языков, s.360

[3] Yenə orada.

***Zira*** bağlayıcısı «çünki» sözünün sinonimi olub, müasir dilimizdə çox az hallarda işlədilir, mənşə etibarilə fars sözü sayılır.

***Ta, ta ki, ta kim*** bağlayıcıları. Bu bağlayıcılar daha çox məqsəd və zaman budaq cümlələrini baş cümləyə bağlamışdır: *Çağırdı pəs ol pəri xisali, **Ta** bir də görə rüxi-vüsali.* (Məs.) *Bu qızların ona qıldı məhrəm, **Ta kim** olar ilə ola həmdəm.* (Məs.)

***Çünki*** bağlayıcısı. Bu bağlayıcı səbəb budaq cümləsini baş cümləyə bağlamışdır: *Bəd halətə düşmə, **çünki** vardır Bilncə xəyali-ruyi-niku.*(Xət.) ***Çünki*** sözü inkişaf prosesində bağlayıcı söz kimi də işlənmiş, tədricən bağlayıcı kimi sabitləşmişdir. ***Çün*** hissəsi alınmadır.

***Kim*** və ***ki*** bağlayıcıları ilə ***çünki*** bağlayıcısı məna imkanlarına görə antonim sayıla bilər. *Kim//ki* bağlayıcıları əksər budaq cümlələri baş cümləyə bağladığı halda, *çünki* sözü bağlayıcı kimi sabitləşdikdən sonra yalnız səbəb budaq cümləsini baş cümlə ilə əlaqələndirir.

***Bağlayıcı sözlər***. Tarixi abidələrin dilində budaq cümləni (prepozitiv budaq cümləlıəri) baş cümləyə bağlayan aşağıdakı bağlayıcı sözlər işlənmişdir:

***Əgər/gər*** bağlayıcı sözləri. Müxtəlif türk dillərində işlənən bu bağlayıcı sözlər daha çox şərt budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: *Zahid, **əgər xəta isə** ol zülfü sevdiyim, Qəbrim içində yalvarayım qoy ilanlara.* (Fəz.) ***Gər aşiq isən** sən, ey cahangərd, Qaçma ki, mənəm səninlə həmdərd.* (Füz.)

Azərbaycan, türk, türkmən dillərində ***əgər*** və ***gər*** sözlərindən düzələn ***əgərçi, gərçi*** bağlayıcı sözləri də işlənmişdir. Bunlar qarşılaşdırma budaq cümləsini baş cümləyə bağlamışdır[1]. Məs.: *Qafilsən əgərçi sən özündən, Mən vaqif özündənü sözündən*. (Məs.) *Andan sənə **gərçi** yetdi nöqsan, Yüz səncə ona yetişdi xüsran.* (Məs.)

***Əgər, gər*** və **əgərçi** bağlayıcı sözləri fars mənşəlidir. Bunlardan yalnız ***əgər*** sözü dilimizdə sabitləşə bilmişdir.

***Elə ki*** bağlayıcı sözü. Bu bağlayıcı söz zaman budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: ***Elə ki** taxıldı burnuna çeşmək, Qocalıq əl verib, dəxi nə şişmək.* (Vid.)

---

[1] Н.З.Гаджиева.Основные пути развития синтаксической структуры тюркских языков, s..351.

***İndi ki*** bağlayıcı sözü. Şərt budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: ***İndi ki*** *gəlmisən, buyur içəri*.(Nağıllar)

***Çü*** bağlayıcı sözü. Səbəb, tərz, şərt budaq cümlələrini baş cümləyə bağlamışdır; məs.: *Vəhdət dəmində dərvişü sultan* ***çü*** *bir imiş, Gəl xəstədil Nəsimi, qəbul eylə şalını.* (Nəs.)

***Çün*** bağlayıcı sözü. Zaman, səbəb, şərt budaq cümlələrini baş cümləyə bağlamışdır; məs.: *Könül, şaha, gözündə* ***çün*** *guşəni-şin oldı, Əhli-kərəmə ikram vacib ola mehmanə* (QB)

*İndi ki, kimi, tək, təki* mənalarında ***çü***, *necə ki, elə ki* mənalarında ***çun*** sözü fars mənşəli sayılır və dilimizdə sabitləşə bilməmişlər, alınma və arxaik sözlərdəndir.

***Qaçan kim*** bağlayıcı sözü**.** Zaman budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: ***Qaçan kim*** *dünün iki bəxşi keçdi, Yerindən durdu ol Əhməd Hərami*.(DƏH) *Hərami ol bağı* ***qaçan ki*** *gördi, Enib atdan gəlib içəri girdi*.(DƏH)

***Qanda, Qanda kim*** bağlayıcı sözləri. Yer budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: ***Qanda*** get**sə**vüz, həm biz də gedəvüz. (MV) ***Qanda kim*** *baksa, gülü reyhan gəlür.* (MV)

***Qaçan kim, qanda kim*** bağlayıcı sözləri ***xaçan kim, haçan kim, xanda kim, harda kim*** inkişaf yolu keçmiş, müasir dildə *haçan ki, harda ki* şəkillərində sabitləşmişdir.

***Kim*** bağlayıcı sözü. Mənşə etibarilə sual əvəzliyindən ibarət olub, nisbi əvəzlik-bağlayıcı söz kimi işlənən bu söz mübtəda, xəbər, tamamlıq, təyin budaq cümlələrini baş cümləyə bağlamışdır; baş cümlədə qarşılıq bildirən söz olur (xəbər və təyin budaq cümlələrinin baş cümləsində mütləq işlənir, mübtəda və tamamlıq budaq cümlələrinin baş cümləsində işlənə də bilər, işlənməyə də). məs.: ***Kim*** görürsə yüznüzü, olur həlak.(MV)

***Nə*** bağlayıcı sözü. Sual əvəzliyindən yaranmış bu bağlayıcı söz türk dillərində geniş yayılmışdır və müxtəlif hallarda işlənərək mübtəda, tamamlıq, xəbər, təyin budaq cümlələrini baş cümləyə bağlamışdır. Baş cümlədə korrelyat olur (olmadıqda təsəvvür edilir); məs.: *Məşuqədən ana* ***nə*** *gəlür****sə****, (ol) qəbul ola. (*Nəs.)

***Nə ki/nə kim*** bağlayıcı sözləri. Mübtəda və tamamlıq budaq cümlələrini baş cümləyə bağlamışdır; məs.: Başım üstünə ***nə kim*** buyurursan. (DƏH)

***Anca kim*** bağlayıcı sözü. Zaman budaq cümləsini baş cümləyə bağlamışdır: ***Anca kim*** *durdum, anın çıkdı canı.* (MV**)**

***Nə kim, nə ki, anca kim*** bağlayıcı sözləri məhdudlaşmış və şivələrdə qalmışdır.

***Ol zaman ki//o zaman ki*** bağlayıcı sözləri. Zaman budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: ***O zaman ki*** *məhşər xalqı durarlar, Divan olub sorğu-sual sorarlar*. (Vaqif)

***Nə qədər*** bağlayıcı sözü. Kəmiyyət, zaman, şərt, güzəşt budaq cümlələrini baş cümləyə bağlamışdır; məs.: *Rəhində sənin dil* ***nə qədər ki düşə*** *şərrə, Könlüm o rüxi-mehrü münəvvərdən üzülməz.* (Vaqif)

***Hər qanda kim*** bağlayıcı sözü**.** Yer budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: ***Hər qanda kim*** *şərh eyləsəm şirin dodağın qəndini, Ərvah uşər sinək kimi ol dadlı şəkkər xəndinə.*(Nəs.)

***Hərçənd, hərçənd ki*** bağlayıcı sözləri. Qarşılaşdırma budaq cümləsini baş cümləyə bağlayır; məs.: ***Hərçənd*** *kişi* ***düzə*** *vəsilə, Təğyir edəməz qəzanı hiylə.* (Məs.)

Bağlayıcı sözlərin mövcud təfərrüatı budaq cümlələrdən danışılarkən qeyd ediləcəkdir.

Dilimizin ilkin inkişaf mərhələlərində həm bir sıra bağlayıcılar, həm də bağlayıcı sözlər çoxmənalı olmuş, tədricən çoxmənalılıqdan azad olmuşlar. ***Ki*** bağlayıcısı çoxmənalılığını saxlamışdır.

N.Z.Hacıyeva göstərir ki, Azərbaycan dilinin ilkin abidələrinin xarakter xüsusiyyətlərindən biri bağlayıcıların aid olduğu budaq cümlə ilə birlikdə ön pozisiyada işlənməsidir. Müəllif bu məqamda: ***Çün*** *gördi ani səbayi-miskin, Çəkdi cilovini, oldu ğəmgin* (Xət.)[1] – misalını vermişdir. Burada iki cəhətdən qüsur vardır. Bu cür sözlər bağlayıcı deyil, bağlayıcı sözlərdir. Bağlayıcı sözlər bir qayda olaraq, aid olduğu budaq cümlə ilə birlikdə ön pozisiyada işlənir, bağlayıcılar isə baş və budaq cümlənin arasında. Digər tərəfdən, bu xüsusiyyət ilkin abidələrə deyil, müasir Azərbaycan dilinə də aiddir. ***Çün*** sözü arxaikləşmiş olsa da, bu gün bu tipli budaq cümlələrin əvvəlində ***elə ki, o zaman ki, nə qədər ki*** və s. müxtəlif bağlayıcı sözləri işlənməkdədir.

***Şəkilçilər, ədatlar***. Bağlayıcı sözlü tabeli mürəkkəb cümlələrin tərkib hissələrini əlaqələndirmək üçün müasir dilimizdə olduğu kimi, tarixən də ***–sa,-sə*** şərt şəkilçisindən, ***isə*** şərt ədatı və onun

---

[1] Н.З.Гаджиева.Синтаксис сложноподчиненного предложения в азербайджанском языке,s.21.

şəkilçiləşmiş formasından (*-sa,-sə*)[1] ***-mı,-mi, -mü, -mü*** sual şəkilçisindən və bir sıra ədatlardan (***da, dəxi, belə*** və s.), modal sözlərdən istifadə edilmişdir.

***-sa,-sə*** şəkilçisi ilə *–mı* sual şəkilçisinin budaq cümlələrə xidməti ***kim*** və ***ki*** bağlayıcıları ilə ***çünki*** bağlayıcısının nisbəti kimidir. Yəni ***–sa, -sə***, demək olar ki, bütün budaq cümlələrə xidmət etdiyi haldı, -***mı*** şəkilçisi zaman, şərt, nəticə kimi bir neçə budaq cümləni baş cümləyə bağlamışdır. Məs.: ***Kim qılsa*** xəyal anın vüsalın, Qət eyləyə rişteyi-xəyalın.(Məs.) Baş alıb gedirəm sizin mahaldan, ***Axtarsan da,*** bu Qurbani tapılmaz. (Qurbani) ***Öldürsə dəxi*** *ki,* çəkməzəm qəm. (Xət.) *Mərə dəlü ozan, mən* ***eyiblümiyəm ki,*** *mana eyib qoşarsan?* (DQ)

Ənənəvi olaraq, tabeli mürəkkəb cümlələr budaq cümlənin növləri üzrə öyrənilir.

---

[1] *Ətraflı məlumat üçün bax:* G.Abdullayeva. Azərbaycan dilində ***-sa,-sə*** şəkilçisi, onun qrammatik və üslubi xüsusiyyətləri, Bakı, 2000.

# BUDAQ CÜMLƏNİN NÖVLƏRİ

## MÜBTƏDA BUDAQ CÜMLƏSİ

**«Kitabi-Dədə Qorqud»un dilində** mübtəda budaq cümləsinin hər iki tipi normal şəkildə işlənmişdir. Baş cümlədə qəlib və qarşılıq bildirən sözlərdən az istifadə edilmişdir; məs.: ***Nə gəlürsə,*** *bənim sağrıma gəlsün.*(33) *On altı yıldır ki****, Oğuz içindən getmiş idik*** (53)–cümlələrindən birincisində budaq cümlə, ikincisində baş cümlə əvvəl işlənmişdir. Birinci misalda budaq cümlə baş cümləyə bağlayıcı sözlə (***nə*** sözü), ikinci misalda ***ki*** bağlayıcısı ilə bağlanmışdır.

"Budaq cümlə+baş cümlə" quruluşlu cümlələrdə budaq cümlə baş cümləyə ***nə*** sözü ilə yanaşı, ***hər kim, nə qədər*** bağlayıcı sözləri ilə də bağlanmışdır. Bağlayıcı sözlərin heç birində ***ki*** ədatı yoxdur. Əksinə, budaq cümlələrin sonunda ***-sa,-sə*** şəkilçisi fəaldır. Baş cümlələrdə az hallarda qarşılıq bildirən söz işlənmişdir: ***Hər kim*** *yemədi,* ***ol*** *Qazan xatunıdır.* (88) *..****nə*** *diyər****sə****, olurdı.*(31) *...meydanda* ***nə qədər*** *at var****sa****, qan qaşındı.* (88) *Ol zamanda Oğuz yigitlərinə* ***nə*** *qəza gəl****sə****, uyxudan gəlürdi.* (90)

Bu hal göstərir ki, ümumən budaq cümlənin bu növünün təşəkkül tarixi çox qədimdir.

Analitik quruluşda budaq cümlə baş cümlədən sonra gələrək, onunla bəzən yalnız intonasiya ilə, bəzən də ***kim*** bağlayıcısı ilə əlaqələnmişdir. Baş cümlə yarımçıq cümlə şəklindədir - qəlib söz işlənməmişdir: *...on altı yıldır, tutsaqdır.*(94) *Üç gündür qoşalığım yoq.*(106) *On altı yıldır kim, babanın tutsağıyam.*(59) *Bəgümizin bir oğlı vardı, on altı yıldır kim, ölüsi-dirisi xəbərin kimsə bilməz.* (60)

XII- XIV əsrlərin və sonrakı dövrlərin ədəbi dilində mübtəda budaq cümləsinin hər iki tipi zəngin bağlayıcı vasitələri, forma və quruluş xüsusiyyətləri ilə diqqəti cəlb edir.

**I tip.** Bu dövrün ədəbi dilində mübtəda budaq cümləsinin bağlayıcı sözlə baş cümləyə bağlanan tipində budaq cümlə baş cümlədən əvvəl işlənərək, ona bir sıra bağlayıcı sözlərlə bağlanmışdır. Baş cümlədə əvvəllər qarşılıq bildirən ***ol,*** tədricən ***o*** sözü işlənmişdir. Bunlar olmadıqda təsəvvür edilir.

Budaq cümlə aşağıdakı bağlayıcı sözlərlə baş cümləyə bağlanmışdır:

***Kim*** bağlayıcı sözü ilə: ***Kim*** əvvəl tanımadı kəndi vücudi şəhrini, ***Ol*** gədəhimmət nə yoldan varə sultan istəyə? (Nəs.) ***Kim baqarsa*** yüzimə, heyran olur. (Suli) ***Kim*** bunı bilür ***isə,*** ərənlərdür. (QB) ***Kimün*** var ***isə*** eşqi uşda, gələ meydana.(QB) ***Kim*** dilər ***isə*** qavlaya şahin, ***Gövdəsi*** ortalıxda laşa gərək.(QB)

Birinci misalda budaq cümlə baş cümləyə ***kim*** bağlayıcı sözü ilə bağlanmış, baş cümlədə qarşılıq bildirən ***ol*** sözü işlənmişdir. Sonrakı misallarda budaq cümlənin baş cümləyə bağlanmasında ***kim, kimün*** bağlayıcı sözləri ilə yanaşı, ***isə*** şərt ədatı da iştirak etmişdir. Bir qisminin baş cümləsində qarşılıq bildirən söz olmasa da, artırmaq olar: ***Kim*** bunı bilür ***isə, (ol)*** ərənlərdür – ***Bunu bilən*** *ərənlərdür.* Son misalda qarşılıq bildirən söz yiyəlik halda olub, ***gövdəsi*** sözü ilə birləşmə yaratmış, adlıq halda mübtəda vəzifəsində işlənməklə cümlənin mübtəda budaq cümləsi kimi formalaşmasına səbəb olmuşdur.

Bu xüsusiyyət eynilə XV-XVI və XVII-XVIII əsrlərin ədəbi dilində də davam etmişdir. Məsihinin «Vərqa və Gülşa» məsnəvisi öz dilinin zənginliyi, eyni zamanda arxaik elementlərin çoxluğu ilə seçilir. Bir sıra hallarda Məsihi daha qədim dövrün arxaik formalarından istifadə etmişdir. Əsərinin məzmunundan, poetik imkanlarından, işlətdiyi müqayisələrdən görünür ki, böyük istedad sahibi olmuşdur. Alınmalar, izafət tərkibləri, qapalı saitli şəkilçilər onun dilini bu cəhətdən Füzulidən əvvəlki dövrlərlə bağlayır. Odur ki məsnəvinin dilində bağlayıcı sözlü cümlələr daha zəngindir. Şair bağlayıcı sözlü cümlələrə nisbətən analitik budaq cümlələrdən az istifadə etmişdir. Dövrün ədəbi dilindən bir neçə nümunə:

***Kim*** qarşına var***sa***, gözün örtər (Xət.) ***Kim bəsləsə*** gülbün, ***ol*** görər gül.(Məs.) ***Kim qılsa*** xəyal anın vüsalın, Qət eyləyə rişteyixəyalın. (Məs.) ***Kim*** özündən keçəcək, ***o*** tapacaq burda qərar. (Saib) ***Kim*** göz açdı, töküldü yaşi. Baş qovzadı ***kim***, kəsildi başi. (Məs.) Baş qavzamağa ***kim*** oldu xürsənd, Verdi yelə sər hübab manənd.(Məs.) ***Kim heyf edə*** sakini Hicazə, Yetməz ***o*** nəmazdin niyazə. (Məs.) ***Kim*** özü ***ola*** qəmə giriftar, Özgə ğəminə əcəb qıla çar? (Məs.)

Göründüyü kimi, bir neçə cümlədə qarşılıq bildirən ***o, ol*** sözləri vardır. Əvvəlki üç budaq cümlənin xəbərində şərt şəkilçisi –

***sa,-sə,*** son iki cümlədə isə şərt şəkilçisi məqamında ***–a,-ə*** arzu şəkilçisi işlənmişdir.

Bağlayıcı sözlər əksərən ***kim ki, kimün ki, nə ki, şol ki, şol kim*** və s. şəkillərdə ***kim*** və ya ***ki*** ədatları ilə birgə işlənmişdir.

***Kim ki*** bağlayıcı sözü ilə: ***Kim ki*** yası dutma***sa***, olur asi.(MV) ***Kim ki*** şəhidün olur *isə* ola ğazi. (QB) ***Kim ki*** bizari ***ola*** bazaridür, ***Kim ki*** bazar ***isdəyə*** ba-zar ola.(QB) ***Kim ki ata*** kəndü varlığını şəmsün nurına, Səd isə, nəhs isə bilə kəndünün yılduzını.(QB) ***Kim ki gələ*** anı ***təfərrüc edə***, Ah edə, dəxi düşə, əqli gedə. (MV) ***Kim ki*** görər, görməzə urar gedər. (MV) ***Kim ki*** müsəlmandurur, qonaq sevə.(MV)

Əvvəlki iki misalda ***kim ki*** bağlayıcı sözü ilə yanaşı, şərt şəkilçisi, ***isə*** şərt ədatı, sonrakı üç misalda ***–a,-ə*** arzu şəkilçisi də işlənmişdir**.**

Nəsiminin dilində ***kim ki*** bağlayıcı sözlü budaq cümlələr intensiv işlənmə imkanları ilə diqqəti cəlb edir. Bu formanın özü xalq dilində zəngin olmuş, xalq dilinin bu xüsusiyyəti Nəsiminin təbliği şeir dilində üstün yer tutmuşdur. Həm də şairin əksərən ***ki*** ədatı ilə işlətdiyi bağlayıcı sözlər bu gün xalq dilində işləndiyi kimidir. Çox nadir hallarda budaq cümlənin sonunda *–**sa,-sə*** və ya ***isə*** işlənmişdir. Qarşılıq bildirən söz də çox azdır:

Başinə ***kim ki*** düşmədi kölgəsi ənbərin, saçın, Dövlətə sadiq olmadı, uğramadı hümayinə. (Nəs.) Eşqinə ***kim ki*** qılmadı baş ilə canını səbil, Dərdinə çarə bulmadı, uğramadı dəvayinə. (Nəs.) Faili-mütləqi-yəqin ***kim ki*** dilər görə bu gün, Baxsın anın cəmalına, həqqi görər bu ayinə.(Nəs.) ***Kim ki*** bu halə düşmədi, qoy vara kəndü halinə.(Nəs.) ***Kim ki*** zahir görmədi üzündə həqqin surətin, ***Güzgüzü*** ari degildir, çarə qılsın pasinə. (Nəs.) ***Kim ki*** səni sevmədi, eşqinə can vermədi. (Nəs.) Can ilə ***kim ki*** könlünü eşqinə qılmadı vətən, Divə müsəlləm eylədi məmləkəti-Skəndəri. (Nəs.) ***Kim ki*** can verdi bu yolda, buldu ***ol*** cananəyi. (Nəs.) Cənnəti-ədnin tamaşası rüxün gülzarıdır, ***Kim ki*** şol gülzarı buldu, özgə gülzar istəməz. (Nəs.) ***Kim ki*** Nəsimi kimi vahidü fərd olmadı, Vahidi-mütləq degil, zati-vahid olmadı. (Nəs.) ***Kim ki*** mələk kimi sana qılmadı səcdə, ey sənəm, Ta əbəd ***adı*** div imiş, münkiri-bibəsər kimi. (Nəs.) Və s.

***Kim ki*** bağlayıcı sözü XV-XVI və XVII-XVIII əsrlərin ədəbi dilində –Həqiqi, Füzuli, Xətai, Məsihi, və b.-nın əsərlərində də

öz işləkliyini davam etdirmişdir. Məs.: Ola sidq ilə ***kim ki*** əhli niyaz, Olar ***ol*** yol içində saf şahbaz. (Xət.) Əql meydanını zindani-bəla bilməz hənuz ***Kim ki*** bir müddət cünun mülkünü seyran etmədi. (Füz.) ***Kim ki*** baxdı səndən ayru Kişvərinin yüzinə, Bildi kim, halı nədür möhtaci-təqrir olmadı. (Kiş.) ***Kim ki*** səndin döndərüb himmət verə hurayə dil, Oldu ***ol*** bidərd xari-dideyi-eynülyəqin.(Məs.) ***Kim ki*** bu aləmdə ömrün sərf edib yar axtarır, Gənci-gövhər dağıdıb viranədə mar axtarır. (Qövsi) ***Kim ki*** sevdayi-səri-zülfi-pərişanə düşər, Gah zindana, gahi çahi-zənəxdanə düşər. (Vaqif) ***Kim ki*** birçəklərini sünbülə timsal salır, Xubların başına qovğa gətirir, qal salır. (Vaqif)

Bəzən şeir tələbləri ilə əlaqədar bağlayıcı sözlə *ki* ədatı arasına başqa söz daxil olmuşdur: Gözi hinduvü xətadur ***kim*** ana ***ki*** türk der ***isə*** *Ləbinün tadı* şəkərdür, vəli *rəngi* al olamı. (QB)

***Kimin kim, kimin ki, kimdə kim*** bağlayıcı sözləri ilə: ***Kimin kim*** qızı var, Belində önəlməz ***sızı*** var. (Oğuz.) ***Kimdə kim*** səbr olmadı, adəm dəgül. (Suli) Məqsudi ***kimin ki*** iki aləmdə nə sənsən, Məqsudini itirdivü fəth olmadı kami. (Nəs.) ***Kimin kim*** bəxti yar olmaz, dönər idbarə iqbali. (Nişat)

***Kimin ki*** bağlayıcı sözü Xətainin dilində daha çox işlənmişdir: ***Kimin ki*** olmasa üzrü, niyazi, Qəbul olmaz ***niyazi***, həm ***namazi***.(Xət.) Şah qatda ***kimin ki*** adəmi var, Əz cövrü sitəm nədən ***qəmi*** var?(Xət.) ***Kimin ki*** məni içrə zati yoxdur, Çürükdür ***sözünün bünyadı*** yoxdur (Xət.) və s.

Göründüyü kimi, bu misalların baş cümlələrində nəzərdə tutulan korrelyatın (*onun) niyazi, namazi, (onun) qəmi, (onun) sözünün bünyadı* şəkillərində mənsubiyyət şəkilçili ikinci tərəfi işlənmişdir. Bu cür birləşmələrə *ol* sözü uyuşmur. Bu hal göstərir ki, Xətainin dövründə *o* əvəzliyi xalq dilində tam sabit işləkliyə malik olmuşdur və onun ***ol*** arxetipi poetik tələblərlə bağlıdır.

***Hər kim*** bağlayıcı sözü ilə: Xəyalından gözün ***hər kim*** buraxdı özgə mənzurə, Bu mənidəndir, ey can kim, xəyalın qədrini bilməz. (Nəs.) Nəqqaşı nəqş içində hüsnündə gördü zahir, Güzgüsünün üzündən ***hər kim*** gedirdi pasi. (Nəs.) Cahanü canı tərk eylər düşər ***hər kim*** bu sövdayə. (Nəs.) ***Hər kim*** ərdir, uş ala bəndən ati. (YM) ***Hər kim*** bu yolda quldurur, aləmdə ***ol*** sultan gərək. (Nəs.)

İkinci və üçüncü misallarda komponentlər yerini dəyişmiş, son misalda qarşılıq bildirən söz işlənmişdir.

***Hər kim*** bağlayıcı sözü sonrakı dövrlərdə də işləkliyini davam etdirmişdir: Bu mübarək işi ***hər kim*** etdi, pünhan etmədi. (Füz) ***Hər kim*** özünə nigah edərdi, Öz hasilini təbah edərdi. (Məs.) Öz şahını ***hər kim*** aldı döndi, Ol şivədə ***ləşgəri*** sevindi.(Məs.) Hər kim anın əlindən içər badə, qan içər. (Saib)

***Hər kim*** bağlayıcı sözü və şərt şəkilçisi ilə: ***Hər kim*** indi bana ***baqsa***, əqli şaşər. (QY) ***Hər kim*** anı gör***sə***, yolundan aza. (MV) Bu dünyada mülkü o, malı neylər, ***Hər kim*** ol***sa*** sənin ilən yar, gəlin! (Vaqif)

***Hər kim*** bağlayıcı sözü və arzu şəkilçisi ilə: ***Hər kim ala*** canına cəfanı, ***Lazım görə*** ruyi-müddəani, Məzur olacaqdır ol aradə. (Məs.) Məni belə ***hər kim görə***, bil, ağlar.(Vid.)

***Hər kim*** məqamında ***hər ki*** bağlayıcı sözü və arzu şəkilçisi ilə: ***Hər ki*** dərmansız ***qala***, Bu düa qılsa, ol dəm qurtula. (Suli)

***Hər kim ki*** bağlayıcı sözü ilə: ***Hər kim ki*** səni sevər səndən aparur bir xət. (QB) ***Hər kim ki*** tövhid əhlidir, ***ol*** didü vadid əhlidir.(Nəs.) ***Hər kim ki*** saçın küfrünə iman gətirməz, Mömin degil ***ol*** dinin itirmiş, ona çox vay! (Nəs.) ***Hər kimi ki*** yaxmadıvü yandırmadı firqət, İrmədi Xəlil kimi bu gün nuri-vüsalə. (Nəs.) ***Hər kim ki*** düşdü eşqinə, büryanü həm giryan gərək. (Nəs.) İllər yaşar Xızr kimi ***hər kim ki*** gecələr Gülüzlü yar ilən meyi çün ərğəvan içər. (Saib)

Sonrakı dövrlərdə də ***hər kim*** bağlayıcı sözü ***ki*** ədatı ilə daha intensiv işlənmişdir; məs.: ***Hər kim ki*** əsir olur bu damə, Səbr etsə gərək ğəmi-müdamə. (Füz.) ***Hər kim ki*** bu nüktədəndir agah, Dövrani-fələkdən etməz ikrah. (Füz.) Meyli-canan etməsin ***hər kim ki*** qıymaz canına. (Füz) ***Hər kim ki*** sənə olundu mənzur, Nakamlığına aldı mənşur.(Məs.) ***Hər kim ki*** göz açdı gördü ani, Qoydu həvəs atəşinə cani. (Məs.)

Bəzən bağlayıcı sözdə ***ki*** ədatı ola-ola, budaq cümlənin xəbərində şərt ədatı da işlənmişdir: ***Hər kim ki*** bizi anır***sa***, bulsun. (Xət.) İndi ***ki*** ədatı şərt şəkilçisi və şərt ədatı ilə növəli işlənir.

***Hər kimsə kim*** bağlayıcı sözü ilə: Sidq ilə ***hər kimsə kim*** tutmadı eşqin yolun, Salikü abid deyil, şeyxi-rəşid olmadı. (Nəs.) Rüxsarın üzrə zülfünü ***hər kimsə kim*** gördü dedi: Küfri-siyəhdir sanasan, dağıtmış iman üstünə. (Nəs.)

***Hər kimsə ki*** bağlayıcı sözü ilə: Məqsudinə bulmadı hidayət, ***Hər kimsə ki*** bilmədi bu rahı. (Nəs.)

***Hər kimsə ki*** bağlayıcı sözündə bir qədər loruluq və artıq söz (***hər***) olduğu üçün sonrakı dövrlərdə nisbətən az işlənmişdir. Füzulidə: ***Hər kimsə ki*** aşiqdir, ***işi*** ahü fəğandır.

***Hər kimin kim*** bağlayıcı sözü ilə: Qaradır ruzigarı ***hər kimin kim***, könlü rövşəndir.(Qövsi)

***Hər kimsənin ki*** bağlayıcı sözü ilə:***Hər kimsənin ki*** qibləsi, ey can, sən olmadın, İrağə düşdü Kəbədən, əhli-səfa degil. (Nəs.)

Sonrakı dövrlərin ədəbi dilində ***kimə***, ***hər kimə ki, kimsə, kimsə ki*** bağlayıcı sözləri nəzərə çarpmağa başlamışdır. Bunlar əksərən şərt və arzu şəkilçiləri ilə birgə çıxış edir: ***Hər kimə ki*** baxdın, oldu məcnun.(Füz) Canın sənə ***kimsə*** ver***sə***, itməz. (Füz.) ***Kimsə ki*** özündən ***ola qafil***, Bir özgəyi bilməyə nə qabil? (Füz.) ***Kimə yetə*** sərsəri-əmudi, Xaki-rəh olur ***anun vücudi***.(Məs.) Lütfün ***kimə sunsa*** badeyi-nab, Ta sübhi-qiyamət ***ol*** qılar xab.(Məs.) ***Kimsə kola*** özgənin əsiri, Qeyrin necə ola dəstgiri? (Məs.)

***Nə*** bağlayıcı sözü ilə: Məşuqədən ana ***nə*** gəlür***sə***, qəbul ola. (Nəs.) Yigit ***nə geyərsə***, yaraşır.(Oğuz.) Əzəldə həq ***nə*** yazmış ***isə*** bolur.(QB) Çün səndə ***nə*** var, onda dəx var.(Xət.) Dəstimdə ***nə*** var, getdi əldən.(Xət.) Bu misallardan əvvəlki üçündə bağlayıcı söz ***isə*** şərt ədatı ilə işləndiyi üçün ***ki*** ədatına ehtiyac olmamışdır. Bu hal bugünkü sabit normanın (*-sa,-sə* ilə *ki* ədatının növbələşməsi) hələ o dövrdə də tam mümkün olduğunu göstərir.

***Nə*** bağlayıcı sözü abidələrdə təklikdə az görünsə də, müasir dildə başqa bağlayıcı sözlərdən daha çox işlənir.

***Hər nə*** bağlayıcı sözü ilə. Bu bağlayıcı söz sonrakı dövrlərin ədəbi dilində daha çox, həm də əksərən şərt şəkilçisi ilə birgə işlənmişdir: Haqdan gəlir, ***hər nə*** gəl***sə*** bir qula. (Xət.) ***Hər nə*** de***sə***niz, mənə rəvadır.(Füz.) ***Hər nə diləsən***, arada vafir.(Məs.) Tamam puçdur ***hər nə söhbət eyləsən***.(Vid.) ***Hər nə*** Sənubər ***desə,*** siz yaxşıdır deyin. («Şəhriyar»)

***Nə kim, nə ki*** bağlayıcı sözləri ilə: ***Nə*** *ki* zülfündə gündüzin gördüm, ***Ol*** gözümə bu gecə xab olısar. (QB) ***Nə kim*** göz var idi, ***həp(si)*** quruldu.(MV) ***Nə kim*** vardı, bu surətdə göründü.(Xət.) ***Nə ki*** rəqqas var ***isə***, gəlsin bura.(MV)

Son misalda bağlayıcı söz ***isə*** ədatı ilə birgə işlənmişdir. Sonrakı dövrlərdə məhdudlaşaraq şivələrdə qalmışdır.

***Nəm ki*** bağlayıcı sözü ilə: Ağzunda ***nəm ki*** var ***isə*** xod müxtəsər durur. (QB)

***Hər nə ki*** bağlayıcı sözü ilə: ***Hər nə ki*** hökm etmiş idi, gəldi başuma. (QB)

Canlı danışıq dilində işləkliyini davam etdirməkdədir.

***Hər nəsnə ki*** bağlayıcı sözü ilə: ***Hər nəsnə ki*** bəndə var sər ***cümləsi*** səndədür, Bilsəm ki, nədür ol ki, ana olasən təşnə. (QB)

Bu bağlayıcı söz sonrakı dövrlərdə arxaikləşmişdir. Xətainin «Dəhnamə» məsnəvisində buna yaxın mənada ***hər nəstə ki*** bağlayıcı sözü işlənmişdir: ***Hər nəstə ki*** var, getdi əldən. (Xət.)

***Ol kim*** bağlayıcı sözlü ilə: Gizlə razın, səbr qıl axır sənə dərman verir, Ey Məsih, ***ol kim*** səni dərdə giriftar eylədi. (Məs.)

***Ol kim*** *səni dərdə giriftar eylədi,* ***(ol)*** *sənə dərman verir – Səni dərdə giriftar eyləyən sənə dərman verir* – bağlayıcı sözlü tip.

***Ol ki*** bağlayıcı sözü ilə: ***Ol ki*** məndən vəhm edərsən, məndə yok.(MV) ***Ol ki*** bu sirri bilir, oldu şahi-Misri-vücud. (Nəs.)

***Ol bəlayi ki*** bağlayıcı sözü ilə: ***Ol bəlayi ki*** *əzəldə demiş idi könülüm,* ***Ol*** *edər cana bəlayi* dedilər, çinmi, əcəb?! (QB)

***Ol başı ki*** bağlayıcı sözü ilə: ***Ol başı ki*** bəxt eyləmədi eşqinə qurban, Dəyməz ayağın tozuna, ey sərvi-dilaray. (Nəs.)

***Ol nigar ki*** bağlayıcı sözü ilə***:*** ***Ol nigar ki*** var idi, Mehri idi. (MV)

***Ol qövm kim*** bağlayıcı sözü ilə: ***Ol qövm kim*** bu sözü eşitdilər, Cövhəri andə qodilər getdilər. (YM)

***Ol məlik ki*** bağlayıcı sözü ilə: ***Ol məlik ki*** ulu bəzirgən idi, ***Əvi*** tolu dür ilə mərcan idi.(Suli)

***Şol kim*** bağlayıcı sözü ilə: Sultandır iki cahanda ***şol kim,*** Fəzli-həqq ola ***anın pənahı***. (Nəs.)

***Şol ki*** bağlayıcı sözü ilə: ***Şol ki*** bay qılur qəmu yoxsulları, Banə dəxi ***ol*** veribdi buni. (Suli)

***Şol quş ki*** bağlayıcı sözü ilə: ***Şol quş ki*** *tutğan quşnı azad qılur, Sanma ki, dünyada* ***ol*** *az ad qılur.* (QB)

***Şol quş ki*** bağlayıcı sözü və arzu şəkilçisi ilə: ***Şol quş ki düşə*** damuna bismildür, əfəndi.(QB)

***Şol ulu xoca ki*** bağlayıcı sözü ilə: ***Şol ulu xoca ki*** gəlmişdi bunda, Qatı hörmətlidir atan qatunda. (DƏH)

***Şol yar ki*** bağlayıcı sözü və arzu şəkilçisi: ***Şol yar ki bixiş ola***, bizim kibi olsun. (QB)

***Qanda*** bağlayıcı sözü ilə: ***Qanda*** irmax var ***isə,*** son ***ucu*** ümmana gəlür. (QB)

Füzulinin dilində mübtəda budaq cümləsi ***hər söz ki, hər laf ki, bir iş ki, hər tənə ki, ol sərv ki*** bağlayıcı sözləri ilə də baş cümləyə bağlanmış, şair bağlayıcılı cümlələrdən çox istifadə etsə də, yeni bağlayıcı sözlərlə də ədəbi dili zənginləşdirmişdir; məs.:

***Hər söz ki*** gəlir zühurə məndən, Min tənə bulur hər əncüməndən. (Füz.) ***Hər laf ki*** eylərəm, xətadır. (Füz.)***Bir iş ki*** qılır şikayət ustad, Şagirdə olur ***rücui*** bidad. (Füz.) ***Hər tənə ki*** eyləsən, rəvadır. (Füz.) ***Ol sərv ki*** çıxdı bu çəməndən, Məndən getdi, deyil ki səndən.(Füz.)

Füzulinin poemalarında, xüsusilə «Leyli və Məcnun»da analitik budaq cümlələr böyük üstünlüyə malikdir və demək olar ki, bağlayıcı sözlü cümlələr onun üçdə biri qədərdir. Lakin bağlayıcı sözlü cümlələr də bağlayıcı sözlərin rəngarəngliyi ilə seçilir. Şairin mübtəda budaq cümləsini baş cümləyə bağlamaq üçün işlətdiyi bağlayıcı sözlər əksərən ***ki*** ədatı ilə birgə çıxış edir. Çox az hallarda budaq cümlənin xəbərində ***–sa, -sə*** şəkilçisi vardır.

Qurbaninin şeirlərində bunlara müvafiq olaraq ***hər kəs*** bağlayıcı sözü də işlənmişdir: ***Hər kəs*** nə iş tut***sa***, gələr başına. (Qurbani)

Məsihinin dilində budaq cümlələr baş cümləyə ***bir od ki, ol pa ki*** bağayıcı sözləri ilə də bağlanmışdır: ***Bir od ki*** çəkibdürür zəbanə, Bin suz salupdurur cəhanə.(Məs.) ***Ol pa ki*** çəkərdi güldən azar, Zəncirə olupdurur giriftar.(Məs.) Zira atası ***ki*** şahımızdır, Hər müşkil ilə pənahımızdır.(Məs.)

M.P.Vaqif el sənətinin, el şairlərinin cərgəsində olduğu üçün dili də sadədir. Şair intonasiya ilə qurulan cümlələrə daha çox fikir vermişdir. M.P.Vaqif canlı dildə işlənən ***bir kimsə ki, hər kəsin, hər kəs ki, harda*** bağlayıcı sözlərindən daha çox istifadə etmişdir; məs.: Vaqif, ***bir kimsə ki*** bizdən yaşına, Yəqin bil ki, bizlən olmaz aşina. (Vaqif) ***Hər kəsin*** yox ***isə*** ağlı, kamalı, Dünyada alıbdır sahib camalı. (Vaqif) Hər kəsə ***hər kəs ki*** et***sə*** yaxşılıq, olur yaman. (Vaqif) ***Harda*** olsan, ***ora*** dönər behiştə. (Vaqif)

Şair ***ki/kim*** ədatlarından sonra əksərən ***–sa,-sə*** şəkilçisini də işlətməli olmuşdur: Hansı qəmli könlü ***kim*** sən ***edər olsan*** şadiman, ***Ol*** sənə, əlbəttə ki, bədguluq eylər, bigüman. (Vaqif) Bir gözəl ***ki şirin ola*** binadan, Yüz il getsə, ***onun dadı*** əksilməz. (Vaqif)

***Cümlə ki*** (*hər kim* bağlayıcı sözü məqamında) bağlayıcı sözü ilə: Şəhər qövmi uyquda, ***cümlə ki*** var.(MV)

***Ki*** ədatı ilə. Mənbələrin dilində mübtəda budaq cümləsinin baş cümləyə *ki* ədatı ilə bağlandığı hallar da var; məs.: Onlar ***ki*** deyirlər bu nə fəryadü fəğandır, Barı bu sözü ol güli-xəndanə desinlər.(Qövsi)

Bir sıra cümlələrdə, xüsusən «Mehri və Vəfa» məsnəvisinin dilində bağlayıcı sözlə ***kim*** və ***ki*** ədatıları arasında müxtəlif sözlər işlənmişdir: ***Ol*** ulu küp ***ki*** torpaq doludur, Ulu oğluna işarət. (MV) ***Ol*** ulu qardaşımız ***ki*** şahdurur, Rum elində şimdi padşahdurur. (MV)

Uyquda, ***cümlə ki*** şəhər qövmü var (MV) – cümləsində tərəflərin yeri dəyişmişdir. ***Cümlə ki*** şəhər qövmü var, uyquda (dır).

Mübtəda budaq cümləsinin prepozitiv tipində budaq cümlənin baş cümləyə bağlanmasında bağlayıcı sözlə yanaşı, çox vaxt şərt şəkilçisi iştirak edir. Məs.: Gəlir başına ***nə kim yazsa*** təqdir. (DƏH)

Şərt çaları məqamında ***isə*** şərt ədatı və ya onun şəkilçiləşmiş forması daha fəaldır; məs.: Görəli şol büti-çini yəqin oldı ki, *Hər kim ki* xəbər verür*sə* Mani nəqşinün vəsfini çin söylər. (QB) *Kimün* var *isə* eşqi uşda, gələ meydana. (QB) Qılıc yalın verəli əlümə əli, vəli *Kimə* ələst dedüm *isə* bana dedi, bəli. (QB) Fərrux ruxunı ***kim ki*** sabahın görür ***isə*** Mal ola ***ədusıvü*** mübarək ola ***hali***. (QB)

Belə cümlələrin bir qismində yiyəlik halda nəzərdə tutulan qarşılıq bildirən söz baş cümlədəki mənsubiyyət şəkilçili söz ilə birlikdə qarşılıq bildirən söz - mübtəda kimi təşəkkül tapmış olur. Yuxarıdakı misalda *ədusi,hali* belə sözlərdəndir: ***onun ədusi, onun hali***.

Müasir dildə bağlayıcı söz *ki* ədatı ilə işləndikdə budaq cümlənin xəbərində ***-sa, -sə*** və ya ***isə*** olmaz, budaq cümlənin sonunda ***-sa, -sə, isə*** olduqda *ki* ədatı işlənməz. Qazi Bürhanəddinin dilində bu cəhət, yəni *ki* ədatı ilə ***–sa,-sə*** şəkilçisinin eyni zamanda işlənməsi, demək olar ki, dövr üçün norma halındadır. Məs.: Əqlü dil ilə canü tənüm ana fədadur, Yarun yolına ***hər nə ki*** gedər ***isə*** yetməz. (QB) Hiç kişidən eşqə inkar olmadı*,* ***Kim ki*** bazar ***isə,*** bizar olmadı. (QB) Dün gecə yüzüm basa, gözə gəldi xəyalün, Səndən bizə, şəha*,* ***nə ki*** gəldi*sə* qədəmdür. (QB) Fərrux ruxunı ***kim ki*** sabahın görür ***isə,*** Mal ola ədusıvü mübarək ola hali. (QB) və s.

Bu tipdə tərəflərin yer dəyişməsi həmişə mümkündür; məs.: Həqdir, ey can, ***hər nə kim*** təqdiri-yəzdan eylədi. (Nəs.) İçümüz-

də sanasın eşqə döndi*, **Nə ki ləbdən bu dəndana irişdi***. (QB) Mücrim oldı cəfasını çəksün, ***Kim ki məşuqi-bivəfayı sevə****.* (QB)

Tarixən budaq cümlələrin sonunda işlənən şərt şəkilçisini onun sinonimi kimi, arzu şəkilçisi ***-a,-ə*** də əvəz etmişdir. Bu xüsusiyyətə əvvəlki mənbələrin dilində daha çox rast gəlirik: Yüzini ***hər kim ki qıla*** xak yarı yolına*,* Yar yolında bilə gərək hər işün hər yüzini. (QB) Hammamda ***nə şeir ki deyilə*** tər düşər*,* Zira axar suya, sanasın ki, şəkər düşər (QB) və s.

Tədqiqat göstərir ki, bu dövrün ədəbi dilində «budaq cümlə+baş cümlə» quruluşlu mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələr «baş cümlə+budaq cümlə» quruluş tipinə nisbətən üstünlük təşkil edir. Bu hal başqalarının dilində də var, lakin daha çox Qazinin dilində müşahidə olunur və şairin ümumxalq folklorundan bol-bol bəhrələndiyini göstərir. Məs.: İşbu eşq ***kim*** bəndə vardır, kimdə var? (Suli) Yürəgüm kirpügün alında sanasın, *Nəştəri* ***qanqı*** *tamara* ***ki*** *irişə,* ***qanı*** *tamər.*(QB) Bən hüsnün ilə canəmü camun ilə xaməm, Hər cam ***ki*** hüsnün ilədür xam gəliməz. (QB)

Abidələrin dilində üslubdan asılı olaraq fərqlər vardır. Şah İsmayıl Xətainin dilində bağlayıcı sözlərlə baş cümləyə bağlanan mübtəda budaq cümlələri analitik tipdən fəaldır.

Mübtəda budaq cümləsinin bu tipində bağlayıcı sözlərə müvafiq olaraq, baş cümlədə mübtəda vəzifəsində qarşılıq bildirən *ol* sözü (bəzən də *bu* sözü) olur və budaq cümlə vasitəsilə izah edilir:

Bağdadnı ***kim*** viran qıla bilür, ***Ol*** yenə bu viranı Bağdad qılur. (QB) ***Hər kim ki*** yaxılmaya bir günəşin odında, Bir quzda yata qar tək səyvana gəliməz ***ol.*** (QB) ***Kimün ki*** ola cismində can dirivü əql ölü, Oynayan ilə canın meydana gəliməz ***ol****.* (QB)

Daha əvvəlki mənbələrdə qarşılıq bildirən sözlərin az işlənməsi göstərir ki, bu model xalq dilində çox qədim dövrlərdən formalaşmışdır. Qarşılıq bildirən söz olmadıqda təsəvvür edilir.

**II tip.**Mübtəda budaq cümləsinin analitik tipində budaq cümlə baş cümlədən sonra işlənərək, ona ya yalnız intonasiya ilə, ya da intonasiya və *kim, ki* bağlayıcıları ilə bağlanmışdır.

Mübtəda budaq cümləsinin analitik tipi dil faktlarının zənginliyi ilə seçilən Qazi Bürhanəddinin dilində nisbətən az işlənmişdir. Bağlayıcı sözlü mübtəda budaq cümləleri ilə müqayisədə bu hal Nəsiminin dilində də belədir.

«Baş cümlə + budaq cümlə» quruluşlu mübtəda budaq cümlələrinin bir qismində budaq cümlə baş cümləyə yalnız intonasiya ilə bağlanmışdır. Sonrakı dövrlərlə müqayisədə belə cümlələrin daha çox nəzərə çarpması qədim dövrlərə getdikcə intonasiyanın aparıcı mövqeyi ilə bağlıdır. Qazinin, Nəsiminin dilində, İsanın «Mehri və Vəfa» məsnəvisində belə cümilələr diqqəti daha çox cəlb edir. Məs.: Nə l***ayiqdir*** bana, bunu bən geyim? (MV) ***On bir aydır***, çəkirüz bu cəfayı.(MV) ***Məlum olsun***, ey Xudavəndim, sana Uşbu kişilər güc eylədi mana. (MV) Nə ***rəvadır***, kişi kölgəsin qova? (MV) Bən ***neçə yildür***, bu dənizdə tururam. (Suli)

Qurbaninin və Füzulinin şeir dilində də bir sıra budaq cümlələr baş cümləyə yalnız intonasiya ilə bağlanmışdır: Hər dərd ki var, Leyli aldı, ***Məlumdurur,*** sənə nə qaldı. (Füz.) ***Bir rəsmi-qədimdir cahanda***, Sud istəyən istəmək ziyan da.(Füz.) ***Adətdi***, dərərlər yaz bənövşəni. (Qurbani) ***Səkkiz şeydi*** bu dünyanı tutubdu.(Qurbani)

Analitik tipə daxil olan bu cümlələrin tərkib hissələri arasına asanlıqla ***ki*** bağlayıcısını artırmaq olar. Bağlayıcı özünə yer edə bilmədiyi üçün tərkib hissələri intonasiya ilə əlaqələnən belə cümlələrdə komponentlərin öz yerini dəyişməsi tez-tez müşahidə edilir: Sərvün sala özgə kişiyə sayə ***rəvamı,*** Gün ki keçə sənsüz ömürə saya ***rəvamı***. (QB) Zülfün ilə cəmalüni buriyəsin ***rəvamıdur***. (QB) Sahibi kimdür anın, ***bilinmədi.***(MV)

Bu cümlələrin heç birinin baş cümləsində budaq cümlənin yerliyi – qəlibi işlənməmişdir, odur ki baş cümlələr yarımçıq cümlə şəklindədir.

«Dastani-Əhməd Hərami»nin dilində də intonasiya ilə baş cümləyə bağlanan budaq cümlələrdə aktuallaşdırma ilə əlaqədar komponentlərin yeri dəyişmişdir: *Rəvamıdır* bənim sözüm sıyasan? (DƏH) Məkanı qandadır *bilinmədi hiç*.(DƏH) – cümlələrindən birincisində müasir dil baxımından sıra normaldır. İkinci misalda normativ baxımdan tərəflərin yeri dəyişmişdir. Müasir dilimizdə də bu cür cümlələr işlənməkdədir. Bunlar ən qədim və ilkin variantdır, tiplər belə cümlələrdən yaranmışdır: *Bilmirəm, necə getdilər – Necə getdilər, bilmirəm*.

Bağlayıcılı cümlələrdə budaq cümlə baş cümləyə ***kim*** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır.

***Kim*** bağlayıcısı ilə: ***Bu*** nə işdir ***kim***, qılırsin, ay oğul? (Suli) *İkən xoş oldu* ***kim***, duymadı anı, Görüb ol zalımı ürkmədi canı.

(MV) Ləbi ki qana gəlüpdür yürəgümün qanına, *Rəvadurur **ki,*** cigərim qanına ol qanə. (QB) Yandırırsan könlümü eşqinlə, *məlum oldu **kim***, Ani risvayi-cəhan etmək dilərsən, etməgil. (Nəs.) Şəmirüxün hərarəti yandırır, ey qəmər, bizi, *Uşbu cəhətdən oldu **kim***, göylərə çıxdı dudumuz. (Nəs.) *Məsləhətdir **kim***, baxasan halinə, Verəsən Gülşahı Vərqə əlinə.(YM) Bağrımı bir qan edən vardır, *deyil məlum **kim***, Sən özünsən, ya sözündür, ya dəhandır, ya nədir. (Qövsi) *Gərək məlumunuz olmuş ola **ki***, aləmdə sənin vəsfi-camal və kamalın məşhur olubdur. («Şəhriyar»)

Əvvəlki dövrlərdə baş cümlədə əksərən qəlib sözdən istifadə edilməmişdir, ona görə də baş cümlə mübtədasız yarımçıq cümlə şəklindədir. Lakin Füzulinin «Leyli və Məcnun» poemasında ***kim*** bağlayıcılı cümlələrdə əksərən ***o, ol, bu*** sözləri baş cümlədə budaq cümlənin yerliyi kimi mütləq işlənməli olmuşdur; məs.: Məlum idi əhli-halə ***ol hal Kim***, nüsxeyi-eşqdir bu timsal.(Füz.) Ğəmipünhan məni öldürdü, ***bu*** həm bir ğəm ***kim,*** Gülrüxüm olmadı agah ğəmi-pünhanımdan. (Füz.) Şəhrdən səhrayə bir fərq olduğun hər kim bilir, Bilmiş ***ol kim***, eşq səhrasında sərgərdan deyil.(Füz.) Aləmdə sənə ***bu*** qaldı tədbir ***Kim***, Kəbəyə eltəsən əsirin. (Füz.) Ərbabi-kəmalə ***ol*** əyandır ***Kim***, hüsn ilə eşq tovəmandır. (Füz.) Ey gül, ***bu*** mənə deyilmidir nəng ***Kim***, olmayasan mənimlə həmrəng? (Füz.) Vəhdət rəvişində xoş deyil ***bu Kim***, dişrədə istəyəm nişanın. (Füz.) Səhv imiş ***ol kim***, səni biz əhli-irfan bilmişiz.(Füz.)

Füzulinin dilində *Fərz oldu **kim**, tey qılam büsatım, Qət edəm özümdən ixtilatım* (Füz.) – tipli baş cümləsi qəlib sözsüz cümlələr nisbətən azlıq təşkil edir.

***Ki*** bağlayıcısı ilə: Əmərsə tifli can nola ləbündən, *Zəmanlardur **ki,*** eşq ilə əməndi. (QB) *Hələ yazı idi **ki***, gəldi başa.(MV) *Rəyətə xoşdur **ki***, şah ədl eyləyə. (MV) Yiddi yildür ***ki,*** qaldum bundə bən. (Suli)

Analitik tip Nəsiminin dilində o qədər də işlək deyil. Yəni tam normalaşmış şəkildədir, lakin bağlayıcı sözlü cümlələr qədər aparıcı deyildir: *Rəvamıdır,rəvamıdır*, həbibi, ***Ki,*** oda yandırasan mən qəribi? (Nəs.) *Nə rəvadır**ki***, geyə cahilü nadan kəpənək. (Nəs.)

***Ki*** bağlayıcılı cümlələrin baş cümləsi əksərən ismi xəbərlidir: ***Xoşdur ki***, vüsalə dönsə hicran.(Xət.) Dəxi kimdən görərsən munca işlər***, Öz işidir ki***, munca işlər işlər.(Xət.) ***Xızr abi idi ki***,

nuş qıldım. (145) ***Xoş dəm ki***, bu cismü can qavışdı. (Xət.) ***Xoşdur ki,*** bulam vüsalə fürsət. (Füz.) ***Kimdir ki***, gəlib cahanə getməz. (Füz.) Leyli ***nə rəva ki,*** ola məcnun? (Füz.)

Baş cümləsi feli xəbərli mübtəda budaq cümlələri nisbətən az işləkdir: *Atasına müqtəzayi-adət* ***Fərz oldu ki***, onu edə sünnət. (Füz.) *Böylə* ***görünür ki***, aşinasan.(Füz.)

Füzulidə də, Xətaidə də belə cümlələrin bir qismində baş cümlədə ***o, bu*** qəlib sözləri zəruri üzvlər kimi işlənmişdir: ***Bu***, sözmüdurur ***ki***, eylədin nəql? (Xət.) Xoşdur ***bu ki***, talib ola mətlub. (Füz.) Billah, **bu** yamanmıdır ***ki,*** hala Əmvatə söz ilə verdim əhya? (Füz.)

Sonrakı dövrlərdə də ***kim*** və ***ki*** bağlayıcıları müvazi şəkildə işlənməkdə davam etmişdir. Bunlar intensiv işlənmə etibarilə yalnız müəllif üslubundan asılı olaraq fərqlənmişlər. Məsələn, Füzulinin dilində ***ki*** bağlayıcısı hələ işlənmə etibarilə ***kim*** bağlayıcısı ilə bərabərləşə bilməmişdir. Xətainin dilində isə ***ki*** bağlayıcılı mübtəda budaq cümləsi aparıcıdır. Həm də maraqlıdır ki, ***ki*** bağlayıcılı baş cümlələr ismi, ***kim*** bağlayıcılı baş cümlələr əksərən feli xəbərlidir.

«Baş cümlə + budaq cümlə» quruluşlu tabeli mürəkkəb cümlələr fikri genişləndirməyə, qarışıq tipli mürəkkəb cümlələrin poeziya dilində geniş yer tutmasına imkan yaratmışdır. Məsələn, Füzulinin:

Bir kimsə əgər olaydı agah
***Kim***, xəlqi necə yaradır allah,
Mümkün ***ki***, iradətilə ol həm
Xəlq edə bileydi özgə aləm. (Füz.) –

misraları bütövlükdə şərt budaq cümləli tabeli mürəkkəb cümlədən ibarətdir. Eyni zamanda hər iki komponenti mürəkkəbdir: budaq cümləsi tamamlıq, baş cümləsi mübtəda budaq cümləlidir.

Getdikcə ədəbiyyatın xəlqiləşməsi, xalq dilinə yaxınlığı Məsihinin əsərlərində, M.P.Vaqifin şeir dilində daha aydın görünür. Məsihinin dilində «baş cümlə + budaq cümlə» quruluş tipində intonasiya ilə baş cümləyə bağlanan mübtəda budaq cümlələri nəzəri daha çox cəlb edir. Belə cümlələrin baş cümləsində əksərən qəlib söz işlənmişdir: Xəlq içində ***bu*** məsəldürür faş, Min qarğaya bəs

atanda bir daş.(Məs.) Həqqa ki, ***bu*** nəqsidür kəmalə, Qafil olasan ev içrə halə.(Məs.) ***Üç aydır*** olmuşam həsari.(Məs.)

Bu cəhət, yəni asindetik cümlələrin üstünlüyü M.P.Vaqifin dilində də aydın müşahidə olunur. Belə ki analitik mübtəda budaq cümlələri şairin dilində daha çox intonasiya ilə baş cümləyə bağlanmışdır; məs.: ***Çox zamandır***, yarın həsrətindəyəm. (Vaqif) ***Xeyli vaxtdır***, yarın fərağındayam. (Vaqif) ***Şərt deyildir***, yatıb duram yanında. (Vaqif) ***Neçə gündür***, didarını görmənəm. (Vaqif) ***İgidlərə gərəkdir*** yaxşı ad aləmdə söylənsin. (Vaqif)

Məsihinin dilində ***kim*** və ***ki*** paralelliyi davam edir. M.P.Vaqifin xalq şeri üslubunda yazdığı əsərlərdə artıq ***ki*** bağlayıcısı tam üstün mövqedədir, lakin klassik şeir üslubunda yazdığı əsərlərdə ***kim*** bağlayıcısı öz müvazinətini saxlamışdır. Məsələn: Məlum olunur ***ki,*** ol münafiq Almış ələ nəqsi-əhdi-sabiq.(Məs.) Bir-iki gün idi ***kim,*** səfərdən Gəlmişdi o seyri-bəhrü bərdən.(Məs.) Bu neçə gündür ***ki***, səndən ayrıyam. (Vaqif) Gah olur ***ki,*** zülf gizləyib, xal bağlar. (Vaqif) Gah olur ***ki***, nazik əllər görünür. (Vaqif) Kakil nə rəvadır ***ki***, könüldən edə qeybət. (Vaqif) Ey oğlan, neçə gündir ki, sən özindən bixəbərsən və ağzından-burnundan köpük gəlür. («Şəhriyar»)

Nisbətən əvvəlki dövrlərdə *kim* və *ki* bağlayıcılarının paralel işlənməsi ilə əlaqədar konkret müşahidələr də mövcuddur. «Dastani-Əhməd Hərami» və İsanın «Mehri və Vəfa» məsnəviləri üzərində apardığımız müşahidələr göstərdi ki, «Dastani-Əhməd Hərami»də *kim* bağlayıcı və ədatı 83 dəfə, ***ki*** bağlayıcı və ədatı 56 dəfə işlənmişdir. «Mehri və Vəfa»nın dilində ***kim*** bağlayıcı və ədatı 98 dəfə, ***ki*** bağlayıcı və ədatı 50 dəfə işlənmişdir[1]. Heç şübhəsiz, bunlar müəllifin üslubu ilə bağlıdır. Lakin hər halda aydın olur ki, bu əsərlərin yazıldığı dövrdə ***ki*** bağlayıcı və ədat kimi işləklik etibarilə ***kim*** sözünə çatmasa da, sürətlə inkişaf prosesi keçirir. Bunu Qazi Bürhanəddinin dilindən danışarkən İ.E.Quliyev də müşahidə etmişdir: «H.Mirzəzadə yazır *ki,* XVIII əsrə qədər yazı dilində *kim* şəkli *ki*-yə nisbətən daha fəal olmuşdur.(66,67) Qazi Bürhanəddinin yüz qəzəlində (səh.30 – səh.75) apardığımız müşahidə göstərir ki, bu bağlayıcı ***ki*** şəklində daha çox işlənmişdir (*ki* şəklində 124 dəfə, *kim* şəklində 3 dəfə). Nəsiminin dilində isə bu bağlayıcı

---

[1] *Bax*: Q.Ş.Kazımov. Seçilmiş əsərləri, 1-ci cild, Bakı, «Nurlan», 2008, s.420-421.

***kim*** şəklində çox işlənərək, müxtəlif tabeli mürəkkəb cümlə tiplərinin komponentlərini əlaqələndirmişdir… Deməli, ***kim*** bağlayıcılı cümlələr daha qədim dövrlərdə təşəkkül tapmış və XIV əsrin ortalarında belə mürəkkəb cümlələr inkişaf edərək elə bir mərhələyə çatmışdır ki, artıq o zaman ***kim***-dən ***ki***-yə keçmə prosesi güclənmişdir»[1].

Baş cümlədə mübtəda budaq cümləsinin yerliyinin olub-olmamasına görə bu tipin özünü də iki növə ayırmaq olar. Cümlələrin bir qisminin baş cümləsində mübtəda vəzifəsində qəlib söz – işarə əvəzliyi işlənməmişdir. Az hallarda baş cümlədə qəlib sözə rast gəlmək olur.

Baş cümlədə ***bu*** sözü: ***Bu*** nə sözdür ***ki***, söylərsiz qatımda? (MV) Rövşən idi ***bu kim***, yüzin sevər idüm qədimdən. (QB)

Baş cümlədə ***ol*** sözü: Bu dürrün kanın ***ol*** buldu ***ki***, qərq oldu bu dəryayə. (Nəs.) Nurü səfa içindəyəm qərğə, vəli, bu haləti ***Ol*** nə bilir ***ki***, düşmədi mehri-rüxün havasinə. (Nəs.)

Baş cümlədə ***o*** sözü: ***O kimdi ki***, dünyaya gəlməmişdən Onların şəkili vardı behiştdə? (Qurbani) ***O nədi ki***, ildırımdan yeyindi? (Qurbani)

Müasir dilimizdə olduğu kimi, mübtəda budaq cümlələrinin bu növündə bəzən baş cümlənin xəbərində ***-mı,-mi, -mu,-mü*** sual şəkilçisi də işlənmişdir. Belə cümlələrdə ***-mı, -mi, -mu, -mü*** bağlayıcı vasitə olmayıb, sual məqsədi ilə işlədilir. Bu cür cümlələrdə də qayda üzrə, budaq cümlə baş cümləyə ya yalnız intonasiya, yaxud da *ki* bağlayıcısı ilə bağlanmışdır; məs.: *Sehrmiydi* ləbündə gördüm qan, Aşkara, şəha, qızıl yağısın (QB) *Məsləhətmidir*, bəni bunda qoyub Sən gedəsən, qılmayasan hiç yad? (YM) *Rəvamıdur ki, ləbün saldı işbu hala dili.* (QB) Ey oğul, *bəs olmazmı*, biz fəqirləri bu qədər atəşi-suzana yandurursan? («Şəhriyar»)

Analitik mübtəda budaq cümlələrinin bir qismində baş cümlə, müasir dildə olduğu kimi, zaman məzmununa malikdir; məs.: Bən ***neçə yildür***, bu dənizdə tururam. (Suli) ***Neçə gündür***, didarını görmənəm. (Vaqif) və s.

Əvvəlki dövrlərdə müasir dildən fərqli olaraq, bəzən xəbərlə *ki* bağlayıcı arasına başqa sözlər daxil olmuşdur. Təbii ki, burada şeir dilinin tələblərini də unutmaq olmaz; məs.: Ay ilə günəşi səni

---

[1] İ.E.Quliyev. Qazi Bürhanəddin dilinin sintaksisi, nam. diss., Bakı,2008, s.107.

görəli görməmişəm *Sən **rəva olamı** hər gecə **ki**, yılduz görəsin.* (QB)

Bu cümlə hazırkı normal sırada *Sən **rəva olamı** ki, hər gecə yılduz görəsin* – şəklində ola bilərdi və buradan aydın olur ki, bağlayıcı və ya ədat kimi işlənən ***kim*** və ***ki*** sözlərinin cümlədə yeri qədim və ilkin mərhələlərdə sabit olmayıb.

Belə düşünmək olmaz ki, XVIII əsr elə bir əsrdir ki, artıq ədəbi dil arxaik formalardan tam təmizlənmişdir. Bu dövrün ədəbi dili elə bir neçə əsr əvvəlki dildir, Qurbaninin, Tufarqanlı Abbasın dilidir. Lakin bu ədəbi dilin klassik üslubda yazan Füzulisi yoxdur, yalnız gözəlləmələrdən ibarət aşıq şerinin, el ədəbiyyatının yaradıcısı M.P.Vaqif var, M.V.Vidadi var. Elə buna görə də bir əsr sonra S.Ə.Şirvani yenə də eyni üslubu davam etdirir. Deməli, bədii dil ondan istifadə edənin ədəbi meylindən, xalq dilinə münasibətindən asılı olaraq qəlizləşə və ya sadələşə bilir.

Bura qədər nəzərdən keçirdiyimiz bağlayıcı vasitələr də, mürəkkəb cümlələrin quruluş tipləri də millidir, çox qədim dövrlərdən formalaşmış olan mübtəda budaq cümləsi yalnız səlisləşmə, zənginləşmə yolu ilə irəliləmişdir.

## XƏBƏR BUDAQ CÜMLƏSİ

Budaq cümlənin bu növünün müasir quruluş modelləri – bağlayıcı sözlü və bağlayıcılı formaları «Kitabi-Dədə Qorqud»un dilində artıq tam təşəkkül tapmış haldadır. Bağlayıcı sözlü tipi az işlənmişdir. Baş cümlədə zəruri üzv kimi, qarşılıq bildirən söz, yəni xəbər, təbii ki, həmişə işlənməli olmuşdur. Budaq cümlə baş cümləyə ***hər kim*** bağlayıcı sözü ilə bağlanmış, baş cümlənin xəbəri qarşılıq bildirən ***ol*** sözü ilə ifadə olunmuşdur:

***Hər kim** yedi**, ol degil**. **Hər kim** yemədi, **oldur.*** (47)

Dastanların dilində xəbər budaq cümləsinin ***kim*** bağlayıcılı analitik tipi daha fəaldır. Baş cümlənin xəbəri ***şoylədir, boylə oldı, budur, odur*** sözləri ilə ifadə olunmuş və budaq cümlə vasitəsilə izah edilmişdir: *Xanım, bu gün Bayındır xandan buyruq **şoylədir** kim, oğlı-qızı olmuyanı tənri-təala qarğayıbdır, biz dəxi qarğarız.* (34) *Mərə Dəli Domrul, allah-təalanın əmri **boylə oldı** kim, Dəli Domrul canı yerinə can bulsun, onun canı azad olsun.* (81)

*Yegrəgi* ***budur*** *kim, bunda qırılavuz.*(116) *Bunın müdarası* ***oldur*** *kim, Qazanı çıqaravuz, anlara bərabər edəvüz.*(120)

Mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələrdə müşahidə olunan bir cəhət - intonasiyanın yaratdığı imkanla, sərbəstliklə əlaqədar və ***ki*** bağlayıcısının hələ özünə möhkəm yer edə bilməməsi nəticəsində «Dədə Qorqud»un dilindəki analitik xəbər budaq cümlələrinin bir qismi tabesiz mürəkkəb cümlələrə çox yaxındır, hələ tərəflərin yeri tam sabitləşməmişdir; məs.: *Evin yağmalatdığın dəm Taş Oğuz bilə bulınmadı, səbəb oldur* (123) – cümləsi qoşulma əlaqəli tabesiz mürəkkəb cümləyə oxşasa da, ***səbəb oldur*** hissəsi zəif əlaqələnən baş cümlə funksiyasını yerinə yetirir. Dilin sonrakı inkişafı prosesində ***ki*** bağlayıcısı özünə yer etdikcə bu cür sərbəstlik aradan qalxrmış, analitik tip tam sabitləşmişdir.

Qazi Bürhanəddinin, Nəsiminin, Yusif Məddahın şeir dilində, «Dastani-Əhməd Hərami», «Yusif və Züleyxa» (Suli Fəqih), «Mehri və Vəfa» (Ümmi İsa), «Qisseyi-Yusif» (Qul Əli) məsnəvilərində xəbər budaq cümləsinin hələ «Kitabi-Dədə Qorqud»da və sonrakı klassiklərin əsərlərində tam müasir səviyyədə mövcud olan hər iki tipi geniş işlənmə imkanları ilə diqqəti cəlb edir.

**I tip.** Müasir Azərbaycan dilində «budaq cümlə+baş cümlə» quruluşlu, bağlayıcı sözlü xəbər budaq cümlələri rəngarəng xüsusiyyətləri, bağlayıcı vasitələrin zənginliyi ilə seçilir. Lakin ilkin abidələrin dilində xəbər budaq cümləsinin bu tipi, əsas qəlib qalmaqla, nisbətən az işlənmişdir.

Budaq cümlə baş cümlədən əvvəl işlənərək ona aşağıdakı bağlayıcı sözlərlə bağlanmışdır:

***Kim*** bağlayıcı sözü ilə: Ol Məhəmməd ***kim*** həbibi-həqq Rəsul(dur), ***Oldurur*** qamu nəbilərdən əsül. (MV)

***Kim (kimi)*** bağlayıcı sözü və şərt şəkilçisi ilə: Oğlum ***kimi sevsə***, gəlünim ***oldur.*** (Oğuz.)

***Kim (kimi)*** bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə: Könül ***kimi sevərsə***, görklü ***oldur***. (Oğuz.) Yerləri, gögləri ***kim yaratdısa***, ***Kim*** bu gögləri dürükəsüz (dirəksiz) ***tutdusa, Oldurur*** həm bəni dəxi yaradan. (Suli)

***Qanda*** bağlayıcı sözü ilə*:*Laməkandır, kimsə bilməz qandadır, Ola ***qanda*** istər isən, ***andadır***. (MV) *Qanda* bağlayıcı sözü tam arxaikləşmiş, *harda (harada)* sözü ilə əvəz olunmuşdur.

***Qanda*** bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə: Adam ***qanda isə,*** qədəm ***andadır***. (Oğuz.)

***Qanda*** bağlayıcı sözü, ***ki*** və ***isə*** ədatları ilə: Yoxdurur bəllü məqamı könülün ***Qanda ki isdərlər isə, andadur***. (QB)

***Nərədə*** bağlayıcı sözü ilə: Nigara, necə ki, irağ isən bini ana dur, Ki, *sən **nərədə** olursan yönümüz **ol yanadur***. (QB)

***Şol dəm ki*** bağlayıcı sözü və arzu şəkilçisi ilə: ***Şol dəm ki*** *xəyalün **gələ**, həccüm bənüm **oldur,*** İrərsəm ayağın tozına ol bana merac. (QB)

Misallardan göründüyü kimi, xəbər budaq cümləsi baş cümləyə ***kim, kimün ki, kimə***, ***qanda, qanda ki, nərədə, şol dəm ki*** bağlayıcı sözləri ilə bağlanmış, baş cümlədə qarşılıq bildirən ***oldurur, andadur, ol yanadur, oldur*** sözləri işlənmişdir.

***Kim*** ədatı ilə: Anun ***kim*** dərdi var, dərman ***anundur***, Anun ***kim*** sidqi var, iman ***anundur***. (Oğuz.)

***Qanda – harada, qanda ki – harada ki, nərədə – nə yerdə, şol dəm ki – o dəm ki*** şəklində fonetik dəyişmələrlə xəbər budaq cümləsinin qeyd etdiyimiz qəlibi ədəbi dilimizdə bu gün də işlənməkdədir. ***Kim, qanda*** və ***nərədə*** bağlayıcı sözləri ***ki*** ədatı olmadan da işlənmişdir. Müasir dildən fərqli olaraq, ***qanda ki*** bağlayıcı sözündə ***ki*** ədatı ola-ola, budaq cümlədə ***isə*** köməkçi sözü də var.

Sonrakı dövrlərin yazılı ədəbi dilində eyni qəlibdə xəbər budaq cümləsi təkmilləşmə yolu keçir, müasir bağlayıcı sözlərə daha çox meyil edir. Füzulinin poemalarında bağlayıcı sözlü xəbər budaq cümlələrindən az istifadə edilmişdir. Ümumən xəbər budaq cümləsinin bu tipi müasir dildə də nisbətən az işlənir. Füzulidə budaq cümlə baş cümləyə ***hər kim, hər kimdə ki*** bağlayıcı sözləri ilə bağlanmışdır. Ədat olmadıqda budaq cümlənin xəbərində ***–sa, -sə*** işlənmişdir. Baş cümlənin xəbəri ***oldur, oldurur*** sözlərindən ibarətdir: ***Hər kimdə ki*** vardır istitaət, Dərdü qəmü möhnətü qənaət, ***Oldurur*** bu müsafirətdə yarım. (Füz.) Cəm eyləyəlim gözəl çiçəklər. Çox dərməyə ***hər kim olsa*** qadir, ***Oldur*** bu sənəmlər içrə nadir. (Füz.) ***Hər nə*** sən buyurursan, əlbəttə, səlah ***ondadur***. («Şəhriyar») Vallahül-əzim, ***hər nə*** siz xəyal edərsiz, ***elə degil***. («Şəhriyar»)

Xəbər budaq cümləsinin bu tipi quruluş çətinliyinə görə az işlənsə də, sonrakı dövrlərdə də işlənməkdə davam etmiş və tarixi normanı ardıcıl olaraq mühafizə etmişdir; məs.: Kəs***sə hər kəs*** tö-

külən qan izini, Qurtaran dahi ***odur*** yer üzünü. (Cavid) ***Hər kim*** yüz il yaşama***sa***, Günah ***onun özündədir***. (Sarıvəlli)

Tarix boyu daim xəbər budaq cümləsinin analitik tipi daha işlək olmuşdur.

**II tip.** Baş cümlə əvvəl, budaq cümlə sonra işlənmişdir. Budaq cümlə baş cümləyə bəzən yalnız intonasiya ilə, əksərən ***ki*m** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır.

Əlinin «Qisseyi-Yusif», Suli Fəqihin «Yusif və Züleyxa» məsnəvilərində, «Dastani-Əhməd Hərami»nin dilində xəbər budaq cümləli tabeli mürəkkəb cümlə nisbətən az işlənmişdir. Təsadüf edilən cümlələrin tərkib hissələri intonasiya ilə əlaqələnmişdir. Baş cümlənin xəbəri ***budur, oldur*** sözlərindən ibarətdir: Tanrı ***oldur,*** ölüyi qılur diri. (Suli) Adəmi ***oldur ki,*** ol aşiq ola. (Suli) Dərtlü ***ol kim***, eşq sənə dərman ola. (Suli) Yegrəg ***oldur***, rəva görgil satılmağı.(QY) ***Budur*** qəsdim səni oda yaxam bən, İraqdan xoş tamaşana Baxam bən.(DƏH) Dügün eylədi, kəbin etdi aldı, Əcəb ***budur***, anı həm bikr buldı. (DƏH)

Əvvəlki abidələrdən Qazi Bürhanəddinin dilində də xəbər budaq cümləsinin baş cümləyə intonasiya ilə bağlandığı hallar az deyil; məs.: Kişi ***budur*** qaşınun key bizi oxa dikər, Gər bulur isə səfa qurban içindür qoçaq. (QB) Aşiq ***oldur*** bişürə canü dilin (QB) və s.

Bu cəhət eyni şəkildə Nəsiminin dilində də davam edir: Aşiq ***oldur*** canını qıldı fəda dildarına.(Nəs.) Zəmirim, niyyətim ***oldur***, qaçan fal açaram sənsiz. (Nəs.) «Mehri və Vəfa» məsnəvisinin dilində də tərkib hissələri əlaqələndirən əsas vasitə intonasiyadır, bağlayıcıdan az istifadə edilmişdir; məs.: Yegrəgi ***oldur***, bunı boğazlayam. (MV) Yegrəg ***oldur,*** buna dəxi səbr edəm, Varım uşbu zəngilər ilə gedəm.(MV) Yegrəg ***oldur,*** bu tərtibi yaxam. (MV) Yegrəg ***oldur***, varam ardınca gedəm. (MV)

Sonrakı dövrlərdə – Xətainin, Qurbaninin, Füzulinin, Məsihinin, Vaqif və başqa poeziya ustalarımızın dilində də, üslubdan asılı olaraq, xəbər budaq cümləsinin intonasiya ilə qurulan analitik tipi nəzərə çarpacaq dərəcədə işlənmişdir; məs.: Uş muradım səndən, ey şəha, ***budur:*** Həmdəmi-məcuri hurizad qıl.(Həq.) Məqsudim ***oldur*** ləbindən kam alım. (Həq.) Mürid ***oldur***, ola əhli-iradət Hər işdə var ala pirdən icazət.(Xət.) Əhdim ***budu***, bir də yarı görəm

mən.(Qurbani) Qorxum ***budu***, xoryat bağdan gül üzə.(Qurbani) Arif ***oldur*** bilməyə dünyavü mafiha nədir.(Füz.) Zira ki, nisibi-hüsni-qabil ***Oldur***, ona aşiq ola mail.(Füz.) Dövri-fələgin ***budur*** mədari, İqraridə yoqdurur qərari.(Məs.) Meylim ***budur*** olmuyam fəramuş.(Məs.) Meylim ***bu,*** gedəm Səlim şahə, Salam özümü o bargaha.(Məs.) Molla ***odur*** hər nə görsə kitabda, Onu şərh eyləyə haqda-hesabda.(Vaqif) Arzum ***budur,*** gözüm tikəm gözünə. (Vaqif) Həmişə ***bu idi*** fikrü xəyalım, İkimiz bir yerdə həmdəm olalım. (Vaqif) Vaqifa! Əsli ***budur,*** mən bu binadan küsmüşəm. (Vaqif)

Misallar göstərir ki, harda ki canlı danışıq dilinə, xalq dilinə meyil güclüdür (Qurbanidə, Vaqifdə olduğu kimi), intonasiya ilə qurulan cümlələr də üstünlük təşkil etmişdir. Lakin ilkin mərhələdə intonasiyanın üstünlüyü ***kim, ki*** bağlayıcılarının hələ yazılı dildə bugünkü qədər özünə yer edə bilməməsi ilə əlaqədardır.

***Kim*** və ***ki*** bağlayıcıları paralel şəkildə xəbər budaq cümləsini baş cümləyə bağlamaqda davam edir. Sonrakı dövrlərə yaxınlaşdıqca hiss olunur ki, faktik olaraq, canlı tələffüzdə ***ki*** bağlayıcısı əsasdır, lakin klassik poeziya ənənələri ***kim***-dən yaxa qurtarmağa imkan vermir.

***Kim*** bağlayıcısı ilə: Məqsudum ***oldir kim***, sənə irəm, Sənin ol qutlu camaluni görəm. (Suli) Bəllü ***budur kim***, dəva içün cəvab idər bu dəm.(QB) Baxəbərdən xəbər dutaruz ümid, Xəbər ***oldur ki,*** ola bixəbərə.(QB) ***Budur*** şol müşkil ayət ***kim***, üqudi bizəban etdi.(Nəs.) ***Budur*** şol abi-heyvan ***kim***, ləbində həq nəhan etdi. (Nəs.) Dildə bu ***oldu ki***, dildarım qanı?(MV) İyliginə ***bumudur*** əvəz anın ***Kim,*** olasan xayin sahibi-mərdin.(YM) Xani-visalından anın fikrim ***budur kim***, yarıyam.(Hid.) Hüsnü cəmal içində həmin eybiniz ***budur Kim***, mən şikəstə halinə yox iltifatınız.(Kiş.) Səri-zülfi-siyaşın haq ***bu kim***, yekdanə sünbüldür.(Ruhi) Bəla ***bu kim***, nə sağəm mən nə bimar. (Bəs.) Aşiq ***oldur kim***, qılır canın fəda cananına.(Füz.) Ey müsəlmanlar, xoş ***ol kim***, yarı nadan olmaya. (Vaqif)

***Ki*** bağlayıcısı ilə: Gözəl ***oldur ki,*** məlahətlü ola. (Suli) Nazik ***oldur ki,*** nə ki zülfi qulağına deyə Mubəmü cümləsini könlümə təqrir qılur.(QB) Qıldı fəna vücudumu küll kərim ilə kəlam, Zərqihəsən ***budur ki***, şah səndən bu gün gədayinə.(Nəs.) Surətdə adəm oğlunu, mənidə div olan ***Oldur ki***, həqqi tanımamış, aşina degil. (Nəs.) Məqsudum ***oldur ki***, qələni görəm. (MV) Bu dün ***oldur ki,***

fəxri-aləm Ba-həzrəti-laməkan qavışdı.(Xət.) Leyliyi sənə verərlər, əmma Şərti ***bu ki***, olasan xirədmənd. (Füz.) ***Budur*** qərəzim ***ki***, dustü düşmən Görsün səni eyləyəndə şivən.(Füz.) Mərd ***odur ki,*** işin tuta mərd ilən. (Qurbani) Qorxum ***budurur ki,*** zilli-idbar Hicrə məni eyləyə giriftar. (Məs.)

Bəzən qəlib sözlə ***ki*** bağlayıcısı arasına başqa sözlər daxil olmuşdur. Bu yalnız poeziyanın tələbləri ilə bağlı olmayıb, bağlayıcının xəbərdən sonra tam sabitləşməməsi ilə də bağlıdır. Məs.: Hilal olmuş qaşı ***budur*** əcayib, ***Ki,*** yoxdur bədrinün hərgiz mühaqi. (QB) Xətayimidürür gözün nigarına əcəb çindən, Səvab ***oldur*** könülə ***ki,*** oxı çıxmaya içindən. (QB) Zikri ***budur*** dilində ***kim,*** va zərqü va təzvirimiz. (Nəs.) Cəmşidi-aləm ***oldur*** mənidə, ey qəmər ***kim,*** Fərxəndə surətindir cami-cahannüması. (Nəs.) ***Oldur*** bu gecə ***ki***, əhli-iman Uçmağilə cavidan qavışdı. (Xət.) ***Budur*** qərəzim ***ki***, cavidani Adın tuta ərseyi-cahani. (Füz.) ***Budur*** fərqi, könül, məhşər gününün ruzi-hicrandan ***Kim***, ol can döndərər cismə, bu, cismi ayırar candan.(Füz.)

Sonrakı dövrlərdə bu hal zəifləmişdir, bağlayıcı əksərən baş cümlədə qəlib sözdən – xəbərdən sonra işlənmişdir.

Baş cümlənin xəbəri, yəni budaq cümlənin baş cümlədə qəlibi, başlıca olaraq, aşağıdakı vasitələrlə ifadə olunmuşdur:

***Ol, oldur*** sözləri ilə: Müəzzin ***oldur ki***, vəqt ilə banlaya. (Oğuz.) İnsan ***oldur ki***, kəndüyə güc gətürməyə.(Oğuz.) Məqsudum ***oldir kim,*** sənə irəm. (Suli) Bən eyd edərəm hər gecə gisuları ilə Dəgnək gözi bizdən diləgüm ***ol ki,*** bəid et. (QB) Günahım ***ol ki,*** anı sevmişəm bən, Günaha həm günah olur kəfarə.(QB) Arif ***oldur ki***, bulımaz yar qatında özini.(QB) Adəm ***oldur ki,*** andan əsrük ola, Ayığ olanlara uyux deyəlüm. (QB) Dərdüm ***oldur ki,*** totağuna irəm, İrürəm dərdi bu dəvaya qanı. (QB) Aşiq ***oldur ki,*** qayıtmaya yedigi yarədən.(Nəs.) Aşiq ***oldur kim***, qılır canın fəda cananına. (Füz.) Yoldaş ***oldur kim,*** qara günlərdə yoldan çıxmasın. (Saib) Xoş ***ol ki***, xələfdən ola xoşdil.(Füz.) Qorxum ***oldur ki***, sabah ağ düşə saqqal içinə. (Vaqif)

Bu forma klassik ədəbiyyatın dilində işlək formalardandır.

***Ol*** sözü ***–durur*** şəkilçisi ilə: Gözi yürəgi qanadur, bən ləbini qanadayım Çünki şəriət ***oldurur ki***, qana yenə qan gərək. (QB) Kimdə ki varlığı qarışa qəlb ola yəqin Saf ***oldurur ki***, aşiqi mala kəlam ola. (QB)

***O*** sözü ilə (bu söz ***-dır*** xəbərlik şəkilçisinin və ***idi*** köməkçi sözünün iştirakı ilə dəyişmişdir): Dilbər ***odur ki,*** sözləri sözdə şükürəfşan ola. (Ruhi) Qorqum ***odur ki,*** nagəhan bir gün arada qan ola.(Ruhi) Mərd iyid ***odu ki***, dediyin tuta. (Qurbani)

***Onadır*** sözü ilə: Yazıq ***onadır ki***, dəsti boşdur.(Xət.)

***Bu*** sözü ilə***.*** ***Bu*** sözü ***budur*** şəklində xəbərlik şəkilçisi ilə işləndiyi kimi, -***durur*** şəkilçisi ilə və şəkilçisiz də işlənmişdir.

*Xəbərlik şəkilçisi* ***–dır*** *ilə*: Gözləri qəmzə oxı ilə adəm öldürür, Şirin ***budur ki,*** ləli qılur qan bixəttihi. (QB) Nigara, hurimisin pərünün bu fərrü yox, Əcəb ***budur ki***, fəriştəyə bənzər adamzad. (QB) Təng idi ləbün söyləməyəli könülümi, Qorxum ***budur*** öksüzə ***ki,*** bir qan edə ləlün. (QB) Eşq atəşinə ***budur*** əlamət ***Kim***, baş çəkə şöleyi-məlamət. (Füz.) ***Budur*** kərəmindən iltimasım ***Kim,*** tutasan öldüyümdə yasım. (Füz.) ***Budur*** rəhü rəsmi ruzigarın ***Kim***, ola xəzanı hər baharın. (Füz.)

***Bu*** sözü ***-durur*** *şəkilçisi ilə:*Çü fürsətün dəmi irə dəmin dəminə qoma, Ki dəhr işi ***budurur ki,*** yarənləri ayıra. (QB) Səndin ***budurur*** ümidi- məqsud Ol şövqə müdam zövqüm artur.(Məs.)

***Bu*** sözü şəkilçisiz: Müşkülə düşdügüm ***bu ki***, zülfünə şanə gəlmişəm.(QB) İşbu xəyalə qalmışam ki, beli tək xəyal olam, Sevda başumda zülfi tək ***bu ki,*** irəm visalinə.(QB) Gözündurur bu dərdümə dərman biaynihi, Dərdüm ***bu ki***, verəm gözünə can biaynihi. (QB) Üçüncü ***bu kim***, qalırsa xoşdur Bu dünyada hər kimin nişani. (Xət.) Qəsdim ***bu ki***, eyləyəm məni-zar Evdən-evə seyr Müştərivar.(Füz.) Qorxum ***bu ki,*** özgə ola halım, Dünyada nə mən qalam, nə malım.(Füz.) Dərdim ***bu ki***, şərmsarəm ondan.(Füz.) Dur olduğuçun səndən cürmüm ***bu ki***, Ruhivəş Vəsfində keçər ömrüm, şair qulunam, cana!(Ruhi) Səri-kuyinə bəla ***bu ki***, gedən lal gəlür. (Ruhi) İkinci ***bu kim***, olanda qəmgin Bu könlünün ola mehribani.(Xət.) Şərtim ***bu ki,*** gər gəlürsə Vərqa, açub yüzünə dəri-təmənna, Mərhəm qoyuban dili-fikarə, Tapşurayim anda yari yarə.(Məs.) Yegrək ***bu ki***, edəlim ərusi, Salub işə təblü nayü kusi.(Məs.) Qorxum ***bu ki,*** nagah əcəl alğay nəfəsim. (Əmani)

Mənbələrdə ***ol, şol, bu*** qəlib sözlərindən sonra xəbər şəkilçisinin işlənməməsi əksərən vəznlə bağlı olmuşdur.

***Budur, bu idi*** formaları ilə: İyliginə ***bumudur*** əvəz anın ***Kim***, olasan xayin sahibi-mərdin.(YM) Həmrahlığın ***bu idi***, ey yar, ***Kim,*** qılmıyasan məni xəbərdar.(Məs.)

Bu formanın ***deyil*** inkar ədatı ilə inkarına da rast gəlmək olur: Həqqa ***bu deyildir*** etiqadım ***Kim***, hasil edəm mən öz muradım. (Füz.)

***Şol, şoldur*** sözü ilə: Məğsudum ***şol kim,*** səni qucam, öpəm. (Suli) Tuza axar gibi axar könüllər zülfinə anun Zəhi insafsuz ***şol ki***, bəni mən edə tuzumdan. (QB) İstiqamət bana ***şoldur ki,*** görəm qamətüni Gözüni görməyicək bana səqamət gözükür. (QB)

***Şöylədür*** sözü ilə: Xəyalün bəndə ***şöylədür ki,*** qan alur olur isəm, Üşənürəm qanalıcı seçiməyə sizi bizdən. (QB)

***Şundadır*** sözü ilə: Dövlət dəxi ***şundadır kim***, anda xətər vardur. (QB)

***İşbudur*** sözü ilə: Sözüm ***işbudur ki,*** sizə aydurəm. (Suli)

Bəzən baş cümlənin xəbəri ***ol*** işarə əvəzliyi ilə yarımmüstəqil ***olmaq*** felinin birləşməsindən ibarətdir: Bu gecə dilbərümün gisusı şəbgir qılur, Diləgi ***ol olamı*** dilləri nəxcir qılur. (QB) Çox kişi bu dünyada deyə eşqə əsirəm Aşiq ***ol ola,*** gösdərə eşqinə nişana. (QB)

Məsihi ***kim*** bağlayıcısından az istifadə etsə də, -***dır*** əvəzinə ahəngə uyğun olaraq arxaik ***durur*** şəkilçisinə daha geniş yer vermişdir: Qorxum ***budurur*** o gül üzarın ***Kim***, anın ilə keçər mədarım, Bu ülfəti-mən ola aradə.(Məs.) Qorxum ***budurur ki***, surəti-hal Ədayə verə kilidi-iqbal. (Məs.)

Xətai, Füzuli, Məsihi və Vaqifin dilində xəbər budaq cümləsinin analitik tipi işləkdir.

## TAMAMLIQ BUDAQ CÜMLƏSİ

Müasir ədəbi dilimizdə olduğu kimi, «Kitabi-Dədə Qorqud»-un dilində də tamamlıq budaq cümləsi çoxişlənən, bağlayıcı vasitələrinin zənginliyi ilə seçilən budaq cümlə növüdür. ”Dədə Qorqud”un dilində hər iki tipi fəaldır; məs.: ***Hər nə*** *iş ol**sa**, Qorqud ataya tanışınca işləməzlərdi.* ***Hər nə ki*** *buyursa, qəbul edərlərdi, sözin tutub təmam edərlərdi.*(31) *Dilədi* ***ki****, oğlanı həlak qılaydı. Yəqin bildi* ***kim,*** *oğlan kafərə tutsaqdır*(74) - cümlələrindən əvvəlki ikisi bağlayıcı sözlü, sonrakılar bağlayıcılı cümlələrdir. Əvvəlki iki misalda budaq cümlə baş cümlədən əvvəl işlənərək ona ***hər nə, hər nə ki*** bağlayıcı sözləri və ***-sa*** şəkilçisi ilə, sonrakı misallarda

baş cümlədən sonra işlənərək ona ***ki, kim*** bağlayıcıları ilə bağlanmışdır. Əvvəlki misalların baş cümlələrində qarşılıq bildirən söz olmadığı kimi, sonrakılarda da qəlib söz işlənməmişdir.

Bağlayıcı sözlü cümlələrdə budaq cümlə baş cümləyə yuxarıdakılardan əlavə, ***kimün ki, nə yerdə, anun kim, hər kim, kimi*** bağlayıcı sözləri ilə də bağlanmışdır. Budaq cümlələrdə ***ki*** ədatına nisbətən ***-sa,-sə*** şəkilçisi fəaldır; məs.: ***Kimün ki*** *oğlı-qızı yoq, qara otağa qondurın...* (34) ***Nə yerdə*** *gözəl* ***qopdısa,*** *çəküb aldı.*(37) ***Kimə baqsa****, eşqilə oda yaqar.*(88) ***Nə yerdə*** *sırılur* ***varsa,*** *çəkən bilür.* (32)

Eyni quruluşlu cümlələrin bir qisminin baş cümləsində qarşılıq bildirən ***ana, anı*** sözləri müşahidə olunur: ***Anun kim*** *oğlı-qızı* ***olmuya,*** *tənri-təala* ***anı*** *qarğayıbdur, biz dəxi qarğarız.* (35) "***Hər kim*** *ol üç canvəri* ***basa-yensə, öldürsə,*** *qızımı* ***ana*** *verərəm" deyü vədə eyləmişdi.* (85) ***Hər kim*** *ol üç canvəri* ***basa,*** *ol qızı* ***ana*** *verirlər.. Gözün* ***kimi tutarsa,*** *könlün* ***kimi sevərsə, ana*** *vargıl.* (112)

Qarşılıq bildirən söz yiyəlik halda olduqda ikinci tərəflə birlikdə üzv olur: (*Hər kim) Basub öldürməsə,* ***anun başını*** *kəsirlər, bürcə asarlar* (86) - cümləsində ***anun başını*** birləşməsi tamamlıq olduğu üçün cümlə tamamlıq budaq cümləlidir.

Tamamlıq budaq cümləsinin analitik tipində budaq cümlə baş cümləyə ***kim*** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır. Az hallarda baş cümlədə qəlib sözə rast gəlmək olur: *Qazan, oğlan avda idügin* ***andan*** *biləyin* ***kim****, yorğun atunla, güdəlmiş cidanla ardına düşəsən.*(74) *Beyrək baqdı gördi* ***kim****, kiçi qız qarındaşı binardan su almağa gəlür...*(60) *Əzrayilə buyuruq elədi* ***kim****, ya Əzrayil, var, ol dəxi dəli qavatın gözinə görüngil.*(79) *Qanturalı bildi* ***kim****, bu yağı basub tağıdan Selcan xatundur.*(92) *Dəpəgöz də bildi* ***kim****, Basat dəri içindədir.*(101) *Gələnlər bildi* ***kim****, bunlar Oğuz ərənlərindəndir.*(116) *Dəpəgöz bildi* ***kim****, Basat mağaradadır.*(101) *Dəli bəg dilədi* ***ki****, Dədəyi dəpərə çala.*(56) *Böylə digəc qız tanıdı-bildi* ***ki,*** *Beyrəkdir* (65) və s.

Tamamlıq budaq cümləsinin analitik tipi əksərən baş cümlənin feli xəbərini izah edir, az hallarda ismi xəbərlə də əlaqələnmişdir: ***Xəbəri yoq k****i*, alacağı ala gözli qızın otağı olsa gərək. (54)

Baş cümlələrin xəbəri daha çox görmə, eşitmə və nitq felləri ilə ifadə olunmuşdur. Bu cəhətdən «Dədə Qorqud»un dilində ***görmək*** feli daha fəaldır: ***Gördi kim***, uçarda quzğun, tazı tolaşmış,

yurtda qalmış. (44) ***Gördi kim***, bir dərənin içində toz gah dərilür, gah tağılur.(91) ***Qanturalı baqdı gördi kim,*** bir kimsənə yağıyı öginə qatmış, qovar.(91) ***Gördi kim***, pəri qızları qanat-qanada bağlamışlar, uçarlar.(98) ***Gördilər kim***, bir ibrət nəsnə yatur.(98) Qapaq qaldırdı. ***Baqdı gördi kim,*** gözi ətdir.(101) ***Gördi kim***, yüzük genə Dəpəgözün ayağı altında yatur.(101) ***Gördi kim***, ilqıçı kafərlər yund güdərlər.(113) ***Gördi kim***, belində qopuzı var.(113) ***Baqdı gördi kim***, ayun on dördinə bənzər bir məhbub, ala gözlü gənc yigit burcuq-burcuq tərləmiş uyur.(113) ***Qazan gördi kim,*** ləşgər ögincə bir ağ-boz atlu, ağ ələmlü bəg dəmür tonlu Oğuzun ögincə gəldi.(120) ***Baqdı-gördi ki***, bir sultan simüz sığın-keyikdir.(54) ***Məsləhət gördülər ki,*** Dədə Qorqud varsun. (55) ***Xan qızı gördi ki***, Qazan gəlür (91) və s.

Misallarda ***kim*** bağlayıcılı cümlələr üstünlük təşkil edir.

Dastanların dilində baş cümləyə intonasiya ilə bağlanan tamamlıq budaq cümlələri daha fəal, daha işləkdir: “kim”, “ki” bağlayıcıları tərkib hissələr arasında möhkəmlənmədiyi və tərkib hissələrin yeri sabitləşmədiyi üçün baş və budaq cümlələrin yeri sərbəstdir, aktuallaşdırma əsasında eyni tipli baş cümlə əvvəl də işlənə bilmiş, sonra da işlənmişdir[1]. Məsələn, dastanın eyni səhifəsində (46) eyni cümləyə həm ***Qanğısıdır, bilmədilər***, həm də ***Bilmədilər, qanğısıdır*** şəklində təsadüf edilir. Yaxud: ***Bəglər, mən sizi niyə qağırdım, bilürmisiz?*** (124) ***Bilürmisən, səni niyə qağırdıq?*** (124) Ona görə də sonralar “baş cümlə+budaq cümlə” şəklində sabitləşən tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələri iki qrupa ayırmaq olar.

a)budaq cümləsi baş cümlədən sonra işlənənlər: ***Görürmisən,*** nələr oldı? (35) ***Bəglər, bilürmisiz***, Qazana necə heyf eyləmək gərək?(46) ***Gördi*** gög çayırın üzərinə bir qırmızı otağ dikilmiş. (54) ***Gördi***, dügündə göygü ox atar.(63) ***Xanım baba, qorxuram***, səgirdərkən Qonur atın sürücdirəsən.(74) ***Gördinmi*** mən mana netdim? (86) ***Gördi*** bənzi sararmış, dilbəndi boğazına keçmiş. (105) ***Gördilər,*** bir süri qaz oturar. (116)

b) budaq cümləsi baş cümlədən əvvəl işlənənlər: Xan qızı, səbəbi nədir, ***degil mana!*** (35) Mərə qavat, muxannatlıq ilə ər öldürmək necə olur, ***mən sana göstərəyim***.(126) Qalqubanı yerimdən

---

[1] *Бax:* Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, «Ünsiyyət», 2000, s.347.

turam, ***derdim.*** Qalın Oğuz içinə girəm, ***derdim***.(73) Nərmidir, mayamıdır, ***anı bilsəm***.(97) Qara tonuz tamında yatur, ***degil.*** (75) Qarusından ağ əllərin bağlan, ***demiş***.(106) Qəl'ənüzdə tutsaq varmıdır, kafər, ***degil mana!***(114) Qazana düşmən imişsən, ***bildim***. (123)

Tədricən bu cür cümlələrdən "a" bəndində olanlar bağlayıcı ilə sabitləşmiş, "b" bəndində olanların bir qismi (Xan qızı, səbəbi ***nədir, degil mana!*** (35) Mərə qavat, muxannatlıq ilə ər öldürmək ***necə olur***, ***mən sana göstərəyim*** və s.) bağlayıcı sözlü cümləyə çevrilmiş və tiplər müəyyənləşmişdir. Canlı danışıq dilində bu formalar hazırda da qalmaqdadır.

Dastanların dilində tamamlıq budaq cümləsinin baş cümlənin daxilində işləndiyi hallar da var: Hey, hey, dayələr, babam mana bən səni yüzi niqablu Beyrəgə vermişəm, diərdi.(54) - cümləsində budaq cümlə (*bən səni yüzi niqablu Beyrəgə vermişəm*) baş cümlənin (*babam mana diərdi*) daxilində yerləşmişdir.

Sonrakı abidələrin dilində tamamlıq budaq cümləsinin hər iki tipi paralel şəkildə inkişaf etmişdir.

**I tip.** Tamamlıq budaq cümləsinin «budaq cümlə + baş cümlə» quruluş tipində budaq cümlə baş cümlədən əvvəl gələrək ona bağlayıcı sözlərlə bağlanmışdır. Baş cümlədə qarşılıq bildirən ***o*** sözü ismin yönlük, təsirlik, yerlik və çıxışlıq hallarından birində olur. Qarşılıq bildirən söz olmadıqda təsəvvür edilir. Məs.: ***Ol*** küp içində sümüklər vardurur, At, qatır, qoyun, dəxi davardurur, Tapşurun ortancı oğlana ***onı***.(MV) Ol gecə ***nə*** buldu yarilən hal, Dilim deyəməz süfati-əfal.(Xət.)

Bu misallardan birincisində budaq cümlə baş cümləyə ***ol,*** ikincisində ***nə*** bağlayıcı sözü ilə bağlanmışdır**.** Birinci misalın baş cümləsində qarşılıq bildirən ***onı*** sözü işlənmişdir. İkinci misalda qarşılıq bildirən söz yoxdur, ***onı*** sözünü artırmaq olar. «Dədə Qorqud»da olduğu kimi, «Mehri və Vəfa» məsnəvisinin dilində də belə cümlələr çox zəngindir. Bu əsərin dilində bağlayıcı sözlü tamamlıq budaq cümlələrinin ən ibtidai tipinə rast gəlmək mümkündür. Yuxarıdakı misallarda olduğu kimi, budaq cümlədə ***ol*** bağlayıcı sözü, baş cümlədə qarşılıq bildirən ***onı*** sözü.

Dövrün abidələrinin dilində əksərən bağlayıcı söz ***kim*** və ya ***ki*** ədatı ilə birgə işlənmişdir: ***Nə kim*** Əhməd hərami dedi şahə,

***Qamu*** ərz eylədilər padişahə. (DƏH) ***Hər nə ki*** dilərsən, istə məndən. (Füz.)

Birinci msalda ***nə*** bağlayıcı sözü ***kim*** ədatı, ikinci misalda ***hər nə*** bağlayıcı sözü ***ki*** ədatı ilə birgə işlənmişdir.

Bağlayıcı sözdə ***kim/ki*** ədatlarından biri olmadıqda budaq cümlənin xəbərində şərt şəkilçisi ***(-sa,-sə***) və ya ***isə*** şərt ədatı (ya bütöv, ya da ixtisar formasında) işlənmişdir: ***Hər kimi görsəm,*** soraram xəbərin.(MV) Ey beli qıl, Ta ki*,* ***nə*** qıla ***bilür isə, anı*** cana qıla. (QB)

Abidələrin dilində ***kim*** və ***ki*** ədatları ilə işlənən forma üstünlük təşkil edir. Lakin bəzən həm ədat, həm də ***–sa, -sə*** (və ya ***isə)*** birlikdə işlənmişdir: ***Hər kəsi ki*** gör***sə***n, şikayət eylə!(Vaqif) ***Nə ki*** hüsnündə yazdı ***isə*** xəttün Könül lövhində biz oxıruz əzbər. (QB)

Bu forma müasir ədəbi dilimiz üçün arxaikləşmişdir. Çünki üç vasitə (bağlayıcı söz, ***ki*** ədatı və şəkilçi) birlikdə nitqi ağırlaşdırır, fikrin çevik ifadəsinə imkan vermir.

Abidələrin dilində tamamlıq budaq cümləsi aşağıdakı bağlayıcı sözlərlə (ədatlı və ya ədatsız) baş cümləyə bağlanmışdır.

***Kim*** bağlayıcı sözü: ***Kim*** munu oxur, yazarü dinlər, Həq lütfilə yarlığasun ***ani!*** (Xət.)

***Kim*** bağlayıcı sözü və şərt şəkilçisi ***-sa,-sə: Kim desə*** mənə ki, aşiq oldum, Rüsvayi-dili xəlayiq oldum, «Əbləh» deyibən gülərdim ***ona.*** (Xət.) ***Kim eyləsə*** seyri-bağə adət, Sər sayeyi-sərvdən fərağət, Hala ***ona*** məskən ola gülxən. (Məs.) ***Kim dutsa*** xilafi rəsmü adət, Gümrah ***ani*** eyləmiş şəqavət.(Məs.)

Birinci misalda *«Əbləh» deyibən gülərdim* ***ona*** hissəsi baş cümlə, qalan hissəsi tamamlıq budaq cümləsidir. Tamamlıq budaq cümləsi isə şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir.

***Kim*** bağlayıcı sözü və ***isə (-sa,-sə): Kim eşək olursa***, biz səməriyüz. (Oğuz.)

***Kim k***i bağlayıcı sözü: Canın canana tərk edən birini binə dəgşürdi Canını ***kim ki*** tartındı, yenə ***ana*** ziyan oldı. (QB)

***Kim ki*** bağlayıcı sözü və şərt şəkilçisi ilə: ***Kim ki*** mənə ***yoldaş olsa,*** eylərəm divanə mən. («Şəhriyar»)

***Kimi kim*** bağlayıcı sözü: ***Kimi kim*** bivəfa dünyada gördüm, bivəfa gördüm. (Füz.)

***Kimi*** bağlayıcı sözü və şərt şəkilçisi: ***Kimi sevsən***, ***onunla*** həm qoparsan. (Xət.)

***Kimsə*** bağlayıcı sözü və ***isə***: Gər ***kimsə*** deyər***sə***, qılma bavər. (Füz.)

***Nə*** bağlayıcı sözü: ***Nə*** verirsün, qəbul edərüz ***ani.*** (Suli) ***Nə*** kişidir, gətiriniz görəyim. (DƏH) Quzum dəxi ***nə*** der, bir görəyin der. (DƏH) Malik aydər: ***Nə*** sözün var, söyləgil. (Suli) ***Nə*** buyursan sən, bən ***anı*** qılam imdi.(QY) Ey qarı, sən ***nə*** bilürsən, eylə. («Şəhriyar»)

***Nə*** bağlayıcı sözü və ***arzu şəkilçisi: Nəni*** ol ***buyura***, siz ***ani*** tutun. (Suli) Hər yerdə ***ola nə*** cins faxir, Cəm eylədi cümlə ol əkabir.(Məs.)

***Nə*** bağlayıcı sözü və ***isə*** şərt ədatı: ***Nə*** dənli mal ***dilər isə*** verəyim.(DƏH) Buyur ***nə*** qulluğun ***varsa***, edəlim.(DƏH)

***Nə kim*** bağlayıcı sözü: ***Nə kim*** etdin bənim haqqımda ehsan, Əvəz verə sənə ol yuca sübhan.(DƏH) Qulağında ***nə kim*** var idi cövhər, Xoca Rüstəmə cümlə bəxşiş etdi.(DƏH) ***Nə kim*** sən bənə etdin, bən edəyin. (DƏH) ***Nə kim*** sanırdı xəlqə, kəndi buldu. (DƏH) ***Nə kim*** siz buyurursuz  xeyr əgər şər, ***Anı*** tutmaq yerincə bizə düşər. (DƏH)

***Nə kim*** bağlayıcı sözü və şərt şəkilçisi: Ol ***nə kim buyursa***, ***ani*** işləyəm. (Suli)

***Nə kim*** bağlayıcı sözü və ***isə: Nə ki*** könlünüz ***dilərsə,*** buləsiz. (Suli) Ayıtdı kətxuda danla gələyin, Tapın ***nə kim buyurursa*** qılayın. (DƏH) ***Nə kim*** şah ***der isə***, bən ***anə*** fərman. (DƏH)

***Nə ki*** bağlayıcı sözü: ***Nə ki*** sən dirsən, biz andə edəlüm. (Suli) ***Nə ki*** nəqqaş var bu şərdə, dirəsin.(Suli) ***Nə ki*** şərh etdi, Züleyxa ***qamusin*** anladı. (Suli) ***Nə ki*** könlümdədir, ***ani*** söylədin. (Suli) ***Nə ki*** lütf etdi, ***ani*** söylədi. (Suli) ***Nə ki*** sən buyurursan, mən ***ona*** yox deməgə qüdrətim yoxdur. («Şəhriyar»)

***Nə ki*** bağlayıcı sözü və ***isə***: Könül alur hindi zülfivü verür göz qaşına ***Nə ki girürsə*** əlinə ox ilə yaya verür.(QB) ***Nə ki*** bizə ***gərək isə***, gətürün. (QB)

***Nəni*** bağlayıcı sözü və arzu şəkilçisi: ***Nəni*** ol ***buyura***, siz ***ani*** tutun. (Suli)

***Nitə*** bağlayıcı sözü: ***Nitə oldı*** hekayət anla, aqil.(DƏH)

***Nə*** və ***nitə*** bağlayıcı sözlü bir sıra cümləbləri asanlıqla analitik tipə çevirmək mümkündür: ***Nitə oldı*** *hekayət anla, aqil.*(DƏH) – *Aqil, anla (ki) nitə oldu hekayət.* ***Nə*** *əndişə içindəsən halın de – Halını de (görək) nə əçndişə içindəsən.* (DƏH)

***Nəni ki*** bağlayıcı sözü və ***isə***: *Göz* ***nəni ki görəcək isə,*** *görür.* (QB)

***Nədən*** bağlayıcı sözü və ***isə: Nədən qorxarisəm, ana*** sataşdım. (DƏH)

***Hər kim*** bağlayıcı sözü: Hər guşədə ***hər kim*** aldı bir kam, Hər büqədə ***hər kim*** içdi bir cam, Leylinin anası gördü mütləq. (Füz.)

***Hər kim*** bağlayıcı sözü və ***isə: Hər kim nə əməl qılırsa*** bünyad, ***Muzdunu*** verər əvvəlcə ustad. (Füz.)

Budaq cümlə baş cümləyə ***hər kim*** və ***nə*** bağlayıcı sözləri (və ***isə*** şərt ədatı) ilə bağlanmış qovuşuq cümlədən ibarətdir.

Suli Fəqihin dilində ***hər kim*** əvəzinə, bəzən ***hər ki*** bağlayıcı sözü işlənmişdir: ***Hər ki*** bənə tapüdi həqq ***andan*** bizar. (Suli)

Bu hal mübtəda budaq cümləsinə də aiddir: ***Hər ki*** aşiq olmadı, heyvan ola.(Suli)

***Hər ki*** bağlayıcı sözü: ***Hər ki*** Nəsimi tək sücud Fəzli-ilahə qılmadı, Div kimi bu gün ***anı*** bəlkə bu yolda dayinə. (Nəs.)

***Hər kim*** bağlayıcı sözü və şərt ədatı ***isə: Hər kim*** girib ***söylər isə,*** öldürür.(MV)

***Hər kimə*** bağlayıcı sözü: Nədən kim ***hər kimə*** üz tutdum, ***ondan*** yüz bəla gördüm. (Füz.)

***Hər kimə ki*** bağlayıcı sözü: ***Hər kimə ki*** eylədün nəzarə, İqbal ***ona*** eylədi kənarə.(Məs.)

***Hər kimə ki*** bağlayıcı sözü və ***-sa, -sə*** şərt şəkilçisi: ***Hər kimə ki yetsəm***, şikayətimdər. (Vaqif)

***Hər kimə*** bağlayıcı sözü və şərt ədatı ***isə***: ***Hər kimə uğrar isə,*** Mehri sorar.(MV)

***Hər kimin ki*** bağlayıcı sözü və şərt şəkilçisi ***-sa,-sə:*** Ey oğul, ***hər kimin ki*** cövhəri pak və özü xoşidrak ***olsa, ondan*** mərifət əskik olmaz… («Şəhriyar»)

***Hər kimsədən kim*** bağlayıcı sözü: Vəfa ***hər kimsədən kim*** istədim, ***ondan*** cəfa gördüm (Füz.)

***Hər nə*** bağlayıcı sözü: ***Hər nə*** dilədin, müyəssər etdi. (Füz.) ***Hər nə*** gördüm, əyri gördüm, özgə babət görmədim.(Vaqif) Ey atayi-mehriban, ***hər nə*** məsləhət var idi, mən ərz elədüm. («Şəhriyar»)

***Hər nə*** bağlayıcı sözü və şərt şəkilçisi: ***Hər nə*** sözüm ***olsa***, ***hər nə*** vayə, Pünhani derəm ***onu*** Səbayə.(Xət.)

***Hər nə ki*** bağlayıcı sözü: Cəhanda ***hər nə ki*** vardur, dəmi vəhdətdən urmışlar. (QB) ***Hər nə ki*** gözi yürəgə qıldı, Bən bir qələm ilə yüzdə yazdum. (QB) ***Hər nə ki*** xilafi-şər – unutğıl. (Füz.) ***Hər nə ki*** doğrusudur, ***onu*** ərz edərəm. («Şəhriyar»)

***Hər nə ki*** bağlayıcı sözü və ***isə: Hər nə ki başına gəlirsə,*** haqdan bil. (Oğuz.) ***Hər nə ki*** istər ***isə***, Mehrə verin.(MV)

***Hər nə kim*** bağlayıcı sözü: İmdi geygil bu toni, şükr et Həqqə, ***Hər nə kim*** dilərsən, virə sənə. (Suli)

***Hər nə kim*** bağlayıcı sözü və arzu şəkilçisi: ***Hər nə kim*** sən ***diyəsən***, ***ani*** qıla. (Suli)

***Hər nə kim*** bağlayıcı sözü və ***isə: Hər nə kim dilər isən***, verüm sana.(MV)

***Nerdə*** bağlayıcı sözü ***– isə:*** Qolay yol ***nerdə isə*** buldu bunlar. (DƏH)

***Ol ki*** bağlayıcı sözü: ***Ol ki*** Mehri dersən, ***andan*** əl yugil. (MV)

***Xanda*** bağlayıcı sözü və ***isə***: ***Xanda*** bir xaç əhli ***varsa***, ***qamusun*** seyr eylədim. (Nəs.)

***Kim*** ədatı ilə: Ulu küp ***kim*** gördülər torpaq dolu, Qoydular ana, birisin açdılar.(MV)

***Ki*** ədatı ilə: ***Nə*** qapıdan ***ki*** girürsən, çıxarsın ***andan*** sən, Bu fani dünyayi-dun dari gərçi şeşdəridür.(QB) ***Ol*** küp içində ***ki*** altun var görün, ***Onu*** sultanın kiçi oğluna verin.(MV) ***Hər*** riştə ***ki*** həqq əyan edibdir, ***Sərriştəsini*** nihan edibdir.(Füz.) Qəm ***ki*** gəlir mənə firqəbəfirqə, Nə Məcnun çəkibdir, nə görüb Vərqə. (Vid.)

***Ki*** ədatı və şərt şəkilçisi: Xublardan ***ki*** mənə ***gəlsə*** hər bəla, İstəməm ***ona*** mən dərman eyləyəm. (Vaqif)

Bir sıra cümlələrdə ***ki*** ədatı ilə bağlayıcı söz arasında başqa sözlər işlənmişdir. Bu hal müasir dildə də qalmaqdadır və ədatla bağlayıcı sözün birləşməsinin tam başa çatmadığını göstərir.

***Nəsnə, şey, söz, iş, yer, göz, tən, qəmzə, can, yüz (üz), dil, şişə, sevgi*** tipli bir sıra sözlər isə ümumiləşib bağlayıcı sözə çevrilə bilməsə də, ***ol, şol, hər, bir*** sözləri və ***ki, kim*** ədatları ilə birləşərək bağlayıcı söz məqamında işlənmiş, budaq cümləni baş cümləyə bağlamışdır:

***Hər*** sözü ilə:

***Hər nəsnə ki*** bağlayıcı sözü: ***Hər nəsnə ki*** saçında kəmin ilə anladum, Şimdi deyüməzəm ***qamusından*** kəmini bən. (QB)

***Hər nəsnə ki*** bağlayıcı sözü və arzu şəkilçisi: ***Hər nəsnə ki dilə düşə ana*** dəgərdi öz Bizüm içün ana dəxi göz dəgdi sanasız. (QB)

***Hər şeyi ki*** bağlayıcı sözü: Hər kişi ***hər şeyi ki*** sevdi, ***onu*** bəhtər istədi. (Vaqif)

***Hər söz*** bağlayıcı sözü və şərt şəkilçisi: ***Hər söz desən*** anda ***anı*** söylər, Nə özgə kimi yalanı söylər.(Xət.)

***Hər iş kim*** bağlayıcı sözü və arzu şəkilçisi: ***Hər iş kim dutasan,*** eşqilə dutgil. (Xət.)

***Hər yerdə ki*** bağlayıcı sözü: ***Hər yerdə ki*** bildi bir nəzirgah, Varıb ***ona*** oldu xaki-dərgah. (Füz.)

***Ol, şol*** sözləri ilə:

***Ol göz ki*** bağlayıcı sözü və arzu şəkilçisi: ***Ol göz ki*** yüzün ***görməyə,*** göz demə ***ana***. (MV)

***Ol şey ki*** bağlayıcı sözü: ***Ol şey ki*** ölüdür, ***onda*** yoxsan.(Xət.)

***Ol tən ki*** bağlayıcı sözü: ***Ol tən ki*** diridir, ***onda*** çoxsan.(Xət.)

***Ol qəmzə ki*** bağlayıcı sözü: ***Ol qəmzə ki*** tir edər fəşanə, Bir sənə gərək ***ona*** nişanə.( Xət.)

***Ol can ki*** bağlayıcı sözü: ***Ol can ki*** çün xəyal ola belün qılı ilə Görürsə nöqtə ağzunı, sən ***anı*** hiçə say. (MV)

***Şol yüz ki*** bağlayıcı sözü və arzu şəkilçisi: ***Şol yüz ki*** tozun ***silməyə***, yüz demə ***ana*** (MV)

***Şol dili ki*** bağlayıcı sözü: İlahi, ***şol dili ki*** yaxdı eşqi-yar odına, Gərək ki, yaxmayasın dəxi intizar odına. (QB)

***Bir*** sözü ilə:

***Bir iş ki*** bağlayıcı sözü və arzu şəkilçisi: ***Bir iş ki*** qəzadan ***ola***, təğyir vermək olmaz.(«Şəhriyar»)

***Bir şişə ki*** bağlayıcı sözü: ***Bir şişə ki*** oldu parə-parə, ***Peyvəndinə*** hiç varmı çarə? (Füz.)

***Bir sevgi ki*** bağlayıcı sözü: ***Bir sevgi ki*** sevgisindən yad olur, Məgər ***onun yaxşılığın*** bilməzmi? (Vaqif)

Faktlar göstərir ki, hələ çox qədim dövrlərdən qovuşuq[1] tabeli mürəkkəb cümlələr də formalaşmışdır. Belə cümlələrdə iki bağlayıcı söz və iki qarşılıq bildirən söz işlənməklə iki cümlə bir cümlə kimi qovuşmuşolur: ***Hər kimsə nə*** əkdi, ***onu*** biçdi. (Qövsi) ***Hər***

---

[1] T.Müzəffəroğlu. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası,Azərnəşr, Bakı, 2002, s.179-212.

***kim nə bilirsə*** ləb, ya ləhv, İzharə gətirdi etməyib səhv. (Füz.) ***Hər kişi hər şeyi ki*** sevdi, ***onu*** bəhtər istədi. (Vaqif)

Bu misallarda işlənməyən qarşılıq bildirən sözləri asanlıqla bərpa etmək olar: ***Hər kimsə nə*** əkdi, ***onu*** biçdi - ***Hər kimsə nə*** əkdi, ***(o) onu*** biçdi.

Prepozitiv cümlələrdə aktuallaşdırma və poeziya dilinin tələbləri ilə əlaqədar, canlı danışıq dilində olduğu kimi, bir sıra cümlələrdə komponentlər öz yerini dəyişmişdir. Aparun ***nə ki*** ana gərək isə (QB) – cümləsi əslində belə işlənməli idi: ***Nə ki*** ana gərək ***isə,*** *aparun*.

Aşağıdakı cümlələrdə də bunu görmək olar:

Söylə ***ana, nə k*****i** gəldi başıma.(MV) Neçün yox deyəvən ***nə kim desə*** xan.( DƏH)

Əvvəlki mənbələrdə olduğu kimi, bəzən Məsihinin və Vaqifin dilində də bağlayıcı sözlü tipdə tərəflər yerini dəyişmişdir: Qılma mənə ***hər nə kim*** səzadur (Məs.) – ***Hər nə kim*** səzadır, (***onu)*** mənə qılma. Bin suz ilə ol qəm aşinası Yazdı ***nə ki var*** müddəasi (Məs.) – ***Nə ki*** müddəası var, (***onu***) min suz ilə yazdı.

Ümumiyyətlə, «budaq cümlə + baş cümlə» quruluş tipi analitik tip tabeli mürəkkəb cümlələrdən fərqli olaraq, adətən qısa və çevik olur, daha milli xarakter daşıyır və onun tərkib hissələri arasında əlaqə möhkəm olur. Qısa və çevik olduğu üçün bəzən başqa cümlənin tərkibində işlənir.

Faktlar göstərir ki, dil öz qrammatik quruluşuna görə həmişə zəngin olmuşdur. Lakin ondan istifadə edənin meyil və istəyi, istedad və bacarığı müxtəlif olmuşdur. Məsələn, çətin söz və ifadələr olsa da, Xətainin dili xalq dilinin təbii ifadə vasitələrini və o cümlədən qrammatik quruluşun əsas işlək formalarını özündə daha çox cəmləyə bilmişdir.

Füzulinin dil zənginliyi budaq cümlələrin rəngarəngliyində də özünü göstərir. Şairin poemalarının dilində bağlayıcı sözlərin iştirakı ilə baş cümləyə bağlanan tamamlıq budaq cümlələrinə daha intensiv rast gəlmək olur. Məsihinin «Vərqa və Gülşa» məsnəvisində intonasiya ilə qurulan analitik budaq cümlələr kəmiyyət etibarilə daha zəngindir.

**II tip.** XII-XIV əsrlərin ədəbi dilində, yəni «Dastani-Əhməd Hərami», «Yusif və Züleyxa», «Mehri və Vəfa» məsnəvilərində,

Qazi Bürhanəddinin əsərlərində intonasiya ilə baş cümləyə bağlanan tamamlıq budaq cümlələri üstünlük təşkil edir. Bu hal təbii sayılmalıdır, çünki intonasiya ilkin və ən qədim vasitədir. Bağlayıcılı və bağlayıcı sözlü cümlələr intonasiya ilə qurulan cümlələrdən əmələ gəlmişdir.

Misallara diqqət yetirək: Söyləyimədi dilüm ləli-ləbün vəsfini, ***Dedüm ana*** kəndüdən dil-dilə dəprətməgil. (QB) ***Bana der*** necə aşiqsin, nədür bu eşq hay-huyı. (QB) Can sanurdum ləlini, ***könlümə sordum*** bu nədür? (QB)

«Mehri və Vəfa»nın dilində analitik tamamlıq budaq cümlələri daha işləkdir. Qazinin dili ilə müqayisədə intonasiya ilə baş cümləyə bağlananları daha çoxdur. Məs.: ***Gördü*** qarşudan gəlir bir canavar.(MV) Taxt ögündə ***gördi*** durur bir tayə.(MV) ***Bən bilürəm*** kimdir iyəsi anın.(MV) ***Bilürəm*** haqq hacətin qılur qəbul.(MV) ***Qardaşı der***: Əqlini dir başına.(MV) ***Vəfa bilir***, kəndinin halı necə.(MV) ***Var de yaruma bənim*** tezcək gələ.(MV) ***Mehrə deyün***, qılmasın bizdən gilə.(MV) ***Söylə:*** Ey çiçək gətürən, qandasan? (MV) ***Dayə sanur*** bağa təfərrüc edər.(MV) ***Gördilər*** bir səhrada bir su akar.(MV) ***Tanrı bilür*** nə qədər yol getdilər.(MV) ***Sayis aydır***, əsrük idim, bilmədim.(MV)

Asindetik cümlələrin bu cür üstünlüyü «Dastani-Əhməd Hərami»nin dilində də nəzəri cəlb edir: ***Bular bildi*** nədir dinü dinayət. (DƏH) *Eşit* təqdir işi anlara netdi. (DƏH) ***Görür*** on kişi qatıraq gedərlər.(DƏH) ***Biləsiz*** anların fikri, sözü nə.(DƏH) Qapısı xəznənin ***gördü*** açılmış. (DƏH) ***Şəhər kətxudasına der*** bilirvən. (DƏH) ***Nə bilsin şah*** anın bu sirləri nə? ***Yigit etdi***: üşənmən, qorxu yemən.(DƏH) ***Gəlir görür*** yerindən getmiş ol qız.(DƏH) ***Dedilər*** gəldi bir kişi əbalı, Durur qapuda ***bilməziz*** nə halı? (DƏH) ***Buyurdular*** yaraq edin dügünə.(DƏH)

Nəsiminin dilində də analitik tipdə tamamlıq budaq cümlələrinin intonasiya ilə bağlandığı hallar çoxdur:

***Sufi nə bilsin*** mən necə ol camdən buldum səfa. (Nəs.) ***Kim nə bilir*** bu könlümün fikri nədir, xəyali nə? (Nəs.) ***Dedilər***, miskin Nəsimi, doğruya yoxdur zaval.(Nəs.) ***Kim nə bilir,*** bu xəstənin dərdi nədir, dəvasi nə?(Nəs.) ***Dilbər aydır***, ey Nəsimi, səbr elə, qılma fəğan, Mən bu gün səbr eləsəm, danla fəğanı neylərəm?(Nəs.) ***Bildim anı həq bilir,*** sənsən yəqin canü cahan.(Nəs.) ***Pəncşənbə günü yarə dedim,*** pəndim eşitgil. (Nəs.)

Budaq cümlələrin intonasiya ilə baş cümləyə bağlandığı hallar Füzulinin dilində də nəzəri cəlb edəcək dərəcədədir, yəni canlı dilin xüsusiyyəti kimi özünü qabarıq göstərir; məs.: ***Fikr eylə və gör*** nədir bu üslub. (Füz.) ***Canlar çəkib istərəm həmişə*** Dükkanım ola rəvaci-bazar, Hər istədigin bula xiridar.(Füz.) ***Derlər səni*** eşqə mübtəlasən. (Füz.) ***Bilmən*** nədir ol hədisə məzmun.(Füz.) ***Həq bilir***, yar deyil canü dilimdən ğaib.(Füz.) ***Bilmən*** necə verəyin cavabın. (Füz.)

İntonasiya ilə qurulan bu cür cümlələr xalq şeirinin böyük yaradıcısı olan Qurbaninin dilində analitik cümlələrin ən aparıcı növü sayıla bilər; məs.: ***Bilmirəm*** mələksən, mələkzadəsən. (Qurbani) ***Yara deyin***, yaralarım bağlasın.(Qurbani) ***Dedim***, pərim, zülflərini darama.(Qurbani) ***Dərviş bilər*** xirqə nədi, dəri nə. (Qurbani) ***Qurbani der***, hər kim şaha kəc baxar, Onun kamalına tez zaval olu. (Qurbani) Mələklər çıxanda ol tamaşayə ***Dedilər,*** bu nə nur, nə əcayibdir! (Qurbani)

Xətainin dilində də intonasiyanın rolu mühümdür; məs.: ***Şah Xətaim aydır***, sən qulun nedər?(Xət.) ***Xətaim der:*** bir vəliyəm yoluyla.(Xət.) ***Şah Xətai aydır:*** sirrini yayma.(Xət.) ***Mana sorun***, kimdən aldım yasayı?(Xət.) ***Heç bilməz idim*** nəyəm özümni. (Xət.) ***Aydır:*** sorayım nə kişidir bu? (Xət.) Və s.

Məsihinin dilində analitik tamamlıq budaq cümlələrində budaq cümlə baş cümləyə daha çox intonasiya ilə, az hallarda ***kim***, nisbətən fəal şəkildə ***ki*** bağlayıcısı ilə bağlanmışdır; məs.: ***Kim bildü*** nədir o zatə məzmun?(Məs.) ***Bimar bilür*** bulanda səhhət Səhhət onadur nə dənqlü nemət.(Məs.) ***Bilmən*** bu kəlamə nə səbəbdür! ***Lakin bilməzdi ol müşəvvəş,*** Ol xərmənə kim buraxdı atəş. (Məs.) ***Fikr eylədi*** yazə yarə məktub.(Məs.) ***Düşdi o cəmaət içrə qovğa***, Gülşani varub gətirdi Vərqa.(Məs.)

M.P.Vaqifin dilində analitik tamamlıq budaq cümlələri artıq öz üstünlüyü ilə seçilir. Bu cür cümlələrdə budaq cümləni baş cümləyə bağlayan əsas vasitə intonasiya və ***ki*** bağlayıcısıdır. ***Kim*** bağlayıcısı klassik üslubda olan əsərlərində, həm də məhdud şəkildə özünü göstərməkdədir. İntonasiya ilə: ***Vaqif deyir***, yalvar yara, könlün al.(Vaqif) ***Vaqifi derlərdi*** çox gözəlsevən. (Vaqif) ***Vaqif deyər***, doymaz sevən sevəndən. (Vaqif) ***Vaqif der***, nə mülkü malı görəydim. (Vaqif) ***Deməginən*** Molla Pənah qocadır, Səni tamam yesəm, doymanam, gəlin! (Vaqif) ***Siz də deyin***, toya gələn oynasın.

(Vaqif) ***Söyləgilən:*** Sizin divanədəndir. (Vaqif) Camalın gözümdən nihan olalı, ***İstərəm*** baxmayam dünyaya, Pəri! (Vaqif)

Vasitəsiz nitq şəklində qurulan belə cümlələr də çoxdur: ***Vəfa aydır Mehrə:*** Ey, halın necə? ***Mehri aydır***: Atları gətir gecə. (MV) ***Dedi vəzirlərə***: durun varalım, Alın, gəlin oları der görəyim, Nəyə gəldi xəbərlərin sorayım.( DƏH)

Başqa budaq cümlələrdən fərqli olaraq, daha intensiv işlənən tamamlıq budaq cümlələrinin intonasiya ilə baş cümləyə bağlanan analitik tipinin bu cür zənginliyi sübut edir ki, xalq həmişə yığcam, çevik, bağlayıcısız cümlələrə öz nitqində üstünlük vermiş, lakin süni – bədii dildə söz ustaları ahəngi, ritmi, rasional fikrin çatdırılmasını nizamlamaq üçün bağlayıcıların işlənmə imkanlarını genişləndirmişlər.

Nəzərdən keçirdiyimiz abidələrin dilində ***kim*** və ***ki*** bağlayıcıları budaq cümləni baş cümləyə bağlamaq rolunu əvvəllər ***kim***, tədricən ***ki*** bağlayıcısının üstün rolu ilə davam etdirmişdir.

***Kim*** bağlayıcısı ilə: Əfkarumı çün cəm edərəm *bunı bilürəm* ***Kim,*** canü könül eşqinə əfkar gərəkdür. (QB) *Bu söz ilə faş etdi ləbün razi-cəhanı* ***Kim,*** suzum ilə yaxdum oda sazi-cəhani. (QB)

Maraqlıdır ki, Qazinin dilində ***kim*** bağlayıcısına nisbətən, ***ki*** bağlayıcılı cümlələr üstünlük təşkil edir; məs.: Gözümdən ləl ilə lölö ayağuna dökərəm bən, *Günəş yüzündə bilürəm ki,*yoxdur meyli-pirayə.(QB) *Könüldə kim bilə* ***ki,*** nə qopısar*,* Ki, qonışmış yenə ay ilə pərvin.(QB) Dəmdür yürəgüm ilə yaşum hər biri hər dəm, *Adəm deməzüz* ***ana ki,*** bilməyə dəmini. (QB) *Sorıcağaz deyiməzəm* ***ki,*** nəsin.(QB) *Misri hüsnümi görənlər deməsün* ***ki,*** nili yox. (QB)

Qazinin əksinə olaraq, Nəsiminin, «Mehri və Vəfa», «Dastani-Əhməd Hərami» məsnəvilərinin dilində ***kim*** bağlayıcısı böyük üstünlüyə malikdir. Bir neçə misal:

*Görəsiz* ***kim***, necə hikmət söylədüm.(MV) *Bilməyir* ***kim***, xancaru səfər edə.(MV) *Gördü* ***kim***, Mehr yüzünə urmuş yüzün. (MV) Xızıra halın yigit qıldı əyan ***Kim,*** bu yigit mənim qardaşımdurur. (MV)*Yəni dilər* ***kim***, irişə dostuna.(MV) *Bağbana sorı* ***kim***, oğlanın qanı? (MV) *Kim nə bilür bəni* ***kim***, bən nə quşam? (MV) *Tacü təxtin tərkin urub istərəm* ***Kim***, ona yaram yürəgim göstərəm.(MV) *Bilin* ***kim***, fəthimiz bu yolda çoxdur. (DƏH) *Dedilər* ***kim,*** bu nə çoxluq kişidir. (DƏH) *Xəbər ver atama* ***kim***, anı alsın Bənim köşkümə yaxın qarşu gəlsin.(DƏH) *Görür* ***kim***, atası gəlir yaluğuz.

(DƏH) *Şahənşah eydir* ***kim*** dəstur verəyim, *Dilər* ***kim*** bir xəbər andan alaydı. (DƏH) *Barmaq ilən göstərərlər* ***kim***, üzündür qibləgah. (Nəs.) *Nə bilə* ***kim***, qanda vara, abi-heyvan istəyə. (Nəs.) *Ol bilir* ***kim***, aşiq olmuş nərgisi-şəhlasinə. (Nəs.) *Yəmini bilməyən bil* ***kim***, şimalin qədrini bilməz. (Nəs.) *Sorma, ey dilbər, mana* ***kim***, hacətin məndən nədir. (Nəs.) *Gəl, ey dilbər, məni gör* ***kim,*** necə xoş yanaram sənsiz.(Nəs.) *Olma məlul, ayıtma* ***kim,*** bəndü həsar içindəyəm. (Nəs.) *Fikr eylə* ***kim***, nə tüngi-şəkərğarə düşmüşəm. (Nəs.)

Həmin bu mənbələrdə ***kim*** bağlayıcısı ilə müqayisədə nisbətən az işlənsə də, ***ki*** bağlayıcılı tamamlıq budaq cümlələri də az deyil: Hər kişi bu aləmdə bir nəsnəyə adanur, *Bən kişi* ***ana*** *derəm* ***ki***, eşq ilə adana.(QB) *Ləbün eşqi könüldə* ***şuna*** *bənzər* ***Ki,*** bir miskin yabanda buldı gövhər.(QB) *Bilməzəm* ***ki***, qandadır ol gülüzar. (MV) *Der* ***ki***, bağışlın bu oğlanı bana.(MV) *Mən eşitdim* ***ki***, Bağdadı görənlər Anın sultanın ikən söylədilər.(DƏH) *Dilərəm* ***ki,*** duram qapında bən də. (DƏH) *Bilüməzim* ***ki,*** qancaru gedəyin. (DƏH) *Nə aydam* ***ki***, necə düzdilər anı. (DƏH)

***Kim*** və ***ki*** bağlayıcılı cümlələr XV-XVI əsrlərin ədəbi dilində yazıçı üslubundan asılı olaraq, bu və ya digərinin üstün mövqeyi ilə işlənməkdə davam etmişdir. Məsələn, Xətai tamamlıq budaq cümləsinin baş cümləyə bağlanmasında ***kim*** bağlayıcısına nisbətən ***ki*** bağlayıcısından bir neçə qat artıq istifadə etmişdir ki, bu da onun xalq dilinə diqqəti ilə bağlıdır. Misallar: *Dedim* ***ki***, sən onu sorma məndən.(Xət.) *Gördüm* ***ki***, gəzir çəməndə xoşdəm. (Xət.) *Qövl etdi mənə* ***ki***, dan atan çağ, Bülbül budağa qonub ötən çağ, Olmuş ola namə cümlə təhrir, Hər ərzə ki var, içində təqrir.(Xət.) *Gözümə dedim* ***ki***, tərki-xab et.(Xət.) Hər kimi görər, *deyər* ***ki***, savul.(Xət.) *Sən bilməmisən* ***ki,*** mən nə şahəm.(Xət.) *Kim dedi sana* ***ki***, gəl bu mərzə.(Xət.) *Yar aydır ona* ***ki,*** ey cigərxun, Çox etmə bu yolda sən cigər xun.(Xət.) *Dedim* ***ki***, diriğ, gecə keçdi, *Heç bilmədim* ***ki***, necə keçdi! (Xət.)

Qurbani çox az hallarda ***ki*** bağlayıcısından istifadə etmişdir: Qurbani deyir ***ki***, sonasan,sona. (Qurbani)

***Kim*** bağlayıcısı ***ki***-yə nisbətən Füzuli məsnəvilərinin dilində də qeyri-fəaldır. Ardıcıl nəzərdən keçirdiyimiz «Leyli və Məcnun» poemasında ***kim*** bağlayıcısı ***ki*** bağlayıcısının təqribən altıda biri qədərdir. Poemaların dilində ***kim*** və ***ki*** bağlayıcılı tamamlıq budaq cümlələri başlıca olaraq aşağıdakı nisbətdədir.

***Kim*** bağlayıcılı cümlələr əsasən bunlardır: *Bihudədir ol qamu fəsanə* ***Kim***, aşiqdir filan filanə. (Füz.) *Vəhm eyləmədinmi* ***kim,*** çəkib ah, Suzi-ciyər ilə bir səhərgah Yandıram oda doquz rəvaqın. (Füz.) *Nagah olur atan-anan agah* ***Kim***, ğeyr ilə aşina olubsan. (Füz.) *Bildir mənə* ***kim***, nədir günahım? (Füz.)

***Ki*** bağlayıcısı: *Şərh eylə mənə* ***ki***, çərx netdi? (Füz.) *Sən bildirdin* ***ki,*** kimdir allah. (Füz.) *Ancaq deməzəm* ***ki***, xaki-Bağdad Alayişi-nəzmdəndir azad.(Füz.) *Dövran istər* ***ki***, xar ola nəzm. (Füz.) *Bilmişlər idi* ***ki***, hüsni-göftar Qədrim qədərincə məndə həm var. (Füz.) *Sözlər dersən* ***ki,*** bilməzəm mən. (Füz.) *Gördü* ***ki***, behiştə hur gəlməz.(Füz.) *Bildi* ***ki***, sipehri-şöbədəbaz Bir şöbədə eyləyibdir ağaz.(Füz.) *Umdun* ***ki***, mənimlə olasan şad. (Füz.) *Der imiş düşmən* ***ki***, həmdəmdir Füzuli yar ilə. (Füz.) *Bildi* ***ki***, qəbul olur duası. (Füz.) *Vəhm etdi* ***ki,*** olsa yarə vasil Nöqsan ola canü cahə hasil. (Füz.) *Dersən* ***ki***: «Sənə nə nisbətim var?» (Füz.) *Fikr etmə* ***ki***, mən nişatməndəm. (Füz.) *Gördü* ***ki***, bu şölə bir nəfəsdir. (Füz.) *Fərz eylə* ***ki***, oldu yar yarın. (Füz.) *Eşqin bilirəm* ***ki,*** böylə qalmaz. (Füz.) *Sən sanma* ***ki***, oldur ol, mənəm mən. (Füz.) Bikəsliyim olmaya mənə ar, *Məlum edələr* ***ki,*** varisim var.(Füz.) *Bildim* ***ki***, məni sevirsən, ey mah! (Füz.) *Nişə sormazsan* ***ki***, əhvali-dili-şeyda nədir? (Füz.) Və s.

Daha sonrakı dövrlərdə – Məsihinin və Vaqifin dilində artıq ***ki*** bağlayıcısı tam üstünlüyə malikdir. Əgər Məsihinin dilində ***ki*** ilə ***kim*** bağlayıcısı onda bir nisbətlə işlənmişdirsə, Vaqif öz qoşmalarında, demək olar ki, ***kim*** bağlayıcısından istifadə etməmişdir. ***Kim*** bağlayıcısına onun yalnız klassik şeir üslubunda yazdığı əsərlərdə rast gəlirik.

***Məsihidə:*** *Danla nə bilür* ***ki***, *kimsə* gərdun Bu bəzmə verür şərab ya xun? (Məs.) *Gəl söylə mana* ***ki***, kimdurur yar. (Məs.) *Duydum* ***ki***, nədir rümuzi-əsrar.(Məs.) *Pəs söylə ona* ***ki***, ey qələtray, Bu danişə olma cəhl fərsay. (Məs.) *Verdilər ona xəbər* ***ki***, ey şah, Düşmən bizə yetdi olgil agah. (Məs.) *Bilsin* ***ki***, necə olur xəyanət. (Məs.) *Qılgil* ***anı kim***, sənə rəvadur. (Məs.)

***Vaqifdə:*** Deməli çox gizli dərdi-dilim var, *Qorxuram* ***ki,*** deyəm, eşidə əğyar. (Vaqif) *İstərəm* ***ki***, yazam göndərəm, ey yar, Səhər oğrun əsən yel ilən sənə. (Vaqif) *Bilmənəm* ***ki***, sənə nə demiş əğyar. (Vaqif) *Bir gün görərsən* ***ki,*** vallah, ölmüşəm. (Vaqif) *Demə* ***ki***, molladır mənim sevdigim. (Vaqif) *Haqq bilir* ***ki,*** səni necə istə-

rəm. (Vaqif) *Bilir **ki***, bilirəm qədrin sovqatın. (Vaqif) *Bilməzəm **ki***, nədir mənim günahım. (Vaqif) *Kim qıyar **ki***, düşə gül yarpağı qanqal içinə. (Vaqif) *Kim qalıbdır **ki***, onun qəm tökməyibdir qanını? (Vaqif)

Göründüyü üzrə, baş cümlədə qəlib sözə nadir hallarda təsadüf edilir.

Tarix boyu tamamlıq budaq cümləsinin aid olduğu baş cümlə əksərən feli xəbərli olmuş, tamamlıq baş cümlədə feli xəbərlə ifadə olunan işi, hərəkəti tamamlamışdır. Lakin bəzən vasitəli tamamlığın sualına cavab verən budaq cümlələr baş cümlənin ismi xəbərinə də aid olmuşdur; məs.: *Var ümidüm (nəyə?) **ana ki***, bən irişəm irişməsinə. (QB) *Bir ay dəxi **gərək** (nəyə?) **kim**,* bir yıl ola. (MV) *Nə dilim (nəyə?) var*, anı şərh eyləyəm bən, *Nə bilim (nəyə?) **var ki***, şərhin söyləyəm bən. (DƏH) *Mən həm buna **qailəm ki***, pəndin Nisbət mənə xeyrdir, deyil şər. (Füz.) ***Şahiddir** ona bu inqilabın **Kim***, aşiqisən bir afitabın. (Füz.) ***Ümidvar idim** əvvəl **ki***, bir nişat görüm. (Füz.) *Qüdrətim **yox ki***, qılam kimsəyə şərhi-ğəmi-dil. (Füz.) *Ümidim **vardır ki***, bu qara gün getməyə başə. (Vaqif)

Göründüyü kimi, ***var*** sözü baş cümlənin xəbəri kimi daha fəaldır.

Dövrün ədəbi dilində analitik tamamlıq budaq cümlələrinin baş cümləsində əksərən qəlib söz – yerlik işlənməmişdir. Bu hal budaq cümlənin təşəkkül tarixinin qədimliyi, baş cümlədə onu işarə əvəzliyi ilə işarə etməyə xüsusi ehtiyacın olmaması ilə bağlıdır. Məntiqi vurğu altına düşdükdə və ya vəznin tələbləri ilə əlaqədar baş cümlədə aşağıdakı qəlib sözlərə rast gəlmək olur.

***Ana*** sözü: *Adəm **ana** deyərəm **ki**,* ola narü həvadən, Adəmmidür ol ki, dəm ura ab ilə gildən?(QB)

***Anı*** sözü: Yerü gög götürməz ***anı ki***, insan götürər. (Oğuz.) Saçında azdı könülümü azduğı uzanır, *Könül dilər **anı ki**,* azmağ azana uzana. (QB) *Boynına almadı kimsəsi **anı Kim**,* ola ol məmləkətin sultanı. (MV) *Bilmədim bən **anı kim***, cadu imiş.(MV)

***Anı*** sözü qəlib söz kimi daha fəaldır.

***Onu*** sözü: *Gör **onu ki*** hər nihali-sərkəş, Sudəndirü sərf eylər atəş. (Füz.) *Bilmək gərək **onu kim***, cəvahir Nə gənci-nihandan oldu zahir? (Füz.)

***Ondan*** sözü: *Eşq içrə əzab olduğun **ondan** bilirəm **kim**, **Hər kimsə ki*** aşiqdir, ***işi*** ahü fəğandır. (Füz.)

***Buna*** sözü: *Mən həm* ***buna*** *qailəm* ***ki***, pəndin Nisbət mənə xeyrdir, deyil şər. (Füz.)

***Buni*** sözü: ***Buni*** *həqiqət bilün* ***ki***, yüzini görən, Qılımaya eşqi duasını məcazi. (QB)

***Munu*** sözü: *Peyvəstə* ***munu*** *xəyal edərdim* ***Kim***, sən tələbi-visal edərsən. (Füz.)

***Şuna*** sözü: *Bən* ***şuna*** *qulam* ***ki***, ol bir nami-namus eyləyə, Bir dəm içün dünyada bin yili əfsus eyləyə. (QB)

Misallar göstərir ki, ***anı, şuna*** tipli arxaik sözlər daha çox əvvəlki mərhələdə işlənmişdir. Füzuli isə daha çox danışıq dili faktından istifadə etmiş, hətta şivə çalarlı söz də (*munu)* işlətmişdir. Az və ya çox işlənməsinə baxmayaraq, baş cümlədə lazım gəldikdə qəlib sözlərin işlənməsi müasir dilimiz üçün də normadır.

Beləliklə, ümumiləşdirəcək olsaq, qeyd etməliyik ki, analitik tip tamamlıq budaq cümlələri Qazi Bürhanəddinin dilində daha fəaldır. Onun «Divan»ının dilindəki tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrin analitik tipində baş cümlədə qəlib söz ***bu, ol, şu*** sözləri ilə ifadə olunmuşdur. Həmin sözlər substantivləşərək müxtəlif hallarda baş cümlənin tamamlığı vəzifəsində işlənmiş və budaq cümlə vasitəsilə izah edilmişdir. Lakin əksərən baş cümlədə budaq cümlənin qəlibi işlənməmişdir. Təbii ki, qəlib sözün hansı halda olması xəbərin təsirli və ya təsirsiz olmasından asılı olmuşdur; məs.: ***Bənzər ki,*** (nəyə?) sadə díldurur ol kafər ayinə.(QB) Səni bən bilürəm ancax bu yolda, Cəhan içində kim ***bilə ki,*** (nəyi?) kimüm. (QB)

Mübtəda budaq cümləsində olduğu kimi, tamamlıq budaq cümləsində də bəzən baş cümlənin xəbəri *-mı* şəkilçisini qəbul etmişdir. Lakin həmin şəkilçi sual məqsədi ilə işlədilməmiş, bağlayıcı vasitə kimi çıxış etməmişdir; məs.: Aşüftə biliməz***mi*** dərü bişəsi yoxdur. (QB) *Sən deməz****miydün*** ***ki,*** bən sənün olam? (QB)

Baş cümlənin xəbəri daha çox görmə, təfəkkür, iş və nitq felləri ilə ifadə olunmuşdur; məs.: ***Dilərdim*** bənim ilə yar olaydun, ***Nə bilirdim*** belə əğyar olaydın. (DƏH) Görən ***aydır ki***, tufan oldu sənsiz. (Nəs.) ***Bildi ki***, hər qatında məqbul imiş duası. (Nəs.) Nəqşi-xəyali-surətin ***sanma ki,*** məndən ayrıdır. (Nəs.) Həqqi bilən ***bilir ki***, nə didarə düşmüşəm.(Nəs.) ***Soralım*** qandan gəlür, qanda gedir, Mətləbi nə, qancaru səfər edir. (MV) Kimə ***aydayım ki***. anın sitəmində can usandı?(Nəs.) ***Bildim*** yəqin ***ki***, nərgisi-məstin dilər

kəbab. (Nəs.) Cahanda kimsə ***görməmiş ki,*** bayquş ala göyərçin. (Nəs.) ***Dersən kim***, dəhri-pirindən nəsihət almışuz. (Xət.) ***Gördü ki***, bir ovçu dam qurmuş. (Füz.) ***Dedim,*** könül, sevmə xublar xubunu. (Qurbani) ***Fikr etmə ki***, yoxdur əhli-idrak, ***Demə ki***, bolub kəsad bazar. (Füz.) ***Xəyal etmişdi*** Vaqif ***kim***, rəvan bir xoş qəzəl yazsın. (Vaqif) Səyyad, saqın, cəfa yamandır! ***Bilməzsənmi ki,*** qana qandır?! (Füz.) Səndə ***bilirəm ki***, lütf çoxdur. (Füz.) Sürmə ***bilirəm ki***, artırır nur. (Füz.) ***Təhqiq edibəm ki***, düşmənindir. (Füz.) ***Eylərlər idi güman ki***, ol zar Bir özgə bəlayədir giriftar. (Füz.)

«Mehri və Vəfa»nın dilində ***demək*** felinin baş cümlənin xəbəri kimi işləndiyi hallar çoxdur. Lakin ***aytmaq, aymaq*** feli bu cəhətdən daha üstündür və bu sözlə işlənən baş cümlələrin sayı 140-dan artıqaır. Bunların əksəriyyəti vasitəsiz nitq şəklindədir.

Əvvəlki dövrlərdə ***kim*** bağlayıcısının baş cümlənin xəbərindən aralanması və ya xəbərlə yerdəyişməsi göstərir ki, bu bağlayıcı hələ müasir dildə olduğu dərəcədə öz zəruri yerində – baş və budaq cümlə arasında sabitləşə bilməmişdir: Cüftçü cüftünə gedirkən ***kim görür***, Hava yüzündə bir könlək gəlür.(MV)

S***anmaq*** feli əvvəllər müstəqil baş cümlə kimi çıxış etdiyi halda, Füzuli dövründə artıq işlətməkdən asılı olaraq tam modal söz kimi də çıxış edir: ***Sanasan,*** bağçada güllər açılmış. (Qurbani)

Tamamlıq vasitəsiz və vasitəli olduğu kimi, baş cümlənin xəbərindən asılı olaraq, tamamlıq budaq cümlələrinin də bir qismi vasitəsiz, bir qismi vasitəli tamamlığın suallarına cavab verir. Məs.: Bülbül kimi Nəsimi ***dilər ki***, fəğan ilə Gül söhbətinə yaramiyə naleyi-ğürab. (Nəs.) Mən ***bilirəm ki,*** can ilə susamışam zülalinə. (Nəs.) Ya ilahi, ***bilməzəm kim***, nolur əhvalım mənim. (Xət.) ***Bildir*** mənə ***kim***, nə pişəsən sən. (Xət.) ***Razıyuz*** (*nəyə?*) bu kürədə peykünə sindan olalum. (QB) ***Təəccüb eylədi*** (nəyə?), bu işi gördü. (DƏH)

Son iki cümlədə budaq cümlə vasitəli (***Bu işi gördüyünə*** təəccüb eylədi; ***Bu kürədə peykinə sindan olmağa*** razıyız), əvvəlki cümlələrdə vasitəsiz tamamlığın (***Can ilə zülalına susadığımı*** mən bilirəm; Ya ilahi, ***əhvalımın nə (necə) olduğunu*** bilməzəm) suallarına cavab verir. Bu sahədə çox mühüm cəhət odur ki, vasitəli tamamlığın suallarına cavab verən tamamlıq budaq cümlələri hədsiz dərəcədə azdır, çünki əksər baş cümlələrin xəbəri təsirli fellərlə ifadə olunmuşdur.

## TƏYİN BUDAQ CÜMLƏSİ

"Dədə Qorqud"un dilində təyin budaq cümləsinin əsasən analitik tipinə rast gəlmək olur. Budaq cümlə baş cümləyə ***kim, ki*** bağlayıcıları ilə bağlanmışdır. Əsas xüsusiyyəti ondan ibarətdir ki, budaq cümlə baş cümlənin əşya məzmunlu üzvünə aid olur. Baş cümlədə budaq cümlənin qəlibi kimi ***ol, öylə*** əvəzlikləri işlənmişdir:

*Ağam Qazan, bu ağac* ***ol*** *ağacdır* ***kim****, sən kafəri basarsan, qarnın acıqar, mən sana bu ağacla yemək bişürərin*. (46) *Ol* ***öylə*** *adam degildir* ***kim****, sana görinə*. (54)

Cümlələrin bir qismində baş cümlədə budaq cümlənin qəlibi yoxdur, lakin intonasiya ilə təsəvvür edilir:

*Baba, mana bir qız alı ver* ***kim****, mən yerimdən turmadın ol turgəc gərək*.(55) *Bin ayğır diləyübdir* ***kim****, qısrağa aşmamış ola. Bin də qoç diləyübdür* ***kim****, qoyuna girməmiş ola*. (56)

**I tip**. Təyin budaq cümləsinin «budaq cümlə + baş cümlə», yəni bağlayıcı sözlü tipinin «Kitabi-Dədə Qorqud»da işlənməməsi o demək deyildir ki, o dövrdə budaq cümlənin bu növü hələ təşəkkül tapmamışdı. Mübtəda və tamamlıq budaq cümlələrinin haqqında danışılan tipi varsa, eyni zamanda çoxişlənmə imkanları ilə nəzərə çarpırsa, təyin budaq cümləsinin də belə tipi olmalıdır. Sadəcə olaraq, danışıq vaxtına qənaət, fikrin tez və asan ifadəsi baxımından təyin budaq cümləsinin bu tipi mübtəda və tamamlıq budaq cümlələri ilə müqayisədə nisbi artıq vaxt tələb edir. Məsələn, ***Hansı*** *kəndə gəlsə,* ***o*** *kəndi abadlaşdırırdılar* – cümləsinin baş cümləsində qarşılıq bildirən sözlə birlikdə təyinlənən də işlənməli olmuşdur: ***o kəndi***. Cümlə təyin budaq cümləlidir. Lakin cümlə: ***Hansı*** *kəndə gəlsə,* ***onu*** *abadlaşdırırdılar* – şəklində daha asan qurulur. Qarşılıq bildirən söz isimləşərək fikrin daha yığcam ifadəsinə imkan verir. Bu cür hallarda təyin budaq cümləsi mübtəda və tamamlıq budaq cümlələri tərəfindən bir növ udulmuş olur. Ona görə də təyin budaq cümləsinin bu tipi dildə nisbətən az işlənir, bir çox abidələrdə belə bir tipin işlənməsi üçün zəruri situasiyaya ehtiyac olmur.

Fikrin izahı üçün başqa bir misala diqqət yetirək. Bağlayıcı sözlü aşağıdakı cümlədə qarşılıq bildirən təyinedici söz olmadığın-

dan onu təyin budaq cümləli tabeli mürəkkəb cümlə saymaq çətindir:

Yoxdur ***nəsibi*** eşqi-həqiqətdən, ey könül,
***Şol kimsənin ki*** mürşidi naqisüqul ola. (Nəs.)

Bu misralarda inversiya vardır. Əslində, tərəflər belə sıralanmalı idi: ***Şol kimsənin ki*** mürşidi naqisüqul ola, Yoxdur ***nəsibi*** eşqi-həqiqətdən, ey könül.

Burada ***nəsibi*** sözü baş cümlədə qarşılıq bildirən ***onun*** sözünü tələb edir – ***onun nəsibi.*** Bu iki söz birlikdə mübtəda vəzifəsində çıxış edir və mübtəda budaq cümləsinin yaranmasına səbəb olur. Təyin budaq cümləsi üçün qarşılıq bildirən ***o adamın nəsibi*** birləşməsi yaranmalı idi**.**

Nəsiminin əsərləri ilə eyni dövrün məhsulu olan «Mehri və Vəfa» məsnəvisinin dilində təyin budaq cümləsinin bağlayıcı sözlü tipi, az da olsa, vardır. Qeyd edəcəyimiz nümunə tam səlis nümunə olduğundan belə cümlələrin bədii dildə az işlənməsinə baxmayaraq, xalq dilində çoxdan formalaşmış olduğunu göstərir. Budaq cümlə baş cümləyə ***kim*** ədatı ilə bağlanmış, baş cümlədə qarşılıq bildirən ***ol*** sözü işlənmişdir:

Ol iki at tışrada ***kim*** var idi,
Bir sayis ***ol*** atları bəklər idi. (MV)

Qazi Bürhanəddin dilinin tədqiqi göstərir ki, təyin budaq cümləsi qədim inkişaf tarixinə malik budaq cümlə növlərindəndir. Qazinin «Divan»ının dilində hər iki tipdən istifadə edilmişdir.

Təyin budaq cümləsinin «budaq cümlə + baş cümlə» quruluş tipində (bağlayıcı sözlü) əksərən ***hansı*** bağlayıcı sözünün arxaik variantı olan ***qanqı*** sözündən istifadə edilmişdir. Belə cümlələr şairin dilində azdır, lakin müasir təyin budaq cümləsi modelinə uyğundur. Bu tipin tam mükəmməl formasının işlənməsi budaq cümlənin bu növünün dildə qədim dövrlərdən sabitləşmiş olduğunu göstərir. Məs.:

***Qanqı*** könüldə ***ki*** odun olmaya,
***Ol*** könüli bən bilürəm qarə yox. (QB)

Göründüyü kimi, budaq cümlə baş cümləyə ***qanqı*** bağlayıcı sözü və ***ki*** ədatı ilə bağlanmış, baş cümlədə qarşılıq bildirən (təyin vəzifəsində) ***ol*** sözü işlənmişdir.

Sonrakı dövrlərdə, xüsusən M.P.Vaqifin dilində bağlayıcı sözlü təyin budaq cümləsinin tam səlis formasına rast gəmək olur:

***Bir evdə ki*** belə gözəl olmaya,
***O*** ev bərbad olub talanmaq gərək. (Vaqif)

Baş cümlədəki qarşılıq bildirən ***o*** sözü cümləni başqa budaq cümlələrlə qarışdırmağa imkan vermir.

Beləliklə, abidələrin dilində bir sıra başqa budaq cümlələr kimi intensiv işlənməsə də, təyin budaq cümləsinin bağlayıcı sözlü tipi qədim dövrlərdən müəyyənləşmiş və normal inkişaf yolu keçmişdir.

**II tip**. Təyin budaq cümləsinin analitik tipində baş cümlə əvvəl, budaq cümlə sonra işlənmişdir. Budaq cümlə baş cümləyə bəzən intonasiya ilə bağlanmışdır. Bu hal üslubdan, xalq ifadə tərzinə münasibətdən asılı olaraq, «Oğuznamə»nin, «Mehri və Vəfa»nın, «Dastani-Əhməd Hərami»nin, Xətainin, Qurbaninin dilində daha çox müşahidə olunur; məs.:

***Adəmi var***, qızıl alma naqşıdur,
***Adəmi var***, heyvan andan yaqışıdur.
***Adəmi var***, söhbətində baş yitər,
***Adəmi var***, söhbətində can bitər. (Oğuz.)
***Quş var,*** ət yedirirlər, ***quş var***, ətin yeyirlər. (Oğuz)
***Var idi bunların içində bir ər,***
Qatı gürbüz bahadur idi sərvər.(DƏH)
***Var idi ol bağçada bir xub çiçək***,
Dəxi tazə olur idi duricək. (MV)
***Gördü bir oğlan,*** yüzü bənzər ayə.( MV)

Bu cümlələrin hər birinə ikinci komponentdən əvvəl ***ki*** bağlayıcısını artırmaq olar.

Şah İsmayıl Xətainin məsnəvilərinin dilində intonasiya ilə baş cümləyə bağlanan təyin budaq cümlələri nəzəri xüsusi cəlb

edir; məs.: ***Bir evə qəhr ola***, müsafir getməz.(Xət.) ***Bir gövhəri bulmaq gərək***, Heç sərraflar bulmaz ola. (Xət.) ***Söz vardır*** kəsdirər başı, ***Söz vardır*** kəsər savaşı. ***Söz vardır*** ağulu aşı Bal ilən edər yağ bir söz. (Xət.) ***Daxi sir var*** deyilməz xəlq içində, ***Yenə söz var*** deyəsi xülq içində.(Xət.)

Xətaidən verdiyimiz birinci cümləni: «*Bir evə qəhr olsa, müsafir getməz*» kimi yox, «*Bir evi qəhr olsun ki, ora müsafir getmir*» kimi anlamaq lazımdır.

Bu misalların bir qismində ***ol*** və ***bir*** qəlib sözləri var. Qalan cümlələrin baş cümləsinə ***ol, elə*** sözlərini əlavə etmək mümkündür: ***Elə söz vardır*** kəsdirər başı, ***Elə söz vardır*** kəsər savaşı.

Qurbaninin və Vaqifin dilində də belə cümlələr var: ***O*** nə güldü, dövrəsində xar olmaz. (Qurbani) ***Bir*** gün olur, itirərsiz Vaqifi. (Vaqif)

Təyin budaq cümləsini baş cümləyə bağlamaq üçün ***kim*** və ***ki*** bağlayıcıları paralel şəkildə işlədilmişdir. Bu bağlayıcılar intensiv işlənmə imkanlarına görə yalnız yazıçı üslubu ilə fərqlənir. Məsələn, Qazinin dilində təyin budaq cümləsini də baş cümləyə bağlamaq üçün ***ki*** bağlayıcısı aşkar üstünlüyə malikdir. Şair əsasən ***ki*** bağlayıcısından istifadə etmişdir; məs.: Zülfünə düşən könül sərdən keçər, Xam ola ***şol*** söz ***ki***, ənbərdən keçər**.** (QB) Susamışam nola bən görməgə didarunuzı, Susadım ***şol*** yüzə ***ki***, dideyi-dəvran təşnə. (QB) Arif oldur ki, bulımaz yar qatında özini, Eşq ***bir*** bazardur ***ki,*** anda satılmaz özini. (QB) Eyş edəlüm ***ki,*** ola ol eyşdən dilşad şad.(QB) ***Bir*** sayəyəm ***ki***, göz görürü yoxdurur tənüm, Bu halı yar bana ömürə saya bənzəməz.(QB) Bir dil qanı ***ki,*** yana odına bu nigarun, ***Bir*** mey qanı ***ki***, ola dəva işbu xumarun. (QB)

Bu misallarda budaq cümlə baş cümlədən sonra işlənərək ona ***ki*** bağlayıcısı ilə bağlanmışdır. Birinci misalın baş cümləsində mübtədanın təyini vardır: ***şol*** sözü. Aktuallaşdırılaraq məntiqi vurğu altında tələffüz edilən həmin söz konkret bir məna ifadə etmir və budaq cümlənin baş cümlədə yerliyi, qəlibi kimi çıxış edir. Məntiqi vurğudan aydın hiss olunur ki, baş cümlədən sonra budaq cümlə gəlməli və ***şol*** sözü ilə nəyin nəzərdə tutulduğunu izah etməlidir. Bu cümləni sadə cümlə şəklində ifadə etsək, həmin cümlədə də təyin aktuallaşmış olacaqdır, lakin onun budaq cümlə şəklində aktuallaşması daha güclüdür, çünki o (təyin) cümlədə birbaşa ifadə edilmir, əvvəlcə qəlib söz-işarə əvəzliyi vasitəsilə dinləyə-

nin, oxucunun nəzərinə çatdırılır, sonra budaq cümlə vasitəsilə mahiyyəti izah edilir.

Baş cümlədə təyin budaq cümləsinin yerliyi, qəlibi kimi aşağıdakı sözlərdən istifadə edilmişdir. Bunların əksər arxaik olanları Qazinin dilindədir.

***Şöylə*** sözü: ***Şöylə*** günəşdür ol ***ki,*** qılur söhbət ay ilə. (QB) Bən ***şölə*** gülün aşiqi oldum ***ki,*** göricək Toymaya vücudum dəxi xarından, əfəndi. (QB)

***Şol*** sözü: ***Şol*** süciyəm ***ki***, zövqümi xəmmar bilmədi. (QB) Xalis nigari-eşqinə sikkə uran zərə, ***Şol*** qəlb ola ***ki***, qalibi-qüllabı yoxdurur. (QB) ***Şol*** suyı sunğıl bana ***ki,*** od ola feli.(QB) Buldu könlüm səninlə ***şol*** vüslət ***Kim***, anın vəslinə vüsal irəməz. (Nəs.) Dilbərin ləli əzəl bəzmində içirmiş mana ***Şol*** meyi ***kim***, nöh fələkdir kəmtərin peymanəsi. (Nəs.)

***Ol*** sözü: Vay ***ol*** kişiyə ***kim,*** allahdan inayət olmaya. (Oğuz.) Vay ***ol*** kişiyə ***kim***, günahın bilməyə. (Oğuz.) Namərd ola ***ol*** kişi ***ki,*** qəsd eyləyə mərdə. (QB) Nihayətə irər ***ol*** hüsn ***ki***, apara canı.(QB) Fili piyadə qıldı, atın aldı ruxların, Fərzünləniz ***ol*** işi ***ki,*** bu şəhsuvar edər.(QB) Bu dünlə eşqünün məhi-tabında xoş geçər, ***Ol*** aya can fəda ola ***ki***, bəndə xoş geçər.(QB) Bən qulıyam dünyada ***ol*** nərlərün ***Ki,*** bu dəm meydanumda kükrəşürlər. (QB) Əlfazi-Nəsimi bu gün ***ol*** möcüzədir ***kim***, Bənzər ana bir lölövü şəhvar ələ girməz. (Nəs.)

Bəzən eyni cümlədə həm ***şol,*** həm də ***ol*** qəlib sözü işlənmişdir**:** Ləbin ***şol*** ləli-əhmərdir, dişin ***ol*** dürri-gövhərdir ***Ki***, ləli torpağa saldı, buraxdı dürri dəryayə. (Nəs.)

***O*** sözü: ***O*** şahın xəznəsini gözləyəlim ***Kim, ol*** sultanın adıymış Şəhinşah. (DƏH)

***Bu*** sözü: ***Bu*** gecədir ol ***ki***, təşnə Xızrə Heyvan suyu nagəhan qavışdı.(Xət.) ***Bu*** gündurur ol ***ki***, xəstə Yəqub Yusifdən azub, rəvan qavışdı.(Xət.)

***O, bu*** sözlərinin qəlib söz kimi işləndiyi belə cümlələr ilkin mərhələdə hələ azdır.

Bir sıra cümlələrdə qəlib söz kimi ***bir*** sözü işlənmişdir. ***Bir*** sözü intonasiya ilə birlikdə ***elə bir, şöylə bir*** mənalarını ifadə edir: ***Bir*** saray yapdı bulər ***kim***, nə deyim. (Suli) ***Bi*****r** dəm umaram ***ki,*** ola yar ilə bir dəm. (QB) Bən ***bir*** otam ***ki,*** hiç bəni əttar bilmədi. (QB) Gözindən anun günilərəm əksümi bənüm, Qopar yenə kö-

nüldən ***bir*** məani ***Ki,*** dil bilürü dil söyləməz anı.(QB) ***Bir*** nəfisə qalmışam ***ki,*** varlığım oldur, Sizə fidi ruzü həftəvü mah ilə sal. (QB) Səba nəql eylədi canuma ***bir*** söz ***Ki,*** bən qılımazam anı rəvayət (QB) və s.

Xətainin və Füzulinin dilində belə cümlələr daha çoxdur: ***Bir*** yar var idi mənə qədimi ***Kim,*** könlümün ol idi nədimi.(Xət.) Həm yox mənə ***bir*** rəfiqi-həmdəm ***Kim,*** eyləyə bu yarama məlhəm. (Xət.) ***Bir*** mülkdə ver mənə qərarı ***Kim***, yetməyə adəmi ğübarı. (Füz.) Tədbir ilə buldu ***bir*** xirədmənd ***Kim***, lütf ilə söz qılanda təqrir, Təqriri verərdi daşa təğyir. (Füz.) Gərək buna ***bir*** tənbih edək ***ki,*** heç kimsənəyə olmamış ola. Amma ***bir*** şairdür ki, heç manəndimisli yoxdur. («Şəhriyar»)

***Belə*** sözü: O yer də bir ***belə*** yer idi ***ki***, vəsfin demək dil ilən və kağız ilən mümkün olmaz. («Şəhriyar»)

Müasir dildə olduğu kimi, bir sıra cümlələrdə qəlib söz işlənməmişdir: Yalan olmaz ***ki***, anun yarısı gerçək olmıya. (Oğuz.) Oxlar atar gözləri ***ki***, taşları yarar, Xəstəyə urur özini olamı məğdur. (QB) Qanı dil ***ki,*** gözünlə parə degül, Bu könül axı səngi-xarə degül. (QB)

Bu misalların baş cümləsində budaq cümlənin qəlibi yoxdur, buna görə də qəlib sözün yarada biləcəyi təəssüratı intonasiya yerinə yetirmiş, budaq cümlə baş cümlədə təyinlənən sözlə birbaşa əlaqələnmişdir.

«Mehri və Vəfa»nın dilində ***kim*** və ***ki*** bağlayıcıları təqribən bərabər kəmiyyətdə işlənmişdir. «Dastani-Əhməd Hərami»də ***ki*** nisbətən üstündür.

***Kim*** bağlayıcısı ilə: Yer yüzi at ayğınə təngidi ***Kim,*** hesabə gəlməzdi sağisi.(Suli) Qanı Mehrilə tayə, Məşuqəm ***kim***, yüzi bənzərdi ayə? (MV) Biz qəriblərüz burada biməkan ***Kim***, cəfalar çok bizə qıldı zaman.(MV) Yenə qıla kəndözün günəş nihan ***Kim***, anın nuriylə aydındır cahan. (MV) ***Bir*** iş var ***kim***, anı təcil edərlər, ***Bir*** iş var ***kim,*** anı təcil edərlər.(DƏH)

***Ki*** bağlayıcısı ilə: İrəsən bir qalaya ***ki***, çok ulu. Gəncxanədir içi, həm altun dolu. (MV) Var idi şəhr içrə bir sərraf ***ki***, ol Qatı zənbaz idi, həm dünyası pul.(MV) Hərami anda qondu bir dərəyə ***Ki,*** insan uğramazdı ol arayə.(DƏH) İş edəyim sənə aləmdə düpdüz ***Ki***, anın kibi iş heç görməmiş göz.(DƏH) Dedi gəldi bizə bir can parası ***Ki,*** oldur gözlərin ağı, qarası. (DƏH)

Nəsiminin dilində ***kim*** bağlayıcısı nisbət etibarilə bir qədər üstündür:

***Kim*** bağlayıcısı ilə: Uğramadı hüsnünün atəşi ***şol*** canə ***kim***, Şol günəşin tabinə cismi qədid olmadı. (Nəs.) Qanı cahanda, ey könül***, ol*** vəhdət əhli ***kim,*** Yüz min bəlavü möhnət ilə mübtəla degil. (Nəs.) Kim bilir ***ol*** şümari ***kim***, mən nə şümar içindəyəm? (Nəs.) Bu gün, ey xubların şahı, əmiri-dilbəransan ***kim***, Xəyalın ləşgəri verdi könül şəhrini yəğmayə. (Nəs.)

***Ki*** bağlayıcısı ilə: Meraca çıxdı ruhi-Nəsimi Buraq ilən, ***Şol*** laşədən nə faidə ***ki,*** la-zəlul ola? (Nəs.)

***Kim*** bağlayıcısının üstün mövqeyi Şah İsmayıl Xətainin, Füzulinin, Nişat Şirvaninin və b.-nın dilində də qalmaqdadır: ***Ol*** oddur o ***kim***, Xəlili Nəmrud Ba məncanaq atdı ona çün dud. (Xət.) Gördü onu bağibani-məhrəm ***Kim***, gözlər idi yolunu hər dəm. (Xət.) Der qasidəm ***ol*** şikəstə zarə ***Kim***, aşiq olubdur ol nigarə. (Xət.) Əvvəl səbəb oldu nəzmi-tovhid ***Kim***, bəndəliyin odur nişani. (Xət.) Yoxdur ***bir*** mülk bu zamanda ***Kim***, nəzm rəvacı ola onda. (Füz.) ***Bir*** bəzmi-müsibəti-bəladır ***Kim,*** əvvəli qəm, sonu fənadır. (Füz.) ***Bir*** bəzmgah eylədi mürəttəb ***Kim,*** görmədi onu çeşmi-sağər. (Füz.) Yaşım suyu oldu varə-varə ***Bir*** bəhr ***kim***, yox ona kənarə. (Füz.) ***Bir*** mənzilə düşdü rəhgüzari ***Kim,*** seyrdə idi onda yari. (Füz.) ***Bir*** ləlin eşitmişəm sənin var ***Kim***, ləlimə oldur səzavar. (Füz.) O ***bir*** əyyari-hindudir ***kim***, olmaz fitnədən xali. (Nişat) və s.

***Ki*** bağlayıcısı ***kim*** ilə müqayisədə xüsusən Füzulinin dilində işləklik etibarilə geri qalır. Misallar: Yetirdi özünü hər necük var ***Ol*** bağə ***ki***, mənzil etdi dildar.(Xət.) Getdin ***o*** yerə ***ki***, getmək olmaz, Yetdin ***o*** yerə ***ki***, yetmək olmaz. (Füz.) ***Bir*** dövrdəyəm ***ki***, nəzm olub xar. (Füz.) ***Bir*** vaqeədir ***ki***, düşdü nagah. (Füz.) ***Ol*** sözü deməz ***ki***, ola təkrar. (Füz.) Ey xoş ***ol*** günlər ***ki***, mən həmraz idim canan ilə. (Füz.)

Həm Xətainin, həm də Füzulinin dilində vəznlə, ahənglə əlaqədar bəzən ***ki*** bağlayıcısı sonrakı sözlə birləşmişdir: ***Ol*** bağə irişdi ***kondadır*** yar.(Xət.) ***Ol*** gülşənə yetdi ***kondadır*** yar.(Xət.) ***Bir*** feyzi-nəzər mənə rəfiq et ***Kalayişi-ixtilafdan*** pak. (Füz.)

Bu misallarda ***kondadır, kalayişi*** sözləri ***ki ondadır, ki alayişi*** kimi nəzərdə tutulur.

Bu cəhətə Məsihinin dilində də rast gəlmək olur: Gəzməkdə yetişdi rahi-Vərqa ***Ol*** çadıra ***konda*** idi Gülşa.(Məs.)

Füzulinin «Leyli və Məcnun» məsnəvisində bütün təyin budaq cümlələri, demək olar ki, analitik tipə aiddir, budaq cümlə baş cümləyə ***kim*** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır. Baş cümlədə az hallarda qəlib söz kimi ***ol*** sözü işlənmişdir, əksər cümlələrdə ***bir*** sözü vardır.

Qurbaninin dilində də analitik tip əsasdır. İntonpsiya və ***ki*** bağlayıcılı cümlələrin baş cümləsində ***o*** sözü qəlib söz kimi işlənmişdir:

Xoş ***o*** kimsəyə ***ki*** yata yuxuda
Cəbrayıl üstünə gətirə nida. (Qurbani)

XVII əsr ədəbi dilində də analitik təyin budaq cümləri aparıcıdır. Arxaik elementlərə üstünlük verən Məsihinin dilində ***kim*** və ***ki*** bağlayıcıları bərabər işlənmişdir:

Uçduqda yetişdi bürci-yarə ***Kim***, anda idi o mahparə. (Məs.) Məşhur əkabirü əhali Bir bəzmə ***ki*** etdi anda bünyad ***Kim,*** görməmiş ani adəmizad. (Məs.) Bu könül bir qətrədir ***kim,*** onda dərya gizlənir. (Qövsi)

İkinci misalın baş cümləsində ***ki*** ədatının işlənməsini üslubi qüsur da saymaq olar, bağlayıcı sözlü cümlələrlə bağlayıcılı cümlələrin hələ də ilkin arxaik qarışıq formasının saxlanması kimi də dərk etmək olar.

Məsihinin dilində ***ki*** bağlayıcısı məqamında ***ta*** bağlayıcısının işləndiyi hala da rast gəlmək olur: Bir şərt edərəm sizə nihani, ***Ta*** gəlməgimin ola nişani.(Məs.)

M.P.Vaqifin dilindəki əksər təyin budaq cümlələri analitik tipə aiddir və budaq cümlələrin baş cümləyə bağlanmasında artıq ***ki*** bağlayıcısının üstün mövqeyi aydın görünməkdədir. Lakin baş cümlədə budaq cümlənin qəlibi kimi ***ol*** sözü fəaldır: Afəti-bəla-fənadən dağıla, bərbad ola ***Ol*** bina ***ki***, onda bir zülfi-pərişan olmaya. (Vaqif) Həyatı baqidir ***ol*** kimsənin ***ki***, niknam olsun. (Vaqif)

Baş cümlədə qəlib söz kimi ***bir*** sözü daha çox işlənmişdir, lakin müasir dilə daha uyğun tərzdə artıq ***belə bir*** qəlib sözü də vardır:

Sən deyilsən ***belə bir*** şey ***ki***, çıxasan üzə sən. (Vaqif) Bulmadım ***bir*** dost ***ki***, ondan bir ədavət görmədim. (Vaqif) Afəti-dəhr dəyər ***ol*** kəsə ***kim***, kamildir. (Vaqif)

M.P.Vaqifin dilində ***kim*** bağlayıcı sözü ***ki*** ədatı ilə yanaşı elə işlənmişdir ki, həm bağlayıcı söz, həm də asemantik ***kim*** bağlayıcısı kimi dərk oluna bilir:

Nə səfa ***ol*** gül yanaqdan ***ki***, gözə görünməyə.
Nə ləzzət ***ol*** qönçə ləbdən ***kim ki*** xəndan olmaya? (Vaqif)

Beləliklə, biz «Kitabi-Dədə Qorqud»dan XVIII əsrə qədərki (bu əsr də daxil olmaqla) mümkün olan poeziya nümunələri əsasında təyin budaq cümləsini zəngin nümunələr əsasında nəzərdən keçirdik. Aydın olur ki, təyin budaq cümləsinin hər iki quruluş modeli çox qədim dövrlərdən təşəkkül tapmışdır.

## ZƏRFLİK BUDAQ CÜMLƏLƏRİ

### TƏRZ BUDAQ CÜMLƏSİ

«Kitabi-Dədə Qorqud»un dilində budaq cümlənin bu növünün bağlayıcı sözlü tipi yox dərəcəsindədir. Nümunə kimi göstərdiyimiz misal da mübahisəli görünə bilər: *...**necə** məsləhət görərlərsə, ana görə iş edəlim.* (55) Baş cümlədəki qarşılıq bildirən ***ana görə*** sözləri *o cür* mənasındadır.

Budaq cümlənin analitik tipi müasir səviyyədə işləkdir – budaq cümlə baş cümlədən sonra gələrək ona ***kim*** bağlayıcısı ilə bağlanmışdır. Baş cümlədə ***eylə, şöylə*** qəlib sözləri işlənmiş və budaq cümlə vasitəsilə izah edilmişdir. Budaq cümlələr nəticə çalarına malikdir:

*Buğanın alnına bir yumruq **eylə** urdı kim, buğayı göti üzərinə çökürdi.* (88) *Aslanın alnın gözədüb bir yumruq **eylə** urdı kim, yumruq çənəsinə toqundu, ovatdı.* (89) *Sügüligi Dəpəgözün gözinə **eylə** basdı kim, Dəpəgözün gözi həlak oldı. **Şöylə** çalayım səni mağara divarına kim, quyruğın mağarayı yağlasun.* (101) ***Şöylə*** *çalayım ki, künbədlə tartağan olasan.* (101) ***Eylə*** *qaxdı kim, künbəd zirü zəbər oldı.* (102)

«Kitabi-Dədə Qorqud»un dilindəki budaq cümlələrin bir qismində müqayisə çaları daha aydın müşahidə olunur: *Qız bir oxla Qanturalıyı atdı **şöylə kim**, başında olan bit ayağına endi.* (93) *Ha-*

*sar qapusına girmişkən qara polad uz qılıcı ənsəsinə **eylə** çaldı kim, başı tob kibi yerə düşdi*. (96)

Təbii ki, birinci misaldakı ***atdı şöylə kim*** sözlərində qəlib sözü və bağlayıcını müasir dil səviyyəsində nizama salmaq da olar: ***şöylə atdı kim.***

**I tip**. «Dədə Qorqud»dan sonrakı abidələrin dili üçün də bağlayıcı sözlü tərz budaq cümlələri o qədər işlək deyildir. Daha zəngin dil materialını əhatə edən Qazi Bürhanəddinin dilində bu tip budaq cümlələr nisbətən az işlənmiş və budaq cümlə baş cümlədən əvvəl gələrək ona ***necə, necə ki, netə//nitə,*** bəzən də ***şöylə*** bağlayıcı sözləri və ***isə*** köməkçi sözü ilə bağlanmışdır; məsələn: Qəmzən oxı yarasını canımda gizlərəm, *Sən **necə ki** gərək **isə***, anı cəhana yay.(QB)

Bu misalın baş cümləsində (*anı cəhana yay*) qarşılıq bildirən söz olmasa da, artırmaq olar: *anı cəhana **eylə** yay.* Lakin bu cür cümlələrin baş cümləsində, az hallarda olsa da, qarşılıq bildirən sözə də rast gəlmək olur; məsələn: Nigar bizüm ilə ***necə*** bir qılur nazı, ***Necə*** əsir edə kəklik cəhanda şahbazı. (QB)

Misaldan göründüyü kimi, cümlədə komponentlərin yeri dəyişmişdir (əvvəl baş cümlə, sonra budaq cümlə işlənmişdir) və hələ bağlayıcı sözlə qarşılıq bildirən söz də o qədər fərqlənmir.

Əsas model bu cürdür və formalaşıb. Lakin Qazi Bürhanəddinin, Nəsiminin, «Mehri və Vəfa»nın dil faktları göstərir ki, hələ elə mərhələdir ki, tərz budaq cümləsinin analitik tipi ilə analitik-sintetik tipinin o qədər də fərqlənmədiyi hallar var. Qazi Bürhanəddindən verdiyimiz aşağıdakı misallara diqqət yetirək:

Şəha, şahin gözün könlümi alur, ***Necə ki*** bəhrilər alur oxları. (QB) Şəha, hüsn ilə səni həq irürmiş qayətə, leykin ***Netə ki*** cud ilə irmiş cəhanda Hatəmi-Tayı. (QB) Qaşları peyvəstə əgri bulınur öz əhdinə ***Necə ki*** bağlamışam bən anlara canumı çin. (QB) Təşnədür qəddüm sənün bənüm yürəgüm qanına, ***Şöylə ki*** düşmən yürəginə bu nizə təşnədür.(QB) Qulluğa canum yasanur ***necə*** zülfün yasanur, Zülfünün bəndində bəni sən usana sanasın. (QB) Səməndər oldı könül eşqün odı dənizinə, ***Nitə ki*** yaş dənizinə bu gözüm oldı səmək (QB) və s.

Bu misallarda ***necə ki, netə ki, şöylə ki, nitə ki*** bağlayıcı sözlü ikinci tərkib hissələr budaq cümlədir. Baş cümlə əvvəl işlənmiş-

dir. O zaman belə düşünmək olar ki, bu cümlələrin tərkib hissələri inversiyaya uğramışdır. Lakin bu cümlələri asanlıqla analitik tip şəklində də təsəvvür etmək mümkündür: *Şəha, şahin gözün könlümi (öylə) alur, **Necə ki** bəhrilər oxları alur; **Necə ki** bəhrilər oxları alur, Şəha, şahin gözün könlümi (öylə) alur.*

Bu cür cümlələrə Əlinin «Qisseyi-Yusif» əsərində də rast gəlmək olur: ***Netə*** Yəqub ol Yusifi sevər idi, Yusif Yəqub uyluqında birər idi. (QY)

«Mehri və Vəfa» məsnəvisinin dilində də bağlayıcı sözlü bu cür tərz budaq cümlələri müşahidə olunur. Budaq cümlə baş cümləyə ***netə kim*** bağlayıcı sözünün köməyi ilə bağlanmışdır: Keçdi Vəfa taxta oturdu rəvan, Hökm edirdi ***netə kim*** Nuşirəvan. (MV)

Nəsiminin dilində tərz budaq cümləli tabeli mürəkkəb cümlələr məhdud şəkildə müşahidə olunur. Lakin bu o demək deyildir ki, Nəsimi dövründə bu cür budaq cümlələr az inkişaf etmişdir. Bu baxımdan aşağıdakı fikir özünü doğrultmur: «Belə düşünmək olar ki, nəsr dili sahəsi ilə, həm də obrazlı ifadələr üçün münasib olan belə cümlələr inkişafı nöqteyi-nəzərindən daha sonrakı dövrlərdə geniş yayılmışdır; çünki bir sıra yeni janrların (o cümlədən hekayə, povest, roman və s.) XIX əsrin ikinci yarısından inkişafı tərzi-hərəkət budaq cümləli tabeli mürəkkəb cümlələrin də inkişafına kömək etmişdir»[1]. Dil faktının bol və ya məhdud işlənməsi qrammatik quruluşun inkişafı ilə də bağlıdır, lakin bir çox hallarda məsələ şairin, yazıçının üslubundan, onun daha çox vərdiş etdiyi vasitələrdən asılı olur. Normal bir nümunənin olması strukturun nəzərdə tutulan dövrdə artıq mövacud olduğunu göstərir. Bu cəhət dövrün başqa sənət abidələrinin - «Mehri və Vəfa», «Dastani-Əhməd Hərami» məsnəvilərinin, Qazi Bürhanəddin poeziyasının verdiyi faktlarlarla da təsdiq olunur.

Bu baxımdan Nəsiminin aşağıdakı misraları da təminedicidir: Cövrünə səbrü təhəmmül eyləgil müşriklərin, ***Necə kim*** gördü Rəsul ilə Əliyyül-Mürtəza. (Nəs.) Taətin fövt etmə şeytan gərçe yüz nur göstərir, Qiblədən döndərmə üzün, ***necə kim*** Zeynal-iba.(Nəs.) Gəl Əli, Musa, Riza kimi həqqin əmrini tut, ***Necə kim*** həqdən gəlir canü könüldən çun riza. (Nəs.) Susadım vəslinə irməkliyə, ey canisiyah, ***Nitə kim*** Yusifə Yəqub ilə Kənan susadı. (Nəs.)

---

[1] H.Mirzəzadə.Azərbaycan dilinin tarixi sintaksisi.Bakı,«Maarif», 1968, s.162.

Misallar göstərir ki, bağlayıcı vasitələrə görə Nəsiminin tərz budaq cümlələri Qazi Bürhanəddinin cümlələrinə daha yaxındır.

Məsihinin dilində bu cür cümlələrdə ***necə ki*** bağlayıcı sözü məqamında ***eylə ki*** bağlayıcı sözü işlənmişdir:

Eylədi gözdən nihan öznü o mahi-xərgəhi,
***Eylə kim*** zülmətdə məva abi-heyvan eylədi. (Məs.)

Bu cür hallara baxmayaraq, artıq XVI əsrdə - Qurbaninin şeirlərində tərz budaq cümləsinin bağlayıcı sözlə bağlanan tipi baş cümlədə qəlib sözün işlənməsi ilə tam normal və müasir şəkildədir:

Sən olasan səni şahi-Xorasan,
***Necə ki*** görərsən, ***öylə*** deyərsən. (Qurbani)

Qurbaninin qoşmalarında yalnız intonasiya ilə (bağlayıcı sözün və korrelyatın olmadığı) cümlələr də sadə danışıq dili norması kimi mövcuddur; məs.:

Ver içəyim, yar, əlindən badə sən,
Ərəstun içirdi loğmana, Pəri.(Qurbani)

Burada ikinci misranın əvvəlinə asanlıqla ***necə ki*** bağlayıcı sözünü artırmaq mümkündür.

«Şəhriyar» dastanında da tam müasir formaya rast gəlirik: ***Necə*** bizə layiqdür, sənin işin ***elə*** əmələ gəlür, xatircəm ol. («Şəhriyar») Gərək ***necə*** biz, vəzir də sərəfraz ola. («Şəhriyar»)

**II tip**.Analitik tərz budaq cümləsi normal inkişaf yolu keçmişdir. «Dədə Qorqud»un dilində olduğu kimi, tərz budaq cümləsinin analitik tipi «Dastani-Əhməd Hərami»nin dili üçün də səciyyəvidir. Burada tərz budaq cümləsinə aid nümunələr nisbətən az olsa da, mövcud nümunədən görünür ki, budaq cümlənin bu növü tam müasir şəkildə formalaşmışdır. Müqayisə bildirən tərz budaq cümləsinin baş cümləsində *eylə* qəlib sözü, budaq cümlədə ***sanasan kim*** modal sözü işlənmişdir:

Həyasından qızardı, ***eylə*** tərlər,
***Sanasan kim*** gülə düzüldü dürlər. (DƏH)

«Mehri və Vəfa» məsnəvisinin dilində tərz budaq cümləsinin analitik tipi daha işləkdir. Baş cümlədə qəlib söz kimi ***şöylə, öylə, eylə*** sözləri işlənmiş, budaq cümlə baş cümləyə intonasiya ilə, ***kim*** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır.

İntonasiya ilə:

***Eylə*** *getdi, kimsə irməz gərdinə.* (MV)

Belə cümlələrdə müqayisə məzmunu güclüdür, müqayisə və obrazlılıqla bağlı olaraq, budaq cümlələrdə ***sanasan, sanki*** modal sözləri işləndiyi üçün baş cümlələrdə qəlib sözə ehtiyac olmayıb:

İki yar bir-birinə bulaşdılar,
***Sanasan*** ay ilə gün qovuşdular.(MV)
Çəkdi Vəfa Mehri aldı yanına,
***Sanki*** yüz bin can qarışdı canına. (MV)

***Sanasan, sanki*** modal sözlərinə müvafiq şəkildə budaq cümlədə ***şöylə kim*** modal sözü də işlənmişdir:

Çün anı eşidib Mehri ağladjı
***Şöylə kim*** şahın cigərin dağladı. (MV)

***Şöylə kim*** sözləri ***elə bil*** məqamında da işlənmişdir:

Uyqu basdı, ikisi də yatdılar,
***Şöylə ki*** balı şəkərə qatdılar. (MV)

Qəlib söz kimi çıxış edən ***öylə*** sözü nəzmin tələbləri ilə əlaqədar bəzən budaq cümlənin əvvəlinə düşmüşdür:

Qorkumdan bir ata binür qaçaram,
***Öylə sanki*** bir quş oldum uçaram. (MV)

İsmi xəbərlə bağlı tərz zərflikləri də mümkündür ki, məsnəvidə *Ağzı həqqədür,* ***sanasan*** *rəsmi simi*(MV) - tipli cümlələr də işlənmişdir.

Qazi Bürhanəddinin, Suli Fəqihin dilində tərz budaq cümləsi baş cümləyə ***ki*** və ***kim*** bağlayıcıları ilə bağlanmış, baş cümlədə

***böylə, şöylə*** qəlib sözləri işlənmişdir; məsələn: *Gözümüz* ***şöylə*** *qərq oldı ki, bulmazuz gözümüzi.*(QB) ***Şöylə*** düşdü Züleyxa ayağdan yerə ***Kim,*** unutdu kəndözini biçarə. (Suli)

Qəlib sözlər daha çox bağlayıcıya yaxın mövqedə – baş cümlənin sonunda özünü göstərir; məsələn: Düşeyim oduna bən, sən dəxi qıl bəni qəbul ***Şöylə ki*** yaz gecəsi şəmünə pərvanə düşər. (QB) Nigarına nə halətdür ki, bilməzüz özümüzi, Bazı ilə gözləri qılur seydi-dilü can ***Şöylə ki*** kişi avlayımaz baz ilə dəxi (QB) və s.

Qeyd edilən misallardan birincisində nəticə, sonrakılarda müqayisə çaları vardır.

Müqayisə bildirən tərz budaq cümlələrinin bir qisminin baş cümləsində qəlib söz işlənmədiyindən baş və budaq cümlənin əlaqəsi zəifdir. Əlaqə yalnız budaq cümlədəki ***sanasan ki*** modal sözünün vasitəsilə yaranmışdır: *Sənün eşqin bəni yaxdı* ***sanasın Ki*** *bir od salı verdün bir qamışa.*(QB) Hammamda nə şeir ki deyilə tər düşər, *Zira axar suya,* ***sanasın ki,*** *şəkər düşər.* (QB) Bu cümlələrə ***elə, eylə, şöylə*** sözlərini artırmaq da olar: *Sənin eşqin bəni* ***elə*** *yaxdı,* ***sanasan ki…***

Şah İsmayıl Xətai *necə ki* mənasına müvafiq şəkildə ***çün*** sözündən istifadə etmişdir:

Güllər vərəqinə doldu şəbnəm,
***Çün*** bərgeyi-hovzi-abi-zəmzəm.(Xət.)

Qurbani intonasiya ilə qurulan cümlələrdən istifadə etmiş, qəlib söz kimi, canlı dilin əlaməti olaraq ***elə*** sözünü işlətmişdir: Mən ona ***elə*** müştaqam, ***Necə*** bülbül gülə, gülə. (Qurbani)

Qazidən başlayaraq tərz budaq cümləsinin ***necə ki*** bağlayıcı sözü ilə işlək forması sonrakı dövrlərdə də davam etmişdir:

Çoxdur həvəs ərbabi, vəli aşiqi-sadiq
Azdır, ***necə kim*** nəğmeyi-tər çox, əsər azdır.(Qövsi)
***Necə ki*** görürsən özün filməsəl,
Camalındır cahan içrə bibədəl.(Vaqif)
Şami-qəm şadlıq əyyamına xoş ziyvərdir,
***Necə kim*** xali-siyəh arizi-canana düşər. (Vaqif)

Təbii ki, bir sıra budaq cümlələrlə müqayisədə tərz budaq cümləsi nisbətən az işlənsə də, müasir qəlibinə çox qədimlərdən sahib olmuşdur.

## DƏRƏCƏ BUDAQ CÜMLƏSİ

Dərəcə budaq cümləsi də nisbətən az işlənən, tərz və kəmiyyət budaq cümlələrinə yaxın olan budaq cümlə növüdür. «Kitabi-Dədə Qorqud»un dilində az görünür. Lakin ümumən müasir modeldə mövcuddur:

Əzrayilin gözini ***elə*** qorxutdum ki, gen qapuyı qodı, tar bacadan çıxdı. (80) - cümləsində ***elə*** sözü *o dərəcədə* mənasını ifadə edən qəlib söz kimi işlənmişdir.

Əvvəlki dövr abidələrinin dilində əlamətin dərəcəsini bildirən belə budaq cümlələrin baş cümlədə yerliyi ***öylə*** və ***şöylə*** sözləridir:

***Şöylə*** qızlıq (qıtlıq) oldu ***kim***, xəlqi ütər. (Suli)
***Öylə*** xubdur, hüsn içində misli yok. (MV)
Dəxi girdi içəri, gördi bir saray,
***Şöylə*** rövşəndir, sanasan kim, bir ay.(MV)

Göründüyü kimi, ***o dərəcə*** məqamında ***şöylə, öylə*** sözləri əlamət bildirən sözlərlə birgə işlənmişdir: ***şöylə*** qızlıq oldu, ***öylə*** xubdur, ***şöylə*** rövşəndir.

Müasir dilimizdə olduğu kimi, dərəcə budaq cümləsinin abidələrdə yalnız analitik tipi işlənmiş və budaq cümlə baş cümləyə intonasiya və ***ki*** bağlayıcısı ilə bağlanmışdır. Tərz budaq cümləsi kimi, dərəcə buldaq cümlələri də nəticə və müqayisə çalarına malikdir.

Nəticə çalarlı dərəcə budaq cümləsinin baş cümlədə feli xəbərə aid olduğu hallar da var. Baş cümlədə ***o dərəcə*** mənasında ***o qədər*** qəlib sözü işlənmişdir: ***Ol qədər*** getdi ki, Vəfa görmədi. (MV)

Qazi Bürhanəddinin dilində dərəcə budaq cümləsi baş cümləyə daha çox ***ki*** bağlayıcısı ilə bağlanmışdır. Budaq cümlənin baş cümlədə qəlibi kimi ***bu qədər*** və dilimizdə arxaikləşmiş ***şöylə*** sözləri işlənmişdir; məs.:

Dür dökər gözlərüm, nigara, dişinçün, ***Bu qədər*** *eybi var ki,* düzümə gəlməz.(QB) ***Şöylə*** *boyadı yüzümi ay yüzünün xəyalı ki,* Ayağumuza baş qoya, görür isə xəzan bizüm.(QB) *Könül həvan ilə* ***şöylə*** *səfa bulupdur ki,* Xəcil ola anı görürsə camı Cəmşidün. (QB)

Nəsiminin dilində əsas qəlib sözlər ***şol qədər*** və ***şöylə*** sözləridir. Budaq cümlə baş cümləyə intonasiya ilə də bağlanmışdır. Lakin əksərən şair ***kim*** bağlayıcısından istifadə etmişdir; məs.:

Şəha, ləlin şərabindən Nəsimi ***şoylə*** sərxoşdur, Olubdur valehü heyran, diləməz abi-ənguri. (Nəs.) ***Şol qədər*** safidir ləbin eyni ***Kim***, anıın abinə zülal irəməz.(Nəs.) Qaşların ***şoylə*** mötədildir ***kim***, Etidalinə etidal irəməz. (Nəs.) Batinə kar eylədi eşqi-rüxün ***şoylə kim***, Tənə urar altunun rənginə rüxsarımız. (Nəs.) Vardı oturdi İbn Yamin qatinə ***Şol qədər kim***, döndi toni toninə. (Suli)

Füzulinin yaradıcılığında budaq cümlələri baş cümləyə bağlayan vasitələr, yəni baş cümlədə budaq cümlənin yerliyi genişlənir, çoxalır. Füzuli qəlib söz kimi ***öylə*** sözü ilə yanaşı, ***ol rütbədə, ol məqamə, ol qədər, bir qayətə, ol növ*** sözlərini də baş cümlədə ***o dərəcə*** mənasında işlətmişdir. Budaq cümlə baş cümləyə əksərən ***kim,*** bəzən ***ki*** bağlayıcısı ilə bağlanmışdır.

Baş cümlədə ***ol rütbədə*** sözləri: ***Ol rütbədə*** qədri-nəzmdir dun ***Kim***, küfr oxunur kəlami-mövzun. (Füz.)

Baş cümlədə ***ol məqamə*** sözləri: Heyranlığı ***ol məqamə*** yetdi ***Kim***, düşdü ayaqdan, usu getdi. (Füz.) Zəfi-təni ***ol məqamə*** yetdi ***Kim***, bəstər içində cismi itdi.(Füz.)

Baş cümlədə ***öylə*** sözü: ***Öylə*** zəif qıl tənimi firqətində ***kim,*** Vəslinə mümkün ola yetirmək səba məni! (Füz.) Olmuşdu bəşərdən ***öylə*** bizar ***Kim***, öz əksin sanırdı əğyar. (Füz.) ***Öylə*** sərməstəm ***ki***, idrak etməzəm dünya nədir.(Füz.) Rəqib çün gəlir ol kuyidən, əcəbdir kim, Tutulmuş ***öylə kim***, ağzını zülfüqar açmaz. (Qövsi)

Baş cümlədə ***ol qədər*** sözləri: Dərdin mənə ruzi ***ol qədər*** qıl ***Kim***, kimsəyə ol olub müyəssər, Kimsə mənə olmaya bərabər! (Füz.)

Baş cümlədə ***bir qayətə*** sözləri: ***Bir qayətə*** yetdi zəfi-cismi ***Kim***, peykəri nəqşi-bəstər oldu. (Füz.)

Baş cümlədə ***ol növ*** sözləri: ***Ol növ*** idi zülməti-şəbi-tar *Kim*, olmadı sariban xəbərdar.(Füz.)

Məsihi də ***o dərəcə*** sözlərinə daha yaxın olan ***ol qədər*** qəlib sözündən istifadə etmişdir: Yoxdur mənə dəxi ***ol qədər*** mal, Ta kim düzəyim zərurəti-hal. (Məs.)

Bağlayıcı sözlərin, demək olar ki, hamısı müəyyən fonetik səlisləşmə ilə hazırki canlı danışıq dilində işlənməkdədir və budaq cümlə qəlibinin qədimlərdən təşəkkül tapmış olduğunu göstərir.

## ZAMAN BUDAQ CÜMLƏSİ

Müasir ədəbi dilimizdə olduğu kimi, zaman budaq cümləsinin bağlayıcı sözlə baş cümləyə bağlanan tipi «Kitabi-Dədə Qorqud»un dilində daha işləkdir. Budaq cümlə baş cümlədən əvvəl gələrək ona ***necə kim, qaçan, qaçan kim, ol vəqt kim*** bağlayıcı sözləri ilə bağlanmışdır. Müasir ədəbi dilimizdə ***ki*** ədatı ilə ***-sa,-sə*** şəkilçisi növbələşdiyi halda, dastanların dilində əksərən bağlayıcı sözdə ***kim*** ədatı, xəbərdə ***-sa,-sə*** işlənmişdir; məs.: ***Qaçan kim*** Budaq ***atsa***, Beyrək "Əlün var olsun!" dedi. Uruz ***atsa***, "Əlün var olsun!" deyirdi.(63) Al ayğır ***qaçan kim*** yağı qoxusın ***alsa***, ayağın yerə dögərdi, tozı gögə çıqardı. (107)

***Kim*** ədatının və ya ***sa,-sə*** şəkilçisinin işlənmədiyi, növbələşdiyi hallar da mümkündür: Bayındır xanın divanına ***qaçan istəsə***, varır-gəlürdi. (110) ***Qaçan*** Qazan evin ***yağmalatsa***, həlalının əlin alur, tışra çıqar, ***andan*** yağma edərdi. (123) ***Necə kim*** bu düşi gördüm, ***şundan bərü*** əqlim-huşum dərə bilmən. Mərə Qılbaş, ***ol vəqt kim*** Üç, Boz oq yığnaq ***olsa***, ***ol vəqt*** Qazan evin yağma edərdi. (123)

Əvvəlki iki cümlədə bağlayıcı söz və ***-sa,-sə*** şəkilçisi, üçüncü cümlədə bağlayıcı söz və ***kim*** ədatı, son misalda isə həm bağlayıcı söz, həm ***kim*** ədatı, həm də ***-sa, -sə*** şəkilçisi işlənmişdir. Son variant müasir dil baxımından arxaik sayıla bilər, artıq norma hesab olunmur.

Göründüyü kimi, sonrakı cümlələrin baş cümləsində qarşılıq bildirən ***andan, şundan bərü, ol vəqt*** sözləri də işlənmişdir.

Keçən tarixi dövr ərzində bağlayıcı sözlər də, qarşılıq bildirənlər də fonetik dəyişikliyə uğramışdır. İndi zaman budaq cümləsində ***necə ki*** yox, ***neçə ki*** bağlayıcı sözü işlənir. ***Qaçan, ol, andan, şundan*** sözləri isə fonetik dəyişikliklə ***haçan, o, ondan, bundan*** sözləri ilə əvəz olunmuşdur.

Zaman budaq cümləsinin müasir ədəbi dilimizdə özünü göstərən "budaq cümlə + baş cümlə" quruluşlu ***ki*** bağlayıcılı tipi də formalaşma tarixinin qədimliyi ilə diqqəti cəlb edir. Hiss olunur ki, zaman budaq cümləsinin bu modeli daha qədimlərdən normalaşmışdır; məs.: Qapu eşigi üzərindən arqurı qomışlardı ***ki, bu məhəldə*** xan Qazan yetdi. (74) «Kitabi-Dədə Qorqud» boylarının dilində «budaq cümlə + baş cümlə» quruluş tipinin ***ki*** bağlayıcısız növü də

müşahidə olunur: *Üç günə varmasun, allah sevindirsün sizi!* (62) – ***Üç günə varmamış,*** allah sevindirsin sizi.

Sonrakı abidələrdə də belə cümlələrə rast gəlirik. Bu cür zaman budaq cümlələrinin quruluşca mürəkkəb olduğu da müşahidə olunur:

Başın çıxardı ***ki,*** baxaydı andan, Boğazından çalar ol gülixəndan. (DƏH) Əl urdu ***ki***, çöhrəsin edə pak, Ol şiyftə açdı çeşmi-pürnəm. (Füz.)

*Əl urdu **ki**, çöhrəsin edə pak*- budaq cümlədir, lakin məqsəd budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir. Sadələşdirsək: ***Çöhrəsini pak etmək üçün əl vuranda*** Ol şiyftə açdı çeşmi-pürnəm – şəklində olacaqdır.

Zaman budaq cümləsinin bu növü dilimizdə geniş şəkildə işlənməkdədir.

**I tip.** Zaman budaq cümləsinin «budaq cümlə + baş cümlə» quruluş tipi tarixən də dilimizdə çox işlənmiş və zəngin bağlayıcı vasitələrə malik olmuşdur. Budaq cümlə baş cümləyə müxtəlif vasitələrlə – bağlayıcı sözlər, ***kim*** və ***ki*** ədatları, ***kim*** və ***ki*** bağlayıcıları, intonasiya və s. ilə bağlanmışdır.

XIII-XIV əsrlərin ədəbi dilində bağlayıcı sözlə baş cümləyə bağlanan zaman budaq cümlələri daha çox nəzəri cəlb edir. Budaq cümlə baş cümləyə aşağıdakı bağlayıcı sözlərlə bağlanmışdır:

***1.Qaçan*** bağlayıcı sözü ilə: ***Qaçan*** yoldaşları qızı gördülər, Qamusu qorxuban candan keçdilər.(DƏH)

Müasirliyə doğru inkişaf prosesində ədatın və şəkilçinin işlənmədiyi belə cümlələr iki cəhətdən maraqlıdır. Yalnız bağlayıcı sözlə baş cümləyə bağlanan belə budaq cümlələr həm ilkindir, həm də son nəticədir, yəni bu ilk forma tədricən ədat və şəkilçi ilə zənginləşsə də, son nəticədə tədricən onlardan xilas olub yüngülləşməkdədir. Bu son nəticə tələffüz vaxtına qənaətlə əlaqədardır və budaq cümlənin baş cümləyə həm də intonasiyanın köməyi ilə bağlanmasından irəli gəlir.

***Qaçan*** bağlayıcı sözü «Dastani-Əhməd Hərami»nin, «Mehri və Vəfa»nın dilində daha çox ***kim,*** Qazi Bürhanəddinin dilində ***ki*** ədatı ilə birgə işlənmişdir.

***Qaçan kim*** forması: ***Qaçan kim*** dünün iki bəxşi keçdi, Yerindən durdu ol Əhməd Hərami.(DƏH) ***Qaçan kim*** ol döşək vaxtı

olurdu, Dolanırdı ol işə qız gəlirdi.(DƏH) ***Qaçan kim*** ol zəxmli oldı, qaçdı, Neçə dağlar, neçə səhralar aşdı. (DƏH) ***Qaçan kim*** qızı gördü döndü getdi, Yenə yoldaşları qatına yetdi. (MV)

***Qaçan ki*** forması: Bu süffədə ki günəş-ay müzəhhəb etmiş ani, ***Qaçan ki*** olmayasın sən, səvası yox, nedəlüm?! (QB) Səba hikayət edər bülbül cəmalündən ***Qaçan ki*** yırta yaxasını qonça, ol qəş edər (QB) ***Qaçan ki*** sünbüli-zülfün niqabı ayə düşər, Qəmər səhabə girər, afitabə sayə düşər. (Nəs.) ***Qaçan ki*** qətl edəsən, nəfsini oda atasan, İrişə ayəti-ünzür,dönə həyata məmat. (Nəs.)

Bəzən ***ki*** ədatı ilə ***qaçan*** sözü arasına başqa sözlər daxil olmuşdur. Bu hal hələ ədatın bağlayıcı sözlə tam qovuşmadığını göstərir: ***Qaçan*** xurşid ***ki*** məşriqdən göründi, Ulu dağlar qamu nur tac urundi. (DƏH)

Misallar göstərir ki, tədricən normalaşma prosesi gedir. Bağlayıcı söz ***kim*** və ya ***ki*** ədatı ilə birgə işlənirsə, budaq cümlədə – ***sa,-sə*** şəkilçisinə ehtiyac qalmır, ahəng yüngülləşir, artıq elementlər sıradan çıxır.

Lakin bəzən  budaq cümlənin xəbərində ***-sa, -sə*** şəkilçisi, ***isə*** köməkçi sözü də işlənmiş və şərt çaları yaratmışdır; məs.: Tapundan birlik umarız ***qaçan ki*** Der ***isən*** yarunam, əğyar olasın. (QB) Yoxsulü bəy ilə aparur başa halini, İlla ***qaçan ki*** səni görür ***isə*** bayilə (QB) və s. Misallarda komponentlərin yeri dəyişmişdir. Bu cür cümlələr Qazi Bürhanəddinin dilində çoxdur. Şairin dilində bu növ zaman budaq cümləli tabeli mürəkkəb cümlənin komponentlərinin inversiyaya uğradığına tez-tez rast gəlmək olur; məs.: Nəşr etsə saçını, qəti təşvişə düşərəm, Cəm ola xatirüm yenə ***qaçan ki*** ləf qıla. (QB) Bindən öndin şikar qılmadı hiç, Qəmzələri ***qaçan ki*** çıxdı ava (QB) və s.

***Hər qaçan*** bağlayıcı sözü və şərt şəkilçisi: ***Hər qaçan*** sultan ***nəzər etsə*** bənə, Ol qədəhi sunam anin əlinə. (Suli)

***Netəkim*** bağlayıcı sözü: ***Netəkim*** ol gecə olurdu halət, Qız ilə olur idi ol hekayət. (DƏH) ***Hər qaçan, netəkim*** sözləri arxaikləşmişdir.

***2.Bir gün ki*** bağlayıcı sözü ilə: Padşah ***bir gün ki*** sayru düşər, Rahətindən rənc ilə ayru düşər, Artdı gündən-günə rənci gördülər, Qəmu bəglər dirilübən gəldilər. (MV)

Sonralar Füzulinin dilində bağlayıcı sözlü zaman budaq cümlələri çoxalmışdır. Şair daha çox ***bir gün ki, ol dəm ki, ol gün ki,***

***hər neçə ki, ol ləhzə ki*** bağlayıcı sözlərindən istifadə etmişdir: ***Bir gün ki*** meyi-süheyl təsir Vermişdi mizaci-pakə təğyir, Həmrəngi-bəhar olub xəzanım, Dönmüşdü əqiqə zəfəranım. (Füz.) ***Ol dəm ki*** bu xakdanə düşdü, Halını bilib fəğanə düşdü.(Füz.) ***Ol gün ki*** rəhimdə kilki-qüdrət İcadıma verdi ziybi-surət, Doldurdu həva ilə dimağım, Sevda ilə bağladı ayağım. (Füz.) ***Ol gün ki*** gözümdə var idi nur, Gözdən üzünü yaşırdın, ey hur! (Füz.) ***Ol dəm ki*** olurdu ruz rövşən, Nəğmə kimi pərdədar olurdu. (Füz.) ***Hər neçə ki*** təndə canı vardır, Namusumuza ziyanı vardır.(Füz.) ***Hər neçə ki*** ona mihmansan, Eyşü tərəbilə kamiransan. (Füz.) ***Hər necə ki*** var idi nigari, Aləmdə idi onun qərari. (Füz.) ***Ol ləhzə ki*** hüşyar olursan, Əlbəttə ki, şərmsar olursan. (Füz.)

Buradakı bağlayıcı sözlərin bəzilərində ***(hər neçə ki***) bir qədər loruluq olsa da, bunlar əsas bağlayıcı vasitələr kimi sonralar da işlənməkdə davam etmişdir; məs.: ***Ol dəm ki*** göründü gözümə şəmi-cəmalın, Yandırdı məni şövq odu pərvanə tək, ey dust! (Vid.)

***3***.Bəzən budaq cümlə bağlayıcı söz olmadan, ***kim*** və ***ki*** ədatları ilə baş cümləyə bağlanmışdır; məs.: Xəzinəyə bular ***kim*** girdilərdi, Qumaş, altunü aqca aldılardı. (DƏH)

Füzulinin dilində ***ki*** ədatı ilə baş cümləyə bağlanan zaman budaq cümlələri çoxdur və bu ədat ***elə ki*** bağlayıcı sözünün ifadə etdiyi mənaya uyğun məna ifadə edir; məs.: Məcnun ***ki*** eşitdi Leyli adın Sandı ki, fələk verər muradın. (Füz.) Məcnun ***ki*** eşitdi bu xitabı, Verdi bu əda ilə cəvabı.(Füz.) Leyli ***ki*** eşitdi ol sədayi, Bildi eşiyindəki gədayı. (Füz.) Nərgis ***ki*** göz açdı, bağə girdi, Bir baxmağılan özün itirdi. (Füz.)

Qurbani yaradıcılığında müasirlik güclüdür. Şair arxaik formalara fikir verməmiş, intonasiyadan və ***ki*** ədatından daha çox istifadə etmişdir: Əl uzatdım yarın yaxasın açam, Gözümə Gürcüstan narı göründü. (Qurbani) Məhəmməd ***ki*** qədəm basdı meraca, Pişvazinə gəldi mimü lamü kaf. (Qurbani)

Əvvəlki misalın birinci komponentinə ***ki*** ədatını da artırmaq mümkündür. Tərkib hissələr intonasiya ilə əlaqələnmişdir.

Misallardan göründüyü kimi, «Kitabi-Dədə Qorqud»dan sonrakı dövrlərdə tədricən bağlayıcı sözlü cümlələrdə ***–sa,-sə*** işlənkliyini azaltmışdır.

Bizə yaxın olan daha sonrakı dövrdə - Məsihinin üslubunda ***ki*** ədatı ilə baş cümləyə bağlanan zaman budaq cümləlləri daha bö-

yük üstünlük təşkil edir: Gülşa ***ki*** eşitdi ol məqali, Bildi nədür anənin xiyali. (Məs.) Dayə ***ki*** eşitdi ol məqali, Bər verdi şükufeyi-xəyali. (Məs.) Vərqa ***ki*** eşitdi ol məqali, Bildi nədür atanın xəyali. (Məs.)

Bu misalların hamısında ***ki*** ədatından əvvəl ***elə*** bağlayıcı sözünü işlətmək mümkündür. Bu hal müasir dilə doğru budaq cümlənin daha çox səlisləşməkdə olduğunu göstərir.

***Ki*** ədatı ilə baş cümləyə bağlanan zaman budaq cümlələrində şərt və səbəb çaları da olur. Məsələn: Ağ əlin ***ki*** dəyər o müşki-naba, Bənzər bulut içrə girən mahtaba (Vaqif) – misralarında «ağ əlin ki dəyər» sözlərini «ağ əlin dəyəndə», «ağ əlin dəydiyi üçün» və ya «ağ əlin dəysə» kimi də düşünmək olar.

***4. Ol zaman kim*** bağlayıcı sözü ilə: ***Ol zaman kim*** nüh fələk dövrandı, Yəqubun on iki oğlı vardı.(Suli) ***Ol zaman kim*** lütf ilə bir gövhərə qıldın nəzər, Zahir ol gövhərdən oldu cümlə əşya laədəd. (Nəs.)

Sonralar **-** M.P.Vaqifin dilində ***o*** sözünün müasir dil üçün arxaik *ol* formasını nəzərə almasaq, demək olar ki, müasir ədəbi və canlı danışıq dilində işlənən bağlayıcı sözlər işlənmişdir. Şairin dili bağlayıcı sözlü cümlələrlə zəngindir. Daha çox ***o zaman ki, ol zaman ki, ol gün ki, hər zaman ki, eylə ki, elə ki, neçə ki*** bağlayıcı sözlərindən istifadə etmişdir: ***Ol zaman ki*** aşnalığı tərk etdik, Cüda düşdük, xeyli ciyər bərkitdik. (Vaqif) ***Ol zaman ki*** yaşın yetişər yüzə, Gəl gör onda nə bişümar ağlarsan.(Vaqif) Surətini çəkdi ***ol gün ki*** nəqqaş, Camalını qıldı hər gözəldən baş.(Vaqif) ***Hər zaman ki*** səndən umdum şəfəqqət, Bir dava başladın, qalmaqal etdin. (Vaqif) ***Hər zaman kim*** ol sənəm gedir qabağımdan mənim, Başadək bir od düşər, yanar ayağımdan mənim.(Vaqif) ***Eylə ki*** görər məni, yaylıq çəkər rüxsarinə.(Vaqif) ***Neçə ki*** dirisən, ölü deyilsən, Padişahsan əgər özünü bilsən.(Vaqif) ***Elə ki*** on beş yaşına gəldi, özözünə fikr edüb ki, nə zamanatən mən atamın əlinə baxub, özüm bimərifət qalacağam. («Şəhriyar») Gedərmiş mərdümdən qədrü hörmətlər, ***Elə ki*** şövkətü şan gedər oldu.(Vid.)

Bu cür cümlələrdə tərəflərin yeri dəyişə bilir: Mən canımı qurban sana demişəm, ***Ol zaman ki*** oldu qalü bəla, qız. (Vaqif)

**5.** Nəsiminin dilində müasir dilimizdə işlətdiyimiz ***neçə ki, nə qədər ki*** bağlayıcı sözlərinə yaxın məqamda ***anca (anca kim)*** bağlayıcı sözünə rast gəlmək olur: Müshəfi-hüsnün həqqiçün, ey

dilaramım mənim, ***Anca kim*** bu təndə canım var, səndən dönməzəm. (Nəs.)

**6.**Nəsiminin dili üçün ***ta, ta kim, ta ki*** bağlayıcı sözləri ilə baş cümləyə bağlanan zaman budaq cümlələri daha səciyyəvidir.

***Ta*** bağlayıcı sözü ilə: ***Ta*** üzün şəmindən iraq düşmüşəm pərvanə tək, Yanaram leylü nəhar, ey nurü narım, qandasan? (Nəs.) ***Ta*** bir piyalə verdi, kəbab etdi bağrımı. (Saib)

***Ta*** bağlayıcı sözü və ***kim*** ədatı ilə:***Ta kim*** üzünü görmüşəm, hüsnündə heyran olmuşam. (Nəs.) Qulağı arifin ***ta kim*** Nəsiminin sözün dinlər, Sədəf tək incilər ağzı dollar dür şahivarindən. (Nəs.)

***Ta*** bağlayıcı sözü və ***ki*** ədatı ilə: Nəsimi ***ta ki*** oldu həqqə vasil, Xızrın çeşməsi bolmuş həyatı. (Nəs.) Abi-həyatın zövqünü mən ***ta ki*** sordum, ləblərin İçirmiş ol meydən mana, mən abi-heyvan olmuşam. (Nəs.) ***Ta ki*** xəbər gəldi xublar şuxundan, Əl çəkdim cahanın varü yoxundan. (Vid.)

Bu cümlələrdəki ***ta ki, ta kim*** sözləri müasir dildə işlənən ***elə ki, o vaxtacan ki*** bağlayıcı sözlərinə müvafiqdir. Onu da qeyd etmək olar ki, ***ta*** sözü eyni məqamda danışıq dilində indi də işlənməkdədir.

Bu bağlayıcı sözə Nəsimidən əvvəl Qazi Bürhanəddinin dilində də rast gəlmək olur; məs.: Əziz olmadı ***ta*** çaha düşmədi Yusif, Zənəxdə biz dəxi şaha əsiri-çah olalum. (QB) Bu bağlayıcı sözün rolu barədə Ə.Sadıqov da eyni fikirdə olmuş və yazmışdır: «Yazılı abidələrdə zaman budaq cümləsini baş cümləyə bağlamağa xidmət edən vasitələrdən biri də *ta ki* bağlayıcısıdır. Bu bağlayıcı da çox vaxt budaq cümlədə *«elə ki»* mənasında işlənir və budaq cümlə baş cümlədən əvvəl gəlir»[1].

Canlı danışıq dilinə üstünlük verdiyinə görə bu bağlayıcı söz M.P.Vaqifin dilində də geniş yer tutur. Şairin dilində ***ta*** bağlayıcı sözü əksərən ***ki*** ədatı ilə birgə işlənmişdir; məs.: ***Ta*** düşdü mənim başımə sevdası bu zülfün, Zəncir ilə divanələrin çəkdi səfinə. (Vaqif) ***Ta ki*** məni gördü ol qəlbi qara, Çəkdi yaşmağını o gül rüxsara. (Vaqif) ***Ta ki*** gördüm yanağının mən rəngin, Düşmüşəm bir oda, közə, Fatimə! (Vaqif) ***Ta ki*** gördüm camalının şöləsin, Əridi bağrımda tamam yağ, gəlin. (Vaqif) ***Ta ki*** səni gördüm, mum tək əridim. (Vaqif) ***Ta ki*** gördüm, heyran oldum mən sənə. (Vaqif) Taci-

---

[1] Ə.Sadıqov.Nəşr edilən klassik ədəbiyyatda durğu işarələrinin işlədilməsi vəziyyəti. «Türkologiya», Bakı, 2000, № 1-4, s.26.

zərdən ***ta ki*** ayrıldı dimaği-pürqürur, Payimal oldu təpiklərdə, sərisərdarə bax! (Vaqif) Qıl körpüdən ***ta ki*** sürçər ayağın, Cəhənnəm xovfindən yarılar yağın.(Vaqif)

***Ta*** bağlayıcı sözü və şərt şəkilçisi ilə: ***Ta*** bir piyalə saqiyixunxar ***verməsə***, Yüz kasə qan əgər içərəm, qanə bilmənəm. (Qövsi) ***Ta*** mənzilini ***bilməsəm,*** doğrusu, sənə su vermənəm və qoymanam bir yerə gedəsən. («Şəhriyar»)

***Ta ki*** bağlayıcı sözü də şərt çaları yarada bilir:: Vaqif ***ta ki*** dura tamaşasına, Bilməz baxa bəzəyinin hansına. (Vaqif)

*7.*Budaq cümlə baş cümləyə ***necə//neçə, neçə ki*** bağlayıcı sözləri ilə bağlanmışdır; məs.: Əhd etdi ayrulığ ilə bu dəlü könülüm, Ki ***neçə*** ömri var isə, ayrılmaya, bəgüm. Bir söhbəti ki bir nəfəs ol yar ilə keçdi, ***Neçə ki*** ömür var ***isə***, ana qaluruz biz. (QB) Bin səbr ilə bir aşiq ***necə*** var ***isə*** ömri ***Ta*** gəlməyə canına bir cana gəliməz ol (QB) və s.

Son misalda ***kim/ki*** ədatlarından biri olmadığı üçün ***isə*** köməkçi sözündən istifadə edilmişdir.

«Dəhnamə»nin dilində də ***elə ki*** məqamında ***necə kim*** bağlayıcı sözünə rast gəlmək olur: Səndən ***necə kim*** can ayrı düşdi, Tən ya çürüdü, ya sayru düşdi.(Xət.)

***8.***Budaq cümlə baş cümləyə ***andan ki, andan bəri, andan bərü ki*** bağlayıcı sözləri ilə bağlanmışdır: ***Andan bərü ki*** eşqün odına yaxılmışuz, Bazari boz, şəha, bizi bazari sanmağil (QB) ***Andan ki*** saçı gül yüzinə müşk ilə düşdi Miskin könülüm bir qıl ilə müşkilə düşdi.(QB)

***9.***Budaq cümlə baş cümləyə ***şundan, şundan bəri*** bağlayıcı sözləri ilə bağlanmışdır: ***Şundan bərü ki*** cadu gözün çavın eşitdüm, Əsrük yatıban oynamağı hər dəm iş etdüm. (QB)

***10.***Budaq cümlə baş cümləyə ***şol dəm, şol ləhzə, şol nəfəs*** tipli bağlayıcı sözlər vasitəsi ilə bağlanmışdır; məs.: ***Şol dəm ki*** qəmzən oxı qıldı dili nişanə Qan axar oldı gözdən bir qətrə ab gəlməz (QB) və s.

Sonralar Xətai bu sıradan çox işlənən bağlayıcı sözlü zaman budaq cümlələrinə daha çox müraciət etməli olmuşdur. Bu bağlayıcı sözlərdə qəlib qalmaqla, ***şol, şu, ol, kim*** sözləri dəyişmişdir. Budaq cümlə baş cümləyə ***şol zaman ki, şu dəmdən kim, ol dəm ki*** bağlayıcı sözləri ilə bağlanmışdır: ***Şol zaman ki*** bətni-ümdə nütfeyi-mədfun idik, Əmri-bari ilə anda pərdəyi-pürxun idik.(Xət.) ***Şu***

***dəmdən kim*** sənin gördüm cəmalın, Giriftar olmuşam yüz min bəlayə. (Xət.) ***Ol dəm ki*** mən ol cəmalı gördüm, Özümdən özümü xali gördüm. (Xət.) ***Ol dəm ki*** bu xakidanə düşdü, Halını bilib fəğanə düşdü.(Füz.)

***11.***Abidələrin dilində çoxişlənən bağlayıcı sözlərdən biri də ***çün/çun*** sözüdür. «***Çun*** və onun ***çu/çü*** şəkli bütün türk dilləri üçün eyni dərəcədə səciyyəvi deyildir. Qədim türk dili abidələrindən Orxon-Yenisey, qədim Uyğur, Şərqi Türküstan mətnlərinin dilində olmamışdır. Orta əsr özbək dilinə aid yazılarda isə həmin bağlayıcıya rast gəlirik… XIV-XVIII əsrlərin yazı materiallarının dilində işlənən ***çun*** və ***çu/çü*** bağlayıcıları vəzifə etibarilə dəyişməsə də, mənaca xeyli geniş olmuşdur… ***Çün*** bağlayıcısı *o vaxt, o zaman* sözlərinin sinonimii olduğu kimi, müasir dilimizdə ***elə ki*** bağlayıcısı ilə əmələ gələn zaman budaq cümlələrinə də tam uyğun gəlir»[1]. Qeyd etməliyik ki, müəllif bağlayıcı sözlə bağlayıcını fərqləndirməsə də, göstərilən bağlayıcı sözlərin zaman budaq cümləsinə də xidmət etdiyini düzgün müəyyənləşdirmişdir.

***Çün*** (bəzən ***çünun*** şəklində) bağlayıcı sözü müasir dildəki ***elə ki*** bağlayıcı sözünün mənasına müvafiq məna ifadə edir**: *Çün*** eşitdi İbn Yamin bu sözü, Ağlarikən tazə oldi gül yüzi. (Suli) ***Çünun*** oyandı, Yusifi bulmadı.(Suli) ***Çün*** günəş toğdi fələklərə, Bir qara bulut gəldi yağmur, nərə. (Suli) İkisi ***çün*** qövlü möhkəm etdilər, Hər birisi bir yanaya getdilər.(MV) ***Çün*** gecə oldu gövhər düşdü suya, Dünya xalqı vardı qamu uyquya. (MV) ***Çün*** nicat qılduq mundan gedərüz, Bir padişah mülkinə əzm edərüz.(MV) Mehri aydır: ***Çün*** Vəfa gəldi bizə, Bənzədi cümlə dünümüz gündüzə. (MV)

Bu cür cümlələrdə bəzən tərkib hissələr inversiyaya uğramışdır: Bağban deyir: Dövlətin xub işlədi, ***Çün*** xatun bizə bunı bağışladı.(MV)

Bəzi cümlələrdə durğu işarəsindən düzgün istifadə edilmədiyi üçün cümlənin mənası qarışır. Gördi Mehri Vəfayı ***çün*** qıldı ah. (MV) Tayə Mehri gördü, ***çün*** durdu uru (MV) – cümlələrində vergül, fikrimizcə, ***çün*** sözündən sonra qoyulmalıdır: *Çün Mehri Vəfayı gördü, qıldı ah – elə ki Mehri Vəfanı gördü, ah çəkdi.*

Bəzən ***çün*** sözü ***kim, ki, elə ki*** məqamlarında işlədilmişdir: Yigit ***çün*** bir-bir eşitdi sözini, Həqə ismarladı ol dəm özini.(DƏH)

---

[1] H.Mirzəzadə.Azərbaycan dilinin tarixi qrammatikası,Bakı,1990, s.360-361

Həramilər ***çün*** ol odu görürlər, Danışıban ol arədə dururlar.(DƏH) Qılınc ilə ***çün*** anı dəxi yıxdı, Sürüdi gögdəsin taşra buraxdı.(DƏH) Keçib ol dün yenə ***çün*** oldu gündüz, Nur ilə doldu aləm yüzü düpdüz.(DƏH) ***Çün*** axşam irişibən gün tolundu, Qamu dağlar başı yavı qılındı. (DƏH) Cavabını anın ***çün*** aldı bunlar, Genə sultan qatına gəldi bunlar.(DƏH) Keçibən ol gecə ***çün*** sübh oldu, Durub Əhməd Hərami şahə gəldi.(DƏH) Keçibən Xoca Rüstəm ***çün*** oturdi, Oxuyuban Güləndamı gətirdi.(DƏH)

XV-XVI əsrlər ədəbiyyatında ***çün*** bağlayıcı sözü fəal şəkildə işlənməkdə davam etmişdir.

Xətainin dilində. Bu söz Xətainin dilində ***elə ki*** bağlayıcı sözünün ifadə etdiyi mənaya müvafiq işlənmişdir: ***Çün*** gördüm onu bu səltənətdə, Eyvani-kəmali-mənzələtdə, Vəhşət ətəyini tutdu könlüm, Öz halətini unutdu könlüm. (Xət.) ***Çün*** yetdi mana, səlam qıldım, Öz dərdi-dilim tamam qıldım.(Xət.) ***Çün*** gördü onu Səbayi-miskin, Çəkdi cilovunu oldu ğəmgin.(Xət.) ***Çün*** gördü onun bu halını huş Gəldi mana biqərarü bihuş.(Xət.) ***Çün*** gəldi mənim yanıma yetdi, Sordum ona kim, nigar netdi?(Xət.) Bu sözləri ***çün*** eşitdi guşim, Qalmadı qərarü səbrü huşim. (Xət.)

Bu cümlələrdə ***çün*** sözünü ***elə ki*** sözü ilə əvəz etmək olar: ***Çün*** yetdi mana, səlam qıldım, Öz dərdi-dilim tamam qıldım – ***Elə ki*** yetdi mana, səlam qıldım, Öz dərdi-dilim tamam qıldım.

Bu misalları səbəb budaq cümləsi kimi də izah etmək olardı. Lakin səbəbdən çox zaman mənası vardır. Misallardakı budaq cümləri səbəb budaq cümləsi kimi götürdükdə budaq cümlənin mənasında bir mexanikilik, kortəbiilik nəzərə çarpır, zaman budaq cümləsi kimi izah etdikdə təbii və şüurlu təhkiyədən söhbət gedir. Məsələn, ***Çün*** gəldi mənim yanıma yetdi, Sordum ona kim, nigar netdi? – cümləsini *Mənim yanıma yetdiyi üçün sordum…* yox, *Mənim yanıma yetəndə sordum...* kimi anlamaq düz olar. Hər halda, ***çün*** sözündə səbəb mənası da vardır.

Eyni xüsusiyyətə Füzulinin dilində də rast gəlirik: ***Çün*** gördü bu halı Zeydi-ğəmnak, Əfqan qılıb etdi yaxasın çak.(Füz.)

Füzulinin dilində ***çün*** sözü ilə yanaşı, ***çü*** sözünün də zaman budaq cümləsini baş cümləyə bağladığını görürük. Məs.:

Məcnunə ***çü*** namə oldu vasil,
Dür gördü əqiqinə müqabil. (Füz.)

Ol pir ***çü*** gördü oğlu halın,
Tökdü rüxi-zərdə əşki-alın.(Füz.)

Xətainin dilində də ***elə ki*** bağlayıcı sözü və ya sadəcə ***ki*** ədatı məqamında işlənmiş ***çü*** sözü zaman budaq cümləsini baş cümlə ilə əlaqələndirmişdir: Ol peyki-Səba ***çü*** mindi atı, Xoş sürdü iradətilə qatı. (Xət.) Yeridi Səba ***çü*** barigahə, Bağladı təvəkkülün ilahə. (Xət.)

***Çü*** bağlayıcı sözü bir qədər sonra da davam etmişdir: Məsihi də ***ki*** ədatı məqamında bəzən ***çü*** sözünə müraciət etmişdir: Vərqa ***çü*** eşitdi ol cəvabi, Birinə yüz oldu iztirabi.(Məs.) Eşitdi ***çü*** ol kəlami ləşgər, Oldu qəmu cəng üçün dilavər. (Məs.)

***Çü*** bağlayıcı sözü ilk dövrlərdən ***elə ki*** mənasında zaman budaq cümlələrinə xidmət etmişdir: ***Çü*** gəldi padişahın həzrətinə, Rəvan sultan süvar oldu atına. (DƏH) ***Çü*** sübh oldu, yerində durdu sultan, Oxudu bəylərini dərdi ol xan.(DƏH) ***Çü*** dügün savulub axıra irdi, Hərami ol gecə gərdəgə girdi.(DƏH)

12. ***Elə ki*** bağlayıcı sözü məqamında ***çünki/çünkim*** bağlayıcı sözlərindən də istifadə edilmişdir: ***Çünki*** Yəqub dinlədi bu sözləri, Ah qıldı, tolə gəldi gözləri. (Suli) Dedi bizə, ***çünki*** Misrə irəsiz, Hər birinüz bir qazudən girəsiz. (Suli) ***Çünki*** vardı bularə, səlam virir. (Suli) Güləndam yüzini ***çünkim*** açardı, Sarayın içinə şölə saçardı. (DƏH) Buyurdu ***çünki*** məmurlar dərildi, Bir ulu köşk içün bünyad uruldu.(DƏH)

Keçən zaman müddətində ***çun/çün*** bağlayıcı sözü tam arxaikləşmiş, ***çünki*** bağlayıcı sözü isə bağlayıcıya çevrilmişdir və müasir dilimizdə yalnız səbəb budaq cümləsini baş cümləyə bağlayır.

13.«Oğuznamə»nin dilində, Suli Fəqihin məsnəvisində budaq cümlə baş cümləyə daha müasir forma – ***nə vaxt*** bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə də bağlanmışdır: ***Nə vaxt keçərsə*** Yusif, bənə degil. (Suli) Bən ***nə vaxt ölürsəm***, qiyamət ***ol gün*** qopar. (Oğuz.)

14.Şərt çalarlı bir sıra budaq cümlələr lap qədim dövrlərdən baş cümləyə şərt şəkilçisi ilə bağlanmışdır: Ülkər ***düşsə***, qış olur. (Oğuz.)

**II tip.** Müasir dilimizdə az işləndiyi kimi, abidələrin dilində də zaman budaq cümləsinin analitik tipi nisbətən az işlənmişdir.

Buna baxmayaraq, lap ilkin abidələrin dilində də zaman budaq cümləsinin «baş cümlə + budaq cümlə» quruluş tipi mövcuddur.

Analitik tipin həm intonasiya ilə, həm də bağlayıcı ilə baş cümləyə bağlanan növləri qədimdir. «Mehri və Vəfa»nın dilində baş cümlədə qəlib söz kimi ***o vaxta qədər ki*** mənasında ***anca kim*** sözü işlənmiş, budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır: ***Anca kim*** durdum, anın çıkdı canı. (MV)

«Mehri və Vəfa»nın dilində zaman budaq cümləsinin bu tipinə rast gəlsək də, əsərin dilində bağlayıcısı sözlü tip daha işləkdir.

İlkin abidələrdən Qazi Bürhanəddinin «Divan»ında, az da olsa, «baş cümlə+budaq cümlə» quruluşlu zaman budaq cümlələri var. Budaq cümlə baş cümləyə ***ki*** bağlayıcı ilə bağlanmışdır. Burada da budaq cümlənin baş cümlədə qəlibi kimi ***anca*** sözü işlənmişdir; məs.: Dilərəm ***anca*** içəm ki, tənümdə var nəfəsüm. (QB)

Şah İsmayıl Xətai də analitik zaman budaq cümlələrindən istifadə etmişdir. Tam müasir səviyyədə baş cümlədə ***onda*** qəlib sözü işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır:

Özümnü yetirdim ***onda*** naçar
Ol bağa ***ki,*** bəzm edərdi dildar.(Xət.)

Burada baş cümlədə qəlib söz ***ol*** sözü yox, ***onda*** sözüdür: cümlə «dildar bəzm etdiyi bağa» yox, «dildar bəzm edəndə özümü bağa yetirdim» kimi başa düşülməlidir.

«Şəhriyar» dastanının dilində baş cümlədə ***o zaman*** mənasında ***o halətdə*** qəlib sözü işlənmişdir: Xacəsəra qalxub ***o halətdə*** yetişdi ***ki***, tamam əazimi-Gəncə məsləhətdə var idilər.(«Şəhriyar»)

## YER BUDAQ CÜMLƏSİ

Budaq cümlənin bu növünün müasir dilimizdə geniş yayılmış "budaq cümlə + baş cümlə" tipinə «Kitabi-Dədə Qorqud»un dilində də rast gəlirik. Budaq cümlə baş cümləyə ***nə yerdə, nerəyə*** bağlayıcı sözləri ilə bağlanmışdır. Budaq cümlənin xəbərində ***-sa,-sə*** şəkilçisi, baş cümlədə qarşılıq bildirən ***anda*** sözü işlənmiş və budaq cümlə baş cümlədəki işin, hərəkət, hadisə və əlamətin yerini

bildirmişdir; məs.: Oxı ***(nə) yerdə düş***sə, ***anda*** gərdək dikərdi.(57) ***Nə yerdə*** enir-qaruşır, toz ***varsa*** və ***nə yerdə*** qarğa-quzğun ***oynarsa, anda*** istəyəlüm. (91)

Bunlar sonrakı ədəbiyyatdan (ədəbi mənbələrdən) asılı olmayaraq, artıq ümumxalq dilinin təşəkkül tapdığı ilkin mərhələdən yer budaq cümləsinin müasir tipinin tam formalaşmış olduğunu göstərir. Yer budaq cümləsinin müasir modelindən fərqli bir cəhət yoxdur. Keçən müddət ərzində yalnız bağlayıcı və qarşılıq bildirən sözlər arxaik rəngini dəyişmiş və zənginləşmişdir.

Yer budaq cümləsinin eyni quruluş modeli Qazi Bürhanəddinin, Nəsiminin dilində, «Dastani-Əhməd Hərami», «Mehri və Vəfa» məsnəvilərində də özünü göstərir.

Yer budaq cümləsi baş cümləyə aşağıdakı vasitələrlə bağlanmışdır**.**

***Qanda*** bağlayıcı sözü və şərt şəkilçisi ilə: ***Qanda getsəvüz***, həm biz də gedəvüz. (MV) ***Qanda baksam***, görürəm hazır səni. (MV)

Bu cümlələrin baş cümləsinə ***anda*** sözünü artırmaq da olar: ***Qanda baksam, anda*** görürəm hazır səni.

***Qanda*** bağlayıcı sözü və arzu şəkilçisi ilə: Get bilə anınla, hər ***qanda gedə.*** (MV)

Belə cümlələrdə tərəflərin inversiyası bağlayıcı vasitələrin verdiyi imkan əsasında daim mümkün olmuşdur.

***Qanda*** bağlayıcı sözü, ***ki*** ədatı və arzu şəkilçisi ilə: Saçun qılı şol belünə degülmi kəmər bəs ***Qanda ki*** lətif ***ola*** çəkər bari-girani. (QB)

***Qanda*** bağlayıcı sözü, ***kim*** ədatı və şərt şəkilçisi ilə: ***Qanda kim baksa***, gülü reyhan gəlür. (MV) ***Qanda kim varsa***, bil, ol könlək, ey yar, İstəyələr bəni ***anda*** bil naçar.(MV)

***Qanda*** bağlayıcı sözü, ***kim*** ədatı və ***isə*** köməkçi sözü ilə: ***Qəndə kim*** dilər ***isə,*** varur idi. (Suli)

«Mehri və Vəfa» məsnəvisindən verdiyimiz misallar göstərir ki, eyni tipli baş cümlədə qarşılıq bildirən söz (***anda*** sözü) işlənə də bilir, işlənməyə də. Bunlar budaq cümlə qəlibinin artıq tam formalaşmış və mücərrədləşmiş olduğunu göstərir.

Füzulinin dilində ***qanda*** sözü danışıq dilinə yaxın səviyyədə – ***hər qanda*** şəklində işlənmiş, şərt şəkilçisinə, ***kim*** və ya ***ki*** ədatı-

na ehtiyac olmamışdır; məs.: ***Hər qanda*** görərdi əhli-təsxir, Divanəsinə dilərdi zəncir.(Füz.) ***Hər qanda*** bilirdi var bir zar, Ənduhü müsibətə giriftar, Cəm edib olurdu əncümənsaz.(Füz.)

***Nerədəysən*** bağlayıcı sözü ilə. Bu söz əslində ***nerədə*** bağlayıcı sözündən, ***isə*** şərt ədatından və 2-ci şəxsin şəxs şəkilçisindən ***(-n)*** ibarətdir. Məs.: ***Nerədəysən***, çələb səninlə rəhbər. (DƏH)

Qazinin dilində yer budaq cümlələri ***hər nerdə, nerdə, nə yerdə, xancaru*** və ***qanda*** bağlayıcı sözləri ilə baş cümləyə bağlanmışdır

***Nerdə/nərdə ki*** bağlayıcı sözü və arzu şəkilçisi ilə: Ayinədə gördi xal, dedi ki, Rum elidür, ***Nerdə ki*** fülfül ***ola***, **(*anda*)** həm ruxü fil vardurur. (QB) ***Nərdə ki*** əshabi-əncüm kibi cəmiyyət ***qıla***, Nöql ağızlarında ər əfvahi-əhbab olsa yeg. (QB)

***Hər nerdə*** bağlayıcı sözü və ***ki*** ədatı ilə: ***Hər nerdə ki*** varlıx var, yoxlığa girmişdür, Sən sanma ki, ağzunda bu dəm fəqət olmuşdur. (QB)

***Hər nerəyə*** bağlayıcı sözü və şərt şəkilçisi ilə. Xətainin dilində yer budaq cümləsinin, arxaik ***nerəyə*** sözünü nəzərə almasaq, normal tipi vardır: budaq cümlə bağlayıcı söz və ***–sa,-sə*** şəkilçisi ilə baş cümləyə bağlanmış, baş cümlədə qarşılıq bildirən ***onda*** sözü işlənmişdir: Qadirsən, ey ulu şahim, qadirsən! ***Hər nerəyə baxsan***, ***onda*** hazirsən. (Xət.)

***Şol yerdə ki*** bağlayıcı sözü və arzu şəkilçisi ilə: Dökiləli zülfi yüzinə bildi canum kim, ***Şol yerdə ki*** şadılığ ***ola*** həm-həm olısar. (QB)

***Qancaru*** bağlayıcı sözü, ***ki*** və ***isə*** şərt ədatı ilə: Mancınaq oldu həvanü top sanum, ***Qancaru ki*** dilər ***isən***, anı at (QB)

***Xancaru*** bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə: ***Xancaru baxarsam,*** sənəma, səni görürəm, Billah, di axı, bu düşə təbir nədür. (QB)

***Nə yerdə*** bağlayıcı sözü və ***kim*** ədatı ilə: Şəha, zülfündə canlarun sağışın kimsənə bilməz, Həzaran can asılmışdur ***nə yerdə kim*** güsuru var. (QB)

Tərəflərin yerdəyişmə halları «budaq cümlə + baş cümlə» (bağlayıcı sözlü) quruluş tipinin yaratdığı imkanla yanaşı, poeziyanın tələbləri ilə də bağlıdır. Yuxarıdakı cümləni «*Nə yerdə kim güsuru var, (orada) həzaran can asılmışdur*» şəklində də işlətmək mümkündür.

Misallardan göründüyü kimi, şərt şəkilçisinin, şərt ədatının (həmçinin onun ixtisar şəklinin) və şərt şəkilçisi məqamında işlənən arzu şəkilçisinin yer budaq cümləsinin baş cümləyə bağlanmasında mühüm rolu vardır. Bu hal yalnız yer budaq cümləsinə aid deyil, əksər budaq cümlələrə aiddir. N.K.Dmitriyev ***-sa, -sə*** şəkilçisinin yer budaq cümləsinin əmələ gəlməsində rolunu nəzərə alaraq yazmışdır: «Şərt forması xüsusi budaq cümlə tiplərində də işlənir ki, bunlar mahiyyətcə yer budaq cümlələri olsa da, şərt məzmununu da saxlayır»[1]. Bu cəhət yalnız şərt şəkilçisinə deyil, ***isə*** və onun ixtisar şəklinə də aiddir.

Araşdırmalar göstərir ki, komponentləri analitik-sintetik üsulla əlaqələnən yer budaq cümləli tabeli mürəkkəb cümlələr Azərbaycan, qaqauz və türkmən dillərində yayılmışdır[2].

***Hər qanda*** bağlayıcı sözü və ***kim*** ədatı ilə: ***Hər qanda kim*** də`vi var, san ***anda*** yavi var. (Oğuz.)

***Hər qanda*** bağlayıcı sözü**,** ***kim*** ədatı və şərt şəkilçisi ilə: ***Hər qanda kim şərh eyləsəm*** şirin dodağın qəndini, Ərvah uşər sinək kimi ol dadlı şəkkər xəndinə.(Nəs.)

***Anda*** bağlayıcı sözü, ***ki*** ədatı və şərt şəkilçisi ilə: Can təndə qalmaz, ***anda ki görsəm*** cəmalını.(DƏH) Baş cümlədə qarşılıq bildirən sözə ehtiyac olmamışdır.

***Qeyd.*** Cümlədə bir qədər anlaşılmazlıq var. Yəqin ki, yerinə görə bağlayıcı söz kimi verdiyimiz ***anda ki*** sözü ***qanda ki*** olmalı idi.

***Xanda*** bağlayıcı sözü və şərt şəkilçisi ilə: ***Xanda çağırsan,*** yetərəm. (Xət.)

***Nə yerdə*** bağlayıcı sözü ilə: ***Nə yerdə*** əkərsən, bitərəm. (Xət.)

***Harda*** bağlayıcı sözü və şərt şəkilçisi ilə: Canan ***harda olsa***, can alar ***anda***. (Qurbani)

Qurbani təbii normal formadan istifadə etmişdir. Lakin artıq söz işlətməmək meyli ilə əlaqədar onun şeirlərində də qarşılıq bildirən sözə meyil azdır.

---

[1] Н.К.Дмитриев.Грамматика башкирского языка, Изд.АН СССР, М.-Л., 1948, с.269.

[2] Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası, 2-ci hissə, Bakı, BSU, 2002, s.140

Xətainin və Qurbaninin əsərlərindən verdiyimiz son misallar göstərir ki, canlı dildə artıq müasir formalar – bağlayıcı sözlər var. Şairlər, əvvəlki misallardan gördüyümüz kimi, çox vaxt ənənəni mühafizə etmiş, arxaik vasitələrə meyil göstərmişlər.

Məlumdur ki, yer budaq cümləsinin baş cümləsində qarşılıq bildirən söz üç halda – yönlük, yerlik və çıxışlıq hallarındja olur. Lakin abidələrin dilində qarşılıq bildirən sözlərə yönlük və çıxışlıq hallarında, az təsadüf edilir. Yerlik halda ***anda*** sözünə daha çox rast gələ bilirik.

Füzulinin işlətdiyi cümlələrdə də qarşılıq bildirən söz nəzəri cəlb etmir. ***-sa, -sə*** şəkilçisi də budaq cümlədə fəal deyil. Budaq cümlə bağlayıcı söz və ***kim*** ədatı ilə baş cümləyə bağlanmışdır:

***Hər mənzilə kim*** güzar edərdi,
Səhrayı bənəfşəzar edərdi.(Füz.)

M.P.Vaqifin şeirlərində bağlayıcı söz,–***sa,-sə*** şərt şəkilçisi və ***isə*** şərt ədatı üstünlük təşkil edir:

***Handa*** üz tutdum ***isə***, düşdüm elə qal içinə. (Vaqif)
Sallanıb yüz naz ilən hərdən çıxanda xanədən
***Hər tərəf baxsa***, qırar həm dost, həm biganədən. (Vaqif)

«Şəhriyar» dastanının dilində yer budaq cümləsinin tam müasir normasına rast gəlirik – ***harda ki – orda: Harda ki*** sənin rizan var, biz də ***orda*** varuq. («Şəhriyar»)

Beləliklə, keçən min ilin müddətində yer budaq cümləsini əmələ gətirən vasitələr – bağlayıcı və qarşılıq bildirən sözlər, şərt şəkilçisi, *isə* ***(sa,-sə)*** şərt ədatı, arzu şəkilçisi, ***kim*** və ***ki*** ədatları bir çox cəhətdən təkmilləşmə yolu keçsə də, budaq cümlənin əsas qurulma modeli daim mövcud olmuşdur. Bu müddət ərzində ***qanda, nerədə, nerdə, şol yerdə, anda, xanda*** kimi bağlayıcı sözlər arxaikləşmiş və ya fonetik şəklini dəyişmişdir. ***Kim*** ədatı köhnəlmiş, şərt şəkilçisi və şərt ədatı qalmış, ***ki*** ədatı və şərt əlamətləri növbəli şəkildə işlənmə xüsusiyyəti qazanmışdır. Əvvəlki dövrlərdən fərqli olaraq, getdikcə baş cümlədə qarşılıq bildirən sözün yeri daha da sabitləşmişdir.

## SƏBƏB BUDAQ CÜMLƏSİ

Səbəb budaq cümləsinin hər iki tipi «Kitabi-Dədə Qorqud»-un dilində artıq tam normalaşmış halda mövcuddur. "Budaq cümlə + baş cümlə" quruluş tipində budaq cümlə baş cümləyə 'çün' bağlayıcı sözü ilə bağlanmışdır:

***Çün*** inayət tənridən oldı, bəgün, paşanın himməti Qanturalıya oldı. (89) ***Çün*** sən Qazana düşmən oldın, biz də düşməniz. (124)

Bu quruluş müasir dilimizdə qalır, yalnız ***çün*** əvəzinə ***ki*** ədatından istifadə olunur: Sən ***ki*** Qazana düşmən oldın, biz də düşməniz

"Baş cümlə + budaq cümlə" quruluş tipində budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır. Baş cümlədə ***anunçun*** qəlib sözü işlənmiş, budaq cümlə vasitəsilə izah edilmişdir:

Oğul, ***anunçun*** yağı deyirlər ***ki,*** biz anlara yetsəvüz, öldürəriz, anlar bizə yetsə, öldürər. (70)

Müasir dilimizdə arxaik olan ***anunçün*** əvəzinə ***ona görə, onun üçün*** qəlib sözləri işlənir.

«Kitabi-Dədə Qorqud»dan sonrakı ədəbiyyatımızda ən çox işlənən tabeli mürəkkəb cümlə növlərindən biri də səbəb budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Doğrudur, budaq cümlənin bu növünü intensiv işlənmə imkanlarına görə tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrlə müqayisə etmək olmaz, lakin həqiqətdə budaq cümlənin bu növü də ədəbiyyatda geniş yer tutur. Bu hal bədii fikrin dəlillərlə irəliləməsindən asılı olduğu kimi, bağlayıcı vasitələrin imkanları ilə də bağlıdır.

**I tip**. Səbəb budaq cümləsinin nəzərdə tutduğumuz bağlayıcı sözlü, «budaq cümlə + baş cümlə» quruluş tipi müasir dilimizdə az işlənir[1]. Lakin abidələrin dilində səbəb budaq cümləsini baş cümləyə bağlayan vasitələr çox olduğundan budaq cümlənin bu tipi də intensiv işlənmə imkanları ilə müasir dildən fərqlənir. Bir səbəb də sonralar bağlayıcı kimi tam sabitləşmiş bir sıra vasitələrin əv-

---

[1] Бax: Ə.Abdullayev.Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, «Maarif», 1974, s.282-283; Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, «Ünsiyyət», 2000, s.379.

vəllər klassik ədəbiyyatın dilində həm də bağlayıcı söz kimi işlənməsidir. Bağlayıcı sözlər içərisində arxaikləşənlər də vardır.

***Çünki*** bağlayıcı sözü. Qeyd etdiyimiz kimi, müasir dilimizdə analitik səbəb budaq cümlələri çox işlənir, baş cümlə əvvəl, budaq cümlə sonra gəlir, budaq cümlə baş cümləyə əksərən ***ki*** və ***çünki*** bağlayıcıları ilə bağlanır. ***Ki*** bağlayıcısı aydınlaşdırma yolu ilə əksər analitik mürəkkəb cümlələrə xidmət edir. Lakin ***çünki*** bağlayıcısı birmənalıdır və yalnız səbəb budaq cümlələrini baş cümləyə bağlayır. Klassik ədəbiyyatın dilində də ***çünki*** bağlayıcılı belə çümlələr çoxdur. Müasir dildə yalnız baş və budaq cümlənin arasında işlənir və budaq cümlə ilə birlikdə tələffüz olunur. Lakin abidələrin dilində onun yeri müasir dildə olduğu qədər sabit deyildir. Abidələrin dilində həm də bağlayıcı söz kimi işlənmişdir.

***Çünki*** sözünə bağlayıcı söz kimi, «Dastani-Əhməd Hərami», «Mehri və Vəfa» məsnəviləri ilə yanaşı, Qazi Bürhanəddinin, Nəsiminin və başqa klassiklərin dilində də rast gəlirik. *Canü başım yolda fədadur bu gün, Ol sənəm* ***çünki*** *bizə mehman gəlür* (MV) – misralarında ***çünki*** sözü budaq cümlənin daxilində olsa da, onu asanlıqla budaq cümlənin əvvəlinə keçirmək mümkündür: *Canü başım yolda fədadur bu gün,* ***çünki*** *ol sənəm bizə mehman gəlür*. Burada ***çünki*** sözü bağlayıcıdır və aid olduğu budaq cümləni baş cümləyə bağlamışdır. Lakin qeyd etdiyimiz abidələrdə ***çünki*** sözü əksəriyyət etibarilə bağlayıcı yox, bağlayıcı söz məqamında – prepozitiv budaq cümlələrin əvvəlində işlənmişdir; məs.: ***Çünki*** dügün axəri oldu təmam, Buların eşigü buldiy hamam.(Suli) Qızından ***çünki*** sultan dinlədi söz, Dua qıldı və dedi: ey gözəl yüz. (DƏH) Buların dirligini ***çünki*** yıxdı, Rəvan kəndi yuxarı köşkə çıxdı. (DƏH) ***Çünki*** anda akça pulu buldular, Şəhər qövmü cümlə ana uydular. (MV) ***Çünki*** Vəfa Mehri təfərrüc edər, Taxt ögünə düşübən əqli gedər.(MV) Aşiqin başında əql qılmaz qərar, ***Çünki*** eşq gəldisə, əql eylər səfər. (MV) ***Çünki*** sultana aydır ol sözüni, Şah sevindi, yerə urdu yüzüni. (MV) ***Çünki*** sultan işbu sözü dinlədi, Qaqıdı Züleyxaya xəşm eylədi. (Suli) Qazi Bürhanəddinin: ***Çünki*** aləm tüfeyli-dilbərdür, Eşq ayağına cami-cəm dedilər - cümləsində də ***çünki*** sözü bağlayıcı söz kimi işlənmişdir, əvvəlki tərkib hissə (*Aləm tüfeyli-dilbər olduğu üçün)* budaq cümlə kimi çıxış edir.

Nəsiminin yaradıcılığında səbəb budaq cümləli tabeli mürəkkəb cümlələr geniş yer tutur. Şair sanki hər bir fikrini poetik

şəkildə əsaslandırmaqdan zövq alır. Bağlayıcı vasitələr isə rəngarəngdir. Əksər bağlayıcı vasitələr müasir dildə olduğu kimidir.

Lakin Nəsiminin dilində də müasir dildə səbəb bağlayıcısı kimi məhsuldar olan ***çünki*** sözü hələ nə formaca, nə də məzmunca sabitləşmişdir. Hələ geniş şəkildə bağlayıcı söz kimi işlənməkdədir – həm ***çünki,*** həm də ***çün kim*** fonetik variantlarında. Həm zaman budaq cümləsini baş cümləyə bağlayır, həm də səbəb budaq cümləsini. ***Çünki*** rəf oldu üzündən, ey şəhi-xuban, niqab, Qalmadı küfrü zəlalət, zahir oldu afitab (Nəs.) – cümləsini həm «***Elə ki*** üzündən niqab rəf oldu» kimi, həm də «Üzündən niqab rəf olduğu üçün» şəklində izah etmək olar. İkinci məna daha üstündür. Aşağıdakı cümlələr də belədir: Bu könül şəhrini ***çünki*** hicr viran eylədi, Gör ki, səndən özgə bir məmurü memar istəməz. (Nəs.) Mişkin saçına ***çün kim*** verdim iki cahanı, Assiyə uğrayana qılca ziyan gərəkməz. (Nəs.) ***Çünki*** viran könlüm, ey can, məskən oldu eşqinə, İstəməz ayruq imarət könlümün viranəsi. (Nəs.) Ruhi-qüds oldu Nəsiminin həqiqət sözləri, Varlığın tərh etdi ***çünkim,*** kəndi çıxdı arədən. (Nəs.)

Bu misallarda ***çünki (çün ki – çün kim)*** bağlayıcı sözlərinin olduğu hissə budaq cümlədir və baş cümlədən əvvəl yerləşmişdir: *Ey şəhi-xuban,* ***üzündən niqab rəf olduğu üçün*** *küfrü zəlalət qalmadı, afitab zahir oldu.*

***Çünki*** bağlayıcı sözü budaq cümlənin əvvəlində işləndiyi kimi, daxilində də işlənmişdir: Uşbu işə ***çünki*** bən basdım qədəm, Götürəyim anı sənə uşbu dəm. (MV) Dedi ***çünki*** işlədim bən bu işi, Düşmən olisər bənə uşbu kişi. (MV) Bu hal yalnız ritmlə bağlı deyil, həm də fars sintaksisindən gəlir.

Sonrakı dövrdə - Qurbaninin yalnız deyişmələrindən birində ***çünki*** sözünə bağlayıcı söz kimi təsadüf edilir: ***Çünki*** olduq xeyrə, şərə yarı biz, Gəlsən, bölək borcu sənnən təncə, hey (Qurbani)

***Çünki*** sözü XVIII əsrə doğru həm bağlayıcı söz kimi geriləmiş, həm də zaman mənasını tədricən zəiflətmiş və itirmişdir. Məsihi ***çünki*** sözünə bağlayıcı söz kimi az diqqət yetirmiş, bu sözdən bağlayıcı söz kimi az istifadə etmişdir. Onun dilində bu söz səbəb budaq cümləsinin daxilində işlənmişdir: Qıldın məni ***çünki*** sirrə məhrəm, Dur çəkmə dəxi məşəqqətü qəm. (Məs.) «Şəhriyar» dastanının dilində də hələ bağlayıcı söz kimi müşahidə olunur: Yaxşı

budur, ***çünki*** o qonaqdır, mən onun çadırına gedərəm. («Şəhriyar») ***Çünki*** siz layiq görüb qəbul edərsiz, mən də qəbul etmişəm və vermişəm. («Şəhriyar»)

***Çün (çünün)*** bağlayıcı sözü. ***Çün*** sözü də səbəb budaq cümləsini baş cümləyə bağlayan fəal bağlayıcı vasitələrdəndir. Bu söz də həm bağlayıcı söz, həm də bağlayıcı məqamında işlənmişdir. Aşağıdakı misallarda səbəb budaq cümləsini baş cümləyə bağlayan bağlayıcı söz kimi çıxış edir: Cəbrayıl ***çün*** Yusifə böylə didi, Yusifin könlündə qəğu qalmadı. (Suli) ***Çün*** eşitdi ani, Yusif səvünür. (Suli) ***Çün*** müqərrər oldi sultanlıq ana, Ol daxi hökmün yeritdi dörd yana. (Suli) Ey Nəsimi, ***çün*** rəfiqin Fəzl imiş, yəni ilah, Lütf ilə qəhr oldu vahid, həm həbib oldu rəqib. (Nəs.) Nəsimi ***çün*** səni buldu, dü aləmdən vəhid oldu. (Nəs.) Buldu Nəsimi ***çün*** səni, keçdi qamudan, ey sənəm.(Nəs.)Vəslindən oldum ***çün*** qəni, mən mülkü malı neylərəm. (Nəs.) Könlümə eşqini qismət ***çün*** əzəldən qıldı həq, Ta əbəd eşqindən özgə nəsnə, zinhar, istəməz. (Nəs.) Qaşınla kirpiyin ***çün*** seyd eylədi cahanı, Səyyad olana ayruq tirü kaman gərəkməz. (Nəs.**)** Saçın zəncirini məndən fələk ***çün*** çəkdi, ayırdı, Tənim şəhrində sevdadən dəli olmuş, gəzər könlüm. (Nəs.) Ey Nəsimi, ***çün*** eşitdi bu Utarid nəzmini, Caməsin çak etdi ol dəm, oda saldı dəftərin. (Nəs.)

Göründüyü kimi, bu söz Nəsiminin işlətdiyi fəal bir bağlayıcı vasitədir. Bu misallarda səbəb bildirən tərkib hissə baş cümlədən əvvəl işlənmişdir: **Çün** eydi-əkbərdir üzü, yüz can ona qurban gərək (Nəs.) – ***Üzü eydi-əkbər olduğu üçün*** ona yüz can qurban gərək.

***Çünki*** sözünə yaxın məqamda ***çün*** bağlayıcı sözü «Mehri və Vəfa»nın dilində də səbəb budaq cümləsinə xidmət etmişdir: Padşah ***çün*** Mehriyi təfərrüc edər, Ah edübən, düşübən əqli gedər. (MV) ***Çün*** atalığa qəbul etdin bəni, Əvərəyim baş-göz eyləyəm səni. (MV) ***Çün*** qara oldu günüm, yad oldular qardaşlar. (Saib)

Aşağıdakı misallarda da ***çün*** sözü daha çox səbəb budaq cümləsinə xidmət edir: ***Çün*** nəxli-hədiqeyi-hünərsən, Miftahi-xəzaneyi-gühərsən, ***Çün*** onu yığınca çəkmişəm rənc, Qıyma ***ki,*** nəsibi-ğeyr ola gənc. (Füz.) ***Çün*** baqi deyil, mülki-Süleymanə inanma. (Vid.)

***Çün*** sözü də ***çünki*** sözü kimi həm zaman bildirmiş (***elə ki*** mənasına müvafiq), həm də səbəb bildirmişdir. Yuxarıdakı bir sıra

misalları da zaman mənasına müvafiq yozmaq olar.Aşağıdakı cümlələrdə də ***çün*** sözü həm zaman, həm də səbəb mənası ifadə edir: ***Çün*** gördü anasi ol nigari, Getdi yelə səbrü qərari. (Məs.) ***Çün*** bildi kim olduğunu Leyli, Rüxsarına axdı əşk seyli.(Füz.)

***Çü*** bağlayıcı sözü. Əlimizə çatan ilkin abidələrin dilində ***çü*** sözü də bağlayıcı söz kimi səbəb budaq cümləsini baş cümləyə bağlamışdır: ***Çü*** hökm oldi, açıldı qapu bizə. (Suli) ***Çü*** gördi bunları, ol durdı getdi, Şəhənşah həzrətinə irdi yetdi.(DƏH) Düni günə qatıb bular ***çü*** getdi, Beş-on gündə bular Bağdada yetdi.(DƏH) ***Çü*** düşmən öldi, qəmdən oldu azad. (DƏH)

Füzulinin dilində də ***çü*** sözü səbəb budaq cümləsini baş cümləyə bağlayan bağlayıcı vasitə kimi işlənmişdir: Zatında ***çü*** var idi məhəbbət, Məhbubu görüncə tutdu ülfət. (Füz.) Ol pir ***çü*** gördü surəti-hal, Surət kimi qaldı bir zaman lal.(Füz.) Gördü ***çü*** siyahruy bəxtin, Çəkdi duruban səvadə rəxtin. (Məs.)

Aşağıdakı cümlələri isə ***çü*** sözü ilə həm səbəb, həm də zaman (***elə ki*** mənasında) budaq cümləli tabeli mürəkkəb cümlə kimi yozmaq olar: Mahiyyətini ***çü*** dayə bildi, Ol mahı ona ənis qıldı. (Füz.) Ol pir ***çü*** vaqif oldu halə, Məcnun kimi etdi ahü nalə. (Füz.) Asəf ***çü*** yetişdi ol vüsalə, Baş ayağə qoydu, qıldı nalə.(Məs.) Əntər ***çü*** ol işdən anladı raz, On min kişi eylədi sərəfraz.(Məs.) ***Çü*** gördü atasının məzarın, Şəm eylədi ona cismi-zarın.(Füz.) - ***Atasının məzarını gördüyü üçün//Atasının məzarını görəndə*** Şəm eylədi ona cismi-zarın.

***Ta, ta ki, ta kim*** bağlayıcı sözləri. Səbəb budaq cümləsinin baş cümləyə bağlanmasında ***ta, ta ki, ta kim*** bağlayıcı sözlərinin mühüm rolu olmuşdur. Bunlar da gah bağlayıcı söz, gah da bağlayıcı məqamında işlənmişdir. Tərəfləri arasında sərbəstlik vardır və araya söz daxil ola bilmişdir: ***Ta*** bilələr ***ki*** məğribin günəşi doğdu, ey qəmər, Türfə niqabını götür, xəlqə görün qəmər kimi. (Nəs.)

Bu bağlayıcı söz həm təklikdə, həm də ***kim, ki*** ədatları ilə birgə işlənmişdir: ***Ta*** olmaya əşk üzdə məlum, Rüxsarinə lölö idi mənzum. (Füz.) – ***Üzündə göz yaşları görünməmək üçün*** üzünə ləl düzdürmüşdü. ***Ta kim*** ola dudi-ahə manənd, Bağlanmış idi bənəfşə sərbənd. (Füz.) ***Ta kim*** ola sövti-nalə pamal, Qullanmış idi sədalı xəlxal. (Füz.) ***Ta*** olmaya kimsə andan agah, Bu şeri oxurdu əksər ol mah. (Məs.)

***Ki*** ədatı. Müasir ədəbi dilimizdə səbəb budaq cümləsinin baş cümlədən əvvəl işlənərək ona ***ki*** ədatı ilə bağlandığı məlumdur. Bunun ilkin nümunələrinə Qazi Bürhanəddinin «Divan»ında rast gəlirik; məs.: Dili bu ənbəri-zülfün ***ki*** müşkilə saldı, Nəsimə qul olayım müşkilümi qıldı cəli. (QB)

Füzuli də ***ki*** ədatından istifadə etmişdir. ***Ki*** bağlayıcılı cümlələrdən fərqli olaraq, səbəb budaq cümləsinin bu növündə budaq cümlə baş cümlədən əvvəl işlənmişdir; məs.: Məcnun ***ki*** xəbərdən oldu agah, Gərdunə yetirdi şöleyi-ah.(Füz.) - ***Məcnun xəbərdən agah olduğu üçün*** gərdunə şöleyi-ah yetirdi.

Bu forma sonrakı inkişaf dövründə - M.P.Vaqifin dilində artıq əsas işlək formadır***;*** məs.: Vaqif ***ki*** düşübdür əqlü kamaldan, Əksik olmaz başı qovğadan, qaldan. (Vaqif) – ***Vaqif əqlü kamaldan düşdüyü üçün*** başı qovğadan, qaldan əksik olmaz.

Bağlayıcı söz və ***ki*** ədatı ilə baş cümləyə bağlanan səbəb budaq cümlələrində arzu şəkilçisinin tarixi mövqeyi də qədimdir: Bu camaat ***çünki*** şərab ***içələr***, Hər birisi əsrüyübən gecələr. (MV) ***Ta məhv ola*** gözdən axıdan xun, Həm kömləyi, həm donuydi gülgun. (Füz.) Bağlayıcı vasitələrdə şərt çaları olduğu üçün şərt şəkilçisi bu sahədə qeyri-fəaldır.

Beləliklə, abidələrin dilində prepozitiv səbəb budaq cümlələri ***çünki, çün, çü, ta ki*** bağlayıcı sözləri və ***ki*** ədatı ilə baş cümləyə bağlanmışdır. ***Çünki*** sözü tədricən bağlayıcı söz mövqeyini itirərək bağlayıcılaşmış, ***çün, çü*** sözləri tamam sıradan çıxmış, ***ta ki*** bağlayıcı sözü canlı danışıq dilində qalmışdır. ***Ki*** ədatının köməyi ilə bağlanan səbəb budaq cümlələri müasir dilimizdə səbəb budaq cümləsinin mühüm prepozitiv növü kimi sabitləşmişdir.

**II tip.** XIII-XIV əsrlər və bir qədər də sonrakı dövr bir sıra bağlayıcı sözlərlə bağlayıcıların müvazi işləndiyi, tədricən onların bir sahə üzrə sabitləşmə istiqamətində inkişaf etdiyi və bir qisminin arxaikləşdiyi dövr sayıla bilər. Bu cəhətdən yuxarıda nəzərdən keçirdiyimiz bağlayıcı sözlərə diqqət yetirmək kifayətdir.

Nəsimi bağlayıcılı cümlələrdən əlavə,intonasiya ilə baş cümləyə bağlanan analitik səbəb budaq cümləsləri də qurub işlətmişdir: Musa kimi gər aşiq isən könlünü arıt, Saf olmayacaq ayinə, didar ələ girməz (Nəs.) – misralarından ikincisinin – budaq cümlənin əvvəlinə asanlıqla ***çünki*** bağlayıcısını artırmaq olar.

«Mehri və Vəfa»nın dilində intonasiya ilə baş cümləyə bağlanmış səbəb budaq cümlələri də ilkin və qədim formanı yaşatmaqdadır: İşrət edin bunda bu gün şahanə, Qalmadı ortada ayruq bəhanə. (MV)

Bu misalda da ikinci komponentdən əvvəl ***çünki*** bağlayıcısını işlətmək olar.

Səbəb budaq cümləsinin baş cümləyə intonasiya ilə bağlanan analitik növünə Qazinin əsərlərində də rast gəlmək mümkündür: Aşiq bənü məşuq sən olmamağ olımaz*,* Eşqi bana, hüsni sənə qism eylədi allah (QB) - Aşiq bənü məşuq sən olmamağ olımaz*, (çünki) Eşqi bana, hüsni sənə qism eylədi allah.*

Şah İsmayıl Xətainin əsərlərində bağlayıcı vasitələr Nəsimidə olduğu qədər zəngin deyildir. İntonasiya ilə qurulan aşağıdakı cümlə «baş cümlə + budaq cümlə» quruluşludur: Yarəb, uzun eylə leyli-vəsli, *Üşşaqə budur murad əsli*. (Xət.)

İkinci misradan əvvəl ***çünki*** və ya birinci misradan sonra ***ki*** bağlayıcısını artırmaq olar.

Qurbanidə intonasiya ilə qurulan analitik səbəb budaq cümləli tabeli mürəkkəb cümlələr daha fəaldır. Budaq cümlələrin əvvəlinə ***çünki*** bağlayıcısını artırmaq olar. Cümlələr müasir bağlayıcısız cümlələr tipindədir: Dedim, könül, sevmə xublar xubunu, (*çünki)* Onun hər muyində yüz min qal olu. (Qurbani) Dedim, pərim, zülflərini darama, (*çünki*) Könül gəştə çıxar tellərə doğru. (Qurbani)

Dövrün ədəbi dilində səbəb budaq cümləsini baş cümləyə bağlamaq üçün aşağıdakı bağlayıcılardan istifadə edilmişdir.

***Kim*** bağlayıcısı. Bu bağlayıcı nəzərdən keçirdiyimiz dövr ərzində səbəb budaq cümləsini baş cümləyə bağlayan ən mühüm bağlayıcıdır. Lakin təbii ki, tədricən ***ki*** bağlayıcısı ilə müqayisədə geriləməli olmuşdur.

***Çünki*** sözü ilə müqayisədə ***kim*** bağlayıcısının işlənmə vəziyyəti müasir normalara tam müvafiq olmuşdur və bu hal XIII-XIV əsrlərin bədii materiallarının hamısı üçün səciyyəvidir; məs.: Gəl bəri ***kim***, sən canımın canısan.(MV) Dedilər kim, nə buyurursan anı Qılalım, ey qamumuzun sultanı, ***Kim,*** səninlə rövşəndir bu cahan. (MV) Şükr et ***kim***, həqq irgürdi bu günə. (MV) Aydır: Ey vay ***kim,*** işimi bilmədim! (MV)

Nəsiminin və Nəsimidən əvvəlki abidələrin dilində də səbəb budaq cümlələrini baş cümləyə bağlayan əsas vasitə ***kim*** və ***ki*** bağlayıcılarıdır.

***Kim*** bağlayıcısı: Aytdılar çoq yaşağıl sultan ilə ***Kim***, bizi ağırladun ehsan ilə. (Suli) Saqiya, camı gətir ***kim***, mən uşatdım növbəmi.(Nəs.) Tərk et ikiligi ***kim***, bir rəngimiş boyasi.(Nəs.) Qurmağa qoyma yayını, salma məni fəraqə ***kim*,** Doğramış oxları anın yürəgimi zəhər kimi. (Nəs.) Cəhd et məcalın əldə ikən yarə yarə ***kim***, Bir gəz əcəl irər, dəxi verməz məcalını.(Nəs.) Ey könül, şad ol ***kim***, ol məhbubi-zibadır gələn. (Nəs.)

Lakin şairin dilində ***ki*** bağlayıcısı budaq cümləni baş cümləyə bağlamaqda daha fəaldır: Yelə qarşu tükürmə ***ki***, yenə surətinə gəlür. (Oğuz.) Şükr edirəm ***ki,*** düşmüşəm alə gözünün alına.(Nəs.) Sən mana yar ol ***ki***, könlüm bir dəxi yar istəməz. (Nəs.) Nəsimi quluna qıl çarə, dərman ***Ki,*** canlı gəldi, bican oldu sənsiz.(Nəs.) Dildarə həris olma ***ki,*** dildar ələ girməz.(Nəs.) Dərmanını dərd eylə ***ki***, timar ələ girməz. (Nəs.) Gəlgil ***ki***, qapdı şövqi-cəmalın qərarimi. (Nəs.) Götür pərdə camalından ***ki*,** sənsən eynimin nuri. (Nəs.) Sallanıb naz ilə gəlgil ***ki*,** mənim didələrim ayağın tozuna, ey xosrovi-xuban, susadı.(Nəs.) Sənubərqədli dildarım, təbibim, Yetir didarinə ruhi-rəvanım ***Ki***, can quşu uçar bir gün qəfəsdən, Qalır firqət içində mehri-canım. (Nəs.) Dut əlimi ***ki***, düşmüşəm əqrəbü mar içindəyəm. (Nəs.) Gəl, ey dilbər ***ki,*** müştaqəm, səni görmək dilər könlüm. (Nəs.) Gəlgil ***ki*,** sənsiz qönçə tək doldu içim qan, qandasan? (Nəs.)

Qazi Bürhanəddinin dilində də səbəb budaq cümləsinin ən tipik, gələcəkli və uğurlu bağlayıcı vasitəsi ***ki*** bağlayıcısıdır. Onun mürəkkəb cümlələrinin budaq cümləsi daha aydın səbəb məzmununa malikdir; məs.: Cəhani can yolına verürəm bən ***Ki*,** can içün dilərəm bən cəhanı. (QB) Türki gözi bu könlümi yasağa yetürə gərək, İşvələrünçün öləyim ***ki,*** canuma aman gəlür (QB) və s.

Sonrakı dövrdə – Xətainin dilində ***kim*** bağlayıcılı cümlələrin də baş cümləsində, yuxarıdakı misallarda olduğu kimi, qəlib söz işlənməmişdir: Şol Xətai seyrə çıxdı, açdı Hürrün qəbrini, Bar-ilahi, əfv qıl ***kim***, tövbəkarəm doğrusu. (Xət.) Qıldım könülə həzar nifrin ***Kim***, şad ikən etdi bizni qəmgin.(Xət.) Bir qasidi dəxi istəyim mən ***Kim***, səbrü qərarə çarə yoxdur. (Xət.) Çox oldu məlul, piçə düşdü

***Kim***, lafi bu yolda hiçə düşdü. (Xət.) Ey xəstə Xətai, şakir ol ***kim***, Mehr ilə vüsalə döndü hicran. (Xət.)

Xətainin dilində analitik səbəb budaq cümlələri daha çox ***ki*** bağlayıcısı ilə baş cümləyə bağlanmışdır. Maraqlıdır ki, müasir dildə bu cür cümlələrin baş cümləsində əksərən ***ona görə, ondan ötrü, o səbəbə*** qəlib sözləri olur, Xətainin dilindəki cümlələrdə bu cür sözlər görünmür, lakin artırmaq mümkündür: Xızrı sev ***ki,*** sahibinin quludur. (Xət.) Qədr etmən aya ***ki,*** var hilalın, Baxman günəşə ***ki,*** var zəvalın.(Xət.) Müşk iyləmənəm yüzü qaradır, Gül dəstələmən ***ki,*** yüz paradır, Dadman şəkəri ***ki***, əsli neydir, Mey içmən ***əz an ki***, feli qeydir, Cəng alman ələ ***ki,*** bülhəvəsdir, Ney dinləmənəm ***ki***, əznəfəsdir. (Xət.) Qəbul et bu duayi, ya ilahi, ***Ki***, sənsən cümlə aləm padşahi. (Xət.) Şad oldu könül ***ki***, gəldi yaşım. (Xət.)

Baş cümləsi elliptik xarakterdə olan ***ki*** bağlayıcılı bir sıra cümlələr canlı dilin əlamətləri kimi çox maraqlıdır: ***Yüz qəm ki,*** irişmədim mərama! (Xət.) ***Vəh-vəh ki,*** tükəndi vədeyi-vəsl. (Xət.)

Füzulinin şeir dilində səbəb budaq cümlələrini baş cümləyə bağlayan əsas vasitələr ***kim, ki, ta kim, zira ki, çün*** *və* ***çü*** bağlayıcılarıdır

Xətaidə olduğu kimi, Füzulinin şeirlərində də ***kim*** bağlayıcılı səbəb budaq cümlələrinin baş cümləsində qəlib sözlər müşahidə olunmur və belə cümlələr ***ki*** bağlayıcısı ilə müqayisədə geriləməkdədir: Alma ələ sağəri-meyi-nab ***Kim***, ğərqə edər səni bu girdab. (Füz.) Sən şəmsən, uymagil həvayə ***Kim***, şəmi hava verər fənayə. (Füz.) Nəleyni buraxdı ol bəlacu ***Kim***, aşiqə payibənddir bu.(Füz.) Sud istəmə sevdayi-ğəmi eşqdə hərgiz ***Kim,*** hasili-sevdayi-ğəmi-eşq ziyandır.(Füz.) Saqi, gətir ol şərabi-nabi ***Kim,*** yetdi nisabə ğəm hesabı.(Füz.) Cövrü çox eyləmə ***kim,*** olmaya birdən tükənə. (Füz.) Yüz şükr ***kim***, qılmadım xəsarət. (Füz.)

***Ki*** bağlayıcılı analitik cümlələr Füzuli yaradıcılığında daha mühüm yer tutur. Nəsimidə, Xətaidə olduğu kimi, Füzuli də baş cümlədə qəlib sözdən istifadə etməmişdir. Lakin cümlələrin hamısında ***ona görə, ondan ötrü, o səbəbə*** tipli qəlib sözlər düşünmək mümkündür və bunları səbəb intonasiyası əvəz edir: Saqi, mədəd et ***ki,*** dərdməndəm, Ğəm silsiləsinə paybəndəm.(Füz.) Rəhm et ***ki,*** ğəribü xaksarəm, Bimunisü yarü ğəmküsarəm. (Füz.) Saqi, tut əlim ***ki***, xəstəhaləm, Ğəm rəhgüzərində payimaləm.(Füz.) Can vermə ğəmi-eşqə ***ki,*** eşq afəti-candır. (Füz.) Qaçma ***ki,*** mənəm səninlə

həmdərd.(Füz.) Rəhm eylə ***ki,*** gəldi rəhm çağı. (Füz.) Canə təmə etmə ***ki,*** mənimdir, Tərk eylə təni ***ki***, məskənimdir! (Füz.)

Canə təmə etmə ***ki,*** mənimdir, Tərk eylə təni ***ki,*** məskənimdir! – ***Ona görə*** canə təmə etmə ki, o mənimdir – ***Mənim olduğu üçün*** canə təmə etmə. Təni ***ona görə*** tərk eylə ki, məskənimdir – ***Məskənim olduğu üçün*** təni tərk eylə və s.

Xətai kimi, Füzuli də canlı danışıq dilindən gələn elliptik baş cümlələri həvəslə işlətmişdir: Yüz vay ***ki,*** fövt olundu fürsət, Yüz heyf ***ki,*** tutmadım təriqin, Bir neçə gün olmadım rəfiqin. (Füz.) Müjdə ***ki,*** muradın oldu hasil. Müjdə ***ki,*** müyəssər oldu məqsud. (Füz.)

***Kim*** bağlayıcılı cümlələr Qövsinin, Məsihinin dilində daha da azalmışdır. Onların dilində səbəb budaq cümləsini baş cümləyə bağlayan əsas vasitə ***ki*** bağlayıcısıdır. Baş cümlədə qəlib söz müşahidə olunmur: Mən düşən vadiyə basman qədəm, ey aşiqlər, ***ki,*** bu çöllərdə nə Məcnun və nə mühmil görünür. (Qövsi) Ah ***kim***, firqət şərabi bağrımı qan eylədi. (Məs.) Rəhm eylə mənə ***ki,*** natəvanəm.(Məs.) Qəm çəkmə ***ki***, axır oldu hicran.(Məs.) İncinmə ***ki,*** səndin oldu təqsir.(Məs.) Qəm çəkmə ***ki,*** saxlaram səlamət Tapşurduğini mənə əmanət.(Məs.)

Ümumiyyətlə, nəzərdən keçirdiyimiz dövrlərin ədəbi dilində ***Onunçun*** *mən sənə yalvarmanam* ***kim,*** *yalvaran çoxdur* (Qövsi) – tipli, baş cümləsində qəlib söz olan cümlələrə az hallarda rast gəlmək olur.

M.P.Vaqifin yaradıcılığında səbəb budaq cümləlėri tam səlis müasir ədəbi normalardadır.

Budaq cümlə baş cümlədən sonra işlənərək ona intonasiya ilə bağlanmışdır: *Adını demərəm, (çünki) eldən ayıbdır*. (Vaqif)

Budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: *Bir qədəm bas* ***ki,*** *toy sənin toyundur.*(Vaqif) *Allaha şükür* ***ki,*** *kamal da yoxdur*. (Vaqif) *Hər kəs öz otağı tərəfin pak və pakizə etsünlər* ***ki,*** *Cahangir xan tamaşa üçün gəlür*. («Şəhriyar»)

Nəzərdən keçirdiyimiz son mərhələdə ***ki*** bağlayıcısı ilə yanaşı, vəzn və ahəng ilə əlaqədar ***kim*** bağlayıcısı da qalmış və əsasən klassik şeir üslubunda olan əsərlərin dilində işlənmişdir: Ey gözüm, qan ağla ***kim,*** çeşmi-xumarım gəlməmiş.(Vaqif) Aydın olsun gözlərim ***kim***, gəldi yarın kağızı. (Vaqif) Tüf sənin üzünə ***kim,***

xublar içində məni sən, Bir kəs idim, elədin nakəsü nadan, saqqal. (Vaqif) Gözlərindən əlaman ***kim***, canımın cəlladıdır. (Vaqif)

***Çünki*** bağlayıcısı. «Dastani-Əhməd Hərami»nin dilində ***çünki*** bağlayıcı sözlü cümlələr səciyyəvi olsa da, bu əsərin dilində ***çünki*** sözünün hazırkı ***çünki*** bağlayıcısına yaxın məqamda işləndiyi hallar da var: Dilini tutdu əbsəmcək oturdu, Vəfası yox cahanın ***çünki*** gördi. (DƏH)

Bu misraları: *Dilini tutdu əbsəmcək oturdu,* ***çünki*** *gördü cahanın vəfası yoxdur* – şəklində də işlətmək olar.

Qazi Bürhanəddinin şeirlərindən aydın olur ki, hələ ***çün*** sözü ilə ***ki*** ədatının tam birləşmədiyi hallar da davam etməkdədir: Rəngin axar yaşum yaşı uzun nə çarədür, Yürək dəmi dimağuma ***çün ki*** buxar edər. (QB) Onun dilində də ***çünki*** sözü hələ sabitləşməmişdir. Həm bağlayıcı söz kimi, həm də müasir dildə işləndiyi şəkildə baş və budaq cümlə arasında bağlayıcı kimi işlənmişdir: Bən vücudı ol nigara qılmayum gərək fəda *Ol səbəbdən çünki* vəhdət yar ilə məhduddur (QB) – kimi cümlələrdə ***çünki*** sözü ***ki*** bağlayıcısı məqamındadır, müəllif *ol səbəbdən çünki* sözlərini ***ol səbəbdən kim*** mənasında işlətmişdir.

Aşağıdakı misallarda ***çünki*** sözü müasir dildə olduğu kimi bağlayıcıdır, baş və budaq cümlənin arasında işlənmişdir, budaq cümlə ilə – ikinci tərkiblə birgə tələffüz olunur, lakin hələ ***çünki, çün ki, çün kim*** fonetik variantları vardır:

Abi-heyvan qiymətini heyvana sorma, Xızra sor, ***Çünki*** idrak eyləməz hər dəkmə heyvan sizlərə. (Nəs.) Ey Nəsimi, səcdə qıl hüsnünə qarşu dilbərin, ***Çünki*** xublar surətidir həq-təala məzhəri. (Nəs.) Yaxma məni fəraqilən, ***çünki*** mən, ey üzü qəmər, Xalisü müxlis olmuşam eşqi-rüxündə zər kimi.(Nəs.) Səndən müdam ehsan umar, ***çün kim*** gədadır binəva. (Nəs.) Kirpiklərin oxundan bir ox bu yanə göndər, ***Çün ki*** bu yarəlinin zəxminə mərhəm oldur. (Nəs.)

Şah İsmayıl Xətainin dilində ***çünki*** sözü daha aydın şəkildə bağlayıcı mövqeyindədir**.** ***Çünki*** sözünün işləndiyi cümlə analitik səbəb budaq cümləsidir və baş cümlə əvvəl, budaq cümlə sonra işlənmişdir: Bəd halətə düşmə, ***çünki*** vardır Biləncə xəyali-ruyiniku.(Xət.)

Deməli, ***çünki*** sözü bağlayıcı kimi müasir mövqeyini tam qazanmaqdadır.

M.P.Vaqifin dilində də ***çünki*** sözünə artıq bağlayıcı kimi rast gəlirik: Getmiş idi ixtiyarım biləsincə yarımın, ***Çünki*** yarım gəlməmiş, həm ixtiyarım gəlməmiş. (Vaqif)

Bağlayıcı şəklində az və ya çox işlənməsindən asılı olmayaraq, artıq tədqiq etdiyimiz dövrün son mərhələsində ***çünki*** sözü bağlayıcı söz kimi əhəmiyyətini itirmiş, daha çox bağlayıcı kimi inkişafını davam etdirmişdir.

***Zira/zira ki*** bağlayıcısı. Bu söz «çünki» mənasında fars sözü olub, ilkin mənbələrin dilində bağlayıcı kimi işlənmiş, tədricən işləkliyini azaltmışdır. Müasir dildə az işlənsə də, qalmaqdadır. İlkin mənbələrdə: Buna sultan yetirə mali məgər, ***Zira*** bu qulda vardur nim hünər.(Suli) Yas dutaq Vəfa içün, geyək qara, ***Zira*** can vermək gərək doğru yara. (MV) Məşhur idi şəhr ara rəmmal qatı, ***Zira*** hasil etmiş idi sənəti.(MV)

Bu cümlələrdəki ***zira*** sözünün yeri müasir dildəki ***çünki*** bağlayıcısına tam uyğundur.

«Mehri və Vəfa»nın dilində olduğu kimi, Qazi Bürhanəddinin dilində də səbəb budaq cümləsinin mühüm bağlayıcı vasitələrindən biri, ***zira/zira ki*** bağlayıcısıdır: Dərdün dilərəm bana dəxi nəsnə gərəkməz, ***Zira ki*** yenə dərd ilə dərman ələ gəlür.(QB) Könül oğurluğa vardı, asıldı zülfündən Cəzasıdur, ***zira*** oxımadın dükana girür. (QB) Tolu əyax ver, ey saqi, ***zira*** novruz çağıdur, Şərəfdədür həməldə şəms, əyağ onun əyağıdur (QB) və s.

Sonralar Füzuli də analitik cümlələrdə ***zira ki*** bağlayıcısından istifadə etmişdir: Bildim bu qəziyyə imtəhandır, ***Zira ki*** bu bir bəlayi-candır. (Füz.)

***Neçün ki/niçün ki*** bağlayıcısı. Baş və budaq cümlə arasında işlənən, budaq cümlə ilə birgə tələffüz edilən ***neçün ki, niçün ki*** sözləri mənaca ***çünki*** bağlayıcısına müvafiqdir və analitik səbəb budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: Ey ədib, uy vermə adabından əhli-vəhdətə, Əbsəm ol, ***niçün ki*** eşq adabını bilməz ədib. (Nəs.) Adəmdən olma qafil, ***neçün ki*** adəm oldur. (Nəs.) Əsrari-«küntə-kənzən» hər sinə məhrəm olmaz, Arif gərək bu sirrə, ***neçün ki*** məhrəm oldur. (Nəs.) Hicran şərabı acıdır, müştaqa içirmə anı, ***Neçin k*i** yar ol ağuyi içirməz, ey can, yarinə. (Nəs.) Yetər dərdin dəva müştaqə, ***neçün Ki*** dərdin bilənə dərman gərəkməz. (Nəs.)

Bu cümlələri ***çünki*** bağlayıcılı cümlələrlə eyni şəkildə sadələşdirmək olar: Səndən müdam ehsan umar, ***çün kim*** gədadır binəva – ***Binəva gəda olduğu üçün*** səndən müdam ehsan dilər. Adəmdən olma qafil, ***neçün ki*** adəm oldur–***Adəm ol olduğu üçün*** adəmdən qafil olma. ***Neçün ki/niçün ki*** bağlayıcısı hazırda canlı danışıq dilində işlənməkdədir.

***Anın üçün ki*** bağlayıcısı. ***Çünki*** və ***neçün ki*** bağlayıcılarına müvafiq olaraq, Nəsiminin dilində ***anın üçün ki*** bağlayıcısı da işlənmişdir: Dövlətinə bu dünyanın olma müqəyyəd, ey məlik, ***Anın üçün ki*** dünyanın dövləti bisəbat olur. (Nəs.)

Müasir dildə bu bağlayıcının yalnız əvəzlik hissəsi fərqlidir və bağlayıcı ***onun üçün ki*** şəklində işlənir.

***Ondan ötrü kim*** bağlayıcısı. Bu bağlayıcı tam müasirdir (*kim* – *ki* fərqi müstəsna olmaqla) və M.P.Vaqifin dilində işlənmişdir: Müxtəsər kim, belə dünyadən gərək etmək həzər, ***Ondan ötrü kim*** deyildir öz yerində xeyrü şər. (Vaqif)

***Ta, ta ki, ta kim*** bağlayıcısı. Bu bağlayıcı ilkin mərhələdən Nəsiminin dilində işlənmişdir: Badilən göndər saçın buyin mana hər sübhdəm, ***Ta ki*** yandım, keçdi həddən intizarım, qandasan? (Nəs.) – cümləsində ***ta ki*** bağlayıcısı ***çünki*** mənasını verir.

***Çün*** bağlayıcısı. ***Çün*** sözünə səbəb bağlayıcısı kimi Nəsiminin və Məsihinin dilində daha çox rast gəlirik. Məsihidən sonrakı dövrdə bu söz həm bağlayıcı, həm də bağlayıcı söz kimi tam arxaikləşmişdir. Misallar: Dünyavü mülkü malinə meylü məhəbbət eyləmə, Aldanmazam sənə dəxi, ***çün*** bildim halını. (Nəs.) İndi şəhadət əhliyəm, ***çün*** əhli-iman olmuşam. (Nəs.) Rövzeyi-rizvanı dəvət qılma, ey zahid, məni, ***Çün*** mən ol dərgahdən səhni-gülüstan bulmuşam. (Nəs.) Ağlamayım neyləyim, ***çün*** gövdədən can ayrılır. (Nəs.) Ver oğluna müjdə, ey nikuxah, ***Çün*** hali-dilindən oldum agah. (Məs.)

***Çü*** bağlayıcısı. Bu söz əksərən bağlayıcı söz kimi işlənmişdir. Lakin onun ***çünki*** bağlayıcısının mənasına müvafiq bağlayıcı kimi səbəb budaq cümləsini baş cümləyə bağladığı hallar da var; məs.: Tərk eylə məni, ***çü*** tərkin etdim. (Füz.) Mən istərəm bəlanı, ***çü*** istər bəla məni (Füz.) – ***Bəla məni istədiyi üçün*** mən də bəlanı istərəm.

Belə cümlələrə hələ ilkin mərhələdə Qazi Bürhanəddinin dilində də rast gəlirik: Təcəllisinə Tur tağı doyımaz, ***Çü*** üşşaqə xita-

bı ləntərandur. (QB) Tənüm can oldı, ***çün*** cana irişdi, Yenə bu qətrə ümmana irişdi (QB) və s.

Hər iki misalda ***çü*** sözünün işləndiyi hissə budaq cümlədir. Belə cümlələrin tərkib hissələri asanlıqla inversiyaya uğraya bilir.

Beləliklə, tarixi inkişaf prosesində bir sıra bağlayıcı vasitələr (***çünki, çün, çü***) həm bağlayıcı söz, həm də bağlayıcı məqamında işlənmiş, bir qismi (***çün, çü***) tədricən tam sıradan çıxmış, ***çünki*** sözü bağlayıcı kimi səlisləşmiş, inkişaf ***ki*** və ***kim*** bağlayıcılarından birincinin xeyrinə olmuşdur.

## MƏQSƏD BUDAQ CÜMLƏSİ

«Kitabi-Dədə Qorqud»un dilində budaq cümlənin bu növünün yalnız analitik tipi işlənmişdir. Budaq cümlə baş cümlədən sonra gələrək ona həm intonasiya ilə, həm də ***kim, ki*** bağlayıcıları ilə bağlanmışdır. Budaq cümlənin xəbəri əmr və ya arzu şəkillərində olub, arzu, istək ifadə edir və baş cümlədəki işdən sonra baş verə bilən hadisəni bildirir; məs.: İmdi, mərə dəli, gəldim ***ki***, sənin canın alam. (80) And iç ***kim***, bizim elümizə yağılığa gəlməyəsən. (117) Şimdi bunı kimə verər ***kim,*** xatiri xoş ola. (104)

Budaq cümlənin eyni quruluşlu bağlayıcısız növü daha fəaldır: Biz kafərə salam vergil, *öldürməyəlim.* (43) Qaraca çoban, anamı kafərdən diləyəyim, *at ayağı altında qalmasun.*(48) Oğul, sən qız istəməzmişsən, bir cılasın bahadır istəyirmişsən, *anun arqasında yeyəsən-içəsən.* (85)

Bu cümlələrin hamısına ***ki*** bağlayıcısı artırmaq olar: Qaraca çoban, anamı kafərdən diləyəyim ***ki,*** at ayağı altında qalmasun – ***At ayağı altında qalmaması üçün***, Qaraca çoban, anamı kafərdən diləyəyim.

Budaq cümlələrin xəbəri arzu və əmr şəkillərindədir.

Müasir Azərbaycan dilində olduğu kimi, tarixi abidələrin dilində də məqsəd budaq cümləsinin analitik tipi əsasdır. Budaq cümlə baş cümlədən sonra işlənərək baş cümlədəki işin məqsədini bildirir.

XIII-XIV əsrlərin ədəbi dilində bağlayıcılı cümlələrlə yanaşı, tərkib hissələri yalnız intonasiya ilə əlaqələnən, bağlayıcı olmadan baş cümləyə qoşulan məqsəd budaq cümlələri normal tarixi

model üzrə işlənmişdir; məs.: Can içində söyləyəm bir-bir sözi, *Dünyadən getdükdə analar bizi.*(Suli) Duraq edibdilər bir sərp arayı, *Oları kimsə varmaya arayı.* (DƏH) Hər biri bir iqlimə qıldı səfər, *Bulalar bu dərdə yəni bir zəfər.* (MV) Ölmədən nəfsini öldür, *arifi-rəbb olasan.*(Nəs.)

Sonrakı mərhələdə Şah İsmayıl Xətai tərkib hissələri intonasiya ilə əlaqələnən məqsəd budaq cümlələrinə daha geniş yer vermişdir. Bu onun canlı danışıq dilinə münasibətindən, xalq şeri tərzində yaradıcılığa üstün meylindən irəli gəlirdi. Aşağıdakı misallarda budaq cümlələr baş cümləyə intonasiya ilə bağlanmışdır: Bir dəxi var ol nigarə məndən, *Rəf ola məgər bu yara məndən.* (Xət.) De məndən ona bu neçə söznü, *Dutmaya dəxi visalə göznü.* (Xət.) Cəmali-Mustafaya ver səlavat, *Olasan cümlədən sağü səlamat. (*Xət.) Məhəmməd ümməti qalmaz damuda, Salavat ver, *canın yanmaya oda.*(Xət.) Könül göziylə bax, *didar görəsən.* (Xət.)

Qurbaninin qoşmalarında hazırkı canlı danışıq dilində olduğu kimi, məqsəd budaq cümləsi baş cümləyə əsasən intonasiya ilə bağlanmışdır: Qohum-qardaş yığılıban gələsiz, Adna axşamında bəlgə qoyasız, *Kəsilə qovğası, qalı qızların.* (Qurbani) Nə ola, bir şadlıq xəbəpri gələ, Y*üklənə barxanam ellərə doğru!*(Qurbani) Çək pərdəni, *naməhrəmlər görməsin.* (Qurbani)

Məqsəd budaq cümləsini baş cümləyə bağlayan əsas vasitə ***kim, ki, ta, ta ki*** bağlayıcıları olmuşdur.

«Dastani-Əhməd Hərami»nin dilində ***ki*** bağlayıcılı cümlələr üstünlük təşkil edir; məs.: Həm üç gövhər gətirmişəm dəxi uş, Qəbul etsin ***ki,*** könlümüz ola xoş.(DƏH) Xocalar endi(lər) atlı atından ***Ki,*** bununla görüşmək niyyətindən. (DƏH)

Bu misallarda budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır. Son misalda budaq cümlədəki «görüşmək niyyətindən» sözlərini «görüşsünlər» şəklində də işlətmək mümkündür, yəni budaq cümlə indiki halda da arzu bildirir.

«Oğuznamə»nin, «Yusif və Züleyxa»nın, «Mehri və Vəfa»nın dilində məqsəd budaq cümləsini baş cümləyə bağlayan ***kim*** və ***ki*** bağlayıcıları təqribən bərabər kəmiyyətdə işlənmişdir. ***Kim*** bağlayıcısı ***ki***-dən yalnız bir qədər üstündür. Heç birinin baş cümləsində qəlib söz yoxdur.

***Kim*** bağlayıcısı ilə: Ol mötəbər aydər: Ani altuni Bənə vergil ***kim,*** sevindürüm səni. (Suli) Dua qıl ***kim,*** haqq bənə oğul virə.

(Suli) ***Anunçün*** işbu şəhrə gəlmişəm ***Kim,*** səni alaydım, gedəydüm. (Suli) Ol Çələb dərgəhına yalvaruram ***Kim***, bənə həq tanrı bir oğul virə. (Suli) Səbr qıl ***kim***, bulasin altun külah. (Suli) Ver salavat ***kim***, sözün olsun əsül. (MV) Ertə durdu ***kim***, gedə girə yola. (MV) Bən gətürdüm ***kim***, səni verim buna. (MV) Durdu Vəfa bağda ***kim***, yemiş dərə. (MV) Okı, gəlsün anı sultan bağına ***Kim***, bən anun ay yüzüni görəyim.(MV) Bir qədəh bənüm əlimdən iç, ey yar, ***Kim***, bizim dərdimizə ola timar. (MV) Bir ulu hövz ediniz ***kim***, su çıka. (MV)

***Ki*** bağlayıcısı ilə: Qırağu (qırov) ***anun içün*** yağar ***ki,*** əli-ayağı üşüdə. (Oğuz.) Yapdur ani ***kim,*** səvinə bu canum. (Suli) Bir gəmi düzdi ***ki***, yağıdan qaça.(MV) Bir qaçı gəldi ***ki***, eyləyə şikar. (MV) Bürc dibində dur ***ki,*** gəlim gedəvüz.(MV) Bir qaç əyaq bənim əlimdən şərab İç ***ki***, qalmasun ara pərdə, hicab. (MV) İç ***ki***, getsün aramızdan qeylü qall.(MV) İki qul qoydu ***ki***, siz burda durun, Daim ol surətə qarşu oturun. (MV)

Qazi Bürhanəddinin dilində məqsəd budaq cümləsinin əsasən bağlayıcılı növü işlənmişdir. Budaq cümlə baş cümləyə daha çox ***ki*** və ***ta, ta ki*** bağlayıcıları ilə bağlanmışdır.

***Ki*** bağlayıcısı ilə: Bülbül yenə çağırdı ***ki***, fəryad şad ola, Qəddün yenə salındı ***ki***, şümşad şad ola.(QB) Gözünə ax-qara deməzəm **ki**, şəhla duymasun.(QB)

Adətən, ***ki*** bağlayıcısı baş cümlənin xəbərindən sonra işlənər, lakin şairin dilində onun yeri sərbəstdir, yəni baş cümlədə üzvlər arasında inversiya olduğu üçün ***ki*** bağlayıcısı bilavasitə xəbərin yanında işlənməyə də bilir; məs.: Müfərrih sun dilə ləli-ləbündən ***Ki,*** düşməyə saçun ilə xəyalə. (QB) Canuna ver canı ***ki,*** tənün cansuz olmaya (QB) və s. Bu hal indi də poeziya dilində mövcuddur.

***Ki*** bağlayıcısı bəzən ***yəni*** sözü ilə birgə işlənmişdir: Tənümi al boyadı gözlərümün yaşı ilə, Yaxdı içümdə odın, ***yəni ki*** fanus eyləyə. (QB)

***Ta, ta ki, ta kim*** bağlayıcıları ilə. Məqsəd budaq cümləsi ***ki*** bağlayıcısı məqamında işlənmiş ***ta, ta ki, ta kim*** bağlayıcıları ilə də baş cümləyə bağlanmışdır: Sən sitareyi götür, ***ta ki*** bu dövründə sənün Şəmsi biləsin nədür, ***ta kim*** nə bilisər qəmər. (QB) Zülfünə de ki, boynumı bəndinə gəmişə, ***Ta*** bir gecə bəni sənün ilə görə bədxah. (QB)

Qazi Bürhanəddinin dilində olduğu kimi, Nəsiminin dilində də məqsəd budaq cümləsini baş cümləyə bağlayan əsas vasitə ***kim***, ***ki***, ***ta, ta ki*** bağlayıcılarıdır.

***Kim*** bağlayıcısı ilə: Canını tərk eylə ***kim,*** bu yolda canan bulasan. (Nəs.)

***Ki*** bağlayıcısı ilə: Sünbülünü gül üstünə qoyma ***ki,*** yeli dağıda, ***Ta ki*** xəyali-xam edən fikri-məhalə düşməyə. (Nəs.)

***Ta ki*** bağlayıcısı ilə: Kəbə üzündür, ey sənəm, üzünədir sücudumuz, ***Ta ki*** görə bu səcdəyi, narə yana həsudumuz. Canımızı buraxmışız atəşi-eşqə ud tək, ***Ta ki*** səfavü zövq ilə eşqinə yanə udumuz. (Nəs.) Görsət üzünü bir kərə, ***ta kim*** Nəsimi can verə. (Nəs.)

Füzulinin aşağıdakı misralarında da ***ta*** sözü məqsəd bildirən ***ki*** bağlayıcısı məqamında işlənmişdir: Təmkinimi bəlayi-məhəbbətdə qılma süst, ***Ta*** dust tən edib deməyə bivəfa məni. (Füz.)

Bəzən budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmış, bununla yanaşı, budaq cümlənin əvvəlində ***ta*** ədatı da işlənmişdir: Mənsuri-eşqə axirətin darı oldu dar, Ol darə gəl ***ki, ta*** görəsən onda darimi. (Nəs.)

Beləliklə, göründüyü kimi, məqsəd budaq cümləsinin ən qədim modeli müasir modeldir, əsas bağlayıcı vasitələr isə intonasiya, ***kim, ki, ta, ta ki, ta kim*** bağlayıcılarıdır. Baş cümlələrin heç birində qəlib söz yoxdur. Bunlar budaq cümlə modelinin çox qədim olduğunu göstərir.

Qeyd etdiyimiz bağlayıcılar sonrakı mərhələdə də işləkliyini davam etdirmişdir.

Xətainin dilində ***kim*** bağlayıcısı məhdudlaşmış, ***ki*** bağlayıcısı ilə müqayisədə çox seyrək işlənmişdir; məs.: Fərzəndinizi mənə bağışlə ***Kim***, *elçi qılım o dilrübayə, Şayəd ki, bulam onunla vayə.* (Xət.)

Şair ***ki*** bağlayıcısı məqamında ***ta*** bağlayıcısından da istifadə etmişdir: Üzr etdim anında bir mükafat, ***Ta*** *qalmaya ortada münafat.* (Xət.) Məndən apar ona naümidi, ***Ta*** *dutmaya vəslimə ümidi.* (Xət.)

Xətainin dilində məqsəd budaq cümləsini baş cümləyə bağlamaq üçün ***çün*** bağlayıcısına və bağlayıcı məqamında ***şayəd*** sözünə də rast gəlirik: Fərxəndə cəmalına nəzər qıl, ***Çün*** *görə gözün*

*rüxi-dilaram*. (Xət.) Nomid oturma, gəl vüsalə, ***Şayəd,*** səni hicr əlindən alə. (Xət.)

Lakin Şah İsmayıl Xətainin dilində məqsəd budaq cümləsini baş cümləyə bağlayan əsas vasitə ***ki*** bağlayıcısıdır. Bu bağlayıcı işləklik etibarilə çox fəaldır: Hümmət eylə sən ***ki***, *daima gələ, Yaman-yaxşı bizim yüzümüz gülə.*(Xət.) Müsafir gəlir ***ki,*** *qisməti bilə*. (Xət.) Həq duta əlin ***ki***, *dutasan əl*. (Xət.) Əzm etdi həvəs ***ki,*** *yaza namə.*(Xət.) Qovl etdi mənə ***ki,*** dan atan çağ, Bülbül budağa qonub ötən çağ Olmuş ola namə cümlə təhrir, Hər ərzə ki var, içində təqrir, *Gəlim, aparım onu nigara, Başəd ki, bula bu dərdə çarə*. (Xət.) Aldım qələmi ***ki,*** *namə yazım.* (Xət.) Oxudum onu ***ki,*** *qalmaya şək.*(Xət.) Ah eylər idim ***ki,*** *düşməyim dur*. (Xət.)

Füzulinin, Saibin dilində məqsəd budaq cümləsini baş cümlə ilə əlaqələndirmək üçün daha çox ***kim*** və ***ki***, bəzən də ***ta kim*** bağlayıcılarından istifadə edilmişdir.

***Kim*** bağlayıcısı ilə: Saqi, gətir ol meyi-mağani ***Kim***, unudalım ğəmi-cəhani. (Füz.) Söylərdi bənəfşəyə ğəmi-dil ***Kim,*** söyləyə yarə olsa vasil.(Füz.) ***Onun üçün*** sevirəm mən dili-sədparəmi ***kim***, Çeşmi-bimarivə hər gün ola bir parə fəda. (Qövsi)

***Ki*** bağlayıcısı ilə: Gəldim ***ki,*** olam qəmin hərifi.(Füz.) Əl urdu ***ki,*** açа ol niqabi.(Füz.) Əzm eylədilər ***ki***, edələr dəf. (Füz.) Qıl çarə ***ki***, düşmən olmaya şad. (Füz.)

***Ta kim*** bağlayıcısı ilə: Zövq ilə tutub təriqi-sabiq Adəti üzərinə sübhi-sadiq Gəldi yenə məktəbə fərəhnak, ***Ta kim*** qıla zövqi-vəsli idrak. (Füz.)

Məsihinin dilində müasirlik güclüdür. Şairin dilində ***ki*** bağlayıcısı üstünlük təşkil edir, ***kim*** çox az işlənmişdir. Məsihi ***ta, ta ki, ta kim*** bağlayıcılarından da istifadə etmişdir. Bunlar da onun xalq dilinə geniş yer verməsi ilə əlaqədardır.Məs.: Getdim ***ki***, qılam bu dərdə dərman. (Məs.) Pəs anasi gəldi ol miyanə, Gəldi ***ki,*** duya həqiqəti-raz. (Məs.) Gəldim ***ki,*** pozam bu dəstgahın.(Məs.) Pəs anası gəldi ol miyanə, ***Ta*** mürğinə verə abü danə. (Məs.) Düşdülərü qondular bərabər, ***Ta*** dinlənə bir dəm anda ləşgər. (Məs.) Nəsb eylədi hər tərəf qəravül, ***Ta*** yetmiyə onlara tətavül. (Məs.) Çağırdı pəs ol pəri xisali, ***Ta*** bir də görə rüxi-vüsali. (Məs.)

Nəzərdən keçirdiyimiz faktlar göstərir ki, bağlayıcı vasitələrdən istifadə hər bir sənətkarın üslubu ilə bağlı olsa da, ***kim*** və ***ki*** bağlayıcıları minillik boyu davam etmiş, daha sonrakı mərhələdə *ki*

bağlayıcısının üstünlüyü ilə bağlayıcılı məqsəd budaq cümlələri sabitləşmişdir. ***Ta ki, ta kim*** bağlayıcıları canlı danışıq dilində qalmışdır.

Yəqin ki, danışıq dilində ***ona görə ki, ondan ötrü ki, o məqsədlə*** tipli müxtəlif bağlayıcı vasitələr də olmuş, lakin şeir dili onların bir çoxunu əhatə edə bilməmişdir.

## ŞƏRT BUDAQ CÜMLƏSİ

Tamamlıq budaq cümləsi kimi, şərt budaq cümləsi də bizim klassik ədəbiyyatın dilində geniş işlənmə imkanları, rəngarəng bağlayıcı vasitələri ilə diqqəti cəlb edir.

**«Kitabi-Dədə Qorqud»un dilində** son dərəcə işlək cümlələrdəndir. Lakin boyların dilində yalnız "budaq cümlə + baş cümlə" quruluş tipi müşahidə olunur. Bağlayıcı vasitələrə görə bu tipi aşağıdakı kimi qruplaşdırmaq olar:

a) ***sintetik*** şərt budaq cümlələri; daha işlək olan bu modeldə budaq cümlə baş cümləyə şərt şəkilçisi ***-sa,-sə*** ilə bağlanmışdır; məs.:

Qarşu yatan qara qarlı tağlardan ***aşar olsa***, allah-təala sənin oğlına aşut versün. (54) Ağ saqallu atanı, ağ birçəklü ananı ***sorar olsan***, sağdır, Bamsı! (59) ***Gəlməz olsan***, Baybican qızı Banıçiçəgi aldırdın, bəllü bilgil.(59) Mərə çobanlar, bir kişi yolda taş ***bulsa,*** yabana atar.(60) Keyik ***olsa,*** bir, ya iki bölük olurdı. (69) Baba, içində bəy yigitlər ***öldürsələr,*** qan sorularmı, də'vilərrmi? (70) Ol zamanda oğul ata sözin iki eləməzdi. İki ***eləsə,*** ol oğlunı qəbul eləməzlərdi. (71) Deməz ***olsan,*** yana-göynə qarğaram, a Qazan, sana. (73) Qarşu yatan qara tağlar ***istər olsa,*** el yaylar. (75) Qarşu yatan qara tağlar ***qarısa***, otı bitməz, el yaylamaz. (76) Souq-souq suların ***içər olsam,*** mənim qanım olsun! (83) Bəg yigit, baş ***əsən olsa***, börk bulınmazmı olur? (91) Daim gəldügində ***tursa,*** dövlət yaxşı. (96) Arıq ***olsa,*** qulağın dələrdi. (104) At ***işləməsə,*** ər ögünməz. (104) Bəg yigidim, qalabalıq yağı ***gəlsə***, qayıtmaz idin. Bütünə ala ox ***toxunsa,*** əgilməz idin.(106) Ana həqqi tənri həqqi ***olmasaydı,*** qafillücə görkli başın kəsəydim. (111) Yerə dəxi ***düşsə,*** toz kibi savrılardı. (48)

Bu cür cümlələrin bir qismində ***isə*** şərt ədatının ixtisar şəklindən istifadə edilmişdir: ***Çalırsan***, əlün qurısun.(56) Nagah qaçma-qovma ***olarsa***, birisini binəm, birisini yedəm. (55) Dədə, mən

üçini ***buluramsa,*** ikisini sən bulurmısan? (56) Bir yildə ***gəlməzsəm,*** iki yil baqqıl. ***Gəlməzsəm,*** ol vəqt mənim öldügimi biləsən. (112)

Budaq cümlə ismi xəbərli olduqda ***isə*** köməkçi sözünün hər iki formasına rast gəlmək olur: Ağ saqallu baban ***var isə***, ağlatmağıl. (108) Hünərin ***var isə***, qartaşın Əlincə qəl'əsində əsirdir, var, anı qurtar.(111) Souq-souq binarlarım ***gərəksə***, ana içət olsun! (81)

Bəzi cümlələrdə ***-sa,-sə*** bütün xəbərlərə artırılmış olsa da, onların hamısı budaq cümlə əmələ gətirə bilmir, bir qismi sadəcə olaraq arzu, istək mənası ifadə edir; məs.: Mənim dəxi oğlım ***olsa,*** xan Bayındırın qarşusın ***alsa-tursa, qulluq eyləsə***, mən dəxi ***baqsam sevinsəm, qıvansayum, güvənsəyim*** (52) - cümləsini müasir dildə: *Mənim də oğlum olsaydı, xan Bayındırın qarşısın alıb dursaydı, qulluq eyləsəydi,mən də sevinərdim, qıvanardım, güvənərdim* - şəklində nəticə çalarlı şərt budaq cümləsi kimi düşünmək olar.

Bu xüsusiyyətə Suli Fəqihin «Yusif və Züleyxa», Qul Əlinin «Qisseyi-Yusif» məsnəvilərində də rast gəlirik:

Adəm oğlanı ***günah etsə*** gərək
Sonra girü təbəsin ***tutsə*** gərək. (Suli)
Yusif aydır: Şah ***buyursa***, ***əmr qılsa***,
Xəzinədar xəzinəyə ***nəzər qılsa***,
Nə qalmışdur xəzinədə varub ***görsə,***
Gəlüb şaha ***xəbər versə***, deyür imdi. (QY)

Suli Fəqihin ikinci misrasında ***tutsə*** sözü *tutmalıdır, gərək tuta* mənasındadır. Əlinin «Qisseyi-Yusif» əsərindən verdiyimiz əvvəlki üç misrada şərt şəkilçisi həqiqətən şərt mənası yaratmaq üçün işləndiyi halda, son misrada əmr və ya xəbər şəkli məqamındadır: yəni xəzinədə nə qaldığını görüb xəbər versin.

Sintetik şərt budaq cümlələrində komponentlərin inversiyası fikrin aktuallaşdırılması ilə bağlıdır və dilimizin müasir normalarına tam uyğundur; məs.: Baba malından nə faidə, ***başda dövlət olmasa.*** (31) Yarın qiyamət günində mənim əlüm Qazan xanın yaqasında olsun, ***mənim qanım Aruza qoarsa.*** (125)

*Amma gətirməyəcək* ***olursan,*** *bu qatla öldürmədim, ol vaqtın öldürərin* – cümləsində *olursan* sözündə *–san* bütövlükdə şəxs şəkilçisinə bənzəyir. Lakin burada *–sa,-sə (isə)* şəxs şəkilçisi **(-*n*)**-dən əvvəl işlənmişdir. Müasir dildə ***–sa,-sə*** şəxs şəkilçisindən son-

ra işlənir – *olursansa* şəklində. Bu cəhət nəzərə alınmazsa, «Altun üzüyü istərsən, nişanın söylə!» tipli cümlələr asindetik (intonasiya ilə qurulan) cümlə kimi başa düşülər. Bu cür sözlər təsriflənən kimi, -*sa,-sə* özünü göstərir: *istər-sə-m, istər-sə-n, istər-sə.*

b) ***analitik*** şərt budaq cümlələri; şərt budaq cümləsinin bu növü baş cümləyə ***çünki, çünkim, əgər*** bağlayıcı sözləri ilə bağlanmışdır; məs.: ***Çünki*** Qazan bəgdən buyruq olubdur, qon otursın. (64) ***Çünki*** ər dilərsən, varub babanı qurtarsana. (94) ***Əgər*** böylə öldürməzsin, bir dürlü dəxi öldirəməzsin, bəlli bilgil. (37) ***Əgər*** bu dedigim nəsnələri gətürərsiniz, xoş, verdim. ***Çünki*** dedin, əlbətdə, varsam gərək. (86)

Bu cümlələrdəki ***çünki*** sözü hələ bağlayıcı kimi formalaşmamışdır, ***bir halda ki*** bağlayıcı sözü məqamında işlənən bağlayıcı sözdür.

***Çün*** sözü ilə: ***Çün*** *böylə oldu, haman imdi irəli durmaq gərək, bəy oğlu! Qız, (**çün**) sən ərə varırsan, (barmağındakı) altun üzük mənimdir, ver mana, qız! – dedi.*

Mətnə əsasən bu cür cümlələr «belə olduğu üçün» yox, «bir halda ki belə oldu» mənasını ifadə edir.

c) ***analitik-sintetik*** şərt budaq cümlələri; şərt budaq cümləsinin bu növü baş cümləyə ‘əgər’ bağlayıcı sözü və ***isə*** (***-sa,-sə)*** şərt ədatı ilə bağlanmışdır; məs.:

Dərsə xan ***əgər*** oğlancığın ***görərsə***, oturmaz, bizi həb qırar. (40) ***Əgər*** çobanla ***varacaq olursam***, Qalın Oğuz bəgləri bənim başıma qaqınc qaxarlar. (46) ***Əgər*** sənin atun mənim atumı ***keçərsə,*** onun atını dəxi keçərsən. (54)

Bəzi şərt budaq cümlələrində ***ki*** ədatı ilə ***-sa,-sə*** şəkilçisinin birgə işləndiyi də müşahidə olunur: Oğuz zamanında bir yigit ***ki evlənsə,*** ox atardı. (57) Bu forma zaman çalarlı olub, müasir dil baxımından arxaik sayılır.

«Kitabi-Dədə Qorqud»la XIII–XIV əsrlər arasında xeyli boşluq var. Əlimizdə bu dövrə aid yazılı mənbələr yoxdur. Lakin XIII–XIV əsrlərə aid bədii ədəbiyyat nümunələri o qədər səlis, cilalanmış və kamil əsərlərdir ki, onları təşəkkül dövrü nümunələri hesab etmək qeyri-mümkündür. Bu dövrün dil normalarını öyrənmək üçün «Dastani-Əhməd Hərami»nin (XIII əsr), Əlinin «Qisseyi-Yusif» (1212), Suli Fəqihin «Yusif və Züleyxa» (1218), İsanın

«Mehri və Vəfa» (1371/72), Yusif Məddahın «Vərqa və Gülşah» (1368/69) əsərlərinin, Qazi Bürhanəddin, Nəsimi divanlarının dili çox zəngin material verir.

Şərt budaq cümlələri məna çaları ilə fərqlənir.

1.Baş cümlədəki iş icra edilmiş olur: Mənim kimi cannisarın ***olmasa***, Düşər ol dəm çox sorağa ləblərin. (Qurbani)

2.Baş cümlədəki işin icrası budaq cümlədəki işdən asılıdır. Əgər budaq cümlədəki iş icra olunarsa, baş cümlədəki işin də icrasına inam var. Belə cümlələr mənbələrin dilində aparıcıdır: Neylərsən ***əgər*** atan ***eşitsə***, Qəhr ilə sənə ***siyasət etsə***? (Füz.) ***Eşidərsə*** daş ərir həsrətdə ahü zarımı. (Nəs.)

3.Budaq cümlədəki fikir mümkün deyil, ona görə baş cümlədəki fikir də irrealdır: Bu vüsalə yuxu əhvalı demək mümkün idi, ***Əgər olsaydı*** yuxu dideyi-giryanimizə. (Füz.) ***Olsaydı*** mənim sözümdə bir hal, Əlbəttə, olurdum əhli-iqbal.(Füz.)

«Dədə Qorqud»dan sonrakı dövrlərdə də şərt budaq cümləsi baş cümləyə aşağıdakı üsul və vasitələrlə bağlanmışdır.

***Sintetik şərt budaq cümləsi***. «Dədə Qorqud»da olduğu kimi, nəzərdən keçirilən dövrün ədəbi dilində şərt budaq cümləsi baş cümləyə daha çox ***-sa,-sə*** şərt şəkilçisi ilə bağlanmışdır. Şərt budaq cümləsinin bu növü müasir normalara tam uyğundur. Məs.: Eyilügə ***eyilig olsa***, öküzə bıçaq urulmazdı. (Oğuz.) Oğlana ***üz versən***, başdan aşar. (Oğuz.) Atlar ***dəpişsə,*** arada eşək ölür. (Oğuz.) Tanrıya ***yalvarsaydın*** işbu dəm, Tanrı sənə bir fərəh virərdi həm. (Suli) ***Qığırırsa,*** qatinə varmayalum. (Suli) Qılıc ***salsa,*** bin ərə təpinəydi. (DƏH) Dün *olsa*, yolların gözlərlər idi. (DƏH) Fəsad ***etsə***, könüldən eylər idi. (DƏH) Mən bu gün ***səbr eyləsəm***, danla fəğanı neylərəm? (Nəs.) Borclu ***görsə***, həm anın borcun verür.(MV) Mən ***ölsəm***, sən büti-şəngül, sürahi eyləmə qül-qül. (Həs.) Sən ***deməsən,*** bən olur idim həlak. (YM) Yuxarudan yüzün anın ***görsə*** gün, Düşə gögdən yerə, ola sərnigün. (MV)

Bu cür cümlələrin bir qismində tərəflər inversiyaya uğramışdır: Yeridir, daşlara ***dögsəm*** başım mən. (DƏH) Çıxar qoxusı, oda ***düşsə*** ənbər. (QB) Oda yaxar mənbərini ***görsə*** ani həm xətib. (Nəs.)

A.Annanurov qeyd edir ki: «Fikrimizcə, *-sa,-sə* şəkilçili cümləni təyin etmək, bu və ya digər bir növə aid etmək üçün ***–sa,-***

***sə*** şəkilçisinə deyil, budaq cümlənin hansı sözün əsasında baş cümləyə bağlanmasına əsaslanmaq lazımdır»[1]. Bu fikir təbiidir, çünki *-sa,-sə* şəkilçisi, demək olar ki, bütün budaq cümlə növlərini baş cümləyə bağlamağa xidmət edir. Odur ki onun şərt budaq cümləsi əmələ gətirib-gətirmədiyini və ya hansı budaq cümləyə xidmət etdiyini öyrənmək üçün cümlənin məzmunu ilə yanaşı, digər bağlayıcı vasitələrə də diqqət yetirmək vacibdir.

Şərt budaq cümləsinin sintetik növü çox fəaldır. İ.Quliyev Qazi Bürhanəddinin dili üzərində müşahidələr apararaq yazır: «Beləliklə, Qazi Bürhanəddinin yüz qəzəlində (QB.,s.400-441) işlənmiş sintetik tipli şərt budaq cümlələrinin sayı otuz altıya, analitik-sintetik tipli şərt budaq cümlələrinin sayı iyirmi dördə bərabərdir. Müşahidə göstərir ki, şairin dilində sintetik tipli şərt budaq cümlələrinin sayı digərlərinə nisbətən üstünlük təşkil edir»[1].

M.Cəfərzadə də tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən vasitələrdən *-sa,-sə* şəkilçisinin fəal mövqeyini qeyd edərək göstərir ki, ədəbi dildə olduğu kimi, dialekt və şivələrimizdə də tabeli mürəkkəb cümlələrin təşkilində, müxtəlif budaq cümlə variantlarının qurulmasında ***-sa, -sə*** şəkilçisi əsas vasitə kimi çıxış edir[2].

Şərt budaq cümləsinin «Kitabi-Dədə Qorqud»da müşahidə etdiyimiz baş cümlə ilə inversiyası lazımi fikrin aktuallaşdırılması prosesində sonrakı dövrlərin poeziya dilində də özünü göstərir.

***İsə*** şərt ədatının ixtisar şəkli şərt budaq cümlələrinin baş cümləyə bağlanmasında daha fəal olmuşdur: İraq yerə səni ***verir olursam***, Bənə (bir) dərddürür sənsiz ***olursam***.(DƏH) Bəni ana ***verirsə,*** hal düşvar. (DƏH) ***Mədəd olursa***, bənə andan olur.(DƏH) Olmasın kim, ya nigar, ah edəsən. Gər ***dilərsən,*** sağ-səlamət gedəsən. (YM) Hər kim səni ***deməzsə*** rəhman sifətli həqsən, İtirmiş ol qaragün həqq ilə həqşünasi. (Nəs.) ***Eşidərsə*** daş ərir həsrətdə

---

[1] А.Аннануров.Основные вопросы сравнительного синтаксиса русского и туркменского языков в плане переводческой работы. Nam. diss., Aşxabad, 1953, s.198.

[1] İ.E.Quliyev.Qazi Bürhanəddinin dilinin sintaksisi, nam. diss., Nəsimi ad. Dilçilik İnstitutu, Bakı, 2008, s.133.

[2] M.Cəfərzadə.Azərbaycan dilinin dialekt sintaksisi. Bakı, Azərnəşr, 1990, s.220.

ahü zarımı. (Nəs.) ***Yürüməzsə***, bən anı yürüdəyim. (YM) ***Ğalib olursa,*** üzügü verəsən. (YM) ***Olursa*** həqq-taaladan inayət, Qılam bu qisseyi bir-bir hekayət. (YM)

Tərəflərin yer dəyişdiyi hallar da çoxdur: Ey vay, bəni *dərdə* ***dəvam olmayısarsa,*** Bin vay, bini bu dərdə ***dəvam olmayısarsa.*** (QB)

Şərt budaq cümləsinin bu növü, təbii ki, ədəbi dilin sonrakı inkişaf mərhələlərində də işlənməkdə davam etmişdir; məs.: Sanmın ***günəş olsa***, nur salmaz. (Füz.) ***Olsaydı*** mənim sözümdə bir hal, Əlbəttə, olurdum əhli-iqbal.(Füz.) Gənc ***istəsən***, əjdahadan istə. (Füz.) Gül qönçəliyində xar iləndir, ***Açılsa,*** bir özgə yar iləndir. (Füz.) Hüsn ***olmasa***, eşq zahir olmaz, Eşq ***olmasa***, hüsn mahir olmaz.(Füz.) Arizindən ayrı ***fəryad eyləsəm,*** eyb eyləmən. (Ruhi) ***Eyləsəm*** vəslin ***təmənna***, bəxt yar olmaz bana.(Ruhi) Gözinə ***çəkməsə*** ayağın tozni, Ruhiyi kim bilirdi əhli-nəzər? (Ruhi) Məşuqədən ***alsa*** qərz busə, Canü sər ilən əda qılan dil! (Xət.) Göz ***görməsə***, dil götürməz aram.(Xət.) Bir söz ***desəm,*** eyləmə itabi.(Xət.) Mənim kimi cannisarın ***olmasa***, Düşər ol dəm çox sorağa ləblərin. (Qurbani) Qəm əhliyəm, ***dindirməsən*** dinmərəm. (Qurbani) Üzünü ***görməsəm***, bataram yasə. (Qurbani) ***Çağırsam*** ağamı, yetişər dadə. (Qurbani) Dərdim çoxdu, nər-mayələr götürməz, Kərgədan ***olmasa***, fil mana göndər. (Qurbani) Ömr ***möhlət versə***, rüsvayi-cahan qılsam gərək. (Kiş.) Abi-heyvan çeşməsindən dadlıdır, ***Versə*** ləlin çün bir içim su bizə. (Həb.) Süd ***içsə***, sanırdı kim, içər qan. (Füz.) Göz mərdüməgindən ***olsa*** xali, Göz mərdüməgi olurdu xali. (Füz.) Vallah, suya saru qurbağanı bir ***vursalar***, iki sıçrar. («Şəhriyar»)

Bu cür cümlələrin bir çoxunda tərəflər inversiyaya uğramış olur: Eyb eyləmə ***ağlasam*** bu halə. (Füz.) Bülbül əfğan eyləməzmi ***olsa*** gülşəndən cüda? (Ruhi) Bir laçınsan sarı, sarın ***olmasa***. (Qurbani) Bənzər der idim yüzünə gül, qəddinə sərvi, Pak ***olsa*** gülün daməni, sərv ***olmasa*** yekpa. (Xəl.) Zülfünü salma yüzinə, qılma günüm qara Kim, verməz ay işıq, ***düşər olsa*** səhab ana. (Hid.) Qalmaz dərdü qəmdən əsər, ***Görsəm*** yüzün cananımın. (Əmani)

Sintetik şərt budaq cümləsinin felin arzu formasının şəkilçisi -*a,* -*ə* ilə baş cümləyə bağlandığı hallar da müşahidə olunur: Güzgüdə ***görəydi*** öz-özünü, Öz arizinə olurdu meyli.(Füz.)

XVII-XVIII əsrlərin ədəbi dilində *–sa,-sə* şəkilçili budaq cümlələr səlis şəkildə davam etməkdədir: Bulmaq ***diləsən*** məni-zəlili, Ahim şərəri qılur dəlili. (Məs.) Qəribliyə ***düşsəm***, qan ağlar didəm. (Vaqif) Bir söz ***desəm***, olmayaydı qəzəbnak.(Vaqif) Xəstə Vaqif ***ölsə***, canına fəda.(Vaqif) Üzünü ***görməsəm,*** qopar qiyamət. (Vaqif) Adam aşıq ***bağlasa,*** gərək sınanmış aşıq ola. …əgər onun kamalı camalına görə ***olsa,*** mən bundan əl götürmənəm. («Şəhri-yar»)

***Analitik şərt budaq cümləsi.*** Şərt budaq cümləsinin bu növü baş cümləyə ***əgər//gər, şimdi ki, çü*** və ***çün*** bağlayıcı sözləri və ***ki*** ədatı ilə bağlanmışdır.

***Əgər*** bağlayıcı sözü ilə: Xızr ***əgər*** zülmətdə istər çeşmeyi-heyvanını, Susamış müştaqə ləlin abi-heyvan oldu, gəl! (Nəs.) ***Əgər*** hər qıl canuma oldı bir bənd, Ləbün dəxi mükərrərdür, niga-ra. (QB) ***Əgər*** su damənin tutdum, rəvan döndərdi üz məndən. (Füz.) ***Əgər*** şərab verirsən, ayağa dur, saqi.(Qövsi)

***Əgər*** bağlayıcı sözünün ixtisar şəkli ilə: Tutmaq dilərəm sə-nin kimi yar, Amma əcəb, **ər** sənin kimi var!? (Füz.)

***Əgər*** bağlayıcı sözü sonrakı mərhələlərdə: Yazılmış ***əgər*** bu tərz təqdir, Mümkünmüdür olmağında təğyir.(Məs.) ***Əgər*** yarsan, gəl sarmaşaq qol-boyun. (Vaqif) Şəhriyar da səfər rüsxətini sizdən istər. ***Əgər*** qəbul edərsiz, bir dua verin… («Şəhriyar»)

***Əgər*** bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə: Eşit gəl bir Həra-minin sözünü, ***Əgər görür isən*** məni yüzünü.(DƏH) Eytdi kim, e qız, etdin bənə sən, ***Əgər ölməz isəm*** edəm sənə mən.(DƏH) Sə-nə göstərəyim bir-bir bu gün bən, ***Əgər göstərməz isəm*** ər degi-ləm. (DƏH) Yarun ***əgər*** meylini ***anlar isən***, Çıx fələgün dəxi yedi qatına. (QB) Münkir ***əgər*** yox ***deyir isə***, uş müshəf, uş təfsirimiz. (Nəs.) ***Əgər inanmaz isən***, sor bu nüktə xalından. (Nəs.) ***Vər elçi isən***, oturma ğafil! (Füz.) ***Vər sandın isə*** ki, natəvanəm, Azürdeyi-möhnəti-cəhanəm, Həm şərt idi üzr qılmaq irsal.(Füz.) ***Əgər yolçu isən***, körpünü dolan. (Xət.) ***Əgər mömin isən*** sən şahı tanı. (Xət) Zahid, ***əgər xəta isə*** ol zülfü sevdiyim, Qəbrim içində yalvarayım qoy ilanlara. (Fəz.)

***Gər*** bağlayıcı sözü ilə: ***Gər*** görər vaiz üzünü, dəmbədəm ey-lər fəğan. (Nəs.) ***Gər*** inanmazsan, yüzügü uş nişan. (YM) ***Gər*** mərdsən, etməgil bəhanə. (Məs.) ***Gər*** Leyli üçündür iztirabın, İk-

rah ilə verməzəm cavabın. (Füz.) ***Gər*** sana gərək bu yolda qasid, Bir qutlu nəfəs, Səbadır adı.(Xət.) ***Gər*** müsəlmansan, Hidayət, tərki-Quran eyləmə. (Hid.) ***Gər*** inanmırsan, bir oq atgil mana qarşu sına. (Kiş.)

Tərəflərin inversiyası: Yenə getdi əqli, gəlməz başına, Eşq əsər eylər**, *gər*** uğrar taşına.(MV)

***Gər*** bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə: ***Gər aşiq isən***, könlünü arıt. (Nəs.) ***Gər*** qəbul ***olur isə*** bu hacətim, Bunların fərmanı ola taqətim.(YM) ***Gər aşiq isən*** sən, ey cahangərd, Qaçma ki, mənəm səninlə həmdərd. (Füz.) ***Gər var isə*** rəhmin, eylə çarə. (Füz.) ***Gər aqil isən***, nədir bu halət?(Füz.) ***Gər elçi isən***, yetir pəyamın! (Füz.) ***Gər*** səadət küncini bulmaq ***dilərsən***, fani ol. (Xət.) ***Gər*** ləlin ***isə*** çü Şirin, ey yar, Fərhad gərəkdir ona bir zar. (Xət.)

Sonrakı mərhələdə: ***Gər dutmaz isən*** sözüm xətadur, Axırda mənə, sənə cəfadur. (Məs.) ***Gər istər isən*** rüxi-səlamət, Məndən sana yetməsin məlamət, Döndər dövrün əvvəlki halə. (Məs.) ***Gər*** oldu ***isə*** məhəbbətin sir, Dəxi ona nə əlacü tədbir?! (Məs.) ***Gər aqil isən***, eşit nəsihət. (Məs.)

***Çü*** bağlayıcı sözü ilə: Bu hüsn məmləkətinə ***çü*** sən Süleymansın, İnayətün, a bəgüm, Asəfə gərəkməzmi? (QB) ***Çü*** dərdün böylə müzmərdür könüldə, Neçün olmaz canun canuma müdğəm. (QB) Vəhdət dəmində dərvişü sultan ***çü*** bir imiş, Gəl xəstədil Nəsimi, qəbul eylə şalını. (Nəs.)

Bu misallarda ***çü*** sözü «bir halda ki» mənasını ifadə edir.

***Çün*** bağlayıcı sözü ilə: ***Çün*** oldı adın Rəşid, bir söylə, bir eşit. (Oğuz.) Könül, şaha, gözündə ***çün*** guşənişin oldı, Əhli-kərəmə ikram vacib ola mehmanə (QB) Xəstə Nəsimi, yarın əhvalını heç sormaz, Sormağına ***çün*** gəlməz, barı gələ yasına.(Nəs.) Canını verdi Nəsimi ***çün*** saçın zəncirinə, Neçin anın məskənin zəncirü zindan eylədin? (Nəs.) ***Çün*** bunu verdin bana, sən sakin ol. (YM) ***Çün*** cənnət əhlidir, nə verürsən əzab ona. (Hid.)

Sonrakı mərhələlərdə də ***çün*** bağlayıcı sözü şərt budaq cümləsi tərkibində «bir halda ki» mənasını ifadə edir: ***Çün*** ol sənə qıldı mehribanlıq, Yaxşılığa eyləmə yamanlıq! (Füz.) ***Çün*** əbr deyilsən, olma giryan! ***Çün*** seyl deyilsən, etmə əfğan! (Füz.) ***Çün*** cənnət əhlidir, nə verürsən əzab ana. (Hid.)

Bu cümlələrdə ***çün*** bağlayıcı sözü ***əgər, bir halda ki*** bağlayıcı sözlərinin mənasına müvafiq məna ifadə edir. H.Mirzəzadə

yazır ki, XIV-XVIII əsrlərin yazı materiallarının dilində işlənən *çün* və *çu//çü* bağlayıcıları vəzifə etibarilə dəyişməsə də, mənaca xeyli geniş olmuş, dilimizdə *ona görə, çünki, elə ki, o vaxt ki, madam ki, ancaq, amma, kibi//kimi, gər//əgər, sanki, elə bil ki, bir sözlə, demək, axırda, üçün, görə* kimi bağlayıcı, ədat, modal sözləri əvəz etmişdir[1].

***Çünki/çünkim*** bağlayıcı sözü ilə: ***Çünki*** şükrün var dəxi, qüssə yemə.(Suli) ***Çünki*** bu ğəddarı sən qıldın əsir, Gətir imdi əlimə sən bunu ver. (YM) Uşbu işə ***çünki*** bən basdum qədəm, Götürəyim anı sənə uşbu dəm. (MV) ***Çünkim*** aydırsan həqi hər yerdə hazırdır, neçün Fərq, ey qafil, edirsən məscidü meyxanəyi? (Nəs.) Ey oğul, ***çünki*** mənim sözümü qəbul və məni getməgə rəva görmədin, qulaq as gör nə deyirəm. («Şəhriyar») ***Çünki*** bu əmrə razı deyilsən, atan səni bidamağ etməz. («Şəhriyar»)

***Şimdi ki*** bağlayıcı sözü ilə: Yar kənara gəlicək bən çü miyana gəlmişəm, ***Şimdi ki*** irdi firqəti, dərd ilə cana gəlmişəm. (QB)

***Ki*** ədatı ilə: Ləli-ləbün ***ki*** eyni-həyat oldı ver bana, Hərgiz qayurmağil yerinə bu həvasili. (QB) Ol *ki* dəva dərdidür, tənə nə möhtacı var, Ol ***ki*** degül böylə, pəs dərdi dəvadan degül (QB) Can *ki* sirab oldı ana bən necəsi can deyəm, Can dedügüm oldurur ki, bir əzizə təşnədür (QB) Həva ***ki*** qıldı pərişan nigar gisusını, Nə lazım ola dili qıldı isə zirü zəbər? (QB) Canda ***ki*** eşq olmadı, dildə xəbər nə faidə, Gözdə ***ki*** görmək olmadı, nuri-bəsər nə faidə. (Nəs.)

***Kim*** və ***ki*** ədatları sonrakı dövrdə: Bizdən ***ki*** usandı, yarı kimdir? (Füz.) Mən ***kim*** səninəm, sənindir ol həm. (Füz.) Təşrif ***ki*** buyurdun, götürdün qədəm, Gərəkdir payinə üz nisar edəm. (Vaqif) Yarlıqda ***ki*** yoxdur xəyalın sənin, Bəs dünyada yarınmağın nədəndir? (Vaqif)

***İsə*** şərt ədatının köməyi ilə: Önümə aş qo, iki əlim boş qo; ***yeməz isəm,*** başıma taş qo. (Oğuz.) ***Yoxsul isən***, sənə altun virim, ***Yəlın isən***, sənə ton geydürim. (Suli) Şimdi özün ***dilər isən***, yetür özüni bul bəni. (QB) Xoş yigitdir, ***dilər isə***, verəlim. (YM) Sözüm ***yanlış olur isə*** utanam.(DƏH) ***Söylər isən***, şeytanı şad idərsən.

---

[1] H.Mirzəzadə. Yazılı abidələrimizdə işlənən ***çün*** və ***çü*** bağlayıcıları haqqında. ADU-nun Elmi Əsərləri, № 1, Bakı,1965, s.21.

(Suli) Şükr anə ***dilər isə***, vergil canı. (MV) İyiliklə qız ***verir isə*** alam, ***Verməz isə*** bilirəm bən nə qılam. (YM)

***İsə*** ədatı ismi xəbərli şərt budaq cümlələrinə də artırılmışdır: Əcəbdir, bu xoca ***degil isə*** ol.(DƏH) Dedi: -Ya Vərqə, ***ər isən***, gəl bəri. (YM)

***İsə*** şərt ədatı sonrakı mərhələdə daha da fəallaşmışdır: Könlün ***xoş isə***, təbəssüm eylə!(Füz.) ***Sufi isən***, alıb satma, Halalına haram qatma.(Xət.) Sən ***varmaz isən***, varıram özüm. (Xət.) Yükün ***zülm isə*** arxandan buraxgil. (Xət.) ***Kəbədisə***, mən də birin yapmışam. (Qurbani) ***Olmaz isə*** eşq, hüsn olur xar. (Füz.) ***Ğönçə isən*** əndəlibiz, ***şəm isən*** pərvanəyiz. (Ruhi) Saçınğa ***dedim isə*** nafeyi-Çin, pərişan bolma, bolmaz qul xətasız. (Kiş.)

***Analitik-sintetik şərt budaq cümləsi.*** Şərt budaq cümləsinin bu növü də fəal işlənmə imkanları ilə diqqəti cəlb edir.

Analitik-sintetik şərt budaq cümlələri aşağıdakı vasitələrlə baş cümləyə bağlanmışdır.

***Əgər*** bağlayıcı sözü və şərt şəkilçisi ***(-sa,-sə)*** ilə: ***Əgər bulsa*** bəni, heç verməz aman. (DƏH) Şərh ***əgər qılsam*** cəmalın dəftərindən bir vərəq, Hər sözüm min fəsl olur, hər fəsl yüz min bablər. (Nəs.) Biri-birin bir *dəm* ***əgər görməsə***, Dönər idi bunların eyşi yasə. (YM) Mədəni-ruh ***əgər desəm*** ləblərinə, əcəb degil. (Nəs.)

Sonrakı dövrün dil materialları içərisində ***əgər*** bağlayıcı sözü və şərt şəkilçisi ilə baş cümləyə bağlanan şərt budaq cümlələri xüsusi nəzərə çarpır. Misallar: Neylərsən ***əgər*** atan ***eşitsə***, Qəhr ilə sənə ***siyasət etsə***? (Füz.) Yaşırıb saxlardım eldən daği-hicranın, ***əgər Etmək olsaydı*** müdara dideyi-giryan ilə.(Füz.) Bu vüsalə yuxu əhvalı demək mümkün idi, ***Əgər olsaydı*** yuxu dideyi-giryanimizə. (Füz.) Nəqdi-canın ***əgər*** ol simtənə ***sərf etsən***, Sanma, ey aşiqi-möhnətzədə, edə vəfa.(Ruhi) ***Əgər*** yolunda can verənə ***ərzi-cəmal etsən,*** Sana can vermədən aləmdə bir sahibnəzər qalmaz. (Ruhi) Kim dutar əlin ***əgər şər olsan***? (Xət.) Bir qönçəsən**,** ***əgər*** xarın ***olmasa***. (Qurbani) ***Əgər xəbər alsa*** yar əhvalımı, Könlüm şikəst, günüm qara deyərsən. (Qurbani) ***Müsaid olsa əgər*** ruzigar bizim ilə, Orada baş açubən ruzigarə yalvaralım. (Ham.) Dövri-hüsnində ***əgər qul olsa*** könlüm Yusifi, Olmasın yarəb kim, ol çahi-rüxündən çıxa. (Hid.)

Daha sonrakı mərhələdə: Baş açub ***əgər dağıtsa*** kakül, Aləm dola buyi-sünbülü gül. (Məs.) ***Qoysam*** qədəm ***ər*** fəzayi-seyrə, ***Açsam*** nəzər ***ər*** cəmali-qeyrə, Qaşım tək ola qədim xəmidə. (Məs.) ***Dil versəm əgər*** dəxi həvayə, ***Ləb açsam əgər*** dəxi nəvayə, Dil dərd odunun kəbabı olsun, Ləb qəm sözünün kitabı olsun. (Məs.) Çoxlar sənə iyma ilə baş əyər, Mum tək ərir, ***olsa*** bağrı daş ***əgər***. (Vaqif) …***əgər*** onun kamalı camalına görə ***olsa***, mən bundan əl götürmənəm.(«Şəhriyar») ***Əgər*** səndə eşq əlaməti ***olsa idi***, bu qədər vəqt tab qılmazdın və dura bilməzdin. («Şəhriyar») ***Əgər*** mürdə ***görsə***, zində olur. («Şəhriyar»)

***Əgər*** bağlayıcı sözü və ***isə*** şərt ədatının ixtisar şəkli ilə: Yar ***əgər mehrü vəfa etməzsə***, yoxdur zurimiz.(Ruhi) ***Əgər salih olursa*** sana canum, Qəriv eyləyə naqə can içindən. (QB) Can ***əgər getdisə***, sən sağ ol, mana candan nə qəm. (Kiş.)

***Əgər*** bağlayıcı sözü və arzu (***-a,-ə***) şəkilçisi ilə. Hiss olunur ki, *əgər* bağlayıcı sözü əvvəlki dövrlərdə arzu şəkilçisi ilə daha fəal işlənmişdir; məs.: Dedi: bunlar ***əgər*** bizdən ***olaydı***, Bu vaxtın qancəri seyrin qılaydı. (DƏH) ***Əgər*** canum ***sevə***, könül verəyin. (DƏH) Şol büt ***əgər*** bizüm ***ola***, sanki olur cəhan bizüm.(QB) Ayıtdı: ***Əgər çağıram*** Vəfa ***dura***, Zəngilər ana qılıclar ura.(MV) Zöhrə ***əgər*** nazi-şivəsin ***görə,*** Fəryad edübən ura canın yerə. (MV) Eşqə bürhan gösdərür yüzün ***əgər*** Bir nəfəs lütfin bizümlə ***yar ola*** (QB) Cəllad tək gözləri alsa canımı, Namərdəm mən ***əgər aman eyləyəm***. (Vaqif)

***Əgər*** bağlayıcı sözü və arzu şəkilçisi sonrakı mərhələdə Xətai, Rəhməti, Məsihi və b.-nın dilində də birlikdə çıxış edir: Can xoşdur ***əgər buluna*** canan. (Xət.) Hər yüzüm ***əgər olaydı*** yüz-yüz, Səndən kəsəmən o gözlərimni, Salam ayağına yüzlərimni. (Xət.) ***Əgər*** damən ***çəkə*** bizdən səlamət əhli, cayizdir. (Rəh.) Qürbət eldə ***əgər düşəm*** xəstə mən, Bulunmaz bir kimsə dərman eyləsün. («Şəhriyar») Xudavənda, ***əgər*** bunun kamalı camalına görə ***ola***, padşahlığa layiqdür. («Şəhriyar») Yarın şamaməsi oxşar şəkərə, Heyran olur mələk**,** ***əgər göstərə***.(Vaqif) …mən aşıqlara dostam, ***əgər*** aşıq ***ola***. («Şəhriyar»)

***Gər*** bağlayıcı sözü və şərt şəkilçisi ***(-sa,-sə***) ilə: ***Gər*** macal ***bulsam***, həbibin çövrüləydim başına. (Nəs.) Aləmdə bu gün sənciləyin yar kimin var, ***Gər*** var ***desən,*** yox deməzəm, var, kimin var? (Nəs.) Həq ***desəm gər*** hüsnünə, olmaz günah.(Nəs.)

***Gər*** bağlayıcı sözü şərt şəkilçisi ilə birlikdə sonrakı dövrdə daha da fəallaşmışdır; məs.: ***Gər qılsa*** onu tələf həvadis,Yox bir xələfi ki ola varis. (Füz.) Oda ***yandırmasa gər*** şölə ilə nöh fələgi, Nə bitər atəşi-ahi-dili-suzanımdan? (Füz.) ***Gər gəlsə*** əcəl, mənim nəm ala? (Füz.) ***Gər*** səhhətə ***qadir olsa*** bimar, Dərdə özün eyləməz giriftar. (Füz.) Bu şeri ***gər oxusan*** dəmadəm, Məlumun olur mənim ğəmim həm! (Füz.) ***Gər*** şəmə ***açılsa*** şərhi-razım, Sayəmdən olur min etirazım. (Füz.) ***Gər*** könlü ***xoş olsa,*** ərz qıllam. (Xət.) ***Gər*** firqəti ***salsan*** asimanə, Göylərdə fələk cəmisi yanə. (Xət.) Dodağun içrə dişüni gülər çağında ***gər görsə***, Xəcalətdən sədəf içində mirvaridi-tər qalmaz. (Kiş.) ***Gər*** səninçün ***qılmasam*** *çak*, ey büti-nazikbədən, Gorum olsun şol qəba, əgnimdə pirahən kəfən. (Həb.) Göz yaşı ***gər durmasa***, naseh, məni mən eyləmə.(Rəh.) Qeyrə ***gər*** mehrü vəfa ***qılsan,*** bana cövrü cəfa, Olmazam rəncidə səndən, çün budur adət sana.(Ruhi)

Sonrakı mərhələdə: ***Gər görsə*** cəmali-kəmalın, Eylər mələk arizu vüsalın. (Məs.) Sən ***gər*** mənim ***olsan*** fəna dünyada, Elə billəm, padişaha dönmüşəm. (Vaqif) Bir beləsi ***gəlsə gər*** sizə, Vaqif, Eylə səcdə, ikram, ayağından öp. (Vaqif)

***Gər*** bağlayıcı sözü və ***isə*** şərt ədatının ixtisar şəkli ilə: Doyımaya bu yürəgüm odına ahın, ***Gər irürsə*** həva vücudına ahın (QB) Bən nedərəm cümlə aləm mülkünü, ***Gər*** anınla ***olmazsa*** tacü külah. (YM) Söylə məqsudin nədir, bən biləyim, ***Gər əlimdən gəlirsə***, qılayım. (YM) ***Gər*** adına ***deyilmişsə*** şahibaz, Söylə görüm, onu atmaq nədəndi? (Qurbani) ***Gər*** eşqi ***görərsə*** nöh fələklər, Çərx üzrə fələk yana mələklər. (Xət.) ***Gər*** muradın *can* ***isə***, əmr eylə, təslim eyləyim. (Ruhi)

Bu cür hallarda qeyd edilən vasitələr ismi xəbərlə də işlənmişdir: Küfr ***əgər iman deyilsə,*** pəs niçün düşmüş ki, mən Küfrizülfün həlqəsində nuri-iman bulmuşam? (Nəs.)

***Gər*** bağlayıcı sözü və arzu ***(-a,-ə)*** şəkilçisi ilə: ***Gər*** əfsun oxuyub bir dəm ***ürəydi***, Oluq dəm ayı gögdən endirəydi. (DƏH) ***Gər*** ana ***olmaya fəda***, bəs nəmüz ola can bizüm. (QB) ***Gər gösdərə*** şol gisularun sərsəri-muyi, Əqlü dilü can cümlə ola bər sərimuyi.(QB) Vücudi külli fəda ***gər qıla*** kişi yolına, Ömür yolına köyiməyə bir nəfəs əyyam.(QB) ***Söylənə gər*** Nəsiminin mədrəsədə məqaləti, Dərsini qoya mədrəsə, qiyl ilə qalə düşməyə.(Nəs.) İlla qorxum Vərqədəndir, ***gər*** anı ***Öldürəsən*** qəbul edəm bir səni.

(YM) ***Gər*** mənim bu hikmətimi ***biləsiz***, Məmləkətdə padşahlıq qılasız. (MV) Kafərəm, ***gər*** mən bu xeyr işinə ***təxir eyləyim***. (Hid.)

Müasir Azərbaycan ədəbi dilindən fərqli olaraq, Qazi Bürhanəddinin dilində şərt budaq cümlələrinin *əgər//gər* bağlayıcı sözləri və *-a,-ə* arzu şəkilçisi ilə baş cümləyə bağlandığı hallara daha çox rast gəlirik[1].

***Gər*** bağlayıcı sözü arzu şəkilçisi ilə birlikdə XV-XVI əsrlərin və sonrakı dövrün ədəbi dilində də işlənməkdə davam etmişdir: ***Gər*** məndə bir ***ixtiyar olaydı***, Əvvəldən ədəb şüar edərdim. (Füz.) Hər şuxdə ***gər olaydı*** bu tövr, Sən olmaz idin yeganeyi-dövr.(Füz.) ***Gər*** bir igidin ***düşə*** məlali, Yetər sana bildirincə hali.(Xət.) Hicran odu ***gər düşə*** zəminə, Yandıra zəmini-həftüminə. (Xət.) ***Gər*** tarağ diş ilə, ey Rəhməti, ol zülfü ***aça***, Düşə od canına yeldən, yana dəndanələri. (Rəh.)

Sonrakı mərhələdə: ***Gər*** nazı qədəm ***qoya*** miyanə, Tufanibəla düşər cahanə.(Məs.) Gülşadə ***gər ixtiyar oleydi***, Haşa ki, qıleydi ol cüdalıq.(Məs.) ***Gər*** silsilə ***nəsb edəm*** cəmalə, ***Vər*** *xal* ***düzəm*** rüxi-xəyalə, Ol gərdənimə ola səlasil, Bəxtim üzünə ola o xal nil. (Məs.)

***-a,-ə*** arzu formasının şərt mənasında işlənməsi müasir Azərbaycan dilində zəifləmiş, dialekt və şivələrimizdə qalmışdır.

***Çün*** bağlayıcı sözü və arzu şəkilçisi ilə: Ol bu yüzügü nigarin ***çün görə***, Şək degil kim, ol sana nəsnə verə. (YM) Meyvənin taracıdur, ***çün*** bağ ***ola*** divarsız.(Kiş.)

***Əgərçi*** bağlayıcı sözü və şərt şəkilçisi ilə: Mənsurivar ***əgərçi*** məni darə ***çəksələr,*** Darüş-şəfa derəm mən ani, dar bilmənəm. (Həq.)

***Əgərçi*** bağlayıcı sözü və arzu şəkilçisi ilə: Xoşdur, ***əgərçi*** cümləsi bir yerdə ***cəm ola***, Avazi-cəngü nəğməvü tənbur ilən rübab. (Nəs.)

***Hərgah*** bağlayıcı sözü və şərt şəkilçisi ilə: ***Hərgah ölməsəm,*** Şəhriyarı taparam və gətürürəm.(«Şəhriyar») Ey atayi-mehriban, ***hərgah*** iki dost bir-birin ***görməsə*** və rəsmiyyəti-məhəbbət ayinlərində möhkəm ***olmasa***, sifariş ilə ziyarət əmələ gəlməz və o iş bitməz. («Şəhriyar»)

---

[1] İ.E.Quliyev.Qazi Bürhanəddinin dilinin sintaksisi, nam. diss., Nəsimi ad. Dilçilik İnstitutu, Bakı, 2008, s.133.

***Hərgah*** bağlayıcı sözü və arzu şəkilçisi ilə: Ey ustad, mən dərdimi səndən gizləmənəm, ***hərgah*** bir cüzvi işarə ***biləsən***. («Şəhriyar»)

***Ki*** ədatı və arzu şəkilçisi ilə: Bir evdə ***ki*** kölə-qaravaş ***olmıya***, ol evin bərəkəti olmaz. (Oğuz.)

Dövrün poeziya dilində ***asindetik***, yəni baş cümləyə yalnız intonasiya ilə bağlanan şərt budaq cümlələri də vardır: ***İnanmırsan***, soruş Şahi-xubandan. (Qurbani)

Sintetik şərt budaq cümləsini baş cümləyə bağlayan şərt şəkilçisi, ***isə (-sa,-sə)*** şərt ədatı müasir dilimizdə ədəbi norma şəklində işlənməkdədir. Analitik şərt budaq cümləsini baş cümləyə bağlayan ***gər, çün, çü, çünki, çünkim, şimdi ki*** bağlayıcı sözləri və ***kim*** ədatı sıradan çıxmış, ***əgər, indi ki, bir halda ki, hərgah*** bağlayıcı sözləri və budaq cümləni baş cümləyə bağlayan ***ki*** ədatı qalmış, normalaşmışdır. Analitik-sintetik vasitələrdən ***gər - -sa, -sə, gər – isə, gər - -a, -ə, çün - -a,-ə, əgərçi - -a,-ə, əgərçi - -sa, -sə*** arxaikləşmiş, ***əgər – sa, -sə, əgər – isə*** formaları sabitləşmişdir.

## QARŞILAŞDIRMA BUDAQ CÜMLƏSİ

Qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlələrin tərkib hissələri mənaca qarşılaşdırılır, müqayisə edilir, fərqləndirilir və ya biri digərinə güzəştə gedir.

Ədəbi dilimizdə mürəkkəb cümlənin bu növünün «budaq cümlə + baş cümlə» quruluş tipi geniş yayılmışdır. Bu model dildə özünü üç şəkildə göstərir:

1) budaq cümlə baş cümləyə ***nə qədər***, bəzən ***hər nə qədər*** bağlayıcı sözləri, ***-sa,-sə*** şəkilçisi, ***da, də, belə*** ədatları ilə bağlanır və bu vasitələr müxtəlif şəkildə növbələşir;

2) budaq cümlə baş cümləyə ***hərçənd*** bağlayıcı sözü ilə bağlanır, baş cümlənin əvvəlində ***amma, ancaq, lakin, fəqət*** bağlayıcılarından biri işlənir;

3) budaq cümlə baş cümləyə ***kim, nə, hara*** və s. sual əvəzlikləri – bağlayıcı sözlərlə bağlanır, budaq cümlənin xəbəri təkrar olunur (əvvəl xəbər, sonra əmr şəklində)[1].

Müasir ədəbi dilimizdə olduğu kimi, «Kitabi-Dədə Qorqud»un dilində də qarşılaşdırma budaq cümləsinin "budaq cümlə +baş cümlə" quruluş tipi əsasdır. Budaq cümlə baş cümləyə aşağıdakı vasitələrlə bağlanmışdır:

a) şərt şəkilçisi ***-sa,-sə*** və ya ***isə*** şərt ədatının ixtisar şəkli ilə; bu model daha işləkdir:

Qara eşək başına üyən ***ursan***, qatır olmaz. Qaravaşa ton ***geyirsən***, qadın olmaz. (31) Baban sana ***qıydısa***, sən babana qıymağıl. (40) Oğul, bin kafər ***öldürsən,*** kimsə səndən qan də'vilməz. (70) Yüz bin ər ***gördümsə,*** yüzim dönmədi. (117) Səksən bin ər ***gördimsə,*** səksənmədim.(117) Qaraqucımın qulağı görinməz ***olsa***, Qayırı ərən qılağuzsız yol ***yanılsa***, Qılağuzsuz yol başaran Qazan ər idim. (117)

Bü cür cümlələrdə ***-sa,-sə*** şəkilçisindən sonra güzəşt mənasını gücləndirən ***da, də*** ədatını artırmaq mümkündür.

b***)-sa,-sə*** şərt şəkilçisi və 'dəxi' ədatı ilə:

Səndən yegrək qadir bizə oğul verməz, ***Versə dəxi,*** sənin yerin tuta bilməz. (76)

c) ***nə qədər*** bağlayıcı sözü və ***isə*** şərt ədatının ixtisar şəkli ilə: Əmma oğlanı ***nə qədər götürdilərsə***, turmadı, gerü aslan yatağına vardı. (98)

ç) ***nə*** bağlayıcı sözü və budaq cümlənin xəbərinin təkrarı ilə: ***Nə olur-olsun***, hələ mən avımı alayın. (54)

d) komponentlərin inversiyası və ***gərəksə*** sözünün iştirakı ilə: Qazandan dönməzəm, ***gərəksə*** yüz parə eylə! (125)

***Dəxi*** ədatı arxaikləşmiş, sonuncu model işləkliyini zəiflətmişdir. «Kitabi-Dədə Qorqud»un verdiyi bu nümunələr müasir ədəbi dilimizdə qarşılaşdırma budaq cümləsinin bütün mövcud quruluş modellərinin əsasında durur.

---

[1] *Məlumat üçün bax*: Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, Aspoliqraf LTD MMS, 2004, s.393-400.

XIII-XVIII əsrlərin ədəbi dil materiallarında qarşılaşdırma budaq cümləsi baş cümləyə müxtəlif məna çalarları ilə bağlanmışdır.

*Baş və budaq cümlənin məzmunu ziddiyyətli şəkildə qarşılaşdırılmışdır*: Hər kanda ***əgərçi*** ləl çoxdur, Bir ləl ki layiq ola, yoxdur. (Füz.) ***Gərçi*** xəndandır fərəhdən ağzı açılmış gülün, Əndəlibin gözləri gör kim nə giryan oldu, gəl!(Nəs.) ***Çalışsa, çırpınsa***, əkdiyi bitməz. (Xət.) ***Gərçi*** sözünə qulaq tutdum, Nə sud, eşitdimü unutdum.(Füz.) ***Gərçi*** canandan dili-şeyda üçün kam istərəm, Sorsa canan bilməzəm kami-dili-şeyda nədir. (Füz.)

*Baş cümlədəki fikir budaq cümlədəki fikrə güzəştə gedir:* Sən ***qıysan***, mən sənə qıymanam, gəlin! (Vaqif)

*Baqş və budaq cümlənin məzmunu müqayisəli şəkildə fərqləndirilir:* Leylidə ***əgərçi*** dərd çoxdur, Məcnuni-həzincə dərdi yoxdur. (Füz.) ***Əgərçi*** xarlə həmdəmdir, ***amma*** pakdaməndir. (Ruhi) Qafilsən ***əgərçi*** sən özündən, Mən vaqif özündənü sözündən. (Məs.)

*Budaq cümlədə şərt çaları olur:* ***Əgər*** suçlu ***isəm***, sən tanrıya bax. (DƏH)

Qarşılaşdırma budaq cümləsi baş cümləyə aşağıdakı üsullar və vasitələrlə bağlanmışdır.

***Sintetik üsulla***. Mürəkkəb cümlənin bu növündə, müasir ədəbi dilimizdə olduğu kimi, budaq cümlə baş cümləyə ya şərt şəkilçisi ilə, ya da ***isə*** şərt ədatının şəkilçiləşmiş forması ilə bağlanmışdır.

***Şərt şəkilçisi ilə***: ***Fəsad etsə***, könüldən eylər idi. (DƏH)

***Şərt ədatı ilə:*** Eyilik eylə, dənizə buraq: balıq ***bilməzsə,*** xalıq bilür. (Oğuz.) Qonaq yedügin ***bilməzsə,*** ev issi xərcin bilür.(Oğuz.)

Birinci misalda budaq cümlə «əgər fəsad etsə» mənasından çox, «fəsad da etsə» mənasına malikdir və tərkib hissələrdə ziddiyyət var.

Azərbaycan canlı danışıq dilində xəbərin təkrarı ilə baş cümləyə bağlanan qarşılaşdırma budaq cümlələri də vardır. Həmin cümlələrdə təkrarlardan birincisi xəbər, ikincisi əmr şəklində sabitləşmişdir. Cümlənin əvvəlində bağlayıcı söz də olur. Tarixən belə cümlələr bir qədər fərqlidir; məs.: ***Nə olsa-olsun***, ana bən hələ irəm derəm. (QB)

XV-XVI əsrlərin ədəbi dilində qarşılaşdırma budaq cümləsini baş cümləyə bağlayan vasitələr müasir dildə olduğundan daha zəngindər. Bunların bir çoxu tədricən arxaikləşmişdir. Budaq cümlə baş cümləyə daha çox analitik və analitik-sintetik üsullarla bağlanmışdır. Qarşılaşdırma budaq cümləsinin yalnız intonasiya ilə baş cümləyə bağlanan ***asindetik*** növü də vardır. Bu cür cümlələr Qurbaninin dilində daha çox müşahidə olunur. Məs.: Ha ***aradım,*** əlim yara yetmədi. (Qurbani)

Bu cümlənin tərəflərini qarşılaşdırma əlamətləri ilə də əlaqələndirmək olar: Ha ***aradım,*** əlim yara yetmədi - Ha ***aradımsa,*** əlim yara yetmədi - Ha ***aradımsa da,*** əlim yara yetmədi.

Sonrakı dövrlərdə də sintetik qarşılaşdırma budaq cümləsi baş cümləyə daha çox şərt şəkilçisi ilə bağlanmışdır: Ruhiyi-biçarəyi ***öldürsə*** möhnət, ğəm degil, Ey məsihadəm, xüsusa kim ola səndən cüda. (Ruhi) Qan ilə ***tolsa*** gözlərin, cövrünə qalma dilbərin, Şayəd ol mahpeykərin məqsudi imtahan ola. (Ruhi) Gör ol bipaki kim, ***yıqılsa*** aləm, eyninə gəlməz. (Ruhi) Yanmağa atəşi-eşqinlə əzəldən məmuruz, Qeyrə ***məlum degilsək,*** sana xud məlumuz. (Ruhi) Dünya malın ***versən***, bizə gərəkməz.(Xət.) Meydanda başına tup çalman, Çövkan saçım ***yüz olsa*** bərduş.(Xət.) Mən ***ölsəm,*** bu aləm heç xarab olmaz.(Qurbani) Yüz il ***keçsə***, öz yarımdan dönmərəm. (Qurbani) Sənünlə ol məhəbbət kim, mənim könlümdə ca qıldı, Anı aşkarə qılmazmən qiyamət ***aşikar olsa***. (Kiş.) Verməzəm bir tari-muyunu sənin, ***Versələr*** cümlə cahanı sərbəsər. (Həq.) Eşq yar olsa əgər, aləm ***yıxılsa***, qəm yemən. (Rəh.) Min il muradım ilə ***dönsə*** ruzigar, azdır.(Qövsi)Yüz bağü bahar ***olsa***, mənim könlüm açılmaz. (Qövsi) Aşiqə baqmaz gözəllər, yüz məhəbbət ***görsələr.*** (Ruhi)

Bu cümlələrin hamısında güzəşt mənası vardır və şərt şəkilçisindən sonra qarşılaşdırmanı gücləndirmək üçün ***da, də*** ədatı da işlənə bilər. Lakin hiss olunur ki, ***da, də*** və ya ***dəxi*** ədatı müasir dildə olduğu qədər işlək deyildir.

Daha sonrakı mərhələdə, xüsusilə M.P.Vaqifin yaradıcılığında qarşılaşdırma budaq cümləsinin bu növü böyük üstünlük təşkil edir. Məs.: Yetə bilməz yarın şamaməsinə, ***Olsa*** bu dünyanın varı şamama! (Vaqif) Sərasər bir yerə ***yığılsa*** xublar, Sənin bir muyinə tay ola bilməz. .(Vaqif) Bağrın ***olsa parə-parə,*** baxmaram. (Vaqif) ***Olsa*** yüz üzü gül, girməz eynimə. (Vaqif) Qul vermişəm bu canımı

canına, Harda ***olsam***, könlüm gələr yanına. (Vaqif) Olmaz belə adəm, ***yığılsa*** aləm. (Vaqif) Gözəl olmaz sən tək, ***olsa*** gözəl yüz. (Vaqif) Sevdayi-saçın, ***keçsə*** yüz il, sərdən üzülməz. (Vaqif) ***Hər nə desəm,*** sən incimə sözümdən. (Vaqif) Sənin kimi xan və bəylərbəyinin hərəmi-möhtərəmi çox olur. Biz ***iki olsaq***, nə eyb eylər? («Şəhriyar») Rövşən etməz yüz min günəş ***bərq etsə***, Bu möhnətdə qaralanmış könlümü.(Vid.) Hər növ ilə ***olsa*** ol qəzali, Damə saluban bula vüsali. (Məs.)

Şairin dilində ***da, də*** ədatı ilə işlənən forma da vardır: Yüz ***görsək də*** əgər özgə hərəmdən, Qurtulmanıx hərgiz fikrü ələmdən.(Vaqif) Vaqif öz qulundur, sənə qurbandır, ***Öldürsən də***, vallah, dinməz, danışmaz.(Vaqif) ***Ölsəm də***, ayağım mənim ol dərdən üzülməz. (Vaqif)

Sintetik üsulda ***isə*** şərt ədatının şəkilçiləşmiş formasından da istifadə edilmişdir: Səyyad dedi: Budur məaşım, Açman ayağın, ***gedərsə*** başım. (Füz.) Ey bülhəvəsü şikəstə ğəmnak, Yüz sən tək ***olursa***, eyləmən bak! (Xət.) Başım ***gedərsə***, mən bu işi dana bilməzəm. (Fəz.)

M.V.Vidadinin dilində arzu şəkilçisi ilə baş cümləyə bağlanan qarşılaşdırma budaq cümlələrinə də rast gəlmək olur: Əhli-dildən ***gələ*** min zəxm, o bir dərd olmaz.(Vid.) Ər libasın ***geyə*** hər rənglə zən, mərd olmaz. (Vid.)

Beləliklə, sintetik qarşılaşdırma budaq cümləsi nəzərdən keçirdiyimiz tarix boyu məhsuldar şəkildə işlənmiş və ədəbi dilimizdə tam sabitləşmişdir. Müasir dildə əvvəlki dövrdən əsas fərq hazırda *da, də* ədatından daha çox istifadə edilməsidir.

***Analitik üsulla.*** Qarşılaşdırma budaq cümləsinin analitik üsulunda budaq cümlə baş cümləyə aşağıdakı vasitələr – bağlayıcı sözlər və ədatlarla bağlanmışdır.

***Gərçi*** bağlayıcı sözü ilə: Misirdə ançiləyin köşk yoğ idi, ***Gərçi*** ol şərdə səraylar çoğ idi. (Suli) ***Gərçi*** fəraqə düşmüşəm, eyni-vüsal içindəyəm.(Nəs.) Dedi ***gərçi*** sizə zəhmətlər oldu, Vəlakin bizlərə rahətlər oldu. (DƏH) Bunlar ***gərçi*** bu işi tədbir etdi, Xuda gör kim necəyi təqdir etdi. (DƏH) ***Gərçi*** hidayət eylədi Musayı narə ol şəcər, Aşiqə hadidir üzün, nurinə ol şəcər kimi. (Nəs.) Səbrin şərabi ***gərçi*** müfərrəhdir, ey həkim, Aşiqlərin davası bu acı dəva degil. (Nəs.) ***Gərçi*** mühiti-əzəməm, adım adəmdir, adəməm, Tur

ilə künfəkan mənəm, mən bu məkanə sığmazam. (Nəs.) ***Gərçi*** ayi üzünə bənzədərəm, Qaşların şəklinə hilal irəməz. (Nəs.) ***Gərçi*** kəndü sali-hürmə bir idi, Ol yigitlikdə cahanda bir idi. (YM) ***Gərçi*** təqsirü günah oldı qulundan xidmətə, Sizdən oldı canumuza lütfü ehsan, afərin. (QB) ***Gərçi*** sözü XX əsrin əvvəllərinə qədər işlənmiş, sonra arxaikləşmişdir.

***Əgərçi*** bağlayıcı sözü ilə: Ğəmdən ***əgərçi*** firqətin min çəri çəkdi üstümə, Sən mana bəssən, ey sənəm, qorxmavü yek süvarə gəl. (Nəs.) Düşmən ***əgərçi*** hiyləvü tədbir içindədür, Tədbirü hiylə həm yenə təqdir içindədür. (QB)

XV-XVI əsrlərdə də budaq cümlə baş cümləyə daha çox ***gərçi, əgərçi*** bağlayıcı sözləri ilə bağlanmışdır: Mey ***gərçi*** səfa verər dimağə, Axdığı üçün düşər əyağə. (Füz.) ***Gərçi*** bilirəm onu ki xətdir, Bilmən ki, səhih, ya qələtdir. (Füz.) Bir neçə zaman ***əgərçi*** yandın, Suzi-dilə dözmədin, usandın. (Füz.) Sərsəri idik, ***əgərçi*** talibi-biçun idik.(Xət.) Çox vardır ***əgərçi*** qeylü qalın, Heç kimsənə anlamaz məqalın. (Xət.) ***Gərçi*** didarında yetdi canü dil məqsuduna, Həmdillah ki, mən ol didara müştaqam yenə. (Həq.) Yusifin ***gərçi*** xiridarı çox irür hüsn ilə, Nəqdi-can birlə məni-bidil xiridarəm sana.(Kiş.) Ləli-canbəxşin ***əgərçi*** mürdə cismə can verir, Çeşmi-bimarın, nigara, canları rəncur edər. (Həb.)

Daha sonrakı mərhələdə: Təbriz cəzbəsi yaxamı tutmuş aparır, Qövsi, ***əgərçi*** damənimi İsfahan tutar. (Qövsi) ***Gərçi*** sənə çox mənim kimi yar, Yoqdur mənə səndən özgə qəmxar. (Məs.) Ol cümləyə ***gərçi*** oldu faiq, Tərk eyləmədi təriqi-sabiq.(Məs.) Andan sənə ***gərçi*** yetdi nöqsan, Yüz səncə ona yetişdi xüsran.(Məs.) Ziyayi-şəms tək etdi, məni bədr eylədi, hala ***Əgərçi*** qəddimi dövrani-filmazi hilal etdi. (Vaqif)

***Gərçi, əgərçi*** bağlayıcı sözləri və baş cümlədə ***amma*** bağlayıcısı ilə: Çərxə ***gərçi*** gecələr sevdayi-xali-yar ilə Nazirin, ***amma*** gözüm sanmın kim, bu kövkəb tutar. (Ruhi) Oqundan bir nişan olmayıcaq canənə can getməz, ***Əgərçi*** getməgə can verür, ***amma*** nişan getməz. (Ruhi) Çoqdur ***əgərçi*** dərdü bəlasi məhəbbətin, ***Amma*** nə çarə əldə degil ixtiyarimiz. (Ruhi) ***Gərçi*** var özgə havası yarun, ***əmma*** vardurur Can anın müştaqivü könlüm həva vari hənuz. (Kiş.) Gözümdən ***gərçi*** pünhandır nigarın surəti, ***amma*** Görünən vəchidir anın nəzər qıldıqca hər cayə. (Nəs.) ***Gərçi*** bimiqdarıq, ***amma*** haqq bilir miqdarımız. (Qövsi) Ellərdə ***əgərçi*** var cə-

milə, Hər birisi nadiri-qəbilə, ***Əmma*** gördüm məlik hilalın, Var bir qızı qabili-vüsalın. (Məs.) ***Gərçi,*** ey Xizr, bulubsan şərəfi-feyzi-əzəl, Verməyibdir könül asayişi ***amma*** sənə əl. (Vaqif)

***Gərçi, əgərçi*** bağlayıcı sözləri və baş cümlədə ***vəli, vəleyk***, ***liykən*** bağlayıcıları ilə: ***Gərçi*** hər xarü xəsə atəşsuzanuz biz, ***Leyk*** əhli-nəzərə tazə gülüstanuz biz.(Ruhi) ***Gərçi*** Nəsimi sözün dadını verdi, ***vəli*** Dadə gətirdi anı ləfzi-şəkərbarımız. (Nəs.) Bu can ***gərçi*** giran idi belündə, ***Vəli*** ləlün qatında müxtəsərdür. (QB) Dutar çiçək yenə simin sipər fələk oxuna, ***Əgərçi*** həddi degüldür, ***vəleyk*** dərxor edər. (QB) ***Əgərçi*** qətreyi-sudan yaratdı, ***Vəli*** öz eşqini ona yar etdi. (Xət.) Təşbih ***əgərçi*** narəvadür, Ol zatə məsəl dimək xətadür, ***Liykən*** bizədür vəzifeyi-pas… (Məs.)

Bu model indi ədəbi dilimizdə işlək modellərdəndir, lakin bağlayıcı vasitələr fərqlidir – ***gərçi*** əvəzinə ***hərçənd*** bağlayıcı sözündən, ***vəli, liykən, vəleyk*** əvəzinə ***amma, ancaq, lakin*** bağlayıcılarından istifadə edilir. Bu cəhət ***gərçi (əgərçi) – amma, gərçi – leyk*** modellərinə də aiddir.

Həsənoğlunun qəzəlində işlənmiş aşağıdakı cümlə bu model əsasında qurulsa da, tərəflər arasında ziddiyyət müşahidə edilmir: Həsənoğlu sənə ***gərçi*** duaçıdır, ***vəli*** sadiq. (Həs.)

***Gərçi*** bağlayıcı sözü və ***ki*** ədatı ilə: Vəslinə irmək istərəm, ***gərçi ki*** eyniyəm anın, Məndən anı kim ayıra, fikrü məhal içindəyəm. (Nəs.) Zülfi özini yüzində ***gərçi ki*** Rüstəm deyə Sən anı başından anla hilədür dəstan edər. (QB)

***Əgər*** bağlayıcı sözü ilə: Qılan bu işləri cümlə xudadur, ***Əgər*** qüdrətdürür, ***əgər*** qəzadur. (DƏH) Mana səbr eyləmək sənsiz, nigara, ***Əgər*** müşkil**,** ***əgər*** asan gərəkməz. (Nəs.) Padişahımız ***əgər*** oldu həlak, Həqq bizə sultan verübdir bir mələk.(MV) ***Gər*** dağda, ***əgər*** çəməndə idim, Heç bilməz idim ki, xənda idim.(Xət.) Ayinə **əgər** cəhannümadır, Biqədrdür ol çü bihəyadür. (Məs.)

***Əgər*** bağlayıcı sözü və ***kim*** ədatı ilə: Çün qəm yeyirəm qəm degil, ey aşiq, ***əgər kim*** Qəm yürəgə kar eylədi, qəmxar ələ girməz. (Nəs.)

***Əgər*** bağlayıcı sözü və şərt ədatı ilə: ***Əgər*** suçlu ***isəm***, sən tanrıya bax. (DƏH) Dərd ilə ***əgər*** yüz il ***ölür isən***, Bir bus ilə qılmanam səni hey.(Xət.) ***Əgər*** oğlan sənin yanında çox ***əziz isə***, o, allah yanında bəndədür. («Şəhriyar»)

***Əgər*** bağlayıcı sözü, şərt modallığı yaradan ***isə*** hissəciyi və ***da, də*** ədatı ilə: ***Əgər*** Pərizad xanım səhranişin olub, həmişə həmsöhbəti əhli-səhra ***olub isə də,*** allah üçün nə surətdə, nə fəhmi-kamalda məmaliki-Gürcüstanda bərabəri yoxdur. («Şəhriyar»)

***Gər*** bağlayıcı sözü ilə: ***Gər*** ağu virisən, biz ani yiyəlüm. (Suli) ***Gər*** İbni Səlam idi bəhanə, Məcnun idi bais ol fəğanə. (Füz.) ***Gər*** zahiri pirü natəvanəm, Batində pələngə həminanəm. (Məs.)

***Gər*** bağlayıcı sözü və baş cümlədə ***amma*** bağlayıcısı ilə**:** ***Gər*** gündüzə xəlq müştəriydi, ***Əmma*** mənə gecə xoştər idi. (Xət.)

***Gər*** bağlayıcı sözü və baş cümlədə ***leyk, vəli*** bağlayıcıları ilə: ***Gər*** zahirinizdə nəstə yoxdur, ***Leyk*** alıçalıq içində çoxdur. (Xət.) Bəzmi-vəslin məhrəmi ***gər*** verdi çoq həsrət mana, ***Leyk*** hər bir həsrət oldu hicrdə rahət mana. (Rəh.) ***Gər*** Hidayətin Nəvayi kimi rəngin sözləri Necə kim çoxdur, ***vəli*** demək gərək bir-bir cavab. (Hid.)

***Gər*** bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə: Mən sənə kəminə qul deməzmən, ***Gər*** Kavus ***isən*** bu gün, ***əgər*** Key. (Xət.)

***Hərçənd*** bağlayıcı sözü ilə: ***Hərçənd*** ad ilə mən Səbayəm, Üşşaq yoluna can fədayəm.(Xət) ***Hərçənd*** görür ədudən ülfət, Dutur Gülşa təriqi-külfət. (Məs.) ***Hərçənd*** yaman keçdi günüm, şükr ki keçdi.(Qövsi) ***Hərçənd*** müntəzir qalub baxdılar, namaz vaxtı ötdi, oyanmadı. («Şəhriyar»)

***Hərçənd*** bağlayıcı sözü və ***ki*** ədatı ilə: Şadiyi ki verdi bizə bu xanədə eşqün, ***Hərçənd ki*** qəhhar ola, xanə verələrmi? (QB) ***Hərçənd ki*** üşşaqı anun sağışa gəlməz, Cövr ilə cəfaya bəni təyin edər ol yar (QB) ***Hərçənd ki*** əsdi badi-qovğa, Yetişmədi şahə buyi-Vərqa. (Məs.)

***Hərçənd*** bağlayıcı sözü və baş cümlədə ***əmma*** bağlayıcısı ilə: Amma bu vaxt ***hərçənd*** vəziri-əzam, cümlə ümurlər ona müfəvvəzdir və muxtar həmvar, ***əmma*** öz işində həya mane olub danışmaz. («Şəhriyar») Bu model müasir dilimizdə işlək modeldir.

***İsə*** şərt ədatı ilə: Ağalar dedigin tutmaq gərəkdir, Ağu sunar ***isə*** yudmaq gərəkdir. (DƏH) Aləm xürrəm ***olur irsə***, aşiq gülməz. (QY) Cümlə aləm hurisi ***olur isən***, Olmaya meylim sana ***ölür isən***. (YM) Can cana ***irmədi isə***, tən tənə irdi, şükr ana! (QB) ***Kuhi-Qaf isən***, qılam zirü zəbər. (YM) Hər sözü böhtan ***isə,*** həqqa, bus öz böhtan deyil. (Füz.)

***İsə*** və ***da, də*** ədatları ilə: Ol ***bilməz isə də***, sən bilürsən. (Xət.)

***Nə qədər*** bağlayıcı sözü ilə: Sənə qurban olum, ***nə qədər*** fikir elədim, heç xatirimə bir zad gəlməz. (Şəhriyar») Gəldi, ***nə qədər*** səy elədi, oğlan durmadı. («Şəhriyar»)

Bu model də müasir dildə işlək modellərdəndir.

***Nə qədər*** bağlayıcı sözü və şərt ədatı ilə: ***Nə qədər yuca isən,*** düşmənin alu görmə.(Oğuz.) Tağ ***nə qədər yuca isə***, üzərindən yol aşar. (Oğuz) Ət ***nə qədər*** arıq ***isə***, ətmək üstündə yaraşır. (Oğuz.)

Sonrakı inkişaf mərhələsində bu cür cümlələr bir qədər də təkmilləşmişdir. Müasir dildə olduğu kimi, baş cümlədən əvvəl ***yenə*** sözü işlənməyə başlamışdır. ***Nə qədər*** sözü ilə yanaşı, ***hər nə qədər*** bağlayıcı sözü də istifadəyə qoşulmuşdur: ***Nə qədər qadir isək*** çəkmədə eşqin ələmin, ***Yenə*** yanında sənin şey degilüz, mədumuz. (Ruhi) ***Hər nə qədər fəqir isək***, hümmətimiz bülənd durur. (Ruhi)

***Nə qədər*** bağlayıcı sözü mənasında ***necə kim*** bağlayıcı sözü ilə: Tamam bir yil aradı ol nigarı, Kimsənədən xəbər almadı hərgiz, ***Necə kim*** istədi, bulmadı hərgiz.(DƏH) ***Necə kim*** istədilər, bulmadılar, Kimsədən heç bir xəbər bilmədilər. (MV)

***Necə ki*** bağlayıcı sözü: ***Necə ki*** yalvardı, çarə olmadı. (Suli)

Sonrakı inkişaf prosesində ***gərçi, əgərçi, gərçi – amma, gərçi – leyk, gərçi – vəli, əgərçi - vəli, vəleyk, leykin, gərçi ki, gərçi isə, gər, gər – amma, gər – leyk, gər – vəli, əgər – sa, -sə – isə*** arxaikləşib sıradan çıxmış, ***hərçənd, hərçənd ki, hərçənd – amma (ancaq, lakin), nə qədər*** bağlayıcı sözləri sabitləşmişdir. ***Əgər*** sözü şərt budaq cümləsini baş cümləyə bağlayan vasitə kimi məhdudlaşmışdır.

***Analitik-sintetik üsulla***. Qarşılaşdırma budaq cümləsinin bu üsulla baş cümləyə bağlanan növü daha işlək olmuşdur. Budaq cümlə baş cümləyə aşağıdakı vasitələrlə bağlanmışdır.

***Əgər, gər*** bağlayıcı sözləri və arzu şəkilçisi ilə: Adıdır dünyada qalan kişinin, ***Əgər*** ərkək ***ola*** və ***gər*** dişinin. (DƏH) Hüsnünə mən aşiqəm, ey dilbər, ***əgər*** sən mana ***Qılasan*** min gəz cəfa, dildar, səndən dönməzəm. (Nəs.)

***Əgər*** və ***gər*** bağlayıcı sözləri arzu şəkilçisi ilə sonrakı dövrlərdə də fəal şəkildə işlənmişdir: ***Gər*** bəni ***öldürəsən***, qapını tərk eyləməyəm. (Ham.) İrişəməz şol hümanın zülfinə Mürği-dil ***gər*** şahinü şahbaz ***ola***. (Həb.) Mən yerdə üzünü dinləməz mən, Fəryadın ***əgər yetə*** bəəflak. (Xət.) Ursa həcəri-mübarəkə baş, Yumşaya, ***əgər ola*** qara daş. (Füz.) Yüz bağі-İrəm ***gər ola***, yüz rövzeyi-gülşən, Heç vəchlə sizdən üzümü döndərə bilməm. (Vaqif) Sahibi-saqqal ***əgər*** yüz ***ola*** sahir sözlü, Ram olub baxmaz ona hiç bir ahu gözlü. (Vaqif)

***Əgər*** bağlayıcı sözü və şərt şəkilçisi ilə: Heç kimsə işi cahanda itmam Tapmas, ***əgər olsa*** xas, ***əgər*** am.(Əmani) Kişvəri eşqində öldisə, nə qəm, key şah, Yox əcəb Fərhad ***əgər can versə*** Şirin üstünə. (Kiş.) ***Əgər*** vadiyi-firqətdə ***ağarsə*** giryədən çeşmi, ***Yenə*** Yəqubi-dil ol Yusifi-Kənanə inciməz.(Ruhi)

Müasir ədəbi dilimizdə qarşılaşdırma budaq cümləsindən sonra, baş cümlənin əvvəlində ***yenə, indi, hələ*** tipli sözlər işlənir. Bu cəhətdən Ruhi Bağdadinin cümləsindəki ***yenə*** sözü tam müasirlik xüsusiyyətinə malikdir.

***Əgər*** bağlayıcı sözü, şərt şəkilçisi və ***da, də*** ədatı ilə. Bu forma müasir formalardandır: ***Yüz görsək də əgər*** özgə hərəmdən, Qurtulmanıx hərgiz fikrü aləmdən. (Vaqif)

XVII-XVIII əsrlər ədəbi dilində qarşılaşdırma budaq cümləsini baş cümləyə bağlayan vasitə kimi, şərt və arzu şəkilçiləri işləklik etibarilə fərqlidir. Məsihinin də, Vaqifin də dil faktları göstərir ki, arzu şəkilçisi bu məqamda daha fəal olmuşdur.

***Əgər*** bağlayıcı sözü və ***isə*** şərt ədatının ixtisar şəkli ilə: ***Əgər*** quş oluban ***uçar olursa***, Dənizlər aşıbvan ***keçər olursa***, Gəliməz bunda, ey xublar güzini, Keyik basmaz olur aslan izini. (DƏH)

***Gərçi*** bağlayıcı sözü və ***isə*** şərt ədatının ixtisar şəkli ilə: Dərunam ***gərçi*** surətdə bəni birun ***görürlərsə***, Həzaran var dəruni ki, bilürəm bən anı birun. (QB)

***Gər*** bağlayıcı sözü və ***isə*** şərt ədatının ixtisar şəkli ilə: Tanrı bilir bir qılını verməyim, ***Gər verərlərsə*** bana dünyaca mal. (YM) Əlin kəsərəm bu damənimdən***, Gər*** yaxan ***olursa*** yüzünüz çak. (Xət.) Dönməzəm eşqin yolundan, haq bilür, ***Gər tökərlərsə*** yerə qanım mənim. (Həq.)

Göründüyü kimi, bu cür cümlələrdə tərəflər asanlıqla inversiyaya uğraya bilmişdir. Belə inversiya halları müasir dildə də mövcuddur.

***Nə qədər*** bağlayıcı sözü və ***isə*** şərt ədatının şəkilçiləşmiş forması ilə: Bu gülü gör ki, rəngü çöhrəsinə ***Nə qədər al edirsə***, al irəməz.(Nəs.) ***Nə qədər*** fikri-dəqiq ***edər olursam*** bilünü, Qayətinə əql irməz ol miyanun, neyləyim. (Həb.)

***Nə qədər, nə qədər ki*** bağlayıcı sözləri və arzu şəkilçisi ilə. Bu quruluş nisbətən son mərhələdə müşahidə olunur; məs.:

***Nə qədər*** uymuş ***ola*** düşməni-dirin, yeydir. (Qövsi)
Rəhində sənin dil ***nə qədər ki düşə*** şərrə,
Tiğin ilə ***doğranə əgər*** bir neçə kərrə,
Torpağımı yellər ***dağıda*** bəhrlə bərrə,
Cümlə bədənim ruyi-zəmində ***ola zərrə***,
Könlüm o rüxi-mehrü münəvvərdən üzülməz. (Vaqif)

Paralel tərkib hissələrdə ***nə qədər*** bağlayıcı sözü sonrakı misrada ***əgər*** bağlayıcı sözü ilə əvəz olunmuşdur.

***Nə qədər ki*** bağlayıcı sözü həm arzu, həm də şərt şəkilçisi ilə birgə işlənmişdir: ***Nə qədər ki*** yüzə ***yetirsə*** yaşı Ta ki ***həkdən düşə, titrəyə*** başı, Qəmzəsinin heç cəlladı əksilməz. (Vaqif)

***Nə dənlü*** (nə cür) bağlayıcı sözü və ***isə*** ədatının ixtisar şəkli və ya şərt şəkilçisi ilə: Qar ***nə dənlü*** çoq ***yağsa,*** yaza qalmaz. (Oğuz.) Yılan ***nə dənlü*** əgri-bögri ***yürürsə,*** ini qapusına gəlicək toğrulur. (Oğuz.)

XV-XVI əsrlərdə qarşılaşdırma budaq cümləsini analitik-sintetik üsulla baş cümləyə bağlayan vasitələr xeyli zənginləşmişdir. Bu dövrə aid aşağıdakı yeni vasitələr görünməkdədir:

Müasir dildəki şərt şəkilçisi və ***da, də*** ədatı ***(-sa da, -sə də***) məqamında ***həm –sa*** bağlayıcı və şəkilçisindən istifadə olunmuşdur**:** Oğlan necə səbr pişə qılsın, Vər səbri ***həm olsa***, nişə qılsın? (Füz.)

Şərt şəkilçisi və ***amma*** bağlayıcısı ilə: Ömrümüz cövrilə keçdi dəviyi-sidq etmədik, ***Eyləsək*** dəvayi-sidq, isbata ***amma*** qadiriz. (Ruhi)

Şərt şəkilçisi və ***ancaq*** bağlayıcısı ilə: ***Olsam*** ğəmi-aləmə giriftar, ***Ancaq*** sən idin ənisü ğəmxar. (Füz.)

***İsə*** şərt ədatının ixtisar şəkli və ***dəxi*** ədatı ilə: ***Arslan olursa dəxi***, bir kişi bir şəhərə neyləsün? (Oğuz.)

***İsə*** şərt ədatının ixtisar şəkli və ***da, də*** ədatı ilə: Xəti ***gəlürsə də***, sən ləli-yari əm, Ruhi. (Ruhi)

Şərt şəkilçisi və ***da, də*** ədatı ilə: İyəvən qız ərə varmaz, ***varırsa da,*** bəxt bulmaz.(Oğuz.) Üzümü ***qoysam da*** üzünün üstə, Öpübən dişlərəm, yeyən deyiləm. (Qurbani) Baş alıb gedirəm sizin mahaldan, ***Axtarsan da*** bu Qurbani tapılmaz. (Qurbani) Küsülü ***olsan da***, səni dindirrəm. (Qurbani)

Bu model qarşılaşdırma budaq cümləsinin müasir ədəbi dilimizdə ən işlək modelidir.

Ədat bəzən xəbərdən əvvəl işlənmişdir: Tuzsız aşa şəkər ***də qosan***, tadı gəlməz. (Oğuz.)

Şərt şəkilçisi, ***dəxi*** və ***ki*** ədatları ilə: ***Öldürsə dəxi ki,*** çəkməzəm qəm. (Xət.)

***Nə*** bağlayıcı sözü və xəbərin təkrarı ilə (birinci tərkibdə – ***isə***): Qoy ***nə derlərsə-desinlər***, ruxi-ziba sevəriz. (Rəh.)

***Hərçənd*** bağlayıcı sözü və arzu şəkilçisi ilə: ***Hərçənd*** kişi ***düzə*** vəsilə, Təğyir edəməz qəzanı hiylə. (Məs.)

Şərt şəkilçisi və ***belə*** ədatı ilə: Üç əlif bir eyn ilə ***gəlsə belə***, Müstəid arif gərək ani bilə. (Nəs.)

Keçən müddət ərzində qarşılaşdırma budaq cümləsinin analitik-sintetik üsulunda da xeyli dəyişiklik əmələ gəlmişdir. ***Əgər – -a,-ə*** (arzu forması) tam məhdudlaşmış, ***əgər - -sa,-sə*** və ***əgər – isə (-sa,-sə)*** formaları şərt budaq cümləsinin əlamətləri kimi normalaşmışdır. ***Gər - -sa,-sə***, ***gər – isə, həm - -sa,-sə,*** şərt şəkilçisi – ***amma (ancaq),*** şərt şəkilçisi – ***dəxi, hərçənd – -a,-ə*** məhdudlaşmış, ***nə qədər ki*** bağlayıcı sözü zaman budaq cümləsində sabitləşmişdir; ***-sa da,-sə də,-sa belə,-sə belə*** formaları tam üstün mövqe qazanmışdır.

## NƏTİCƏ BUDAQ CÜMLƏSİ

Nəticə budaq cümləsi baş cümlədən doğan nəticəni bildirir. Müasir dildə birtiplidir: baş cümlə əvvəl, budaq cümlə sonra işlənir. Tarixi abidələrin dilində də belədir və tez-tez müşahidə olunur.

«**Kitabi-Dədə Qorqud**»un dilində budaq cümlənin bu növü baş cümlədən sonra işlənərək, ona aşağıdakı vasitələrlə bağlanmışdır.

Baş cümlədə ***nə*** sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır: ***Noldun***, böylə bunaldın? (57)

Baş cümlədə müxtəlif vəzifələrdə ***nə*** sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***kim*** və ya ***ki*** bağlayıcısı ilə bağlanmışdır; məsələn: Mərə, Əzrayil dedügüniz ***nə*** kişidir ***kim***, adamın canın alur? (79) Bənim suçum ***nə oldı kim***, qara otağa qondurdı? Suçımız ***nəydi ki,*** yağmada bilə olmadıq?(123) Bir canda ***nə*** var ***ki,*** sana qıyamamışlar? (83)

Birinci misalın baş cümləsində ***nə*** sözü təyin, ikinci, üçüncü misallarda xəbər, son misalda mübtəda vəzifəsindədir.

Budaq cümlə baş cümləyə ***anunçun*** (müasir ədəbi dilimizdə *onun üçün*) bağlayıcısı ilə bağlanmışdır. Göründüyü kimi, bu bağlayıcıda yalnız fonetik dəyişiklik olmuşdur; məs.: Beş aqçaluq əlüfəcilər yoldaş etdin, ***anunçun*** ol qələyi sən alımadun.(95)

Baş cümlədə ***şöylə*** əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***kim*** bağlayıcısı ilə bağlanmışdır: ***Şöylə*** nərə urdı, hayqırdı ***kim***, tağ və taş yanguləndi.(101)

Budaq cümlə baş cümləyə ***-mi*** sual şəkilçisi və ***ki*** bağlayıcısı ilə bağlanmışdır (***-mi*** sual şəkilçisi baş cümlənin xəbərində işlənmişdir): Mərə dəlü ozan, mən ***eyiblümiyəm ki,*** mana eyib qoşarsan?(65) Məndən dəli, məndən gücli ər ***varmıdır ki,*** çıqa mənümlə savaşa? (79)

Budaq cümlə baş cümləyə ***kim*** bağlayıcısı ilə bağlanmışdır: Qara polad uz qılıcım yoq ***kim,*** qarvaşduğı dəm eki biçəydim. (89)

Misallar aydın şəkildə göstərir ki, «Dədə Qorqud»un dilində arxaik ***şöylə*** və ***kim*** sözlərini nəzərə almasaq, nəticə budaq cümləsi müasir modelə tam müvafiq işlənmişdir.

XIII-XIV və sonrakı əsrlərin ədəbi dilində nəticə budaq cümləsini baş cümləyə bağlayan vasitələr, başlıca olaraq, aşağıdakılardan ibarətdir.

1.Baş cümlədə müxtəlif cümlə üzvü vəzifələrində ***nə*** sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə müxtəlif vasitələrlə bağlanmışdır.

a) baş cümlədə müxtəlif vəzifələrdə sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır; məs.: ***Noldun*** axı, bənə sən kin eylədin? (Suli) ***Nə*** şərabdır ömür verdi xərabə. (DƏH) Əhsəni-surətdə, yarəb, sən ***nə*** ziba çöhrəsən, Hurilər oldu qulun, xublar qamu fərraşınız? (Nəs.) Suçum ***nədir,*** əcəb ***netdim, nə qıldım***, Qara bağrum bənim qərq oldu qanə? (DƏH) Sən ***nə*** kafirsin yoluna dinü iman dökilür. (QB)

Bu misallarda ***nə*** sözü təyin və xəbər vəzifələrində işlənmiş, budaq cümlələr baş cümləyə intonasiya ilə bağlanmışdır. Bu model sonralar da davam etmişdir; məs.: Bu səndə ***nə*** oddur, ey bəlakeş, Oldu nəfəsin tamami-atəş? (Məs.)

b)baş cümlədə müxtəlif vəzifələrdə sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***kim*** bağlayıcısı ilə bağlanmışdır; məs.: Büt ***nədür kim***, kişi anə yüz ürə? (Suli) Bən ***nə qıldum*** bunlarə ***kim,*** qəsd idər. (Suli) Ay əcəb, ***nə qıldı*** ol miskin səna ***Kim***, ani zindanə urdin bigüman? (Suli) ***Neylədim kim***, Vərqa vüslətsiz bana? (YM) Yarəb, zəmanə həqqinə mən ***neylədim kim***, ol Məndən cəfavü cövr ilə ayırdı yarimi? (Nəs.) Diyə verdüm bir küp altunı sana, ***Neylədin kim***, dilənüb gəldin bana? (MV) Yarəb, ***nə*** şəmin nuridir gülgün yanağın, ey qəmər, ***Kim,*** nöh fələk pərvanədir şol surətin ənvarinə? (Nəs.) Sən ***nə*** cansın ***kim,*** ayağun tozına can dökilür? (QB) Bu ***nə*** lütf olur, ***nə*** əxlaqü kərəm ***Kim***, qatında pulca yoxdur dərdi-rəm? (YM) Gülbəşəkər ***nə*** nəsnədir ***kim***, irişə məqalinə? (Nəs.) Can ***nədir kim***, qəsdi-can etmək dilərsən, etməgil! (Nəs.) Halınız ***nə kim,*** qara ton geydiniz? (YM) Ay ilə gün ***nədir kim***, ol düşməyə xaki-payinə? (Nəs.) ***Noldu,*** ey münkir, sana ***kim,*** qaynadı qanın yenə? (Nəs.)

Bu misallarda ***nə*** sözü xəbər və təyin vəzifələrində işlənmiş, ***kim*** bağlayıcılı nəticə budaq cümləsinin yaranmasına səbəb olmuşdur.

c) baş cümlədə müxtəlif vəzifələrdə sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır; məs.: Gögdən ***nə yağdı ki***, yer anı tutmadı? (Oğuz.) Sən ***nə*** layiqsin ***ki,*** məbud olasin? (Suli) ***Nə*** güldür bilməzəm, yarəb, ***ki,*** pürçin qondu pürçinə. (Nəs.) Nigarına ***nə*** halətdür ***ki,*** bilməzüz özümüzi.(QB) ***Nə*** şahsın ***ki***, bənüm tək həzar sana qulam? (QB) Bu dərdin de ***nədür, nəyə*** sataşdın ***Ki,*** bu eşq oduna yanıb tutaşdın? (DƏH) Adəm ***nədir ki***, içməsin ol verdigin şərab? (Saib)

XV-XVI əsrlərin poeziya dilində nəticə budaq cümləsini baş cümləyə bağlayan vasitələr daha da çoxalmışdır. Bu dövrdə intonasiya ilə baş cümləyə bağlanan nəticə budaq cümlələri nəzəri xüsusi cəlb edir. Budaq cümlə baş cümləyə sual əvəzliyinin köməyi olmadan, intonasiya ilə bağlanmışdır: *Qız deyilsən, cahıl oğlan sevəsən*. (Qurbani) Bəzən baş cümlədə ***nə*** sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır: Mucib ***nə idi*** məni unutdun, Tərkim qılıb özgə yar tutdun? (Füz.)

***Nə*** sual əvəzliyi olan baş cümlələrin ***kim*** və ***ki*** bağlayıcıları ilə budaq cümlə tələb etdiyi hallar daha fəaldır.

XVII-XVIII əsrlərin ədəbi dilində xəlqilik, xalq dilinə yaxınlıq daha da artmışdır. Bunu ***nə*** sual əvəzliyinin köməkçi fellərlə birlikdə (***neylədim, netdim, noldu, nə olub, nə qıldı*** şəkillərində) xəbər vəzifəsində işləndiyi və budaq cümlənin baş cümləyə intonasiya ilə bağlandığı aşağıdakı cümlələr də aydın göstərir: ***Netdim*** məni dilfikir qıldın, Səddi-rəhi-vəsli-yar qıldın? (Məs.) ***Neyləmişdi*** Vaqif sənə, a zalım, Onu qəm əlində payimal etdin? (Vaqif) Səbəb ***noldu,*** birdən məni tərk etdin? (Vaqif) Bilməm ***nə olub***, sevgili yar yanimə gəlməz. (Vaqif)

Bu misalların hamısında budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır. İntonasiya ilə qurulan bu cür cümlələrdə, təbii ki, vəznin də tələbləri əsas olmuşdur. Lakin ümumən bunlar göstərir ki, poeziya ustalarımız milli inkişaf dövründə canlı xalq danışıq dilinə daha çox üstünlük verməli olmuşlar.

***Kim*** bağlayıcısı ilə: ***Nə*** cinsdir əslin, ey bəlakeş, ***Kim,*** abihəyatın oldu atəş? (Füz.) ***Nə*** sehr qılırsan, ey səhərxiz, ***Kim,*** atəşin abdən olur tiz? (Füz.) ***Nə*** bim ilə hifzi-gövhər etdin ***Kim***, bəsteyi-əqdi-şövhər etdin? (Füz.) ***Nə*** itdir o ***kim***, özün der adəm? (Xət.) Bilməzəm ***noldu*** yenə ***kim***, yar sormaz halımı. (Kiş.) Sən ***nə etdin kim***, qoyarsan bu qədər minnət mana? (Rəh.) Bu rəzmdə bilməzəm ***nədir*** hal ***Kim,*** fəthimə nüsrət eylər ehmal? (Füz.)

***Ki*** bağlayıcısı ilə: Zahidin pəndi ***nə*** sud eylər ***ki,*** çeşmi-məsti Turmıyub hər dəm bana rahi-məlamət göstərir.(Ruhi) Yarəb, ***nə*** nur imiş ***ki,*** məni yaxdı narına? Yarəb, ***nə*** zat imiş ***ki***, məni çəkdi darına? (Həq.) ***Nə*** rövşən şəmsi-dinü mehri-cansan ***Ki***, tutdu aləmi ənvarın, ey dust.(Həb.) Bu ***nə*** dindür, bu ***nə*** ayindür ***ki,*** cadu gözlərin Aşiqi-biçarəyi öldürməmişkən dandılar! (Rəh.) Cürmümüz

***noldu ki,*** bizdən eylədin bizarlıq? (Füz.) Eşqilə ***nedim ki***, dağə düşdüm.(Xət.) ***Noldu ki,*** nişatmənd olubsan? (Füz.)

Misallarda ***nə*** sözü təyin və xəbər vəzifələrində işlənmişdir. Müasir dildə də bu forma üstünlük təşkil edir.

***Nən (nəyin)*** şəklində mübtədanın bir komponenti kimi: ***Nən*** var idi ***ki,*** əlindən aldı, Nə mərtəbədən aşağı saldı? (Füz.)

«Şəhriyar» dastanında əksərən ***ki*** bağlayıcısından istifadə edilmiş, bəzi hallarda şeirdə ***kim*** işlənmişdir; məs.: Ey camaat, buna ***nə*** gəldi ***ki***, bu hala düşübdür? («Şəhriyar») Bilməm ***nədür*** qərəzin ***ki,*** mənə bu qədər cəfanı rəva görürsən? («Şəhriyar»)

2.Baş cümlədə müxtəlif vəzifələrdə ***kim*** sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***kim*** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır:

***Kim*** bağlayıcısı ilə: Şol qədəhi ***kim*** içə ***kim***, varə bu halə düşməyə? (Nəs.)

***Ki*** bağlayıcısı ilə: Bu ***kimdür ki,*** bənə çağırur? (Suli) ***Kimə*** bənzərsən ey sən, mahpeykər ***Ki,*** aləm bəndi-zindan oldu sənsiz. (Nəs.) Bən ***kim olam ki,*** dəprədəm bir qılını gisusun, Başın əlinə alıban ol iş içün səba gərək. (QB) Dərdə müştaq olmayan ***kimdir ki,*** dərman istəyə? (Nəs.)

Bu məqamda ***ki*** bağlayıcısının üstünlüyü, görünür, şairlərin iki ***kim*** sözünün (əvəzlik və bağlayıcı şəklində) ahəngi pozmasına, bəzən anlaşılmazlıq yaratmasına imkan verməmək meylindən də irəli gəlmişdir. Misallarda ***kim*** sözü mübtəda, tamamlıq, xəbər (***kim olam, kimdir***) vəzifələrində işlənmişdir.

Bəzən baş cümlədə həm ***kim,*** həm də ***nə*** əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: Görəlim ***kimdürür, nə*** xocadır ol ***Ki***, mənim eşqimə çəkmiş dəlim yol. (DƏH)

Sonrakı mərhələdə də ***kim*** sual əvəzliyinin işləndiyi hallarda budaq cümlə intonasiya və ya ***kim*** bağlayıcısı ilə baş cümləyə bağlanmışdır: ***Kimi*** gördük, qiyamətədək gülə? (Xət.) ***Kimdə*** gördü dərd ***kim,*** ol dərdə dərman etmədi? (Füz.) Dustlar, çaki-giribanım görüb eyb eyləmən Kol gülü ***kim*** gördü ***kim***, çaki-giriban etmədi! (Füz.)

3.Baş cümlədə ***nitə*** əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: ***Nitə*** rəva görür heç anı barı ***Ki,*** bir şahin ola qarqa şikarı? (DƏH)

4.Baş cümlədə ***necə*** sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı (bəzən də intonasiya) ilə bağlanmışdır: Bu ***necə*** hüsnü surətdir ***ki,*** nur ehsan edər ayə? (Nəs.) ***Necə*** günəşsən, ey qəmər**,** ***ki,*** sana Ta əbəd zərrəcə zəval irəməz? (Nəs.) ***Necə*** verdi ana daxi simü zər ***Kim,*** yayıldı Bəryə xəlqinə xəbər? (YM) ***Necə*** aşiq olasan, bu sini bir açuban görməyəsən? (YM) Sən ***necə*** sitarəsən ***ki,*** hər şəb Apardı ğəmin gözümdən uyğu? (Xət.) Bu ***necə*** adətdir, ***necə*** ərkandır, Deməzsən filanı bizə mehmandır?. (Vaqif) Oğrular kimi ***necə*** qaçdunız ***ki***, mən bilmədim. («Şəhriyar»)

5.Baş cümlədə ***qanı, qanda*** sual əvəzlikləri işlənmiş, budaq cümlə baş cümləyə ***kim*** bağlayıcısı ilə bağlanmışdır: Bir dəxi ***qanı kim***, görüm ol mahi-təmami? (MV) Dedilər bunun kibi xub ***qanda*** var ***Kim***, bizim əlimizə girdi şikar?(MV) ***Qanı*** taqət ***kim,*** geri əqlin verə? (YM)

Füzuli mərhələsində ***qanı*** sual əvəzliyinin ***xanı, xansı*** şəkillərində işləndiyi də müşahidə olunur: …***xanı*** əcəl ***kim***, qıla bir yana məni? (Hid.) ***Xanı*** dövlət ***kim,*** əyağ içib əyağını öpəm? (Kiş.) ***Xansı*** dağın laləsisən, ey bənəfşə xətlü ***kim***, Sünbülün buyindən olur bağ içində susəni? (Hid.)

Daha sonrakı mərhələdə, az da olsa, yenidən arxaik element kimi ***qanı*** sözünə müraciət edilmişdir: De huş ***qanı ki,*** söyləyim raz! (Məs.)

6.Baş cümlədə ***ol qədər*** zərfi işlənmiş, budaq cümlə baş cümləyə intonasiya və ya ***kim*** bağlayıcısı ilə bağlanmışdır: ***Ol qədər*** çıqdı cadu gögdən yana, Görünürdü cümlə bir xirmən ona. (MV) ***Ol qədər*** yaş tökdüm iki gözümdən, Dərya tək axıban çaya dönmüşəm.(Vaqif) İrsal edəm ***ol qədər*** zərü sim ***Kim,*** düşə zəminə lərzədən bim.(Məs.) Səndən ayrı ***ol qədər*** qan ağladım ***kim,*** dəmbədəm Yaşə batıb, islanıb səbrü qərarın kağızı. (Vaqif)

7.Baş cümlədə ***öylə***, ***eylə, oylə, şöylə, bir dürlü*** əvəzlikləri işlənmiş, budaq cümlə baş cümləyə ***kim, ki*** bağlayıcıları, bəzən də intonasiya ilə bağlanmışdır: ***Şöylə*** eylə ***ki,*** nə ət yansun, nə şiş göynəsün. (Oğuz.) Anə ***bir dürlü*** dəxi iş idəlüm ***Kim,*** duzəğə düşə ol can parəsi. (Suli) Sultana xoş gəlmədi cadu sözü, ***Eylə*** çakar, qanilə doldu gözi. (MV) Çəkdi qılıc, ***öylə*** çaldı ortara, Eylədi ol cadunu iki para. (MV) Könlümdəki eşqün dənizi ***şöylə*** taşar ***kim***, Bu gözlərümün cəfəri təyyar ola bu gün. (QB) Saçınun hər qılı içün bən ***eylə*** oynaram can ***ki*** Fələklər derlər əhsəntüm, mələklər

afərin söylər. (QB) Könüldə hicri ***şöylə*** urdı odın ***ki,*** gökdədür sitarə hər şərara. (QB) Həsrət odu ***şöylə*** yaxdı canımı ***Kim***, damarda qalmadı qanım bənim. (YM) ***Şöylə*** zari qıldı Vərqə ol zaman ***kim,*** qamu xəlqü zəminü asiman Ol dəm anınla ağlaşdılar. (YM) Zar ağladı ***öylə kim***, həm ol dəm Ahı oduna yığıldı aləm.(Füz.) Bərhəmzədə qıldı ***eylə*** ani, Az qaldı nəfəsdən uça cani. (Məs.) Əmrə verəm ***eylə*** guşmali, Unuda cənub ilə şimali. (Məs.)

8.Baş cümlədə ***anca*** zərfi işlənmiş, budaq cümlə baş cümləyə intonasiya və ***kim*** bağlayıcısı ilə bağlanmışdır: ***Anca*** yalvardum, aman verdi bana. (MV) ***Ancə*** verdi ***kim***, qəni oldu Hilal. (YM) ***Ancə*** ehsan qıldı ***kim***, oldu qəni.(YM)

Füzuli mərhələsində ***anca*** zərfi artıq ***onca*** kimi qeydə alınmışdır: ***Onca*** dedi ona həm ğəmi-dil ***Kim***, qıldı onu həm ünsə mail. (Füz.) Ah, ol pəridən ayrılalı ***oncə*** ağladım, gözüm yaşıyla sellər axar bağbanlara. (Fəz.)

9.Baş cümlədə ***bir*** sözü işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: ***Bir*** mey mənə sun ***ki***, məstü mədhuş, Daim özümü qılam fəramuş.(Füz.) ***Bir*** gül degiləm mən, ey həbibim, Hər gün ola tazə əndəlibim.(Məs.)

Son misal təyin budaq cümləli tabeli mürəkkəb cümləyə də oxşayır, lakin məzmununa görə nəticə budaq cümləlidir. Müəllif – Məsihi əndəlibi olan güldən danışmır, demək istəyir ki, haqqında danışılan obraz, ümumiyyətlə, gül deyil ki, onun əndəlibi də ola.

10. ***Nə əcəb*** bağlayıcı sözü və ***kim*** bağlayıcısı ilə: ***Nə əcəb*** qulmuş işbu qul ***Kim***, bənüm xəzinəm buna qiymət dəgül. (Suli)

11.Baş cümlədə ***–mı,-mi, -mü,-mü*** sual ədatı işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: Cahanda ***yoxmudur*** bir şahzadə ***Ki,*** verirlər məni bir xoryadə? (DƏH)

Füzuli mərhələsində baş cümlədə ***–mı*** sual ədatı daha da fəallaşmışdır. Füzuli bu növ nəticə budaq cümlələri işlətməyə daha çox meyilli olmuşdur: ***Tənhalığamı*** gətirmədin tab ***Kim***, elədin arizuyi-həmxab? (Füz.) ***İncitdimi*** dərdi-dil mizacın ***Kim***, oldu təbibə ehtiyacın? (Füz.) ***Pəjmürdəmi*** oldu sərvi-dilcu ***Kim***, cəhdlə vermək istədin su? (Füz.) ***Bədxahmı*** etdi qəsdi-gülzar ***Kim***, böylə uruldu rəxneyi-xar? (Füz.) ***Yaxşımıdır*** eyləmək yaman ad ***Kim***, qılmaya kimsə xeyr ilə yad? (Füz.) Eşq əhlinə ***aşinamısan*** sən ***Kim***, aşiqi-xəstədən gəlirsən? (Xət.)

Bütün hallarda budaq cümlə baş cümləyə ***kim*** bağlayıcısı ilə bağlanmış, bağlayıcı sanki daha da fəallaşmışdır.

12.Baş cümlədə ***məgər*** sual ədatı işlənmiş, budaq cümlə baş cümləyə yalnız intonasiya ilə, yaxud da ***ki*** bağlayıcısı ilə bağlanmışdır: ***Məgər*** əğyar ilə yar oldı ol yar, Bizümlə razını az edər, oxşar? (QB) ***Məgər*** novruz gəlmişdür müsəvvər ***Ki***, olmuşdur cahan yenə münəvvər? (QB)

Bu model sonrakı dövrlərdə də fəal şəkildə davam etmişdir: Əqrəbdə idi bu gün ***məgər*** mah ***Ketdin*** bu yana əziməti-rah? (Füz.) Yar rəhm etdi ***məgər*** naləvü əfğanimizə ***Ki,*** qədəm basdı bu gün külbeyi-ehzanimizə? (Füz.) Məst etdi ***məgər*** səni bu badə ***Kim***, bəzmdə durmadın ziyadə? (Füz.) Gül ərusun sübhdən bülbül nikah etmiş ***məgər Kim***, yüzün yaşıl duvaq altında pünhan eyləmiş. (Şahi) Məndin döndü ***məgər*** məzacın, Bu fikr ilə eylədin əlacın? (Məs.) Səvadi namənin, ey dil, ***məgər*** zülmati-heyvandır ***Ki***, ruhum Xızr tək ondan bəsa kəsbi-kamal etdi? (Vaqif) Ay oğlan, ***məgər*** sənin ananın bağrı daş idi ***ki***, sənin tək cavanı qoydu ki, çölə çıxsın? («Şəhriyar»)

Bəzən baş cümlədə ***məgər*** ədatı ***ki*** ədatı ilə birgə işlənmişdir: Sən ***məgər ki*** yaşıl başlı sonasan, Səndə tər cığalı tellər görünür?! (Vaqif)

13.Baş cümlədə həm ***məgər***, həm də ***-mı*** sual ədatları işlənmiş, budaq cümlə baş cümləyə ***anın üçün*** bağlayıcısı ilə bağlanmışdır: ***Məgər*** bu kişilər ***xırsızmı*** *ola*, ***Anın üçün*** düşüb gedər bu yola? (DƏH)

Füzuli mərhələsində ***anun üçün***, ***onunçun,*** *anun çü* bağlayıcıları daha da fəal görünür: Biəqlü zəbanü bibəsərsən, ***Anun çü*** müdam xaksərsən.(Xət.) Gözəllikdə kimsə yoxdu təhrində, ***Onunçun*** çəkərəm yarın qəhrin də. (Qurbani) Sünbülün vəsfin səbadən eşidübdürür ***məgər, Anın üçün*** yelə verür xirmənin gülşəndə gül. (Həb.)

Ə.Şükürlü yazır: «***Anın içün//anınçün*** tabeli mürəkkəb cümlə əmələ gətirən ən qədim mürəkkəb bağlayıcı sözlərdən biridir. Ehtimal ki, bu bağlayıcıdan anatürk inkişafı dövründə də istifadə olunmuşdur. Təkcə bunu demək kifayətdir ki, ***ol*** işarə əvəzliyinin ***üçün*** qoşması ilə birləşməsi nəticəsində əmələ gələn bu bağlayıcı

vasitəsinə qədim türk yazılı abidələrində və demək olar ki, bütün müasir türk dillərində rast gəlmək mümkündür»[1]

Bu bağlayıcı (***anın üçün/anun içün//anunçün*** şəkillərində) ədatlar olmadan da budaq cümləni baş cümləyə bağlamışdır: Faş eylədim cahanda ənəlhəq rumuzini, Doğru xəbərdir*, **anın üçün*** darə düşmüşəm.(Nəs.) Yüzinlə gülşən içində yanar gülün cigəri, ***Anunçün*** ana səba şəbnəmün suyın rəş edər. (QB) Özini mur gördi eşq içində, ***Anunçün*** bir Süleymana irişdi. (QB) Canan qatında cana məhəl yox ***anun içün*** Bir qətrə suyı dil apara birə sayamazam. (QB) Kimsənə munu fəhm etməz, ***anın içün*** həlakiz biz. (Rəh.)

14.Budaq cümlə baş cümləyə ***kim*** bağlayıcısı ilə bağlanmışdır: Nə ikən yavuz ol ***kim***, asılasan, nə ikən yavaş ol ***kim***, basılasan. (Oğuz.)

15.Budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: İraqdan göstərin anı görəyim ***Ki,*** bən andan sizə xəbər verəyim. (DƏH) Qıza bir gün irişdi əmri-təqdir ***Ki,*** bozuldu ***bu üzdən*** rəyitədbir. (DƏH)

Nəticə budaq cümləsinin aid olduğu baş cümlə səbəb bildirir. Bu sonrakı misalda baş cümlədəki səbəbi xatırlatmaq üçün «nəticədə» mənasında *bu üzdən* sözləri də işlənmişdir.

Sonrakı mərhələdə budaq cümlənin bu quruluş forması fəal şəkildə işlənməkdə davam etmişdir: Leylini sən eylədin pərivəş ***Kim,*** canə cəmali urdu atəş.(Füz.) Avçı deyiləm ***ki,*** düşəm izinə. (Xət.) Heç kim yox idi ***kim,*** ola mane.(Xət.) Həq duta əlin ***ki,*** dutasan əl.(Xət.)

16.Budaq cümlə baş cümləyə müasir dildəki *odur ki* bağlayıcısının sinonimi olan *oldurur ki* bağlayıcısı ilə bağlanmışdır; məs: Cəhanda eşq odına girməyən fərağatdur, Könül ki sözə düşə, ***oldurur ki*** suza düşər. (QB) Başdurur sərmayəvü səni sevənlər assısı, ***Oldurur ki*** yoluna eşq ilə sərmayə verür. (QB)

17.Budaq cümlə baş cümləyə ***ol səbəbdən*** (***ona görə*** mənasında) bağlayıcısı ilə bağlanmışdır: Məndən qeyri bəlkə bir sevgisi var, ***Ol səbəbdən*** salmır o yada məni? (Qurbani)

---

[1] Ə.Şükürlü.Azərbaycan dilinin tarixi qrammatikası (zərf və köməkçi nitq hissələri),Bakı, APİ nəşri, 1981, c.81.

Keçən minillik ərzində işlənən bir sıra bağlayıcı vasitələr tədricən məhdudlaşmış və xüsusən son bir neçə əsrdə sıradan çıxmışdır. Bir qismi şivələrdə öz izlərini saxlamışdır.

Nəticə budaq cümləli tabeli mürəkkəb cümlələrin ilkin qurulma vasitəsi – intonasiya tarix boyu dilimizə xidmət etmişdir. Baş cümlədə ***qanı – xanı – xansı, nitə*** sual əvəzlikləri, ***öylə***, ***oylə, şöylə, bir dürlü, anca*** kimi əvəzliklər sıradan çıxmış, ***kim*** bağlayıcısı öz yerini ***ki*** bağlayıcısına vermiş, sual əvəzlikləri çoxalmış, sual ədatları fəaliyyətini genişləndirmişdir. ***Anunçün, ol, oldurur*** tipli sözlərdə fonetik dəyişiklik olmuş, çox qədim dövrlərdən formalaşmış nəticə budaq cümləli tabeli mürəkkəb cümlələr uzun səlisləşmə və təkmilləşmə yolu keçmişdir.

## KƏMİYYƏT BUDAQ CÜMLƏSİ

Kəmiyyət budaq cümləsi abidələrin dilində nisbətən az işlənən budaq cümlə növlərindəndir. Budaq cümlə baş cümlədəki hərəkət və ya əlamətin miqdarını bildirir. Budaq cümlənin bu növü dərəcə budaq cümləsinə mənaca çox yaxındır.

Kəmiyyət budaq cümləsinin bir qismi baş cümlədən əvvəl işlənərək ona ***nə qədər, hər nə qədər, hər nə qədər kim, nə miqdar*** bağlayıcı sözləri ilə bağlanmışdır. Budaq cümlənin xəbərində əksərən şərt şəkilçisi və ya ***isə*** şərt ədatı işlənmişdir. Baş cümlədə ***ol qədər, o qədər*** sözləri təsəvvür edilir. Məs.:

***Nə qədər*** gərək ***isə,*** alın götürün. (Suli) ***Nə qədər*** bunlar ***dilər isə***, virələr. (Suli) ***Hər nə qədər kim*** anın könlü dilər, yanaram. (Nəs.) Cəfaləri ***nə qədər acı isə***, yeyrəkdir Anın acısı rəqibin yağ ilə balından. (Nəs.) And olsun allaha, ***nə qədər əlimdən gəlsə,*** ata və ananı incitmənəm.(«Şəhriyar») ***Nə qədər əlindən gəlsə***, təcilinə səy et. («Şəhriyar») – ***Nə qədər*** əlindən gəl***sə***, təcilinə (***o qədər***) səy et – Təcilinə ***əlindən gəldiyi qədər*** səy et. ***Nə qədər söyləsəm*** sənin şanına, Yaraşar müxəmməs, qəzəl, sevdigim! (Vaqif)

Bəzən baş cümlədə qarşılıq bildirən söz də işlənmişdir: Kim ***nə miqdar*** olsa, əhlin eylər ***ol miqdar*** söz.(Füz.) Sərdəftəri-əhli ruzigarəm, ***Hər necə*** desən, ***yüz onca*** varəm.(Füz.)

Budaq cümlənin baş cümlədən sonra işləndiyi hallar da var. Baş cümlədə ***anca, ol qədər, o qədər*** qəlib sözləri işlənmiş, budaq cümlə baş cümləyə intonasiya, ***kim*** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır:

***Anca*** axa gərək gözümdən yaş ***ki,*** cəhan toptolu hübab olısar. (QB) Yaxdıvü kül etdi odun, şahum, bənüm varlığumı ***Anca*** axıdam göz yaşın ***kim*** olan yaş ara.(QB) Siz bilürsiz, mənim ***ol qədər*** dövlətim var, on oğlum olsa, bəs ola. («Şəhriyar») Fəqir-füqəralərə ***ol qədər*** nəzir və ehsan verüldi ***ki,*** tamam əğniya oldular. («Şəhriyar») ***O qədər*** nəqd və cins və əmval və dəvağ siyahı olundu ki, hesabi-dəftəri müşəxxəs olmağı müşkil oldu.(«Şəhriyar») ***Onca*** qılayın sənə rəvan gənc Kim, yer üzün eyləyə nəhan gənc. (Vaqif)

Bu cümlələrdə dərəcə və nəticə çalarları aydın görünməkdədir.

Abidələrin dilində az təsadüf edilməsinə baxmayaraq, kəmiyyət budaq cümləsinin müasir struktur tipləri çox qədim dövrlərdən formalaşmışdır.

***Qoşulma budaq cümləsi haqqında.*** Müasir ədəbi dilimizin sintaksisindən bəhs olunan kitablarda «qoşulma budaq cümləsi» adı ilə başqa bir budaq cümlə növü də verilir[1]. Ə.Abdullayev «qoşulma» sözünü rus dilindəki *присоединительное* sözünün müqabilində işlətmişdir[2]. Əsas məzmununa görə ya baş cümlədəki fikrə münasibət bildirən, yaxud da baş cümlənin məzmunu ilə bağlı əlavə məlumat verən cümlə kimi izah olunur[3]. Əsas əlaməti baş cümlədən sonra gələn budaq cümlənin əvvəlində işlənən ***bu da, o da, bunu da, onu da, bunları da, onları da, buna da, ona da*** tipli sözlər hesab olunur. Ə.Abdullayev bu cür misallar vermişdir: məs.: *Yükünü özü boşaldan bu avtomobildə hidrotexniki nəqliyyat qurğu-*

---

[1] Н.З.Гаджиева. Придаточные относительные предложения, «Исследования по сравнительной грамматике тюркских языков», III, Синтаксис, 1961, с.219-220; Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, «Maarif», 1974, s.345-349; Г.Казымов. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, «Ünsiyyət», 2000, s.403-405 və s.

[2] Ə.Abdullayev, göstərilən əsəri, s.345.

[3] Yenə orada.

*su qurulmuşdur* ***ki, bu da*** *sürücünün işini asanlaşdırır. Bəndalının sözlərini təkcə bir adam eşitmirdi* ***ki, o da*** *Məsmə idi.*

Dilimizdə bu cür ***ki*** bağlayıcısız cümlələr də işlənir: *Bir canım var,* ***o da*** *sizə qurbandır.*

Biz də bir vaxt bunları qəbul etmiş və dərslikdə qeyd etmişik. Lakin hiss olunur ki, bunlar ayrı bir budaq cümlə növü deyil, mübtəda, tamamlıq və təyin budaq cümlələrinin prepozitiv növüdür. Sonra gələn tərkibdəki ***bu da, o da, bunu da, onu da…*** sözləri budaq cümlənin baş cümlədə yerliyidir. Yəni belə cümlələrdə birinci tərkib baş cümlə deyil, budaq cümlədir. Prepozitiv mübtəda, tamamlıq, təyin budaq cümlələrindən fərqi oradadır ki, budaq cümlə baş cümləyə bağlayıcı sözlə deyil, ***ki*** ədatı ilə bağlanır. Baş və budaq cümlə arasında gəlsə də, ***ki*** bağlayıcı deyil, ədatdır və onu budaq cümlənin daxilinə də keçirmək olar: *Yükünü özü boşaldan bu avtomobildə hidrotexniki nəqliyyat qurğusu ki qurulmuşdur****, o,*** *sürücünün işini asanlaşdırır.Bəndalının sözlərini ki təkcə bir adam eşitmirdi****, o da*** *Məsmə idi. Bir canım ki var,* ***o da*** *sizə qurbandır.*

Mühüm bir cəhət də bundan ibarətdir ki, bir vaxtlar «qoşulma» adı ilə verdiyimiz ilk tərkib hissəsinin baş cümlə olduğunu qeyd etdiyimiz bu cür cümlələrin birinci tərkib hissəsinə əksərən üslubdan asılı olaraq *–**sa,-sə*** şəkilçisi də artırmaq olur. *Bəndalının sözlərini təkcə bir adam* ***eşitmirdisə, o da*** *Məsmə idi. Bir canım* ***varsa, o da*** *sizə qurbandır.*

Ə.Abdullayev də bunu qeyd etmiş və fərqini də göstərmişdir: ***ki*** ədatının (müəllifdə bağlayıcısının) olduğu cümlələrin məzmununda bir qətilik, ***-sa,-sə*** şəkilçili cümlələrdə güman məzmunu var[1]. Konkret misal da vermişdir: *Xurşud xanımın söyüb biabır etmədiyi bir adam* ***qalmışdısa, o da*** *mən idim*. (S.Qədirzadə) – *Xurşud xanımın söyüb biabır etmədiyi bir adam qalmışdı* ***ki, o da*** *mən idim*.

Belə cümlələri təqribən aşağıdakı kimi sadələşdirmək olur: *Bəndalının sözlərini eşitməyən təkcə Məsmə idi. Olan bir canım da sizə qurbandır. Xurşud xanımın söyüb biabır etməmiş olduğu yeganə adam da mən idim*.

Belə cümlələr,hiss olunur ki, çox sonralar, nəsr əsərlərinin ədəbiyyatda geniş yer tutduğu dövrlərdə inkişaf etmişdir. Odur ki

---

[1] Ə.Abdullayev, göstərilən əsəri, s.348.

klassik ədəbiyyatın dilində bu cür cümlələrə az təsadüf edilir. İ.Quliyevin Qazi Bürhanəddinin dilində rast gəldiyi ***Bir qılca canum var, saçı qılına fədadır***[2] – cümləsinin ikinci tərkib hissəsinə asanlıqla ***o da*** sözlərini əlavə etmək olar. «Dədə Qorqud»da da belə cümlələr var: *Beyrəgi Qara Dərvənddə öldürmişlər, **uş da** nişanı, sultanım».* (58)

[2] İ.E.Quliyev. Qazi Bürhanəddin dilinin sintaksisi, nam. diss. Bakı, 2008,s.140.

# QARIŞIQ TİPLİ TABELİ MÜRƏKKƏB CÜMLƏLƏR

Nəzərdən keçirdiyimiz abidələrin dilində tabeli mürəkkəb cümlənin qarışıq tipinin də yüksək səviyyədə inkişaf etmiş olduğu müşahidə edilir. «Kitabi-Dədə Qorqud»un dilində qarışıq tipin əsas özül formalarının olması bir daha təsdiq edir ki, həqiqətən ümumxalq Azərbaycan dili sintaktik quruluşunun təşəkkül tarixi çox qədimdir. Prof.Ə.Dəmirçizadə dastanların sintaksisi üzərində ilkin tədqiqatlar əsasında yazmışdır: «Belə bir cəhəti də qeyd etmək lazımdır ki, «Kitabi-Dədə Qorqud» dastanlarında mürəkkəb cümlələrin bəzən qovuşuq tipləri də, hətta silsilə halında işlənmişdir. Belə cümlələrin tərkibində bəzən tabeli və tabesiz cümlələrin müxtəlif növləri, bəzən isə oxşar növləri işlənmişdir. Məs.: Qız, sən mana bir yil baqğıl, bir yildə gəlməzsəm, iki yil baqğıl, iki yildə gəlməzsəm, üç yil baqğıl, gəlməzsəm, ol vəqt mənim öldigimi biləsən, ayğırım boğazlayıb aşum vergil, gözün kimi tutarsa, könlün kimi sevərsə, ana varğıl,-dedi.(R.105)»[1] Professor onu da qeyd etmişdir ki, «Hər halda belə cümlələr haqqında düşünmək və xüsusən tədqiqat işi aparmaq lazım gələcəkdir»[2].

Məlumdur ki, quruluş etibarilə mürəkkəb cümlələr üç növə ayrılır:

1) tərkib hissələri sadə quruluşlu olanlar;
2) tərkib hissələrindən biri (və ya bir qismi) sadə, digəri mürəkkəb quruluşlu olanlar;
3) hər iki tərkib hissəsi mürəkkəb quruluşlu olanlar.

İkinci və üçüncü hallarda mürəkkəb quruluşlu, yəni qarışıq tipli tabeli mürəkkəb cümlələr yaranmış olur.

«Kitabi-Dədə Qorqud»un dilində tabeli mürəkkəb cümlənin qarışıq (mürəkkəbləşmiş) tipinin başlıca modelləri tərkib hissələrindən biri sadə, digəri mürəkkəb quruluşlu olan cümlə növləridir. Müşahidələr göstərir ki, dastanların dilində hər iki komponenti mü-

---

[1] Prof.Ə.M.Dəmirçizadə. «Kitabi-Dədə Qorqud» dastanlarının dili, Bakı, V.İ.Lenin ad. APİ, 1959, s.141.
[2] Yenə orada, s. 137.

rəkkəb quruluşlu tabesiz mürəkkəb cümlələr yaxşı inkişaf etdiyi halda, tabeli mürəkkəb cümlənin bu modeli inkişaf etməmişdir. Başlıca modellər aşağıdakılardır.

***I.Budaq cümləsi mürəkkəb quruluşlu olanlar.***

1. Baş cümlə sadə, budaq cümlə tabesiz mürəkkəb cümlə şəklindədir; məs.: ***Baqdı gördi*** Oğuzun ucında bir ala sayvan dikilmiş, bir imirzə xub yigit qırq yigid ilən saqında və solında oturırlar. (53) ***Gördilər kim***, bu gələn kişinin qılıcının balçağı qanlu, oğlı görünməz. (91)

Bu cümlələrin hər ikisi tamamlıq budaq cümləlidir. Hər ikisinin baş cümləsi quruluşca sadədir, budaq cümləsi tabesiz mürəkkəb cümlə şəklindədir. Birinci misalın budaq cümləsinin komponentləri arasında zaman, ikincisində qarşılaşdırma əlaqəsi vardır.

2. Baş cümlə sadə, budaq cümlə tabeli mürəkkəb cümlə şəklindədir; məs.: ***Gördilər kim***, ol yigit ***kim*** baş kəsübdür, qan dökübdür, Baybörə bəgin sağında oturar. (53-54) ***Qılbaşa ayıtdım ki, qaçan ki*** Qazan evin yağmaladardı, Taş Oğuz bəgləri bilə yağmalardı.(124) ***Baqdı-gördi*** bu otağ Banıçiçəg otağıymış ***ki***, Beyrəgin beşikkərtmə nişanlısı, adaxlusıydı. (54) ***(Allah) Əzrayilə nida eylədi kim, çün*** dəli qavat mənim birligim bildi, birligümə şükr qıldı, ya Əzrayil, Dəli Domrula can yerinə can bulsun.(81)

Bu misalların hamısında baş cümlə sadə, tamamlıq budaq cümləəri tabeli mürəkkəb cümlə şəklindədir. Birinci misalın budaq cümləsi mübtəda, ikincisi zaman, üçüncüsü təyin, dördüncü cümlə səbəb budaq cümləli tabeli mürəkkəb cümlə kimi qurulmuşdur.

3.Baş cümlə sadə, budaq cümlə paralel şərt budaq cümləlidir: ***Əgər*** səni hasardan aşağa orğanla ***salındıracaq olursam***, babana-anana sağlıqla ***varacaq olırsan***, ***bəni bunda gəlüb halallıqla alurmısan?*** (59) Üç yüz altmış altı alp ***ava binsə***, qanlu keyik üzərinə yüriş ***olsa***, ***Bəkil nə yay qurardı, nə ox atardı***. (104)

4.Baş cümlə sadə, budaq cümlə (xəbər budaq cümləsi) paralel şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir: ***Ozan, evin tayağı oldur ki,*** yazıdan-yabandan evə bir qonaq ***gəlsə,*** ər adam evdə ***olmasa,*** ol anı yedirər-içirər, ağırlar-əzizlər, göndərər. (33)

5. Baş cümlə sadə, budaq cümlə (tamamlıq budaq cümləsi) mürəkkəb quruluşludur - komponentləri inversiyaya uğramış şərt

budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir; şərt budaq cümləsinin aid olduğu baş cümlə paraleldir; paralellərdən üçüncüsü yenə şərt budaq cümləlidir: ***Ayıtdı kim,*** yer kibi kərtiləyin, topraq kibi savrılayın, qılıcıma toğranayın, oxıma sancılayın, oğlum toğmasun, ***toğarsa,*** on günə varmasun, bəg babamın, qadın anamın yüzin görmədin bu gərdəgə ***girərsəm,*** - ***dedi.*** (90)

Bu son cümlədən göründüyü kimi, "Dədə Qorqud"un mühüm üslub xüsusiyyətlərindən biri cümlənin ***ayıtdı*** sözü ilə başlanıb, yaxın mənalı ***dedi*** sözü ilə bitməsidir. Öyrənilmişdir ki, dastanların dilində ***demək*** sözü 1183 dəfə, ***ayıtmaq*** sözü (müxtəlif variantlarda) 816 dəfə işlənmişdir[1]. Sözlərin bu cür əlaqələndirilməsi üsulu dastanların dilində ahəngdarlığı, lirizmi, şeriyyəti təmin edən mühüm vasitələrdəndir. Bu, canlı danışıq dilinin, dastan söyləmə üsulunun real göstəricisidir. Təbii ki, bunların hər birini ayrıca bir baş cümlə hesab etmək olmaz. Bunlar eyni bir budaq cümlə - tamamlıq budaq cümləsi tələb edir və ona görə də təhlil zamanı bunlardan birinin - birincisinin nəzərə alınması kifayətdir. Dastan boylarında belə cümlələrə tez-tez rast gəlmək olur. Məs.: ***Aydır***: Mərə kafər, Dədəm Qorqud qopuzı hörmətinə çalmadum, - ***dedi***, - əgər əlündə qopuz olmasaydı, ağam başiçün, səni iki parə qılurdım, -***dedi.***(114) - cümləsi ***aydır*** sözü ilə başlamış, ***dedi*** sözü ilə bitmişdir. Hələ birinci - daha iri bitkin fasilədən sonra da ***dedi*** sözü işlənmişdir. Bunlar birlikdə bir baş cümlədir, qalan hissə tamamlıq budaq cümləsindən ibarətdir. Ortadakı "dedi" sözündən sonra "və" bağlayıcısını işlətmək olar. Bu göstərir ki, budaq cümlə zaman əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir, lakin birinci komponenti sadə, ikincisi şərt budaq cümləlidir.

***II. Baş cümləsi mürəkkəb quruluşlu olanlar:***

1.Budaq cümlə sadədir, baş cümlənin komponentləri tabesizlik əsasında əlaqələnmişdir; məs.: Qarşu yatan qara tağdan bir oğul ***uçurdınsa***, ***degil mana, külünglə yıqdırayım*** (73) ***Çün*** av yarağı oldı, ***kim atın ögər, kim qılıcın, kim çəküb ox atmağın ögər***. (104)

Hər iki misalda budaq cümlələr (şərt və zaman budaq cümləsi) sadə quruluşludur; baş cümlələr tabesiz mürəkkəb cümlə şəklindədir – birincisi ardıcıllıq, ikincisi zaman əlaqəsi ilə birləşmişdir.

---

[1] A.Axundov.Dil və ədəbiyyat, 1-ci cild, Bakı, 2003, s.336.

2.Mürəkkəb quruluşlu baş cümlənin komponentləri tabelilik yolu ilə əlaqələnmişdir; məs.: Ağca yüzlü anan qarşu gəlüb “oğul” ***desə***, ***Ağ əlləri ardına bağlu, deyəyinmi?*** (76) Dölin almaqdan səfan ***varsa***, Şökli Məlik, ***qara gözli qızın varsa, gətür Qazana ver*** (49) ***Qarğarsan, babama qarğa,*** bu suç, bu günah babamdandır (39) - cümlələrindən əvvəlki ikisi şərt budaq cümləlidir, budaq cümlələri quruluşca sadədir; birinci misalın baş cümləsi tamamlıq, ikinci misalın baş cümləsi şərt budaq cümləlidir. Son misalda da səbəb budaq cümləsinin aid olduğu baş cümlə şərt budaq cümləlidir.

3.“Kitabi-Dədə Qorqud”un durğu işarələrində bir şərtilik var. Boylarda sual və nida işarələri cümlə sərhədini göstərməyə deyil, daha çox emosionallığa xidmət edir. Oğlunun gəldiyi xəbər verildikdə Beyrəyin atası sevincini aşağıdakı sözlərlə bildirir:

Dilün içün öləyin, gəlincigüm!
***Sağ-əsən çıqub gəlsə,***
*Qarşu yatan qara tağlar sana yaylaq olsun!*
*Souq-souq suları sana içət olsun!*
*Qulım-xəlayığım sana qırnaq olsun!*
*Şahbaz atlarım sana binət olsun!*
*Qatar-qatar dəvələrim sana yüklət olsun!*
*Ağayılda ağca qoyunım sana şülən olsun!*
*Altun-aqçam sana xarclıq olsun!*
*Dünlügi altun ban evim sana kölgə olsun!*
*Qara başım qurban olsun sana, gəlincigüm!*-**dedi**. (66)

Bu parça tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədən ibarətdir (son sözü – ***dedi*** sözünü ***Sağ-əsən çıqub gəlsə*** sözlərindən əvvələ də keçirmək olar). Tamamlıq budaq cümləsi isə şərt budaq cümləlidir: *Sağ-əsən çıqub gəlsə, Qarşu yatan qara tağlar sana yaylaq olsun,-dedi* və ya: *Dedi (ki) (oğlum) sağ-əsən çıqub gəlsə, Qarşu yatan qara tağlar sana yaylaq olsun!* Budaq cümlə şərt budaq cümləlidir və şərt budaq cümləsinin tabe olduğu baş cümlə doqquz komponentdən ibarətdir. Baş cümlələrdən sonra qoyulmuş nida işarəsi cümlələrin rabitəsini qıra bilmir, mətn bütövlükdə bir mürəkkəb cümlə kimi dərk olunur. Bu cür hallarda mürəkkəb cümlə bir sintaktik bütövə bərabər olur.

Araşdırmalar prosesində aydın oldu ki, sadə cümlənin quruluş modellərində əsaslı fərq müşahidə olunmur. Əksinə, biz "Dədə Qorqud"un dili ilə müasir ədəbi dilimizin sintaktik quruluşu arasında varislik və kök birliyi, kamil əcdad və zəngin xələf varisliyi görürük. Bu cəhət eyni dərəcədə həm sadə quruluşlu, həm də qarışıq tipli tabeli mürəkkəb cümlələrə aiddir. Sonrakı dövrlərdə dilin daşlaşmış abidələrində həmin özül əsasında yalnız səlisləşmə, zənginləşmə, təkmilləşmə əlamətləri müəyyənləşdirilə bilər. Müasir dilimizlə quruluş birliyini göz önünə çəkməkdə məqsədimiz "Dədə Qorqud" dilinin müasirliyini, bizim zəmanəmizə yaxın bir dövrdə təşəkkül tapmış olduğunu qeyd etmək deyil, dastanların qədimliyini və əks etdirdiyi ilkin feodalizm dövrü dilimizin yüksək inkişaf səviyyəsində olduğunu göstərməkdir. Bu dil 1500-2000 il əvvəl də bu xalqa yüksək səviyyədə xidmət etmişdir. Azərbaycan xalqının, Azərbaycan cəmiyyətinin dilinin fonetik sistemi, lüğət tərkibi, qrammatik quruluşu əsrlərin sınağından çıxa bilməyən bir sıra elementlərini tərk etsə də, özünü əsaslı və mükəmməl şəkildə mühafizə edib saxlayıb və yad təsirlərdən qorxmadan təbii inkişaf yolu ilə irəliləyib. Bu dil Həsənoğlunun qəzəl dilindən dəfələrlə kamil, təbii və orijinaldır. Bu dildə yad elementlər azdır və olanlar da köçürmələr prosesinin, katib əməliyyatının məhsuludur. Əgər bu dastanların 1300 illiyi rəsmi qeyd və təsbit olunursa, deməli, ən azı 2000 illik və daha çox yaşı var. Dastanların sintaksisi elədir ki, köçürmələr prosesində heç bir katib onu ciddi dəyişmələrə məruz qoymamış, zədələyə bilməmişdir. Bütün bu mülahizələrlə bu fikirdəyik ki, dastan birinci minilliyin ortalarının yazı dili nümunəsidir. Dastandakı obrazlarda şumerlərin, arattalıların, kutilərin, lulluların, turukkilərin, mannalıların, madayların, albanların, atropatenalıların ruhu və nitqi yaşayır.

"Dədə Qorqud" bizim üçün ona görə qiymətlidir ki, beş min il əvvəldən başlayaraq babalarımızın tək-tək kəlmə-incilərini axtardığımız bir zamanda bizi miladın birinci minilliyinin ortalarında, peyğəmbər zamanına yaxın bir vaxtda birdən-birə nəhəng və misilsiz bir xəzinə üzərinə gətirib çıxarır. Miladdan əvvəlki üç min illik yolda səpələnmiş və parlaqlığı ilə yad mühitdə işıq saçan kəlmə-incilər bizi bu xəzinəyə doğru sürükləyib. Deməli, bu xəzinənin əsil mənbəyini tapmaq üçün tarixin böyük yoluna səpələnmiş həmin inciləri yığa-yığa uzaq keçmişə üz tutmaq lazım imiş.

**XIII-XIV əsrlərdə** və daha sonrakı mərhələlərdə ədəbi dilimizdə müşahidə edilən qarışıq tipin daha çox nəzərə çarpan nümunələri aşağıdakılardır.

## BAŞ CÜMLƏSİ SADƏ, BUDAQ CÜMLƏSİ MÜRƏKKƏB QURULUŞLU OLANLAR

«Kitabi-Dədə Qorqud»dan sonrakı mərhələdə də tabeli mürəkkəb cümlə daha çox tamamlıq budaq cümləsinin mürəkkəbləşməsi ilə genişlənmişdir. Əksərən baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi mürəkkəbdir. Tamamlıq budaq cümləsi, demək olar ki, bütün budaq cümlə növləri əsasında mürəkkəbləşmişdir və aşağıdakı quruluş xüsusiyyətləri ilə nəzəri cəlb edir.

**I.**Baş cümlə sadə quruluşludur, m ü b t ə d a budaq cümləsi səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlə şəklində olub, ikinci komponenti tamamlıq budaq cümləlidir; məs.: Rəyətə xoşdur ***ki***, şah ədl eyləyə, ***Hər kimi görürsə***, iyü söyləyə. (MV)

**II.**Baş cümlə sadə quruluşlu, x ə b ə r budaq cümləsi tamamlıq budaq cümləlidir: *Hacətim* ***budur*** *sənə, ay padşah* ***kim,*** *xocəm* ***bilə ki,*** *məndə yoq günah.* (Suli) Eyni zamanda xəbər budaq cümləsi məqsəd budaq cümləli ola bilir: *Məsləhətim sana* ***budur*** *suva var sən, Boyunızdan tozan-topraq getsün imdi.* (QY)

**III.** 1.Baş cümlə sadə quruluşlu, t a m a m l ı q budaq cümləsi mübtəda budaq cümləlidir və mübtəda budaq cümləsinin baş cümləsi mürəkkəb quruluşlu olub, şərt budaq cümləli tabeli mürəkkəb cümlə kimi qurulmuşdur; məs.: Biri aydır: ***Hər kim*** ol ***gözsiz isə***, Görəsiydi gözi, yemişim ***yesə***.(MV)

2.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi xəbər budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir və xəbər budaq cümləsi də tamamlıq budaq cümləlidir: Cəbrayıl ***aytdı:*** Yusif, həqqin sözü ***Budurur kim,*** sənə bu görklü yüzi Kim veribdür işbu xubluqi sənə, Söylə imdi bir cəvab ilə bənə. (Suli)

3.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi xəbər budaq cümləlidir. Xəbər budaq cümləsi isə paralel şərt budaq cümləlidir: ***Derlər*** bu idi ərəbdə adət ***Kim,*** ər əgər ***ölsə, qalsa*** övrət, Bir il, iki il tutardı matəm, Fəryadü fəğan edib dəmadəm. (Füz.)

4. Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi həmcinsdir – paraleldir: Bən nicə diyəm ***ki***, bana şol yar nə qıldı, Könlüm evinə şol büti-əyyar nə qıldı.(QB)

5.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi səbəb budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir və səbəb budaq cümləsinin baş cümləsi tamamlıq budaq cümləlidir; məs.: Dedilər ***kim***, ***nə*** buyurursan ***anı*** Qılayım, ey qamumuzun sultanı, ***Kim***, səninlə rövşəndir bu cahan.(MV)

6.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi məqsəd budaq cümləlidir: Cadu gözünə hey de ***ki,*** rəhm edə könülə ***Ki***, taş oxına döyiməyə taş eşigündə. (QB)

7.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi şərt budaq cümləlidir: Mehri aydır: Bən ***gərək isəm*** sana, Verəsən bir yıl gərək möhlət bana. (MV)

Aşağıdakı tamamlıq budaq cümlələri də eyni quruluşa malikdir: ***Bildi ki, gər olmaz olsa*** Leyli, Mümkün deyil olmağı təsəlli. (Füz.) Şərt eylədi ol bülənd əxtər ***Kim, olsa*** bu kami-dil müyəssər, Sərf eyləyə gəncü mali-ələm Canana yolunda, bəlkə can həm. (Füz.)

8.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir. Şərt budaq cümləsinin aid olduğu baş cümlə isə qarşılaşdırma budaq cümləlidir və tərəfləri inversiyaya uğramışdır; məs.: Ayıtdı ***(kim), əgər*** diri ***qalırsam***, Bucuq yil əglənəm*,* ***gər*** *çox* ***olursam***. (DƏH)

9.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi şərt budaq cümləlidir və şərt budaq cümləsinin baş cümləsi tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir: Der idi: ***gər*** anı bir gəz ***bulaydım,*** Ana bən bilir idim nə qılaydım. (DƏH)

10.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir və onun da baş cümləsi səbəb budaq cümləlidir: *Fikr eylədilər* ***ki***, xəsmi-xunxar Bu şivədən ***olsalar xəbərdar***, Qurtulmaq aradan ola müşkil, (*çünki)* Düşmən bizə mülkü cavü mənzil.(Məs.)

11.Baş cümlə sadə, tamamlıq budaq cümləsi qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir və budaq cümlənin aid olduğu baş cümlə nəticə budaq cümləlidir: əvvəl ***qanda*** sual əvəzlikli baş cümləsi işlənmiş, sonra nəticə budaq cümləsi gəlmiş və ona ***ki*** bağlayıcısı ilə bağlanmışdır; məs.: Der idi ***kim***, gecə-

gündüz ***arasam,*** Sərasər dünyayı bir-bir ***darasam,*** Bunun kimi lətif ***qanda*** bulaydım ***Ki,*** oğluma anı kəbin qılaydım. (DƏH)

12.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi nəticə budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir: Dedi xatun: ***nə*** canı var gələ ol ***Ki,*** bizim qapımızı ol bula yol. (DƏH) Bilməzəm ***kim,*** neylədim bu qan olası könlümə ***Kim,*** qaçar hər yan məni-biçarədən bizar olub. (Kiş.) ***Dedim*** **ki,** səba bu dəmdə ***xanı Kim***, gələ apara namə yarə. (Xət.)

13.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi nəticə budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir və onun da baş cümləsi sadə, budaq cümləsi zaman əlaqəli tabesiz mürəkkəb cümlə kimi qurulmuşdur; məs.: Yenə gəldi əqli aydır: Ey nigar, Hurimisən, ya mələkmi, gülüzar, ***Kim***, gözüm doymaz yüzünə bakmağa, Qəsd edər canım tənimdən çıkmağa. (MV)

14.Baş cümlə sadə, tamamlıq budaq cümləsi nəticə budaq cümləlidir. Nəticə budaq cümləsinin özü də şərt budaq cümləlidir: Bən soraram ***ki,*** xasiyyəti ***nə*** totağunun **Ki,** diri qılur öliyi, bir yar ***əgər çıxa***. (QB)

15.Baş cümləyə intonasiya ilə bağlanan tamamlıq budaq cümləsi qarşılaşdırma budaq cümləlidir: ***Həq bilir***, yar deyil canü dilimdən ğaib, Nola ***gər*** ğaib **isə** dideyi-giryanımdan. (Füz.)

16.Baş cümlə sadə, tamamlıq budaq cümləsi paralel qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir. ***Qurbani der***: Can içində can ***gələ,*** Yaş yerinə gözlərimdən qan ***gələ***, Camalın görməyə Süleyman ***gələ***, Təxti-Süleymana verməərəm səni. (Qurbani)

**IV.** 1.Baş cümlə sadə, t ə y i n budaq cümləsi qarşılaşdırma budaq cümləlidir: Eşq məsti ***ol*** dilavərdür ***ki, gər*** yüz cürm edər, Dəftəri əmalinə səbt eyləməzlər bir günah. (Rəh.) ***Gör ol bipakı kim, yıqılsa*** aləm, eyninə gəlməz. (Ruhi)

2.Təyin budaq cümləsi qarşılaşdırma budaq cümləlidir və onun da baş cümləsi (*Qılmaz ona hiç kim nəzarə, Derlər gülə xar, lələ xarə*) zaman əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir:

Bir mülkdəyəm ***ki, gər*** udub qan, Məzmuni-ibarətə çəkib can, Min riştəyə türfə ləl ***çəksəm***, Min rövzəyə nazənin gül ***əksəm***, Qılmaz ona hiç kim nəzarə, Derlər gülə xar, lələ xarə. (Füz.)

3.Baş cümlə sadə quruluşlu, təyin budaq cümləsi şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir, onun da budaq cümlə-

si sadədir, baş cümləsi tərəfləri inversiyaya uğramış qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlədən ibarətdir: ***Bir zamandır şimdi kim***, fəqr içrə ***olsə*** bir kişi, Qayil olmazlar, ***əgər*** yüz bin kəramət ***görsələr***. (Ruhi)

**V.**Baş cümlə sadə quruluşlu, s ə b ə b budaq cümləsi zaman budaq cümləlidir: Aşiqin başında əql qılmaz qərar, ***Çünki*** eşq ***gəldisə***, əql eylər səfər. (MV) Zülf arasında yaşur zülfüni tökgəc didə ab ***Kim***, yağış yağsa, yaşunur bulut içrə aftab. (Hid.)

**VI.**Baş cümlə sadə quruluşlu, m ə q s ə d budaq cümləsi şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir: Söylərdi bənəfşəyə ğəmi-dil ***Kim***, söyləyə yarə ***olsa*** vasil. (Füz.)

**VII.** Baş cümlə sadə quruluşlu, ş ə r t budaq cümləsi həmcins və ya paraleldir: ***Gər döndərəm*** etdigüm qərari, Bu şivədə xəsmim ***ola*** yari, ***Gər*** qeyrə ***ola*** rüxi-nəvidim, Məsdud ***oluna*** dəri-ümidim, ***Gər*** adını ***unuda*** bəyanım, *Tovhiddə kəng ola zəbanım.* (Məs.)

Baş cümlə sadə quruluşludur, budaq cümlə paralel tamamlıq budaq cümləli şərt budaq cümləsindən ibarətdir: Bilmək diləsən ***gər,*** ey nikuru, Kim kəsdi durub bu cuydən su, ***Ya*** kim bu busati-eyşi qarət Qıldı, uçuban dəri-xəsarət, ***Ya*** kim məni səndən eylədi dur, Kim qıldı bizi bu dərdə rəncur, *Örtüb yüzə ehtiyat babın, Təhrirə gətürmədim cəvabın.*(Məs.)

**VIII.**Baş cümlə sadə quruluşlu, q a r ş ı l a ş d ı r m a budaq cümləsi paraleldir: Suzi-dil ilə ***tökülsə*** yaşım, Tiği-qəm ilə ***kəsilsə*** başım, ***Candan çıxarıb həvayi-eşqi, Tərk eyləməzəm bəlayi-eşqi***. (Füz.) ***Əgər*** ol sehrilə aya ***sağarsa, Əgər*** Zöhrə olub gögə ***ağarsa***, Can əlimdən bənim ol qurtaramı? (DƏH) Saz tutub yüz min sənəm ***oynasa***, Cəm oluban Rumü əcəm ***oynasa***, Göydə mələk, yerdə adəm ***oynasa***, Həzzim olmaz hərgiz özgədən, gəlin! (Vaqif) Yüz zülfü pərişan, hindu xal ***olsa***, Yüz şəkər göftarlı, ləbi bal ***olsa***, Yüz şirindil, ənbərbu maral ***olsa***, Yetə bilməz maralına Vaqifin.(Vaqif)

Göründüyü kimi, tamamlıq budaq cümləsi çox inkişaf etmişdir və qarışıq tip ən çox tamamlıq budaq cümləsinin aldığı formalarla bağlıdır.

Tabeli mürəkkəb cümlə Füzulinin və Məsihinin qələmi ilə daha da mürəkkəbləşmiş, baş və budaq cümlə komponentlərinin sayına və məna zənginliyinə görə inkişaf etmiş, dilin potensial im-

kanları daha çox üzə çıxarılmışdır. Tərkib hissələrindən biri sadə, digəri mürəkkəb quruluşlu olan cümlələrdə, əvvəlki dövrlərdə olduğu kimi, *budaq cümlələr* mürəkkəbləşmə istiqamətində daha çox inkişaf etmişdir.

## BUDAQ CÜMLƏSİ SADƏ, BAŞ CÜMLƏSİ MÜRƏKKƏB QURULUŞLU OLANLAR

**I.**M ü b t ə d a budaq cümləsi sadə, onun aid olduğu baş cümlə mürəkkəbdir – qarşılaşdırma budaq cümləlidir: ***Hər kimin*** cananı ***kim*** bir əhli-ürfan ***olmaya***, ***Şahi-aləm olsa***, onda rahəti-can olmaya.(Vaqif)

Mübtəda budaq cümləsi sadə, baş cümlə tamamlıq budaq cümləlidir: Səndən nə ***inayət olsa*** vaqe, *Fikr etmə* ***ki****, məndə ola zaye.* (Füz.)

**II.** T a m a m l ı q budaq cümləsi sadə quruluşlu, baş cümlə mübtəda budaq cümləlidir: Ağ yüzündə o qara bənlər ***ki*** var, ***Kim ki görsə anı*** eylər ahü zar. (MV)

**III**.Z a m a n budaq cümləsi sadə, baş cümlə tamamlıq budaq cümləlidir: ***Çün*** gəldi mənim yanıma yetdi, *Sordum ona* ***kim****, nigar netdi?* (Xət.)

**IV**.S ə b ə b budaq cümləsi sadə, baş cümlə zaman əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir; məs.: ***Çünki*** rəf oldu üzündən, ey məhi-xuban, niqab, Qalmadı küfrü zəlalət, zahir oldu afitab. (Nəs.)

Budaq cümlə (səbəb b. cümləsi) sadə quruluşlu, baş cümlə şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir; məs.: ***Çün*** Həqiqinin iki aləmdə sənsən dilbəri, *Canını yolunda qurban qılmazsa, təqsir edər.* (Həq.)

**V**.1.Ş ə r t budaq cümləsi sadə quruluşlu, baş cümlə tabesiz mürəkkəb cümlə şəklindədir: Ağızun anar ***olur isəm***, ağızum sulanur, Ləbünlə dişlərün içün dəxi gözüm sulanur.(QB)

2.Şərt budaq cümləsi sadə, onun aid olduğu baş cümlə tabesiz mürəkkəb cümlə şəklindədir və onun ikinci komponenti mübtəda budaq cümləlidir***:*** ***Əgər*** mənə bir xoş ***xəbər verəsən***, bundan sonra əziz bacı rütbəsində edərəm və bir də ***hər nə*** mətləbin ***var isə*** tamam dərəcəyi-icabətə yetişür. («Şəhriyar»)

3.Şərt budaq cümləsi sadə quruluşlu, onun aid olduğu baş cümlə səbəb budaq cümləlidir: Kamımız ***verməz isən*** ərzi-tələbdən bari, Bizi mən etmə ***ki,*** izhari-təmənna sevərüz.(Rəh.)

4.Şərt budaq cümləsinin aid olduğu baş cümlə qarşılaşdırma budaq cümləlidir: Eşq ***yar olsa əgər***, aləm ***yıxılsa***, qəm yemən. (Rəh.)

5.Budaq cümlə (şərt budaq cümləsi) sadə, baş cümlə tamamlıq budaq cümləlidir: ***Əgər*** Musa kimi gəlmək, təcəlli ***görmək istərsən,*** Nəzər qıl üzünə gör ***kim***, iki aləm əyan oldu.(Nəs.) **Gər** hasil olur bu kam səndən, ***Hər nə ki dilərsən,*** *istə məndən.* (Füz.)

6.Şərt budaq cümləsi sadə, baş cümlə tamamlıq budaq cümləlidir və onun da budaq cümləsi tabesizdir: Sizdən ***sorar olsa*** ata halım, keyfiyyəti-möhnətü məlalım, *Söylən* ***ki,*** *fənayə verdi rəxtin, Əyyam siyah qıldı bəxtin*. (Füz.)

**V**.Q a r ş ı l a ş d ı r m a budaq cümləsi sadə quruluşlu, baş cümlə tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir: Zülfünün küfrün ***əgərçi*** əhli-fəzl iman bilir, Ey Nəsimi, sanma sən kim, kafər iman istəyə.(Nəs.) Dönməzəm eşqin yolundan *haq bilür*, ***Gər tökərlərsə*** yerə qanım mənim. (Həq.)

Göründüyü kimi, şərt budaq cümləsinin aid olduğu baş cümlələr mürəkkəb quruluşa daha çox meyillidir.

Tərkib hissələrdən birinin – baş və ya budaq cümlənin mürəkkəbləşdiyi hallar, təbii ki, əlavə xüsusiyyətlərə də malikdir və öz inkişafını davam etdirməkdədir. Lakin hər iki komponentin mürəkkəbləşdiyini göstərən nümunələrdə əvvəlki dövrlərlə son inkişaf mərhələləri arasında, əlbəttə, fərqlər vardır.

## HƏR İKİ KOMPONENTİ MÜRƏKKƏB QURULUŞLU OLANLAR

Tabeli mürəkkəb cümləyə nisbətən, hər iki komponenti mürəkkəb quruluşlu tabesiz mürəkkəb cümlələr nəzərdən keçirilən dövrlərin poeziya dilində daha çox inkişaf etmişdir. Məs.: Hər könül ***ki*** həqqə vasil oldu, buldu etibar, Hər gəda ***ki*** şahə məhrəm oldu, oldu mötəbər (Nəs.)

Və ya: Ərz qılsam qamətindən həşr olur yovməl-qiyam, Söyləsəm kövsər ləbindən məhv olur abi-həyat (Nəs.) – cümlələrinin

hər ikisi tabesiz mürəkkəb cümlədən ibarətdir. Hər ikisinin tərkib hissələri mürəkkəb quruluşludur: birincisinin tərkib hissələri mübtəda, ikincisinin tərkib hissələri şərt budaq cümləlidir.

Və yaxud da:

Gerçək xəbər imiş bu ki, xubin vəfası yox,
Kim sevdi xubi kim, dedi, xubin cəfası yox? (Nəs.)

Bu cümlənin tərkib hissələri arasına (ikinci misradan əvvəl) ***amma*** bağlayıcısı artırmaq olar, cümlə qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlədən ibarətdir. Birinci komponenti mübtəda, ikincisi nəticə budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir. Aşağıdakı cümlə bu cəhətdən bir qədər də maraqlı və mürəkkəbdir:

***Gər desəm*** həqsən, nigara, qüssədən İblis ərir,
***Vər desəm*** insan, bu sığmaz əqlə ***kim***, insan budur. (Nəs.)

Bölüşdürmə əlaqəli bu tabesiz mürəkkəb cümlənin hər iki komponenti şərt budaq cümləlidir. Hər iki şərt budaq cümləsi tamamlıq budaq cümləsi kimi qurulmuşdur (*desəm (ki) həqsən* – ***həqq olduğunu*** desəm). Lakin ikinci misrada şərt budaq cümləsinin baş cümləsi yenə tamamlıq budaq cümləlidir (***əqlə sığmaz ki, insan budur*** – ***insanın bu olduğu*** əqlə sığmaz). Tabesiz mürəkkəb cümlənin tərkib hissələri ***və*** bağlayıcısı ilə əlaqələnmişdir, lakin onu asanlıqla ***və yaxud*** şəklinə salmaq olur, odur ki cümlə bölüşdürmə əlaqəlidir.

«Dastani-Əhməd Hərami»nin dili bu cür cümlələrlə zəngindir, deməli, dilin potensial imkanları genişdir. Nəsiminin, Bürhanəddinin «Divan»larında və ya «Mehri və Vəfa» əsərinin dilində artıq belə cümlələr intensiv işlənmə imkanları ilə diqqəti cəlb edir. Məs.: Ertə durdu ***kim,*** gedə girə yola, Gördü bir akçası yok azuq ala (MV) – cümləsi zaman budaq cümləlidir. Budaq cümləsi əvvəl işlənmişdir və məqsəd budaq cümləlidir. Baş cümləsi tamamlıq budaq cümləlidir: *Yola düşmək üçün ertə duranda azuq almaq üçün bir aqçası da olmadığını gördü.*

Nəzərdən keçirdiyimiz mərhələlərdə mürəkkəb cümlə baş və budaq cümlələrin şaxələnməsi hesabına daha da mürəkkəbləş-

miş, Füzulinin, Xətainin, Məsihinin dilində daha da genişlənmişdir.

Hər iki komponenti mürəkkəb quruluşlu olan tabeli mürəkkəb cümlələrə dair aşağıdakı nümunələri qeyd etmək olar.

**I.**Baş cümlə şərt budaq cümləli, t a m a m l ı q budaq cümləsi qarşılaşdırma budaq cümləlidir. Qarşılaşdırma budaq cümləsinin aid olduğu baş cümlə zaman əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir. Budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır: *Bilməz isən, şimdi bil, agah ol*, Yeddi iqlimin gərəksə şahi ol, Bu cahanda Vərqədir yarım bənim, Vərqədən ayruğu əğyarım bənim. (YM)

**II.**Əvvəl gələn tərkib hissə – z a m a n budaq cümləsi məqsəd budaq cümləlidir, baş cümlə isə zaman əlaqəli tabesiz mürəkkəb cümlədən ibarətdir: Vərqə dürtdü xəncəri ***kim***, kəndözün Türbə üstündə həlak qıla özün, *Aldılar **şol dəm** əlindən xəncərin, Şaşdılar cümlə silahların varin*. (YM)

**III.**S ə b ə b budaq cümləli tabeli mürəkkəb cümlənin baş cümləsi zaman budaq cümləli, budaq cümləsi xəbər budaq cümləlidir və hər iki komponentdə budaq cümlə əvvəl, baş cümlə sonra işlənmişdir:

Nigara, ***necə ki irağ isən***, bini ana dur
***Ki,*** sən ***nərədə*** olursan, yönümüz *ol yanadur*. (QB)

Səbəb budaq cümləsinin baş cümləsi nəticə budaq cümləli, özü (budaq cümlə) təyin budaq cümləlidir. Səbəb budaq cümləsi baş cümləyə ***neçin ki*** bağlayıcısı ilə bağlanmışdır:

Aşiqlərin cananəsi həqdir, həqə ver canını,
***Neçin ki*** cansız qalısər ol can ***ki***, bicananədir. (Nəs.)

Səbəb budaq cümləsinin özü də, onun aid olduğu baş cümlə də qarşılaşdırma budaq cümləlidir: Gülüb ***açılsə*** hər xarə *nə ğəm **kim**, ol güli-rəna **Əgərçi** xarlə həmdəmdir, **amma** pakdaməndir*. (Ruhi)

**IV.**Ş ə r t budaq cümləsinin qarışıq tipi daha zəngindir. Aşağıdakı nümunələrə diqqət yetirmək kifayətdir:

1.Şərt budaq cümləsi tabeli, baş cümlə tabesiz mürəkkəb cümlə şəklindədir: ***Gər*** *inanmazsan* ***ki****, qəmzən yıxdı könlüm şəhrini, Bəs bu fəryadım nədəndir, didə qandan nəmdürür?* (Nəs.) Budaq cümlə tamamlıq budaq cümləlidir, baş cümlə isə zaman əlaqəli tabesiz mürəkkəb cümlədən ibarətdir.

Bu cümlə də eyni quruluşdadır: Gər bilməz isən ***ki***, mən nə zatəm, Nə zülməti-çeşmeyi-həyatəm, *Feyzi-hünərim şərabdən sor, Suzi-cigərim kəbabdən sor*.(Füz.)

2.Şərt budaq cümləsi tamamlıq budaq cümləli, baş cümlə mübtəda budaq cümləlidir: Bir kimsə ***əgər*** olaydı agah ***Kim***, xəlqi necə yaradır allah, *Mümkün* ***ki****,iradətilə ol həm Xəlq edə bileydi özgə aləm*. (Füz.)

3.Baş cümlə səbəb budaq cümləli də ola bilir: Gər ***dersə*** Füzuli ***ki,*** «gözəllərdə vəfa var», *Aldanma* ***ki****, şair sözü, əlbəttə, yalandır.* (Füz.)

4.Paralel şərt budaq cümləli tabeli mürəkkəb cümlənin baş cümləsi tabesiz mürəkkəb cümlədən ibarətdir: Dəryalərə ***yetsə*** ləməyi-tab, Səhralərə ***düşsə*** qətreyi-ab, Dəryalar olurdu cümlə səhra, Səhralar olurdu cümlə dərya. (Füz.)

5.Şərt budaq cümləsinin baş cümləsi məqsəd budaq cümləlidir. Məqsəd budaq cümləsi həmcinsdir və həmcinslərdən ikincisi tamamlıq budaq cümləlidir: Yusif ***əgər*** səbrlə ***şah oldisə***, Misir ilinə köçübən ***gəldisə***, Sən dəxi səbr eylə ***kim***, şah olasin, ***Nə ki*** könüldədir, ***ani*** qılasin. (Suli)

Xətainin dilində də bu cür cümlələr işləkdir: ***Gər*** atəşi-eşq başa ***düşsə***, Bir zərrəcə suzi daşa ***düşsə***, Qatlanmaya ona, çatlaya daş, Meydani-həvadə oynaya baş. (Xət.) Bir ağzıma ***gər olaydı*** yüz dil, Bir qəlbim ***əgər olaydı*** min dil, Bullar sifətin sözün deyəydi, Ollar qəmi-eşqiniz yeyəydi. (Xət.)

6.Budaq cümlə paralel şərt budaq cümlələrindən ibarətdir. Baş cümlə nəticə budaq cümləlidir və onun baş cümləsi də, budaq cümləsi də həmcinsdir: ***Gər bitməsə*** dərgəhində kamım, ***Gər dolmasa*** lütfün ilə camım, Bir dəst ilə ***zud edəm əgər*** dir, Alatü tabaqçini sərazir,/ Əsbabını ***dağıdam*** cəhanə, Bin dağ ***qoyam*** sana nişanə,/ Hicrin biləsən nədir rümuzi, Əksilməyə ömrün ola suzi. (Məs.)

7.Bəzən paralel şərt budaq cümlələrini Füzuli yüksək həddə çatdırmışdır. Aşağıdakı misalda yalnız son üç misra – şərt budaq

cümləsinin tabe olduğu baş cümlə xəbər budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir:

***Gər*** səndə olan fərağəti-dil
Bir dəm mənə ***olsa idi*** hasil,
Geysuyi-müsəlsəli girehgir
Boynumda ***gər olmasaydı*** zəncir,
***Vər bağlamayaydı*** bəndi-xəlxal
Qeyd ilə ayağımı məhü sal,
Eyb ilə ***çəkilməsəydi*** adım,
*Billah, bu idi həmin muradım*
***Kim,*** *sayə misalı səndən, ey nur,*
*Olduqca vücudum olmayam dur.* (Füz.)

Bu cür cümlələr Xətainin dili üçün də səciyyəvidir**.** Aşağıdakı paralel şərt budaq cümlələrinin son iki misrası – baş cümlə tabesiz mürəkkəb cümlədən ibarətdir:

Yanımda həzar hür ***olursa***,
Yüz işvəvü naz ***əgər qılursa***,
Hər biri də səd girişmə ***bulsa,***
Alışma ilə verişmə ***bulsa,***
Bir dərdü xəyalın ***olsa*** dildə,
Ya mehrü cəmalın ***olsa*** dildə,
*Qılmayım olara könlü mayil,*
*Olmaya yüzün xəyalı zayil*. (Xət.)

9.N ə t i c ə budaq cümləli tabeli mürəkkəb cümlənin baş cümləsi mübtəda, budaq cümləsi təyin budaq cümləlidir:

Şeytandır ol ki, surətinə qılmadı sücud,
Düşdü bir incə dərdə kim, anın dəvası yox. (Nəs.)

İkinci misradan əvvəl nəticə bildirən ***belə ki, odur ki*** bağlayıcılarını artırmaq olar.

Misallar göstərir ki, zaman, səbəb və xüsusilə şərt budaq cümləli tabeli mürəkkəb cümlələrin qarışıq tipi tarixən daha çox inkişaf etmişdir. Sayının asanlıqla artırılması mümkün olan qarışıq

tipli tabeli mürəkkəb cümlələr XIII-XIV əsrlərin ədəbi dilini «təşəkkül dövrü» ədəbi dili adlandırmağa imkan vermir, bu dövr böyük inkişaf yolunda olan bir ədəbi dilin davamıdır. Sonrakı yüzilliklərdə Füzulinin, Məsihinin, Vaqifin qələmi ilə tabeli mürəkkəb cümlələr baş və budaq cümlələrin mürəkkəbləşməsi istiqamətində daha çox qol-qanad atmış, daha çox zənginləşmişdir.

# NƏTİCƏ

1.«Kitabi-Dədə Qorqud»dan başlayaraq, XVIII əsrin sonlarına qədər nəzərdən keçirdiyimiz dil faktları göstərir ki, bugünkü ədəbi dilimizin mürəkkəb cümlə modelləri bizim təsəvvür etdiyimizdən çox-çox qədim dövrlərdə formalaşmış, hələ ümümxalq Azərbaycan dili V-VI əsrlərdə təşəkkül tapana qədər uzun inkişaf yolu keçmişdir. Bunu təkcə «Kitabi-Dədə Qorqud»un dili deyil, uzun ədəbi-bədii inkişaf yolunun XII-XIV əsrlər mərhələsinin «Dastani-Əhməd Hərami» məsnəvisi, Suli Fəqihin, Qul Əlinin məsnəviləri, Həsənoğlu qəzəlləri, Qazi Bürhanəddin, Nəsimi kimi çox qüdrətli şairlərin yaradıcılığı da təsdiq edir.

2.Tabeli mürəkkəb cümlə lap başlanğıcdan özünü iki tipdə – bağlayıcılı və bağlayıcı sözlü tabeli mürəkkəb cümlələr şəklində göstərir. Bağlayıcılı cümlələrdə baş cümlə əvvəl, budaq cümlə sonra, bağlayıcı sözlü cümlələrdə isə budaq cümlə əvvəl, baş cümlə sonra işlənmişdir. Tarixi abidələrin dilində müşahidə etdiyimiz (öz izlərini bu gün də saxlayan) dil faktları göstərir ki, bu tiplərin hər ikisi milli xüsusiyyətə malik olub, dilimizin öz inkişafının nəticəsidir və hər ikisi intonasiya ilə qurulan ən qədim və ilkin tabeli mürəkkəb cümlələrdən əmələ gəlmişdir. Həm də ədəbi dilin bütün mərhələlərində rasional fikrin aktuallaşdırılması ilə bağlı inkişaf yolunda olmuşdur. *Gördügün ol duş da budur*, ***bilgil imdi*** (QY) – tipli intonasiya ilə qurulan cümlələrdə baş cümlənin son pozisiyada işlənməsi həmin hissədəki fikrin aktuallaşdırılması, daha aydın nəzərə çarpdırılması ilə bağlı olmuşdur. Bu cür cümlələr bağlayıcılı tabeli mürəkkəb cümlələrin yaranması üçün əsas olmuşdur. Belə cümlələrdə komponentlərin sonrakı normal sırası ***İmdi bilgil, g****ördügün ol duş da budur* – şəklində olmuşdur və bu gün də belədir. Tərəflər arasına ***kim*** və ya ***ki*** bağlayıcısı daxil olduqda tərəflərin sırası və «baş cümlə + budaq cümlə» quruluş tipi sabitləşmişdir. Bağlayıcının olmadığı hallarda tərəflərin yerində sərbəstlik qalmışdır:*İxtiyarum qalmamışdır, **həq bilür**,* (QB) – ***Həq bilür****, ixtiyarım qalmamışdır.*

Asılı tərkib hissədə sual əvəzliyi işləndikdə *«budaq cümlə + baş cümlə»* quruluş tipinin təşəkkülü üçün əsas yaranmışdır. *Bənə nə ögüt verirsin*, ***söyləgil!*** (Suli) - tipli cümlələr tarixən bağlayıcılı cümlələr üçün də, bağlayıcı sözlü cümlələr üçün də əsas olmuşdur:

***Söylə ki,*** *bənə nə ögüt verirsin* – (***Onu) Söylə ki,*** *bənə nə ögüt verirsin.*

Eyni zamanda budaq cümlədəki ***nə*** sual əvəzliyi bağlayıcı söz funksiyası qazanmışdır (indiki halda da həmin vəzifədədir):

Bənə ***nə*** ögüt verirsin, ***söyləgil!***
Bənə ***hər nə*** ögüt verirsin, ***onu söyləgil!***
Bənə ***nə ki*** ögüt verirsin, ***onu söyləgil!***
Bənə ***nə*** ögüt ***verirsinsə***, ***onu söyləgil!***

Beləliklə, bağlayıcıların və bağlayıcı sözlərin olmadığı, tabeli mürəkkəb cümlənin tərkib hissələrinin yalnız intonasiya ilə əlaqələndiyi cümlələr əsasında fikrin aktuallaşdırılması zəminində tədricən budaq cümlənin hər iki tipi formalaşa bilmişdir. Faktlar göstərir ki, inkişaf paralel getmişdir, çünki ən qədim abidəmiz olan «Dədə Qorqud»un dilində hər iki tipin quruluş modelləri tam müasir səviyyədədir.

İlkin mərhələdə intonasiya ilə komponentləri əlaqələnən cümlələr üstünlük təşkil etmişdir. İntonasiya əsasında formalaşan tabeli mürəkkəb cümlələrdə baş və budaq cümlənin inversiyası halları hər iki tip tabeli mürəkkəb cümlənin bir kökdən olduğunu, dilimizin daxili imkanları əsasında formalaşdığını və tiplərin tədricən sabitləşdiyini göstərir.

3.Bağlayıcılı tip ilkin formada, yəni bağlayıcısız işləndikdə tərəflərin yeri yenə dəyişə bilir: ***Munca zamandır,*** *yolunu gözlərəm.* (MV) – *Yolunu gözlərəm,* ***munca zamandır.***

Lakin bağlayıcılı formanın tərəflərinin yerini dəyişmək olmaz, ***ki*** bağlayıcısı buna imkan vermir: ***Munca zamandır ki,*** *yolunu gözlərəm* - ***Yolunu gözlədiyim*** munca zamandır.

Bağlayıcı sözlü cümlələrdə isə tərəflərin yerini dəyişmək əksərən mümkündür. Yerdəyişmə prosesində cümlə üslubca güclənə də bilir, zəifləyə də.

4.***Kim*** və ***ki*** bağlayıcıları (eyni zamanda ədatlar) Azərbaycan dilinin öz təbiətindən doğmuş köməkçi sözlərdir. ***Ki*** bağlayıcısı ***kim*** bağlayıcısının son samitini itrməsi ilə yaranmışdır. ***Kim*** bağlayıcısı eyni fonetik tərkibli sual əvəzliyi ilə bir mənşədəndir. Onun həm fars, həm də türk dillərində işlənməsi ***kim*** əvəzliyinin nostratik söz olması ilə bağlıdır.

Daha qədim abidələrimizdə intensiv işlənmə imkanları ilə ***kim*** bağlayıcısı ***ki***-dən üstün olmuşdur. Lakin tədricən ***ki*** bağlayıcısı intensiv işlənmə imkanlarını artırmış və axırıncı yüzilliklərdə, demək olar ki, tam hakim mövqe qazanmışdır, ***kim*** bağlayıcısı isə klassik şeir dilində vəznin tələblərini ödəmək üçün işlədilmişdir. Məsələn, M.P.Vaqifin qoşmalarında əsas bağlayıcı ***ki***-dir. Lakin şair qəzəl və müxəmməslərində ***kim*** bağlayıcısından da istifadə etmişdir. Bağlayıcıların fərqli mövqeyi çox zaman şairlərin üslubundan da asılı olmuşdur. Məsələn, hələ XIV əsrdə Qazi Bürhanəddin əksərən ***ki*** bağlayıcısından istifadə etmişdir. Bu, poeziya tələblərindən çox, onun xalq dilinə üstünlük verməsi ilə bağlıdır.

5. Ümumxalq dilinin və şifahi ədəbi dilin təşəkkülü dövrlərində bağlayıcı sözlər nisbətən az olmuşdur. «Dədə Qorqud»un dilində başlıca olaraq ***nə, hər nə, hər nə ki***, ***hər kim, kimün ki, kimi***, ***nə yerdə, nə qədər, necə kim, qaçan, qaçan kim, ol vəqt kim*** və s. bağlayıcı sözlər işlənmişdir. Lakin tədricən bağlayıcı sözlər artıb çoxalmışdır və xüsusilə XV-XVI əsrlərdə budaq cümlələrin daha rəngarəng bağlayıcı sözlərlə baş cümləyə bağlandığını görürük. Təkcə tamamlıq budaq cümləsini baş cümləyə bağlamaq üçün ***kim, kim ki, kimi, kimi ki, kimsə, nə, nə ki, nə kim, nəni, nəni ki, hər kim, hər kimə, hər kimə ki, hər kimin ki, hər kimsədən kim, hər nə, hər nə ki, hər nə kim, hər nəsnə ki, hər ki, şol dili ki, nerdə, nədən, ol ki, ol can ki, ol yüz ki, ol göz ki, şol yüz ki, xanda, ol şey ki, ol tən ki, ol qəmzə ki, hər söz, hər iş kim, hər yerdə ki, bir iş ki, bir sevgi ki*** və s. bağlayıcı sözlərdən istifadə edilmişdir. Doğrudur, bunların sayı bəzən eyni sözün hallar üzrə dəyişməsi (***hər kimə, hər kimi***...) və ya ***kim, ki*** ədatlarının hesabınadır. Lakin bunların hər biri müstəqil qrammatik məna daşıyan sözlərdir, yəni hər bir elementin öz vəzifəsi var. Bunlar eyni zamanda çox vaxt şərt şəkilçisi, ***isə*** şərt ədatı (və ya onun şəkilçiləşmiş forması) ilə öz fəaliyyətini genişləndirmişdir. Lakin tədricən bizə yaxın yüzilliklərə doğru bağlayıcı sözlərdə arxaikləşmə ilə əlaqədar, əvvəllər olduğu kimi, yenə də azalma və səlisləşmə baş vermişdir. Lakin bu, əvvəlkindən fərqli keyfiyyətdir və bağlayıcı sözlərin tədricən universal xarakter alması, qrammatik mənasını genişləndirməsi ilə bağlıdır.

6.Dilin inkişafının ən qədim və ilkin mərhələlərində bağlayıcılı cümlələrə nisbətən, bağlayıcı sözlü cümlələr fəal olmuş, tədricən analitik tip üstün mövqe qazanmışdır.

7.İlkin mərhələlərdə bağlayıcı söz, ***kim*** və ya ***ki*** ədatı ilə -***sa, -sə*** şəkilçisi birlikdə çıxış etdiyi halda, tədricən ədatla şəkilçi növbələşməyə başlamış və müasir dildə bu qayda sabitləşmişdir.

8.Təbii-tarixi inkişafın öz axarı ilə yanaşı, əsas bağlayıcı vasitələrin, budaq cümlə tiplərinin işlənməsi sənətkarın meyil və istəyindən, üslubundan da asılı olmuşdur.

Bütün tarixi proses göstərir ki, Azərbaycan dili minilliklər boyu yad dillərin güclü təzyiqi altında olmasına baxmayaraq, daim öz milli inkişaf yolu ilə irəliləmiş, öz orijinallığını mühafizə edib saxlamışdır.

# SON SÖZ

Əvvəlcə müasir Azərbaycan ədəbi dilinin sintaktik quruluşunu nəzərdən keçirdim. Sonra XIX əsr ədəbi dilinin, daha sonra «Kitabi-Dədə Qorqud»un sintaksisini[1]. Bu kitabda isə bütün sintaksis məsələlərini deyil, tabeli mürəkkəb cümlənin mənbələr üzrə ardıcıl inkiqaf yolunu izləmişəm.

Beləliklə, biz, əslində, sintaktik bütövlərdən sonra dilin sintaktik quruluşuna məxsus ən böyük və mürəkkəb vahidlərin – tabeli mürəkkəb cümlələrin inkişaf yolu barədə ardıcıl və aydın təsəvvür qazanmış oluruq.

Ən qədim mənbə «Kitabi-Dədə Qorqud»un dili hesab olunur. Qədim türk yazılı abidələrinin dili «Dədə Qorqud»un dilindən qədim deyil. Əksinə, «Dədə Qorqud» bir qədər əvvələ aid olmaqla, bunlar türk xalqlarının əsasən eyni dövrlərdəki paralel inkişaf yolunu əks etdirən mənbələrdir. Bizə «Kitabi-Dədə Qorqud»un dili nisbətən sadə və müasir görünür. Çünki bu böyük abidənin dili bir-biri ilə tez-tez qarışan, çarpazlaşan Orta və Mərkəzi Asiya türk tayfa dillərindən fərqli olaraq, Azərbaycanda çox qədimdən sabitləşmiş olan və V əsrdə artıq ümumxalq dili kimi təşəkkül taparaq ədəbi inkişaf yoluna düşən, getdikcə daha çox cilalanan, xalqımızın ruhi aləminə, duyğu və düşüncələrinə müvafiq inkişaf yolu keçən bir dilin abidəsinin dilidir.

Tabeli mürəkkəb cümlənin bütün quruluş modelləri, qarışıq tipli tabeli mürəkkəb cümlənin əsas işlək formaları «Kitabi-Dədə Qorqud»un dilində vardır. Əgər dilin tabeli mürəkkəb cümlə sistemi müasir səviyyədə «Dədə Qorqud»un dilində mövcuddursa, bu dilin bizim düşündüyümüz dövrdən daha əvvəllər cilalanmış olduğunu və daha qədim dövrlərdən təşəkkül tapmış bir dil kimi xalqa xidmət etdiyini inkar etmək olmaz. Bunu hətta «Dədə Qorqud»un qədimliyinə şübhə edənlər də inkar edə bilməzlər, çünki XII-XIV əsrlərin abidələri daban-dabana «Dədə Qorqud»un sintaktik quruluşunu təsdiq edir. Hətta bu dövrdə «Dədə Qorqud»un götürə bilmədiyi bir çox quruluş forma və vasitələri də mənbələrdə üzə

---

[1] *Bax:* Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis. «Ünsiyyət», Bakı, 2000 və sonrakı nəşrlər; Azərbaycan ədəbi dili tarixi, 3-cü cild, Şərq-Qərb Nəşrİyyatı, Bakı, 2007, s.209-316; Q.Kazımov. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər), Bakı, «Təhsil», 2003, s.439-540.

çıxır, budaq cümləni baş cümləyə bağlayan vasitələr çoxalır. XV-XVI əsrlərdə isə böyük sənətkarların qələmi ilə bağlayıcı vasitələr bir növ tüğyan edir. Milli ədəbi dilin inkişafa başladığı XVI əsrdən dil daha çox cilalanma istiqamətində inkişaf yolu keçir: bir tərəfdən, işlək əvəzediciləri olan bağlayıcı vasitələrin bir qismi arxaikləşir, digər tərəfdən, bağlayıcı vasitələrin sintaktik vəzifəsində təmərgüzləşmə intensivləşir. Odur ki müasir ədəbi dilimizin mürəkkəb cümlə sistemi orta əsrlərin mürəkkəb cümlə sintaksisinə nisbətən sadə və vahid forma ilə daha çox məna ifadə etmək imkanına malikdir və bağlayıcı vasitələr az olmaqla, daha çox xüsusiləşmişdir.

Oxuculara təqdim etdiyimiz bu kitab uzun müşahidələrin nəticəsidir. Orta əsr mənbələri son dərəcə zəngin və əhatəlidir. Bu sahə ilə məşğul olan gələcək mütəxəssislər mürəkkəb cümlə sintaksisi ilə bağlı araşdırmaları davam etdirəcək, gizli qalan faktları aşkara çıxarmaqla mübahisəli məsələləri dəqiqləşdirəcək və ədəbi dilimizin tarixinin təsəvvür edildiyindən daha qədm olduğunu yeni faktlarla əsaslandıracaqlar.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


А.Аннануров.Основные вопросы сравнительного синтаксиса русского и туркменского языков в плане переводческой работы, нам. дисс., Ашхабад, 1953.

Ə.Z.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, «Maarif», 1974.

G.Abdullayeva. Azərbaycan dilində ***-sa,-sə*** şəkilçisi, onun qrammatik və üslubi xüsusiyyətləri, Bakı, 2000.

A.Axundov. Dil və ədəbiyyat, 1-ci cild, Bakı, «Nurlan», 2003.

A.Aslanov. Tabelilik bağlayıcılarının mürəkkəb cümlələrdə rolu. Azərbaycan dilində tabeli mürəkkəb cümlə məsələləri (Elmi əsərlərin tematik məcmuəsi), Bakı, S.M.Kirov adına ADU-nun nəşri, 1983.

Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, I cild, 1994.

M.Cəfərzadə. Azərbaycan dilinin dialekt sintaksisi. Bakı, Azərnəşr, 1990.

Н.К.Дмитриев.Грамматика башкирского языка, Изд. АН СССР, М.-Л., 1948.

Ə.Dəmirçizadə. «Kitabi-Dədə Qorqud» dastanlarının dili, Bakı, APİ nəşri, 1959.

Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dili tarixi,1-ci hissə, Bakı, «Maarif», 1979.

Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, «Ünsiyyət», 2000.

Q.Kazımov. Seçilmiş əsərləri, I, Bakı, «Nurlan», 2008.

Г.Казымов. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər), Bakı, «Təhsil» nəşriyyatı, 2003.

Н.З.Гаджиева. Основные пути развития синтаксической структуры тюркских языков, Изд. «Наука», Москва, 1973.

Г.А.Гейбуллаев.К этногенезу азербайджанцев, т. I, Баку, Элм, 1991.

Q.A.Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixindən, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

Q.A.Qeybullayev. Azərbaycanın etnik tarixinə dair, Bakı, Elm, 1994.

İ.E.Quliyev. Qazi Bürhanəddin dilinin sintaksisi, nam. Diss., AMEA, Bakı, 2008.

Qurbani (Toplayanı, tərtib edəni, ön söz, qeydlər və izahların müəllifi prof.Q.Ş.Kazımov). Bakı Universiteti Nəşriyyatı, Bakı, 1990.

Qul Əli. Qisseyi-Yusif (Çapa hazırlayanlar, lüğət və şərhlərin müəllifləri Elməddin Əlibəyzadə, Əbülfəz Hüseyni), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1995.

Məhəmməd. Şəhriyar (Tərtib, ön söz və lüğət Əlyar Səfərlinindir), Bakı, «Yazıçı», 1987.

H.Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası, Azərbaycan Universiteti Nəşriyyatı, Bakı,1990.

H.Mirzəzadə. Azərbaycan dilinin tarixi morfologiyası (Ali məktəblər üçün dərslik). Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı Nəşriyyatı, Bakı, 1962.

H.Mirzəzadə. Yazılı abidələrimizdə işlənən ***çün*** və ***çü*** bağlayıcıları haqqında. ADU-nun Elmi Əsərləri, № 1, Bakı,1965.

Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası, 2-ci hissə, BSU, 2002.

Ə.Sadıqov. Nəşr edilən klassik ədəbiyyatda durğu işarələrinin işlədilməsi vəziyyəti. «Türkologiya», Bakı, 2000, № 1-4.

Suli Fəqih. Yusif və Züleyxa (Transliterasiya, ön söz və lüğətin müəllifləri Sənan İbrahimov, Səbuhi İbrahimov), Bakı, «MBM» nəşri, 2008.

М.Ш.Ширалиев..Диалекты и говоры азербайджанского языка, Изд. «Элм», Баку, 1983.

Ə.C.Şükürlü. «Dədə Qorqud» dastanlarının meydana çıxma tarixi və itmiş boyları haqqında mülahizələrim. «Kitabi-Dədə Qorqud» - 1300, Elmi-praktik konfransın materialları, «Ünsiyyət», 2000.

Ə.Şükürlü. Azərbaycan dilinin tarixi qrammatikası (zərf və köməkçi nitq hissələri), Bakı, APİ nəşri, 1981.

T.Müzəffəroğlu. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası, Azərnəşr, Bakı, 2002.

G.Yusibova. Nəsiminin dilində tabeli mürəkkəb cümlələrin tərkib hissələrini əlaqələndirən vasitələr haqqında. AMEA Nəsimi adına Dilçilik İnstitutu, Tədqiqlər, 1, Bakı, 2006.

# KİTABIN İÇİNDƏKİLƏR


**BİR NEÇƏ SÖZ**……………………..………..………………..3

**Mərhələlər və şərti ixtisarlar**…………………………………10

**BUDAQ CÜMLƏNİ BAŞ CÜMLƏYƏ BAĞLAYAN VASİTƏLƏR VƏ TİPLƏRİN MƏNŞƏYİ**………………………………12

**BUDAQ CÜMLƏNİN NÖVLƏRİ**…………….……………………25

**Mübtəda budaq cümləsi**…………………………………….25
**Xəbər budaq cümləsi**………………………………………..40
**Tamamlıq budaq cümləsi**……………………………………...47
**Təyin budaq cümləsi**………………………………………...65
**Zərflik budaq cümlələri**……………………………………73
Tərz budaq cümləsi………………………………………...73
Dərəcə budaq cümləsi……………………………………..79
Zaman budaq cümləsi……………………………………..81
Yer budaq cümləsi…………………………………………91
Səbəb budaq cümləsi………………………………………96
Məqsəd budaq cümləsi…………………...………109
Şərt budaq cümləsi…………………………..………...114
Qarşılaşdırma budaq cümləsi……………………………..127
Nəticə budaq cümləsi……………………………………138
Kəmiyyət budaq cümləsi…………………………………146
Qoşulma budaq cümləsi haqqında………………………..147

**Qarışıq tipli tabeli mürəkkəb cümlələr** ….………………150

Baş cümləsi sadə, budaq cümləsi mürəkkəb quruluşlu olanlar……………………………………………………………...155
Budaq cümləsi sadə, baş cümləsi mürəkkəb quruluşlu olanlar………………………………………………..…………..159
Hər iki komponenti mürəkkəb quruluşlu olanlar………………160

**Nəticə** ……………………………………………………….166
**Son söz**……………………………...……………..…………170

**İstifadə edilmiş ədəbiyyat**……………..…………………………172

**QƏZƏNFƏR ŞİRİN oğlu KAZIMOV**

# AZƏRBAYCAN DİLİNDƏ TABELİ MÜRƏKKƏB CÜMLƏNİN İNKİŞAF TARİXİ